**Azərbaycan Milli Elmlər Akademiyası**
**akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu**

**ƏMMAR ABBASOV**

# Erkən islam tarixi məsələləri (VI-VII əsrlər) azərbaycanlı tədqiqatçıların əsərlərində

Bakı - 2022

***AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.***

**Redaktor:** fəl.ü.f.d., dos. **Esmeralda Həsənova**

**Rəyçilər:** i.ü.f.d., dosent **Şahlar Şərifov**

i.ü.f.d., dosent **Aslan Həbibov**

fəl.ü.f.d. **Elnur Mustafayev**

**Əmmar Abbasov. Erkən islam tarixi məsələləri (VI-VII əsrlər) azərbaycanlı tədqiqatçıların əsərlərində.** Bakı, Elm, 2022, 256 səh.

ISBN: 978-9952-556-32-4

*Kitabda azərbaycanlı tədqiqatçıların erkən islam tarixi haqda tədqiqatları ümumiləşdirilmiş, ərəb dilində olan əsərlərlə müqayisəli şəkildə araşdırılmışdır.*

655 (07) – 2022

© Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, 2022

# MÜNDƏRİCAT

**Giriş**.....................................................................................5

## I FƏSİL

Məhəmməd peyğəmbər və islamın erkən dövrü haqqında...........11
Məhəmməd peyğəmbərin Mədinə həyatı.....................................52
Məhəmməd rəsulullah və yəhudi münasibətləri Azərbaycan tədqiqatçılarının əsərlərində........................................................57
Məhəmməd rəsulullah və xristian münasibətləri Azərbaycan tədqiqatçılarının əsərlərində........................................................64
Bədr döyüşü ...........................................................................81
Uhud döyüşü azərbaycanlı tədqiqatçıların əsərlərində.................93
Xəndək (Əhzab) döyüşü haqqında.............................................100
Hüdeybiyyə sülhü haqqında......................................................108
Xeybər döyüşü haqqında..........................................................114
Fədəkin döyüşsüz təslim olması haqqında.................................117
Vadi-l-Quranın alınması haqqında.............................................120
Məkkənin fəthi haqqında..........................................................125
Təbuq qəzvəsi haqqında...........................................................136
Əhli-beyt haqqında..................................................................143

## II FƏSİL

Raşidi xəlifələr dövrü haqqında ................................................148
I xəlifə Əbubəkr ........................................................................148
II xəlifə Ömər ............................................................................155
III xəlifə Osman ..........................................................................163
IV xəlifə Əli ...............................................................................168
Cəməl döyüşü haqqında ...............................................................188
Siffeyn-Siffin (və ya Qasitin) döyüşü ..........................................193

## III FƏSİL

İlk Əməvi və ya Süfyani xəlifələr dövrü......................................215

**Nəticə** ...................................................................................240
**İstifadə edilmiş ədəbiyyat** ........................................................246

# GİRİŞ

Dünya alimləri A. Masse, İ. Qoldsiyer, əslən azərbaycanlı olan Mirzə Kazım bəy, V.V. Bartold, Bernard Luis, Adam Mets, A.Y. Krımski A.Y, Z. Bünyadov, Ə. Əlizadə, M. Köprülüzadə, Y.A. Belyayev, İ.Y. Kraçkovcki və başqaları islam tarixinin müxtəlif mərhələləri və məsələləri haqqında qiymətli fikirlər əsaslandırmışlar. Ensiklopediyalarda, o cümlədən 1933-cü ildə çap olunmuş "Leyden İslam Ensiklopediyası" və rus dilindən akad. G.Baxşəliyeva və Ə. Abbasovun S.M. Prozorovun başçılığı ilə bir qrup rus alimlərinin hazırladığı «Ислам. Енциклопедический словарь» adlı kitabın əlavələr və tənqidi şərhlərlə tərcüməsində islam tarixi və islamla bağlı şəxsiyyətlər haqqında çoxlu və maraqlı məlumatlar verilir.

Akademik Vasim Məmmədəliyevin qeyd etdiyi kimi, Azərbaycan tarixinin xeyli hissəsi Xilafətlə bağlı olduğundan islam tarixinin öyrənilməsi məsələsi həmişə önəmli olmuşdur. Erkən islam tarixinin Azərbaycanda öyrənilməsi sahəsində şöhrət qazanmış bir sıra alimlərin elmi fəaliyyətlərinin araşdırılması xalqımızın mənsub olduğu islam dini mədəniyyətinin və tarixinin öyrənilməsində müstəsna rolu vardır. Elmin bütün sahələrində olduğu kimi islam dininin tarixi sahəsində də elmi zəkası və təfəkkürü ilə seçilən tədqiqatçılarımızın çoxlu mənbələri araşdırmaları və dəyərli nəticələri hər zaman mühüm əhəmiyyət kəsb etmiş və etməkdə davam edir.[1] Yuxarıda adları çəkilən alimlərin əsərlərindən bəhrələnərək, A.A. Bakıxanovdan tutmuş Z.M. Bünyadov, P.T.

---

[1] Akad.Vasim Məmmədəliyev. Hacı Fuad Nurullahın "Azərbaycanda İslam və onun etiqad əsasları" kitabına ön söz. Bakı, 2013, s. 3

Juze, Ə. Əlizadə, Şeyxülislam Allahşükür Paşazadə, S. Aşurbəyli, İ. Əliyev, O. Əfəndiev, R. Hüseynov, N. Vəlixanlı, İ. Babayev, G. Baxşəliyeva, Y. Mahmudov, Ş. Fərzəliyev, E. Həsənova, Q. Kərimov, A. Məmmədov, R. Əliyev, R. Mürsəlov, H.F. Nurullah, Ş. Şərifov və başqa onlarla tədqiqatçılarımız Azərbaycan tarixi, islam tarixi və islamla bağlı yüzlərlə qiymətli tədqiqat əsərləri yazıb ortaya qoymuşlar. Müəllifin məqsədi isə onların əsərlərində erkən islam tarixi və onunla bağlı Azərbaycan tarixi haqqındakı fikirlərini bir yerə cəmləşdirərək, onların əsasında həqiqi erkən islam tarixini oxuculara təqdim etməkdir. Təbii ki, yeri gəldikcə, onların müraciət etdikləri ərəb, fars və başqa dilli mənbələrə də müraciət edilmişdir.

Oxucuya təqdim olunan bu kitabın mövzusu indiyə qədər heç kim tərəfindən öyrənilmədiyinə görə mövzu aktual hesab oluna bilər.

Tədqiqatçıların qeyd etdiklərinə görə, əsil islam tarixi Hz. Məhəmmədin peyğəmbər təyin edildiyi gündən başlayır.[2] İslam dininə görə "Adəm peyğəmbərdən tutmuş Məhəmməd peyğəmbər (s) də daxil olmaqla 124 min peyğəmbər olmuşdur. Akad. V. Məmmədəliyevin qeyd etdiyi kimi İslam dini Allahın göndərdiyi dinlər arasında sonuncusu və ən mükəmməli hesab edildiyi üçün bu dinin banisi Məhəmməd peyğəmbərin həyatı da digər peyğəmbərlərin həyatı ilə müqayisədə daha geniş şəkildə tədqiq edilmişdir.[3]

Mövzunun öyrənilməsinə cəlb etdiyimiz materiallar əsasən akad. Z.M. Bünyadovun "Azərbaycan tarixi VII-IX əsrlərdə", "Dinlər, təriqətlər və məzhəblər", akad. N. Vəlixanlının "Ərəb xilafəti və Azərbaycan", Z.M. Bünyadov və N. Vəlixanlının materialları əsasında yazılmış "Azərbaycan Tarixi", A.K. Rzayevin rus

---

[2] Cəfər Sübhani. Həzrət Muhəmməd. Bakı, 2014, s. 133

[3] Akad.Vasim Məmmədəliyev. Dr.Cəfər Sübhaninin "Hz.Muhəmməd" kitabına ön söz. Bakı, 2014. s. 3

dilində yazdığı "Mirzə Kazım-Bəy", (Bakı, 1965) və Mirzə Kazım Bəyin "Seçilmiş əsərləri" (A.K. Rzayev rus dilində tərtib etmişdir, Bakı, 1985), Şeyxülislam Allahşükür Paşazadənin "Qafqzda islam", Ramiz Mürsəlovun "Mədinəyə hicrət və erkən islam icmasının ideoloji və inzibati əsaslarının qoyulması", Şahlar Şərifovun "İslam tarixi", Hacı Fuad Nurullahın "Azəbaycanda islam və onun etiqad əsasları", "İmam Əli (ə)...insanlıq məktəbinin ustadı", "Fatimeyi-Zəhra (ə)...həya və ismət məktəbi", "İmam Həsən (ə)...sülh və həmrəylik simvolu", "İmam Hüseyn (ə)...şəhidlik məktəbinin ustadı", Hidayət Orucovun "Azərbaycanda din", Aslan Həbibovun "Vəhdət naminə. Məzhəblərarası dialoq", Dr. Cəfər Sübhaninin "Həzrət Muhəmməd" əsərinin Mayis Ağayev tərəfindən Azərbaycan dilinə tərcüməsində, Elmira Qafarovanın Azərbaycan dilinə tərcümə etdiyi İbn Hişamın "Məhəmməd peyğəmbərin (s) həyatı", Q. Kərimovun "Məhəmməd Qəzali", "Şəriət", Elvüsal Məmmədovun ərəb dilindən tərcümə etdiyi Xalid Məhəmməd Xalidin "...Və Əbubəkr gəldi", "Ömərin hüzurunda", Məhəmməd Qəzalinin "Peyğəmbərin həyatı. I cild", İbrahim Quliyevin "Hədisi-şəriflərdə müqəddəs şəhərlərin tarixi", Məhəmməd Füzulinin "Kərbəla vaqeəsi", Nərgiz Əliyevanın "Orta əsrlərdə Azərbaycan alimlərinin elmi əlaqələri və tədris fəaliyyəti", Samir Məmmədovun "İmam Əlinin (ə) hərb məktəbi və müsəlman hərb sənəti irsinin tədqiqi və öyrənilməsinin zəruriliyi haqqında. İslam maarifçiliyi və müasir dövr", Cabir İskəndərlinin "Cahiliyyə və təkallahlılıq dövründə bütpərəst ərəblər" və başqa mənbə və ədəbiyyat olmuşdur. Əlbəttə, bunların bəzisində mövzuya aid daha çox material vardır, bəzilərində isə başqa mənbə və ədəbiyyatda olmayan bir neçə qiymətli məlumat olduğuna görə onları da bu işə cəlb etmişik. Mövzuya aid daha çox material Z.M. Bünyadovun "Azərbaycan tarixi VII-IX əsrlərdə", "Dinlər, təriqətlər, məzhəblər", N. Vəlixanlının "Ərəb Xilafəti və Azərbaycan", Şeyxülislam Allahşükür Paşazadənin "Qafqazda islam", Ramiz Mürsəlovun "Mədinəyə hicrət

və erkən islam icmasının ideoloji və inzibati əsaslarının qoyulması", Şahlar Şərifovun "İslam tarixi", Qəzalinin "Peyğəmbərin həyatı", Ic., "Dr.Cəfər Sübhanın "Həzrət Muhəmməd",İbn Hişamın "Muhəmməd peyğəmbərin (s) həyatı" və H.F. Nurullahın yuxarıda adlarını qeyd etdiyimiz kitablarından cəlb edilmişdir.

E.Y. Həsənova rusiyalı müəllif B.E.Çirkinə əsaslanaraq qeyd edir ki, islamda hakimiyyət konsepsiyası şərqşünaslıq elmində az öyrənilmiş problemlərdəndir. Bunun ən önəmli səbəblərindən biri islamda dövlət quruculuğu haqqında dəqiq nizamnamənin olmamasıdır, çünki o, Quran və şəriətdə yoxdur. [4] Sonra o, dünya alimləri V.V. Bartold, Mirzə Kazım bəy[5] E.A. Belyayev, İ.P. Petpuşevski, A. Masse, İ. Qoldsiyer, A.K. Lembton, B. Luis, N. Berkes və başqalarına istinadən yazır ki, bu dində (islamda) dini və dünyəvi hakimiyyət arasında dəqiq sədd yoxdur. [6] Çünki Məhəmməd peyğəmbər islam dininin yaranması ilə başlayaraq, sonradan onu dövlət və dünyəvi hakimiyyətlə inkişaf etdirmişdi. İslam ümməti ilk əvvəldən həm dini, həm də siyasi cəmiyyət olub, həm rəhbər, həm də hakim olan Məhəmməd peyğəmbər tərəfindən idarə edilirdi.[7] Sonra o, başqa bir kitabında qeyd edir ki, gündən-günə dinlə bu və başqa ölkələrin ictimai, siyasi əlaqələrinin inkişafı açıq-aydın görünür.[8]

Qasım Kərimov qeyd edir ki, müsəlmanlarda dini cəmiyyətlərdən "ayrı düşmək" anlayışı yoxdur. O, E.A. Belyayevə əsasla-

---

[4] Э.Ю.Гасанова.Об исламской концепции власти в общественно-политической мысли Турции. В сборнике Актуальные проблемы современного ислама. Bakı, 1990, s.52

[5] Э.Ю. Гасанова. О некоторых вопросах ислама в работе Мирзы Казем-Бека «Мюридизм и Шамиль» - AMEA, Akad. Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutu.Mirzə Kazımbəy – 200 Beynəlxalq Elmi Konfasda məruzə. Bakı, 11-12 iyun, 2003

[6] Е.Ю.Гасанова. Об исламской концепции…

[7] Yenə orada

[8] Э.Ю. Гасанова. Социология религии и мусулъманского мистицизма – тасаввуфа в Турции XX в. Bakı – 2006, s. 3

naraq qeyd edir ki, islamda olan insanlar hamısı müsəlmandırlar[9]. Sonra bütün təriqət, məzhəb və cərəyanlarda o, Əbdürrəhman Bədəviyə əsaslanaraq yazır ki, Qəzalinin qardaşı Əhməd Qəzalinin xatirələrində deyildiyi kimi, o, əsil müsəlman olub, ölüm vaxtı kəfənini gətirməyi ondan xahiş edib, kəfəninə bürünüb və deyib: "(Ölüm) mələyinin gəlməsinə itaət edirəm" və vəfat edib[10]. Q. Kərimovun qeyd etdiyinə görə Məhəmməd Qəzali 400 – dən çox əsər yazmışdır və onun əksəriyyəti bizə qədər yaxşı vəziyyətə gəlib çatmışdır[11]. Onlardan biri də çox qiymətli olan "Məhəmməd peyğəmbərin həyatı" əsəridir[12] ki, Elvüsal Məmmədovun azərbaycanca tərcüməsində işıq üzü görmüşdür və biz də bu tədqiqat işində ondan yararlanmışıq.

Dərbənddə anadan olub ruhani ailəsində böyüyən, sonradan Qərbin missionerləri tərəfindən aldadılaraq xristianlığı qəbul etməsinə və Məhəmməd peyğəmbəri (s) də başqa yalançı peyğəmbərlər kimi fanatik adlandırmasına baxmayaraq, böyük tarixi şəxsiyyət olan Mirzə Kazım-bəy "Müridizm və Şamil", "Bab və babilər" əsərləri və "Russkoe slovo" məcmuəsində dərc etdirdiyi məqalələrində (Məhəmmədin zühuru ərəfəsində Şərqin siyasi vəziyyəti -1860, № 2 və 5, İmamın əhəmiyyəti, onun hökmranlığı və məziyyətləri – № 3, Məhəmməd Əmin – № 6, İslamın banisi Məhəmməd – № 8 və 10) islam və Məhəmməd peyğəmbər haqqında qiymətli məlumatlar verir.[13] Onun Məhəmməd peyğəmbər haqqında maraqlı fikirləri də var. O, qeyd edir ki, Ərəbistan, Suriya və Həbəşistanda xristianlıq zəifləyən vaxt təkcə Ərəbistanda beş yalançı peyğəmbər var idi. Məhəmməd öz ağlının gücü sayəsində onların hamısından güclü çıxıb, onlara qalib gəldi

---

[9] Г.М. Керимов. Аль-Газали и суфизм, Баку – 1969, с. 4

[10] Yenə orada, s. 70-71

[11] Yenə orada, s. 17

[12] E. Məmmədov. Məhəmməd peyğəmbərin həyatı. Əl-Qəzalinin ərəb dilində olan kitabının tərcüməsi. Bakı, 2015

[13] A. Rzayev. Mirzə Kazım-bəy.Bakı, 1965, s. 33 (rus dilində)

və İslam dövləti qurmağa nail oldu.[14] Onun "Müridizm və Şamil" əsərindəki müridizm haqqındakı məlumatları da diqqəti cəlb edir. O, müridizm adlı sufilik cərəyanını üç hissəyə - cihad, təriqət və dəvətə bölür və onları belə şərh edir: - Cihad din uğrunda texniki müharibədir (Hərçənd ki, cihad elə birbaşa müharibə deyildir). Təriqət – uca Allaha yol, sufilərin təlimidir. Dəvət isə insanları qəddar hakimiyyətə qarşı mübarizə, qanun və ya dini hüquqların qorunmasıdır[15] (Burada da dəvətin əsas müddəaları qeyd edilməyib). Ümumi qəbul olunan isə şəriət, həqiqət və təriqət konsepsiyasıdır.

Oxuculara təqdim olunan bu kitab müəllifinin qarşısında duran məqsəd isə mövcud olan azərbaycanlı islamşünas, ictimai fikir, fəlsəfə və tarix üzrə alimlərin əsərlərinə əsaslanaraq erkən islam tarixinin bəzi mühüm məsələlərini araşdırmaqdır.

[14] A. K. Rzayev. Mirzə Kazım-bəyin seçilmiş əsərləri. Bakı, 1985, s. 24 (rus dilində)

[15] Yenə orada, s. 26

# I FƏSİL

## Məhəmməd peyğəmbər və islamın erkən dövrü haqqında

Akad. N. Vəlixanlının qeyd etdiyinə görə VII əsrə qədər yalnız Ərəbistan yarımadasında yaşayan ərəblərin sayı təqribən dörd milyon oturaq, üç milyon köçəri ərəbdən ibarət idi. Ərəbistanın cənubunda yaşayanlar himyərilər, qalan yerlərdə isə ərəb adlandırılan köçərilər yaşayırdılar. Şimal sakinlərinin soy kökü Hz. İbrahimin oğlu İsmayıl vasitəsilə Ədnandan (Peyğəmbərin ulu babası), cənub sakinlərinin soy kökü isə Qəhtandan başlayırdı. Hər iki etnik qrupun sami-hami dilləri ailəsinə daxil olmalarına baxmayaraq, onlar başqa-başqa xalqlar sayılırdılar. Ümumiyyətlə, yuxarıda göstərilən müxtəlif tayfa qrupları ancaq VII əsrdə islam bayrağı altında birləşəndən sonra ərəb xalqı kimi tanındı. Elm adamlarının fikirlərinə görə "ərəb" sözü əvvəl etnik mənsubiyyət bildirməmiş, "quraqlıq, xam torpaq" mənasını vermiş, yalnız sonralar böyük bir xalqın adını ifadə etmişdir.[16]

Hz. İbrahim peyğəmbər və oğlu İsmayıl peyğəmbər Allahın təkliyini qəbul edib, bu əqidəni (təkallahlığı) yayırdılar. O dövrün hakimi Nəmrud özü allahlıq iddiasında olaraq, İbrahim peyğəmbəri odda yandırmaq istəsə də, Allah onu xilas edir ki, bu haqda Quranda da xəbər verilir (Ənbiya, 68-70). İsmayıl peyğəmbərin törəmələri də onun kimi, Hz. İbrahim və Hz. İsmayılin bərpa etdikləri Kəbə evini təvaf edir (dua oxuya-oxuya Kəbənin ətrafına fırlanır), Ərəfat və Müzdəlifə dağında vuquf edir (dayanır), qurban

[16] Nailə Vəlixanlı. Ərəb xilafəti və Azərbaycan. Bakı, 1993, s. 6-7

kəsir, Ümrə (Həccin qeyri-rəsmi növü, Ümrə ziyarətini edən Hacı adını daşımır) və Həcc ziyarəti zamanı təlbiyə - ləbbeyk (Allaha “Budur, mən Sənin önündə dayanmışam və Sənin əmrlərini yerinə yetirməyə hazıram”) söyləyirdilər.

Akad. N.Vəlixanlının qeyd etdiyi kimi. Məkkədə susuzluqdan yaşayış çətinləşdiyinə görə İsmayıl peyğəmbərin törəmələri Məkkəni tərk edərək, boş və yararlı torpaqlara köçür və Kəbəyə hörmət əlaməti olaraq, oradan bir daş götürməmiş şəhərdən çıxmır və harada dayanırdılarsa, həmin daşı ortaya qoyub, Kəbənin başına fırlanaraq onu təvaf etdikləri kimi, onun (daşın) da ətrafında təvaf edirdilər (ziyarət edərək fırlanırdılar). Beləliklə, vaxt ötdükcə onlar bəyəndikləri hər daşı təvaf edib, ona sitayiş etməyə başladılar, əvvəllər ibadət etdiklərini unudub, İbrahim və İsmayılın dinini başqa dinlə əvəz etdilər. Beləliklə, onlar əvvəlki tayfalar kimi haqq yolundan azaraq, bütlərə sitayiş etməyə başladılar. Bununla bərabər onlar İbrahimin dinindən götürdükləri bir çox mərasimləri, həm də dinə yad bəzi adətləri də icra edirdilər. Kinanə və Qureyş qəbilələri təlbiyə (Allahın əmrlərinə tabe olmaq və Onu mədh) etdikləri zaman belə deyərdilər: “Budur, mən Sənin önündəyəm, ya Allah! Sənə şərik olan yoxdur! Sənin yalnız bir şərikin var ki, o da Sənindir. Sən onun və onun malik olduğunun Sahibisən!” Beləcə, Kinanə və Qureyş qəbilələri təlbiyə və tövhidi (Allahın təkliyini) iqrar etməklə bərabər, öz bütlərini də Allahla yanaşı qoyub, Allahı onlara sahib edirdilər.[17]

Allah-Təalə Quranda öz Peyğəmbərinə buyurur: “Onların əksəriyyəti ancaq şərik qoşaraq, Allaha inanarlar (Allaha təklikdə deyil, Ona qoşduqları şəriklər – bütlər və tanrılarla birlikdə ibadət edərlər” (Yusuf, 106). Yəni, Məni qəbul etməklə yanaşı yaratdığımı da Mənə şərik qoşurlar.

[17] İbn Hişam. Muhəmməd Peyğəmbərin (s) həyatı. Elmira Qafarovanın tərc. Bakı, 2015, I, s. 52-53

İslamaqədərki bədəvi ərəb tayfaları ibtidai icma quruluşu şəraitində yaşayır, öz başçıları şeyx (müdrik qoca) və ağsaqqallar şurası tərəfindən idarə olunurdular. Tayfa və qəbilələr arasındakı hərcmərclik və ziddiyyətlərə baxmayaraq onlarda xeyirxahlıq, insanpərvərlik, namus, qeyrət kimi mənəvi dəyərlərə də rast gəlmək mümkün idi və bunların hamısı "mürüvvət" (muruvva) - kişilik sözü ilə ifadə edilirdi.

İslamdan əvvəl döyüş, müharibə, qarət ərəblərdə adət halını almışdı. Deyilənlərə görə bir ərəb Peyğəmbərdən (s) Cənnət haqqında soruşur ki, orada da döyüş olacaqmı? Ona "xeyr" deyildikdə ərəb deyir ki, elə isə Cənnət nəyə lazımdır? Ərəblərin tarixində (müasirləri saymasaq) 1700 döyüş qeyd edilib, bunlardan bəzisi hətta yüz ildən çox sürüb.[18]

İslama qədər ərəblər bütpərəst olub, "müqəddəs" daşlara, təsvirlərə, göy cisimlərinə, ağaclara, heyvanlara sitayiş edirdilər. Lakin onlar da təkallahlı İbrahim peyğəmbər və İsmayıl peyğəmbərin bərpa etdikləri Kəbəni (Allahın evini), orada saxladıqları bütləri (başda əl-Lat, əl-Üzza və Mənat olmaqla) ziyarət edirdilər.

Akad. N. Vəlixanlının qeyd etdiyi kimi, xristianlıq dövlət dininə çevrildikdən sonra Roma imperiyasından mühacirət etməyə məcbur olan yəhudilər yəhudiliyi Ərəbistana gətirdilər. Yəmən, Hicaz, Nəcddə yəhudi icmaları yarandı. Xristianlıq isə Ərəbistana üç yolla - Ərəb Həssani padşahlığı vasitəsilə Bizansdan, Ərəb Ləhmi padşahlığının paytaxtı Hirə vasitəsilə İrandan və Həbəşistandan gəlmişdi.

Ərəbistanın əkinçi icmalarında təkallahlığı təbliğ edən, Qiyamət gününə inanan, xristianlığı və yəhudiliyi qəbul etməyən, adi ərəbin qavraya bildiyi daha sadə dinə ibadət etməyi üstün tutan həniflər də var idi. Məhz onların bu keyfiyyətləri Məhəmmədi onları "təmiz və həqiqi" dinin ardıcılları kimi qiymətləndirməyə sövq etdi. Ərəblər tarixdə ilk dəfə məhz islam dini vasitəsi ilə Hz.

[18] Nailə Vəlixanlı. Ərəb xilafəti...s. 7

Məhəmmədin (s) ətrafında birləşmişlər. Nurlan Məmmədzadənin qeyd etdiyinə görə Oksford Universitetinin professoru və bir müddət İngiltərə kilsəsinə papalıq etmiş Marqolius "Arap- İsrailoğulları" kitabında belə deyir: "Yarımada yalnız bir dəfə si- yasi bütövlüyə qovuşa bildi. Hz.Məhəmmədin dühası bunu bacardı".[19] Hz.Məhəmməd nəinki bir qövmün, hətta dünyanın gedişatında möcüzəvi şəkildə dəyişiklik etmişdir. Allah tərəfindən ona göndərilmiş islam dini bəşər tarixində əsaslı dəyişikliyə səbəb olmuşdur. Yeri gəlmişkən, qeyd edilməlidir ki, Allah tərəfindən göndərilən haqq dinlər bəşəriyyəti cəhalət bataqlığından çıxararkən bəzən müəyyən fərdlər və qruplar insanların din duyğusundan qeyri-səmimi şəkildə istifadə etmiş və beləliklə də kütlələr istismara məruz qalmışlar. İnsanlar üzərində hegemonluq etməyi hədəfləyən və bir qrup istismarçı tərəfindən qurulan xristian kilsəsi insanları dar çərçivədən baxmağa məcbur etdiyi bir vaxtda islam dini bəşəriyyətin tərəqqi və inkişafı üçün heç bir şeyi əsirgəmirdi. Nurlan Məmmədzadənin qeyd etdiyinə görə Cəvahirləl Nehru zindandan qızına yazdığı məktublardan birində islamın Hindistana verdiyi töhfələri sayarkən belə deyirdi: "İslam dini Hindistanı ətalət yuxusundan ayıltdı, ona həyat qüvvələri bəxş etdi və tərəqqi qabiliyyətini itirən cəmiyyətə, inkişaf etsin deyə təkan verdi".[20]Avropa ölkələri kilsə hakimiyyətinin cəhalət və səfalət bataqlığında çırpınarkən Şərqdə yayılan islam dini hər sahədə inkişafa təkan verir və xalqların rifah səviyyəsini yüksəldirdi.[21] Məhəmməd peyğəmbərin tərcümeyi-halını yazan İbn Hişam onun dili ilə hənifləri İbrahim peyğəmbərin qədim dininin ardıcılları adlandırır, bu sözü Quran-

[19] Nurlan Məmmədzadə. Cəmiyyətdə din faktopuna qısa nəzər. Bakı İslam Universiteti. Elmi məcmuə. Zaqatala, 2016, № 11, s. 177; David Samuel Marqoliout. Arap-İsrailoğulları. Kaknüs, İstanbul, 2005, s. 18

[20] Nurlan Məmmədzadə, yenə orada, s. 178; Cəvahirləl Nehru. Ümumdünya tarixinə nəzər. Gənclik nəşriyyatı, Bakı, 1985, s. 289

[21] Nurlan Məmmədzadə, yenə orada, s. 178

dakı kimi "müsəlman" məfhumu ilə eyniləşdirir [22] (İbrahim nə yəhudi, nə də xristian idi, o, hənif, müslim idi). İbrahim peyğəmbər oğlu İsmayılın köməyi ilə Hicazda Kəbəni təmir edib, təkallahlılıq bayrağını ucaltdıqdan sonra bir dəstə insan onun yolunu tutaraq Allaha iman gətirdi.[23] Məkkə əhalisinin Kəbəyə böyük hörməti var idi. Kəbədə ən çox pərəstiş edilən bütlərdən biri də Hubəl idi. İl ərzində hər qəbilə bir nəfəri seçib təmtəraqla, bəzədilmiş halda gətirərək bütlərin qarşısında qurban kəsir, elə oradaca dəfn edirdilər.[24]

Hicaz əhalisini "ümmi" adlandırırdılar. Ümmi sözünün mənası dərs oxumamış, məktəb görməmiş, savadsız deməkdir. Hicazın elmi səviyyəsini bilmək üçün bunu demək kifayətdir ki, islamın meydana gəldiyi vaxt Qüreyşdə vur-tut on yeddi nəfər oxuyub-yazmağı bacarırdı, Mədinədə isə on bir.[25] Yeri gəlmişkən, "ticarət" və "qazanc əldə etmək" mənasını verən "Qüreyş" "təqərruş" sözündən əmələ gəlmişdir. İbn Hişam da bu sözün etimologiyasını "ticarət" və "qazanc əldə etmə" mənasını verən "quruş"la bağlayır.[26] "Quruş" bir çox ərəb ölkəsində təki "qırşun" olan, cəmdə "quruş" kəlməsidir, xırda pulu bildirir, bizdə də xalq arasında bu söz elə deyilən mənada işlənir.

Cabir İskəndərli özünün rus dilində yazdığı "Bütpərəst ərəblər cahiliyyə və təkallahlılıq dövründə" adlı məqaləsində yazır ki, marksizm banilərinin qeyd etdiklərinə görə vahid çar – vahid hökmdar olmadan vahid Allah yarana bilməzdi və o, bu fikri Ərəbistanda islamın yaranması timsalında təkzib edir. O, fikrini tamamlayaraq qeyd edir ki, islamın Ərəbistan yarımadasında ya-

---

[22] İbn Hişam. Məhəmməd peyğəmbərin (s) həyatı, s. 9

[23] Cəfər Sübhani. Hz.Muhəmməd (s). İsam peyğəmbərinin həyatı barədə mükəmməl araşdırma. Mayis Ağayevin farscadan tərcüməsində, Bakı, 2014 s. 15

[24] Yenə orada, s. 17

[25] Yenə orada, s. 33

[26] İbn Hişam. Məhəmməd peyğəmbərin (s) həyatı. Elmira Qafarovanın ərəbcədən tərcüməsində, Bakı, 2015, I kitab, s. 59

ranması başqa daha mühüm hadisə üçün müqəddimə oldu. Ərəblər islam bayrağı altında birləşərək (Tək Allahı qəbul edərək) qısa müddətdə özlərinin ərəb dövlətini qurdular.[27]

Məhəmməd Ərəbistan səhrasında, quru İbrahim vadisində dünyaya gələndə atası həyatda yox idi. Uşaqlıqda babası Əbdülmüttəlibin, sonra əmisi Əbu Talibin himayəsində böyümüşdü. Doğulmamışdan atasını, altı yaşına çatanda isə anasını itirmişdi. Ata-anadan yetim qalsa da, Allah-Təalə onu uşaqlığında hər kəsin möhtac olduğu ana sevgisi, mehribanlığı və şəfqətindən məhrum etməmişdi. Bu, ona Yaradanın lütfü idi. Allah-Təalə istəmişdi ki, balaca Məhəmməd ana nəfəsi, qayğısı və əmin-amanlığını hiss etsin.[28] İbn Hişamın qeyd etdiyinə görə Məhəmməd həm ata, həm də ana tərəfdən Adəm övladlarından nəsəbcə ən şərəfli və ən fəzilətlisi idi.[29] Cəfər Sübhani "Tarix Təbəri" və "Sireyi Hələbi"yə istinadən qeyd edir ki, Peyğəmbərin (s) babasının atasının əsl adı Əmr, ləqəbi isə Əla olmuşdur, onu Haşim çağırırdılar. O, Əbdüşşəmslə əkiz doğulmuşdu. Tarixi məlumata görə onlar doğularkən Haşimin barmağı Əbdüşşəmsin alnına yapışıq halda imiş. Barmağı alından ayırarkən qanaxma olmuş, görənlər gələcəkdə bunların övladları arasında qan düşəcəyini demişdilər. Hələbinin yazdığına görə bu pis yozum Haşim övladları Bəni-Abbasla Əbdüşşəms övladları Bəni-Ümeyyə arasında qanlı toqquşmaların baş verməsi ilə nəticələnir.[30]

Peyğəmbərin babası Əbdülmüttəlib Qüreyşin başçısı idi, onun əsl adı isə Şeybə idi, o, Haşimin arvadı Səlmadan olmuşdu. Haşim Mədinədə ticarət səfərində Bəni - Nəccar qəbiləsində qonaq qalarkən Səlmanı görür və xoşlayır, ona evlənir. Səlma hamilə ol-

---

[27] Средневековый Восток. Проблемы историографии и источниковедения. Баку – Элм – 2015, стр. 88-89

[28] Cəfər Sübhani. Hz.Muhammədd, s. 142-149

[29] İbn Hişam, I, 62

[30] Tarix Təbəri, c.2, s.13; Sireyi Haləbi, c.1, s.5; Cəfər Sübhani. Hz.Muhamməd (s), s. 66

duqda atası uşağın Mədinədə doğulmasını istəyir. Haşim səyahət vaxtı vəfat edir. Şeybə həddi-buluğ yaşını keçənədək Səlmanın yanında Mədinədə yaşayır.[31] Haşimin vəfatından sonra onun qardaşı Müttəlib qardaşı oğlu Şeybəni Məkkəyə - öz ata-qardaşının yanına gətirmək istədi, Səlma buna razılıq vermədi, anasının razılığı olmadan Şeybə də getmək istəmədi. Müttəlib nəhayət, Səlmanı razı saldı və Şeybəni dəvənin tərkinə alıb Məkkəyə gəldi. Görənlər Şeybəni onun qulu kimi qəbul etdilər, Müttəlib onlara dedi: "Vay halınıza, bu, qardaşım Haşimin oğludur". Ancaq adamlar dediklərini demişdilər, bundan sonra Şeybəni Əbdülmüttəlib – Müttəlibin qulu çağırdılar. [32] Əbdülmüttəlibin Məkkədə hakimiyyəti illəri islam tarixinin başlanğıcı ilə bilavasitə bağlıdır, o, təkallahlıq əqidəsinə və məada (Axirətə - adə ərəbzə qayıtmaq deməkdir, məad – yəni Allaha qayıdış deməkdir) inananlardan olmuşdur.

İslamdan əvvəlki dövrdə ərəblərin mənfi adətləri ilə yanaşı müsbət adətləri də var idi. Məsələn, onlar çox nadir halda müqavilə bağlayır və ya nəzr verirdilər və əhdlərindən heç vaxt dönmürdülər. Əbdülmüttəlib Məkkə[33] hakimi olandan sonra Zəmzəm[34] quyusunu təmizləyib, bərpa etmək istəyir. Lakin onun bircə

---

[31] Ziya Bünyadov. Dinlər, təriqətlər, məzhəblər. Bakı, 1997, s. 84

[32] İbn Hişam, I, 75

[33] Məkkəni Bəkkə də adlandırırmışlar. "Bəkkə"-"təkəssur"-"sınmış", "sındırılmış" sözünün sinonimidir. Deyilənlərə görə insanlar Məkkənin müqəddəsliyinə xələl gətirən əməllər törətdikdə o, boynu qırılmış pəhləvanı, cəngavəri xatırladır və ona Bəkkə deyirlər.

[34] Zəm-zəm, Məscidu-l-haramda, hazırda təxminən Kəbə evinin aşağısında yerləşən, müqəddəs suyu olan quyudur. İbrahim peyğəmbər(ə) arvadı Hacəri kiçik oğlu İsmayılla birlikdə gətirib qədim Kəbə evinin yaxınlığındakı çöldə qoymuşdu. Uşağın susuzluqdan əziyyət çəkdiyini görən ana Səfa və Mərva təpələri arasında su axtarışında o yan-bu yana qaçarkən vəhşi heyvanların səsini eşidib, uşağın yanına qaçır və orada su axdığını görür. Allahın əmri ilə onu Cəbrayıl (ə) ayağını yerə vurmaqla açmışdı. Hacər oranı çeşmə düzəltdi. Əmr bin əl-Haris əl-Curhumi Məkkədə hakimiyyətdən uzaqlaşdırıldığına görə Kəbədəki Qara daşı və iki qızıl ceyran heykəlini və bir çox zirehi Zəm-Zəm quyusuna atıb, üstünü daş-torpaqla doldurub görünməz etmişdi (İbn Hişam, yenə orada, s. 63,65). Əbdülmüttəlib quyunu təmizləyəndə oradan həmin qızıl

oğlu olduğundan, bu işi yerinə yetirmək onun üçün çətin idi. O, nəzr edir ki, onun uşaqlarının sayı ona çatarsa, onların birini Kəbə önündə qurban kəsəcək. Lakin İbn İshaq bir neçə nəfərə istinadən qeyd edir ki, Əbdülmüttəlib Hicrdə (Kəbənin yanında) yatdığı vaxt yuxuda Zəm-zəmi qazmaq ona əmr olunur.[35] "Tarix Təbəri"yə istinadən Cəfər Sübhani qeyd edir ki, vaxt keçir, Əbdülmüttəlibin uşaqlarının sayı ona çatır. Hansının qurban kəsiləcəyi üçün püşk atılır, püşk gələcəkdə Məhəmmədin atası olacaq Abdullaha düşür. Bu çox ağır hal idi. Bütün başbilənlər yığışıb məsləhətləşdilər ki, dəvələrlə Abullah arasında püşk atılsın. On, iyirmi, otuz və il axır dəvələrlə püşkdə püşk Abdullaha düşür. Nəhayət dəvələrin sayı yüzə çatanda püşk dəvələrə düşür. Əbdülmüttəlib püşkü üç dəfə təkrar etdirsə də, püşk yenə də dəvələrə düşür. Əbdülmüttəlib yüz dəvə gətirib, Kəbə ətrafında kəsdirib, insanlar və heyvanlar arasında paylamağı tapşırır. Deməli, hələ Abdullahın əcəli çatmamışdı. Bu zaman Abdullahın cəmi 24 yaşı vardı. Qurban kəsiləndən sonra Əbdülmüttəlib Abdullahı götürüb, birbaşa Vəhəb ibn Abdumanaf ibn Zöhrənin evinə gedib, onun namuslu və iffətli qızı Aminəni (Əminəni) Abdullaha alır, onun əmisi qızı Dəlaləyə isə özü evlənir. Peyğəmbərin (s) əmisi Həmzə Dəlalədən olmuşdur. [36] Toydan bir neçə ay sonra Abdullah ticarət məqsədi ilə karvanla Mədinəyə gedir, qayıdarkən yolda xəstələnir və vəfat edir, orada da dəfn olunur[37]. (Akademik Z.M.Bünyadov Abdullahın evlənən vaxt 24, səfərdə vəfat edən vaxt isə 25 yaşı olduğunu qeyd edir. Körpə Məhəmməd isə Abdullah səfərdə olarkən 570-ci ildə doğulub. Bu tarixlər hamısı düz gəlir. Abdullahın öz doğum tarixi isə 555-ci il göstərilir (Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, s.

---

heykəlləri və çoxlu zireh çıxartdı, onları əridib Kəbə üçün ilk qızıl qapı düzəltdirdi (Yenə orada, s. 79).

[35] İbn Hişam, I, 76

[36] Tarix Təbəri, c. 2, s. 4; Cəfər Sübhani, yenə orada, s. 84

[37] M. Qəzali. Məhəmmədin həyatı. I c. Bakı, 2015, s. 108 (Elvüsal Məmmədovun ərəbcədən tərcüməsində).

9). Onda bu, çox güman ki, çap xətasıdır, onun doğum ili 545-ci il qeyd olunmalı idi, tarixlər də belədə düz gəlir). Deyilənlərə görə Əminə Məhəmmədə hamilə olarkən yuxuda ona deyilmişdi: “Sən, bu millətin başçısına hamiləsən, onu dünyaya gətirəcəyin zaman Ona bütün həsəd aparanların şərindən tək olan Allaha sığınıram!” deyərsən, adını da Muhamməd qoyarsan!”[38] (Aşağıda Məhəmmədin adı barəsində babası Əbdülmüttəlibin başqa versiyasnı görəcəyik). “Tarix Təbəri”, “Biharu-l-ənvar” və “Sirə Hələbi”yə istinadən Cəfər Sübhani qeyd edir ki, çox çəkmir ki, Məhəmməd dünyaya gəlir. Deyilənlərə görə o, sünnət olunmuş halda dünyaya gələndə dil açıb dedi: “Allah böyükdür, Ona çox-çox həmd-səna olsun, O, gecə-gündüz hər şeydən pakdır” (Bizdə indi də sünnət olunmuş halda doğulan uşaqlara “peyğəmbəri”, yəni, “peyğəmbər kimi doğulan” deyirlər). Rəvayətə görə Məhəmməd doğulan vaxt Kəsra sarayının eyvanı çatlayır, bir neçə tağı uçulur, Fars atəşgahının odu sönür, Savə gölü quruyur, Məkkə bütxanasında bütlər yerə tökülür, körpədən bir nur göyə qalxıb, bir neçə fərsəx məsafəni işıqlandırır. [39] Belə möcüzələr başqa peyğəmbərlərlə də baş vermişdir - İbrahim peyğəmbər (ə), Musa peyğəmbər (ə), İsa Peyğəmbər (ə) və s. Bu möcüzələr insanların peyğəmbərlərin arxalarınca getmələrində az rol oynamırdı. Məhəmməd m. 570-ci il Fil ilində rabiu-l-əvvəl ayının 17-də anadan olmuşdur. Bu tarixin 569, 571 də olduğunu qeyd edirlər, qəbul olunanı isə 570-ci ildir. Maraqlıdır ki, Məhəmmədin doğulması, peyğəmbərliyə təyin olunması, hicrəti və vəfatı – hamısı bazar ertəsi olmuşdur. [40] O il, Yəməndən xristian həbəş ordu başçısı Əbrəhənin Kəbəni dağıtmaq üçün döyüş filləri ilə Məkkəyə hücum etdiyi üçün Fil ili adlanmışdı. O vaxt Məhəmmədin babası Əbdülmüttəlib Məkkənin hakimi idi. Əbrəhə Məkkəyə girərkən çoxlu

---

[38] İbn Hişam, I, 86

[39] Tərix Yaqubi, c. 2, s. 5; Biharu-l-ənvar, c.15, s. 248; Sirə Haləbi, c. 1, s. 64; Cəfər Sübhani, yenə orada, s. 91; Dinlər, təriqətlər...s. 144

[40] Z.M. Bünyadov. Dinlər, təriqətlər... yenə orada

qarətlər etmişdi, o cümlədən Əbdülmüttəlibin 200 dəvəsini də. Əbdülmüttəlib yaraşıqlı, zəhmli və əzəmətli bir şəxs idi. Əbrəhə onu görəndə bəyənmişdi. Onun nə istədiyini soruşduqda Əbdülmüttəlib onun dəvələrini qaytarmağı tələb etdi. Əbrəhə ona dedi ki, sən dəvələrini istəyirsən, ancaq əcdadlarının və özünün məbədiniz olan Kəbəni dağıtmaq istədiyim sənin heç vecinə də deyil. Əbdülmüttəlib isə ona cavab verir ki, axı mən dəvələrin sahibiyəm, Kəbənin isə öz Sahibi var, O, öz məbədini qoruyacaq. Əbrəhə: "Məndən qoruya bilməyəcək" - dedikdə Əbdülmüttəlib: "Bu sən, O da, O" cavabnı verir. Səhər Əbrəhə Məkkəyə hücuma hazırlaşarkən Nufeyl bin Hubeyb əl-Xəsəmi Mahmud adlı filin yanına gəlib onun qulağına deyir: "Ya diz çök, ya da bir günah işlətmədən gəldiyin yerə qayıt, sən Allahın müqəddəs torpağındasan!" Fil diz çökür, nə qədər onu nizə və başqa iti şeylərlə incitsələr də, o, qalxmır ki, qalxmır. Onun üzünü Yəmənə tərəf çevirdikdə o, durub qaçmağa başlayır. Yenidən onun üzünü Məkkəyə tərəf çevirdikdə, fil diz üstə çökür. Elə bu vaxt Allah-Təalə həbəşlərin üzərinə hərəsi dimdik və caynaqlarında noxud və mərci boyda daş gətirən qaranquş və qağayıya bənzər əbabil quşları göndərir. Daşlardan biri hansı həbəşin üstünə düşürdüsə o, yerindəcə ölürdü. Filin üzünü yenidən Yəmənə tərəf çevirdikdə, fil qalxıb, dayanmadan Yəmənədək qaçır, qoşunun çoxu yolda ölür, Əbrəhənin bədənini yara basır. Onlar Sənaya yetişirlər, Əbrəhənin yaraları irinləyir və o, ölür.[41]

Allah-Təalə Quranda bu əhvalat haqqında Peyğəmbərinə deyir: (Ya Peyğəmbər!) "Məgər Rəbbinin fil sahiblərinə (nələr) etdiyini görmədinmi?! Məgər (Rəbbin) onların hiyləsini boşa çıxartmadımı?! Onların üstünə (qatar-qatar) əbabil quşları göndərdi. (O quşlar) onlara bişmiş gildən düzəldilmiş (möhkəm, xırda) daşlar atırdı. (Rəbbin) onları (həşərat tərəfindən) yeyilmiş əkin yarpağına (saman çöpünə) döndərdi!" (Əl-Fil,1-5). Sonra Allah-Təalə bu

[41] İbn Hişam, s. 40-44

haqda buyurur: “(Ya Peyğəmbər! Qureyşilərə de ki,) Qureyşin ülfəti, dostluğu (və ya Allahın onlar üçün səfəri asanlaşdırması) xatirinə, onlara qış və yay səfərinin müyəssər edilməsi (qışda Yəməndə, yayda Şamda istirahət və ticarət edə bilmələri) xatirinə bu Evin Rəbbinə (Kəbənin sahibi olan Allaha) ibadət etsinlər! O Allah ki, onları aclıqdan qurtarıb yemək verdi və onlara qorxudan (fil sahiblərinin təhlükəsindən) sonra əmin-amanlıq bəxş etdi” (Əl-Qureyş, 1-4).

Yuxarıda Məhəmmədin Fil ilinin rabiu-l-əvvəl ayının 17-də doğulduğunu qeyd etmişdik. Əhli sünnə alimləri isə Məhəmmədin həmin ayın 12-də doğulduğunu iddia edirlər. Cəfər Sübhani bu məsələni çox sadə yolla həll edir. Hər ailə başçısının doğulduğu və vəfatı gününü onun ailə üzvlərindən başqa kim düz bilər? Əlbəttə, Peyğəmbərin (s) ad gününün rabiu-l-əvvəl ayının 17-də olduğunu onun ailə üzvləri – imamlar daha düzgün bilərlər[42]. Məhəmməd doğulandan yeddi gün sonra Əbdülmüttəlib bir qoyun kəsib ziyafət verir. Bütün Qüreyşin iştirak etdiyi məclisdə o, nəvəsini Muhəmməd adlandırır. “Niyə Muhəmməd” soruşulanda o deyir ki, onu göydə Allahın, yerdə isə insanların tərifləməsi üçün. Məhəmməddən qabaq bu ad heç kimə verilməmişdi. [43] Anası Məhəmmədə üç ay süd verəndən sonra ona dörd ay Məhəmmədin əmisi Əbuləhəbin kənizi Subiyə süd vermişdir. O, Məhəmmədin əmisi Həmzəyə də süd vermişdir, deməli Məhəmməd əmisi Həmzə ilə həm də süd qardaşıdır. Məhəmməd, peyğəmbər təyin ediləndən sonra Subiyəni Əbuləhəbdən satın alıb azad etmək istəsə də, bütpərəst, kinli Əbuləhəb buna razılıq vermir. Məhəmmədin ikinci süd anası isə səhrada yaşayan Bəni-Səd qəbiləsindən olan Həlimə olmuşdur. Varlı ərəblər uşaqlarının sağlam böyümələri (Məkkənin havası çox ağır, səhrada isə hava təmiz idi) və səlis danışmaları üçün onları səhra dayələrinə verərdilər (Səhrada bədəvi ərəblərin

---

[42] Cəfər Sübhani, yenə orada, s. 92-93
[43] Z.M.Bünyadov. Dinlər, təriqətlər...s. 144

ətraf mühitlə sıx əlaqələri olmadığı üçün şəhərlilər kimi ləhcədə yox, təmiz ərəb dilində danışırdılar, həm də uşaqların azad oynamaları üçün burada geniş çöllər var idi). Həlimə kasıb ailəyə mənsub idi, Məhəmmədə dayəliyə başlayandan sonra Allah-Təalə onun maddi vəziyyətini çox yaxşılaşdırır.[44] Rəvayətə görə doğuş vaxtı Həlimənin sol döşü quruyubmuş. Məhəmmədi dayəliyə götürəndən sonra Məhəmməd onun südlə dolu sağ döşünü qəbul etməmiş, sol döşünü sovurmuş və nəticədə Allah-Təalə Həlimənin sol döşünə də süd vermişdi.[45] "Sirə ibn Hişam"a istinadən Cəfər Sübhani qeyd edir ki, Həlimə balaca Məhəmmədi üç dəfə anasının yanına gətirmişdi. Birinci dəfə süddən ayrılanda, ikinci dəfə isə Həbəşistan ruhaniləri Bəni-Səd qəbiləsinə gələrkən, balaca Məhəmməddə səmavi kitablarda oxuduqları Hz.İsadan (ə) sonra gələcək peyğəmbərlik nişanələrini görüb, onu oğurlayıb aparmaq istədikləri zaman. Onlar bu iftixarın onlara nəsib olmasını istəyirdilər.[46]

Cəfər sübhani "Sirə Hələbi"yə istinadən yazır ki, Həlimə üçüncü dəfə gələrək, beş yaşlı Məhəmmədi anasına qaytarır. Əminə çoxdan idi ki, Yəsribə gedib, ərinin məzarını və qohumlarını ziyarət etmək istəyirdi. O, balaca Məhəmmədi də özü ilə götürüb, kənizi Ummu Əymənlə Yəsribə gedir. Əvvəl görmədiyi atasının qəbrini ziyarət balaca Məhəmməddə ağır təəssürat buraxır. Bu azmış kimi, evə dönərkən anası Əbva deyilən yerdə xəstələnərək vəfat edir.[47] Balaca Məhəmmədi babası Əbdülmüttəlib himayəyə götürür. Məhəmməd səkkiz yaşına çatanda babası Əbdülmüttəlib də vəfat edir, o, tamamilə yetim qalır. Onu, Əbdülmüttəlibin vəsiyyətinə görə Məhəmmədin atası Abdullahla eyni anadan olan əmisi - Əlinin atası Əbu Talib himayəsinə götürür.[48] "Sirə İbn Hi-

[44] Yenə orada, s. 97-98
[45] Biharul-ənvar, c.15, s. 345
[46] Sirə İbn Hişam, c. 1, s. 167; Cəfər Sübhani,yenə orada, s. 102
[47] Sirə Haləbi, c.1, s.125; Cəfər Sübhani, yenə orada, s. 104
[48] Sirə İbn Hişam, c. 1, s. 179

şam"a istinadən Cəfər Sübhani qeyd edir ki, Məhəmməd on iki yaşında olarkən, Əbu Talib ticarət məqsədilə Şama getməli olur. Məhəmmədi bir neçə adama tapşırsa da, onu əmisinin ayrılığına dözməyib ağlayan görüb, onun göz yaşına dözə bilməyib, onu da özü ilə səfərə götürür. Səfər vaxtı o, Mədyən, Vadil-Qura, Səmud diyarı və Şamın gözəl təbii mənzərələrini görür və bunlar onun şirin xatirələrinə çevrilir. Uşaq vaxtlarından şücaət və cəsarətli olan Məhəmməd yeniyetmə illərində də qorxmaz olmuş, Həvazin qəbiləsi ("Dinlər, təriqətlər, məzhəblər" kitabında bu qəbilə Qeys kimi qeyd edilir) ilə Qüreyşin Ficar döyüşündə iştirak etmiş, əmilərini oxla təmin etmişdi.[49]

Məhəmməd, peyğəmbər təyin ediləndən sonra qureyşilərdə fikir ayrılığı yarandı, çünki aralıqda ərəblərdən bir peyğəmbər çıxıb, təkallahlığı yayacağı söhbətləri gedirdi, yəhudilərsə gələcək dinin köklərinin onların dininin kökləri ilə eyni olduğunu deyib, ərəblərin köklərini kəsəcəklərini söyləyirdilər. İslama gəldikdə isə ərəblərin bir qismi onu qəbul etdilər, yəhudilərsə onu qəbul etmədilər. Halbuki müşriklərə qələbə çalmaq üçün sonuncu peyğəmbərin gəlib onlara kömək etməsi üçün Allaha yalvarırdılar, bu Bəqərə surəsində də qeyd edilib.[50]

Məhəmmədin peyğəmbərliyi ilə bağlı maraqlı bir əhvalat da mövcuddur. İbn Hişam İbn Sədin "Ət-Təbəqat"ına istinadən qeyd edir ki, Məhəmmədin yenicə peyğəmbər təyin olunduğu vaxt Yəmən İranın təbəəsi idi. İran şahı Kəsra Yəmən hökmdarı Bazana yazır ki, eşitdiyimə görə Məkkədə Qureyş qəbiləsindən bir nəfər zühur edərək, özünü peyğəmbər elan edib. Onun yanına gedib, bu iddiasından əl çəkməyə məcbur et! Qoy tövbə etsin, əks təqdirdə onun başını kəsib, mənə gətir! Bazan Kəsranın məktubunu Allahın Elçisinə göndərdi. Allahın Elçisi (s) Bazana belə bir cavab yazdı: "Allahdan mənə vəhy gəldi ki, Kəsra filan ayın filan günü qətlə

[49] Sirə İbn Hişam, c.1, s. 186; Cəfər Sübhani, yenə orada, s. 111
[50] Bəqərə, 89

yetiriləcək”. Məktubu alan Bazan nə baş verəcəyini gözləmək qərarına gəldi. Öz-özlüyündə fikirləşdi: “Əgər o, doğrudan da peyğəmbərdirsə, dedikləri mütləq baş verəcək!” Kəsra həqiqətən Peyğəmbərin dediyi gün oğlu Şirəveyh tərəfindən öldürüldü.[51] İbn Hişam Həkim, Təbərani, Heysəmi və başqalarına istinadən qeyd edir ki, bu xəbəri eşidən Bazan elçilərini Peyğəmbərin (s) yanına göndərib, özünün və yanında olan bütün farsların islamı qəbul etdiklərini bildirdi. Fars nümayəndələri Allahın Elçisindən soruşmuşdular: “Ya Rəsuləllah! Biz kimlərdənik?” Peyğəmbər buyurmuşdu: “Bizlərdən, Əhli-beytdən!” Allahın Elçisi həmçinin buyurmuşdu: “Səlman (əl-Farisi) də bizlərdən, Əhli-beytdəndir!”[52]

Uşaqlıq, yeniyetməlik, cavanlıq və böyüklük vaxtı Məhəmmədin həyatı bitkin idi. O, məktəb-mədrəsə təhsili görməsə də, vəhy endiyi vaxt Məhəmməd artıq dürüst, etibarlı, əxlaqlı, mülayim və sadə bir insan idi.[53] Hz.Əli Allah-Təalanın Məhəmmədi uşaqlıqdan əxlaqlı tərbiyə etmək üçün ən böyük mələyi ona ayırdığını qeyd edir.[54]

Bütün dünya cəhalətdə ikən Allah (c.c.) bəşəriyyəti qaranlıqdan aydınlığa çıxarmaq, insanların hər iki dünyada xoşbəxt həyat sürmələri üçün Hz.Məhəmmədi onlara hidayət rəhbəri göndərdi. İnsanları Allahın (c.c.) Tövhid bayrağı altında birləşdirməyə çalışan Hz.Peyğəmbər (s) yeni bir ümmətin əsasını qoydu.[55]

Məhəmməd hələ on iki yaşında ikən əmisi Əbu Talibin ticarət karvanı ilə Suriya səfərində iştirak etmişdi. Kiçik Məhəmməd

---

[51] İbn Səad. Ət-Təbəqat, I/177; İbn Hişam. Sirə Nəbəvıyyə, I, 48-49

[52] İbn Hişam, 49; Həkim.Əl-Müstədrik, 3/598; Təbərani.Əl-Kəbir, 6/6040; Heysəmi. Əl-Məcmə, 6/130;
Albani.Daifu-l-Cami, 3272; Əd-Daifə, 3704

[53] Əbdülhəmid əbu Süleyman.Ağıl və möcüzə baxımından Hz.Məhəmmədin peyğəmbərliyinin həqiqiliyinə inam. Bakı, 2017 (Elvüsal Məmmədovun tərcüməsi), s. 16-17

[54] Nəhcul-bəlağə, 190-cı xütbə

[55] Aslan Həbıbov.Vəhdət naminə. Məzhəblərarası dialoq. Bakı, 2014, s. 8-9

Ərəbistandan uzaqda, doğulduğu bütpərəst qəbilə-tayfa mühiti ilə böyük təzad təşkil edən xristian, yəhudi icmaları ilə təmasda olur. Bir çox şərhçilər bu görüşlərin Məhəmməddə "silinməz təsir buraxdığını" söyləyirlər. Əslində isə o, Suriya yaxınlığında xristian keşiş Bəhira ilə bir neçə saat bir yerdə olmuşdur. Bu müddətdə 12 yaşında olan Məhəmmədin dünyagörüşünə əhəmiyyətli bir təsirin olması həqiqətə oxşamır, azca ola bilər, onun hər cür inkişafı Allahla bağlıdır.

Məhəmmədin 21 yaşı olanda o, məkkəlilər arasında "əmin" - sədaqətli, etibarlı adam adını qazanmışdı. Əmisi ona Xuveylid bin Əsədin qızı varlı dul qadın Xədicənin ticarət işlərini idarə etməyi məsləhət görür və o, yenidən Suriyaya səfər edib Hələb və Dəməşqdə olur.

595-ci ildə Məhəmməd Xədicə ilə evlənir, Xədicənin qırxa yaxın yaşı var idi, iki dəfə ərdə olmuşdu, iki oğlu və bir qızı vardı. Buna baxmayaraq Məhəmmədlə Xədicə ailə qurandan sonra məhəbbətləri dillərə düşmüşdü.

Məhəmməd Xədicə ilə ömür sürdüyü 25 il ərzində başqa qadınla evlənməmişdi. H.F.Nurullah Şeyx Səduqun "Əl-Xisal"ına istinadən yazır ki, Peyğəmbər (s) Xədicənin islamda bir neçə üstünlüyünü qiymətləndirmişdi: "Cənnət qadınları dörddür: Xədicə bint Xuveylid, Fatimə bint Muhamməd, Məryəm bint İmran və Asiya bint Məzahim".[56]

Məhəmməd, peyğəmbər təyin edilməmişdən əvvəl iki məsələ haqqında dərindən düşünürdü. Birincisi o idi ki, o, yer-göy haqqında fikirləşir, hər bir varlıqda Allahın nurunu, elmini, qüdrətini görür və bu yolla qeyb aləminə özü üçün yollar açırdı. İkincisi də o idi ki, o, boynuna qoyulacaq ağır məsuliyyət haqqında düşünürdü[57].

---

[56] Şeyx Səduq. Əl—Xisal, c.1, s. 24; Hacı Fuad Nurullah. İmam Hüseyn(ə)-şəhidlik məktəbinin ustadı. Nurlar nəşri, Bakı, 2014, s.19-21

[57] Cəfər Sübhani, yenə orada, s. 136

Məhəmməd 40 yaşında ikən dini düşüncə və axtarışlarla daha yaxından məşğul olmaq üçün vaxtının çoxunu Məkkə yaxınlığında olan Cəbəlu-n-Nur dağındakı Hira mağarasında keçirirdi və bu günlərin birində vəhy mələyi Cəbrayıl (ə) nazil olub, Allahın sözü nü oxumağa başlamağı haqqında ona əmr etdi. Məhəmməd bu gözlənilməz hadisədən bərk sarsılır və çətin vəziyyətə düşür - halı pisləşir. Sonradan mələk yenidən nazil olub, Allahın sözünü insanlara çatdırmağı ona əmr edir və bu gün be"sət və ya məb"əs (peyğəmbərliyə) göndərilmə, təyinolunma günü kimi qəbul olunub[58]. Mələk ona oxumağı əmr etdikdə, o, yazıb-oxumağı bacarmadığını deyir (Buna görə də Məhəmməd peyğəmbəri (s) "ummi" –savadsız adlandırırdılar). Mələk ikinci və üçüncü dəfə (onu bərk sıxaraq) oxu dedikdə, Məhəmməd hiss edir ki, o, mələyin əlində olan tablodakı yazını oxuya bilir və o – savadı olmayan adam Allahın qüdrətilə oxuyur: "(Bütün məxluqatı yoxdan) yaradan Rəbbinin adı ilə oxu! O, insanı laxtalanmış qandan yaratdı. Oxu! Sənin Rəbbin ən böyük kərəm sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi. (O Rəbbin ki,) insana bilmədiklərini öyrətdi." [59] Məhəmməd bu hadisədən həyəcanlanaraq evə gəlib, Xədicəyə onun üstünü örtməyi tapşırır. Sonra Xədicə, Məhəmmədlə baş verənləri əmisi oğlu Vərəqəyə danışır. Ərəb bilicilərindən olan Vərəqə bin Nofəl uzun müddət İncili araşdırdıqdan sonra təkallahlığı qəbul edib, xaçpərəst olmuşdu. O deyir ki, "ərin düz danışır, baş verənlər onun peyğəmbərliyinin başlanğıcıdır."

İslam tarixçilərinin əksəriyyətinin fikrincə bu hadisə 610-cu ilin Ramazan ayında baş vermişdir. O il 40 yaşında olan Məhəmmədə peyğəmbərlik verilmiş, Qurani-Kərim lövhi-məhfuzdan dünya səmasına nazil olunmuş, onun ilk ayələri Cəbrayıl vasitəsi ilə Peyğəmbərimizə vəhy edilmişdi. "Aləq" surəsinin

---

[58] Yenə orada

[59] Aləq, 1-5 ; Bu, 610-cu il Ramazan ayında baş vermişdi. Z.M.Büünyadov. Dinlər, təriqətlər, məzhəblər.. s. 145

yuxarıda qeyd olunan ilk beş ayəsindən sonra bir müddət vəhy kəsilir. İslam tarixində "fəthətu-l-vəhy" (bəlkə fasılətu-l- vahy) adlanan bu fasilə bəzi rəvayətlərə görə bir neçə ay, digər rəvayətlərə görə isə hətta bir neçə il davam etmişdi. Məhəmməd vəhyin kəsilməsindən çox həyəcanlanmış, qəm-qüssəyə düşmüşdü. Nəhayət bir gün "Duha" surəsinin "And olsun səbrə. And olsun sakitləşməkdə olan gecəyə ki, Rəbbin səni nə tərk etdi, nə də sənə acığı tutdu" buyurulan ilk üç ayəsi nazil olduqdan sonra ardı kəsilən vəhyin yenidən başlandığını bilən Məhəmməd çox sevinib sakitləşdi. Çox çəkmədi ki, "Muddəssir" surəsinin "Ey (libasına) örtünüb bürünmüş (Peyğəmbər)! Qalx, (insanları Allahın əzabı ilə) qorxut!" müjdəsini verən ilk iki ayəsi nazil olub, Məhəmmədə Allah-Təalə tərəfindən rəsulluq (elçilik) vəzifəsinin bəxş olunduğunu bildirdi. O, həmin ayələri əvvəlcə zövcəsi Xədicəyə, bir rəvayətə görə yolda rast gəldiyi Əliyə oxudu, onlar tərəddüd etmədən həmin anda islamı qəbul etdilər. Ayələri eşidən Peyğəmbərin (s) oğulluğu Zeyd ibn Harisə və Əbubəkr də islama gəldilər. Əbubəkrdən sonra Osman ibn Əffan, Əbdürrəhman bin Ovf, Səd ibn Əbi Vaqqas, Zübeyr bin Əvvam, Təlhə bin Ubeydullah kimi Məkkənin adlı-sanlı adamları müsəlman oldular.[60]

Məhəmməd öz dəvətini üç il boyunca gizli şəkildə həyata keçirmişdir. Dövrün tələblərinə uyğun olaraq o, hələ dəvətini aşkar etməmiş, kiçik dairədə fəaliyyət göstərib, bəzi adamları islama dəvət etmişdi.

Lakin 614-cü ildə "Hicr" surəsinin "(Ya Rəsulum!) Sənə əmr olunan Quranı açıq-aşkar təbliğ et və müşriklərdən üz döndər. Şübhəsiz ki, istehza edənlərin (şərindən) səni qorumağa Biz kifayət edərik!" ayələri nazil olduqdan sonra o, islam dinini aşkar təbliğ etməyə başladı. Məhəmməd (s) tez-tez Kəbəyə gedib Quranı-Kərimin mübarək ayələrini oxuyur, öz qövmünü islamı qəbul etməyə çağırırdı. İlk dövrlərdə bu təbliğə laqeyd yanaşan Qüreyş

[60] Z.M. Bünyadov. Dinlər, təriqətlər...s. 145-146.

qəbiləsi tədricən müsəlmanların sayının artdığını, Məhəmmədin bütləri və bütpərəstliyi rədd etdiyini gördükdə, mövqelərini dəyişib, müsəlmanları incitməyə başladılar. Peyğəmbər (s) islamı təbliğ etmək və yaymaq üçün əlindən gələni edirdi. Qurani-Kərimin "Şuəra" surəsinin "(Əvvəlcə) ən yaxın qohumlarını (Allahın əzabı ilə) qorxudub xəbərdar et" buyuran 214-cü ayəsi nazil olan kimi o, öz qohum-əqrəbasını və qüreyşliləri Kəbənin yaxınlığındakı Səfa təpəsinə toplayıb, onlara tapındıqları bütpərəstliyin yanlış olduğunu bildirdi.[61]

İslamın zühuru və yayılması hər bir müsəlman tərəfindən ilahi möcüzənin, Peyğəmbərin risaləsinin haqq olduğunun əməli sübutu kimi qəbul olunur. Hətta mömin olmayan şəxs qədim Ərəbistan kimi bütpərəstlik və müşriklik ənənələrinin hakim olduğu, ictimai münasibətlərin inkişafının ləngimiş olduğu bir mühitin dar və zəif özülü üzərində belə möhtəşəm və kamil bir binanın ucaldılmasını möcüzə olmasa da, ağlasığmaz və təəccüb doğuran bir hadisə hesab edirdi. Bu prosesi müəyyən sosial və mədəni amillərlə izah etmək, din alimlərinin fikrincə, düzgün deyildir, bu, ilahi iradənin təcəssümüdür[62]. "Allah peyğəmbərliyi hara (kimə) göndərəcəyini Özü daha yaxşı bilir" (Ənam,124).

Məhəmmədin bəşəriyyətə təqdim etdiyi "Tək və hər şeyə Qadir Allah" ideyası cahiliyyət pərakəndəliyindən və özbaşınalığından təngə gəlmiş insanların tezliklə onun ətrafında birləşmələrini təmin etdi. O, aydın və xalq üçün anlaşıqlı dildə, özündən yox, yalnız Allahdan ona vəhy olunanları danışırdı.[63]

Hz.Məhəmmədin peyğəmbərliyi cahanşümulluğu və daimiliyi ilə fərqlənir. Onun peyğəmbər göndərilməsi bütün dövrlər və məmləkətlərə səpələnəcək peyğəmbərlər ordusunu əvəz etdi. Məhəmmədin ağlının gücü və siyasəti ona bütün rəqiblərinə qalib

---

[61] Yenə orada, s. 146.

[62] Ramiz Mürsəlov. Mədinəyə hicrət və erkən müsəlman icmasının ideoloji və inzibati əsaslarının qoyulması. Bakı, 2012, s. 4.

[63] Yenə orada, s .5.

gəlməyə imkan yaratdı.[64] Bu məsələdə müridlik (həqiqəti istəmək, axtarmaq) də mühüm rol oynayırdı ki, bu üç hərəkətdən – dəvət, təriqət və cihaddan ibarət idi. İnsan əvvəlcə düzgün yola dəvət olunur, sonra iman yolunu tutur, bunlar olmasa cihada başlanır.[65]

Məhəmmədin peyğəmbər göndərilməsi bəşəri varlıqda inkişafın mərhələlərindən birini təşkil edir. Məhəmmədin peyğəmbər təyin olunması (məb"əs) gününün, özlərini Əhli-beytin ardıcılları hesab edən şiələr 27 rəcəbdə, əhli sünnələr isə ramazan ayında olduğunu iddia edirlər.[66]

Peyğəmbərin təyin edildiyi dövrdə Məkkə nəfsi istək və günah fırtınasının təlatümə gətirdiyi dəryanı xatırladırdı. Orada yaşayan insanlar şəhvətə aldanmış, düşüncələri şil-küt olmuşdu, onlar doymaq bilməyən nəfslərini təmin etmək üçün yaşayırdılar. Allahı və axirət gününü inkar, dünya nemətlərinə aludəlik, cah-cəlal və rifah arxasınca qaçma, hökmranlıq və nüfuz sahibi olmaq hərisliyi, təkəbbürlük, uğrunda savaşların başlandığı və sülhün unudulduğu mənasız qəbilə təəssübkeşliyi... və s. hökm sürürdü. Məkkə o qədər doymuşdu ki, azğınlaşmış, nemətlərə naşükürlük etməyə başlamışdı. Hz.Məhəmmədin peyğəmbərliyini qəbul etməyən Əmr ibn Hişam deyirdi: "Əbdülmüttəllib oğulları ilə şərəf-izzət və hörmət-şanda elə rəqabət aparırdıq ki, cıdırda yan-yana qaçan atları xatırladırdıq. Bir də eşitdik ki, bizim vəhy alan peyğəmbərimiz var. Allaha and olsun ki, ona gəldiyi kimi bizə də vəhy gəlməzsə, ona nə iman gətirərik, nə də tabe olarıq!" Deyilənə görə Valid ibn Müğirə Peyğəmbərə (s) deyibmiş: "Əgər peyğəmbərlik haqq olsaydı, ona səndən daha layiq mən idim, çünki yaşca səndən böyüyəm, var-dövlətim də səninkindən çoxdur!"

Vəhy bütün insanlara gəlmir, o insanlar Allah tərəfindən peyğəmbər seçilir ki, şüur səviyyələri yüksəkdir, üstün keyfiyyətləri

[64] Mirzə Kazım Bəy, s. 25
[65] Yenə orada, s. 26
[66] Cəfər Sübhani, yenə orada, s. 144-146.

vardır, ən gözəl əxlaqa sahibdirlər, fikirləri son dərəcə bitkindir. Onlar bu məziyyətlərdə digərlərindən üstündürlər. Həyat yolları bir kənara atılacaq, danışdıqları da diqqət edilməyəcək qədər adi deyildirlər.[67]

Kök salmış bu cür ağılsızlıq, sarsaqlıq və səfehliklə seçilən təkcə Məkkə deyildi. Bir az qabağa gedərək qeyd edək ki, Yəsribdə Abdullah ibn Übeyy də belələrindən idi. Onu Yəsribin başçısı seçəcəkləri bir vaxtda Peyğəmbər Yəsribə gəlib çıxmışdı, Abdullah liderliyə çata bilməmişdi. Peyğəmbər (s) xəstə Səd ibn Übadəyə baş çəkməyə gedərkən, Abdullah ibn Übeyyin olduğu məclisə təsadüf edir, oradakıları islama dəvət edib, Quran oxuyur. Übey deyir: "Ey adam, dediklərini xoş qarşılamıram, hətta dediyin doğru olsa da, bizi məclisimizdə narahat etmə. Yanına gələn olarsa, bunları ona danış".

İlk Kitab əhli arasında şayiələr dolaşırdı ki, yaxında bir peyğəmbər zühur edəcəkdir. Bu şayiələri təsdiqləmək mümkündür. Əvvəllər insanlar peyğəmbərlərin davamlı şəkildə gəlməsinə alışmışdılar; bir peyğəmbərlə digəri arasındakı müddət uzun çəkmirdi. Çox vaxt peyğəmbərlər eyni əsrdə yaşayır, ya eyni ölkədə, ya da müxtəlif diyarlarda öz vəzifələrini icra edirdilər. Lakin Hz.İsadan sonra, haradasa, altı əsr keçsə də, yeni peyğəmbər gəlməmişdi.

Cahiliyyət dövründə ərəblər Hz.Məhəmmədi böyük tutur, bitkin şəxsiyyətə sahib bu gəncə ehtiram göstərirdilər. Lakin təsəvvürlərinə belə gətirmirdilər ki, gələcək onun əli ilə cızılacaq, təmiz ağzından hikmət fışqırıb düzləri və səhraları bürüyəcək, dərələri-təpələri adlayacaqdı.

Allahın (c.c.) Məhəmmədi peyğəmbər seçməsi insanlar üçün gözlənilməz olmuşdu. Bu gözlənilməzliyin vahiməsi uzun çəkmədi: o, özünü aşkara çıxardı, ona tapşırılanı güclü çiyinlərinə alıb, mətanətlə yoluna davam etdi. Qüdrətli və Böyük Allah Peyğəm-

---

[67] Məhəmməd Qəzali. Peyğəmbərin həyatı, 1 cild. Tərcümə, redaktə, ön söz və şərhlərin müəllifi Elvüsal Məmmədovdur. Bakı, 2015, s. 60.

bərini (s) öyrədirdi. Peyğəmbər də bu canlı bilikləri qəbul edib mənimsəyir, özünün bir parçasına çevirir, daha sonra insanlara öyrədirdi. Quranın bu cür nazil edilməsini Allah istəmişdi. Çünki zaman könülləri tərbiyədə, xalqları idarədə, hökmləri çıxarmada mühüm rola malikdir. 23 il sonra enmiş son hökmlər ilk hökmlərə uyğun idi, hökmlər bir-birini təsdiqləyib tamamlayırdı.

“Kafirlər: “Quran ona (Məhəmmədə) bütöv (birdəfəlik endirilməli idi!)-dedilər. (Ya Rəsulum!) Sənin ürəyinə səbat (qətiyyət) vermək üçün Biz onu ayə-ayə (tədricən) nazil etdik. Quranın az-az endirilib, ağır-ağır oxunması onun əzbərlənməsini və mənalarının anlaşılmasını (asanlaşdırır). (Ya Rəsulum! müşriklər) sənin yanına gəlib, elə bir məsəl çəkməzlər ki, Biz sənə (onun) doğrusunu və onların gətirdikləri (misallardan) izahatca daha yaxşısını gətirməyək” (əl-Furqan, 32-33).

İslam, həqiqəti ağılla bilmək, hisslərlə onu sevmək, ona ehtiram göstərməkdir, batilə nifrət, açıq-aşkar ona ədavət bəsləməkdir.

Peyğəmbər Kitabı ilə fəxr etmişdir, Kitab və imanla ömür sürmüş, bunun üçün yaşamışdır. Düşmənləri çox arzulayırdı ki, Peyğəmbər (s) onlara meyl etsin, amma bu arzu əbəs idi!

Ayələrini çatdırıb, missiyanı-risaləti daşısın deyə Allahın seçdiyi Peyğəmbər insanlar arasında canlı Quran idi. Allah (c.c.) Peyğəmbərinə icazə vermişdi ki, əmr etsin, qadağa qoysun və insanlar da bu işdə ona tabe olsun. Hz.Məhəmməd kamil idi. Onun həyatı ali qəhrəmanlıqlar üçün Allahın qoyduğu yaradılış qanunauyğunluqlarına uyğun gəlirdi. Hz.Məhəmməd (s) xəyallar içində itib-batan birisi deyildi; həyatı və dəvətində xurafatı əsas götürməmişdi. O, uzaqgörən, real dünya ilə yaşayan şəxs olmuşdur. Bir şey etmək istədikdə imkanlarını götür-qoy edər, məqsədinə çatmaq üçün reallığı nəzərə alardı.[68]

---

[68] Məhəmməd Qəzali. Peğəmbərin həyatı. I c. Tərümə edən Elvüsal Məmmədovdur. Bakı, 2015, s. 60

Ən-Nisə surəsinin 102-ci ayəsində Allah-Təalə (c.c.) Peyğəmbərə deyir ki, bir dəstəniz namaz qılanda o biri dəstəniz onu qorusun. O, Peyğəmbərə (s) diqqətli olmağı, döyüş vaxtı tapşırılanları dəqiqliklə yerinə yetirməyi tapşırır. Müsəlmanları arxayın eləmir ki, mələklər gəlib onlara kömək edəcəklər. Bir az irəliyə gedərək qeyd edək ki, müsəlman döyüşçülər Uhud döyüşündə Peyğəmbərin tövsiyələrinə diqqətlə əməl etmədiklərinə görə çətin vəziyyətə düşüb, uduzdular.

Mənbələr və Azərbaycan islamşünaslarının göstərdikləri kimi Hz.Məhəmməd kökü təmiz, əsil-nəcabətli ailədə anadan olmuşdu. Bu ailə ərəblərin bütün müsbət keyfiyyətlərini özündə cəm etmiş, onlar arasında yayılmış murdar və çirkin adətlərdən uzaq olmuşdur. Peyğəmbər özü haqqında demişdir:

“Allah İsmayılın övladları arasından kənaniləri, kənanilər arasından qüreyşiləri, qüreyşilər arasından haşimioğullarını, haşimioğulları arasından məni seçmişdir.[69] Hz.Məhəmməd əsil-nəcabətli ailədən çıxsa da, varlı deyildi. Buna baxmayaraq, az var-dövlət və əsil-nəcabət onda ən üstün məziyyətlərin cəmlənməsinə səbəb olmuşdu. Peyğəmbərin babası Əbdülmüttəlib Məkkənin lideri- ağsaqqalı idi. Lakin onun vəfatı ilə bu liderlik itirilmiş, övladlarının əlindən çıxmışdı. Məkkəyə rəhbərlik Əbdüşşəms ailəsi, sonradan Əbu Süfyanın əlinə keçmişdi. O isə bunun hesabına varlanaraq, Peyğəmbərin (s) ən qatı düşməninə çevrilmişdi, çünki hakimiyyətinin əlindən gedəcəyindən qorxurdu və var qüvvəsi ilə Peyğəmbərə qarşı mübarizə aparırdı. Yeri gəlmişkən, onun oğlu Müaviyə və nəvəsi Yezid Peyğəmbərin balalarını zəhərlədilər, qırdılar və onlara zülm etdilər.

Peyğəmbər haqqında ədəbiyyatda onun əcdadının Hz.İbrahimin (ə) yolunu davam etdirdiyi qeyd edilir; o, dövrünün heç bir rahibi, kahini və ya filosofundan nə isə öyrənməmişdi; əksinə,

[69] Məhəmməd Qəzali. Peyğəmbərin həyatı, s. 65.

zəngin zəkası, təmiz vicdanı ilə “həyat səhifələrini mütaliə etmiş”, insan və toplumların vəziyyətini öyrənmişdi.

Qüreyş üçün Ficar müharibəsi “haram” ayların müqəddəsliyi və “haram” ərazinin toxunulmazlığını qorumaq üçün aparılmış müdafiə savaşı idi. “Haram ay” və “haram ərazi” anlayışı ərəblərin ehtiram bəslədiyi İbrahim dinindən qalmışdı. Bu ehtiram onlara fayda gətirir, sülh razılaşmalarını zəmanət altına alır, düşmənliklərini sakitləşdirirdi (rəcəb, zülqədə, zülhiccə, məhərrəm haram aylar sayılır). Lakin insanlar çox keçmədən bu toxunulmaz qaydaları pozanlarla üz-üzə gəlib, onlarla savaşmağa məcbur oldular. Ficar müharibəsi toxunulmaz dəyərlərin tapdanılması səbəbindən baş vermişdi, o, dörd il davam etdi. O vaxt Məhəmməd 15-19 yaşlarında olardı. Rəvayətlərə görə o, müharibədə iştirak etmiş, əmilərini oxla təmin edərək, döyüşənlərə kömək etmişdi. Yeri gəlmişkən, bir az irəli gedərək qeyd edək ki, qanunlara hörmət edilməsi haqqında Abdullah ibn Abbas nəql edir ki, Peyğəmbər Xalid bin Validin başçılığı ilə (müşrik qəbilələrdən biri ilə döyüşmək üçün) kiçik bir qoşun göndərdi. Əmmar Yasir də onunla birgə idi. O qəbilədən bir nəfər Əmmarın yanına gəlib, islamı qəbul etdi və ondan aman istədi. Əmmar da ona aman verdi. Xalid bin Valid Əmmarın bu işindən qəzəblənib, onunla savaşdı və onlar Peyğəmbərin yanına gəldilər. O, bir daha icazəsiz başqasına aman verməməyi tapşırıb, Əmmarın verdiyi amanı da qəbul etdi. Sonra (ən-Nisə, 59) ayəsi nazil oldu və əmr sahiblərinə itaət etməyin vacibliyini bildirdi. Xalid Əmmara Peyğəmbərin yanında nalayiq söz deyəndə o, Xalidə: “Əmmara nalayiq söz demə. Hər kəs ona nalayiq söz desə, Allah öz inayətini ondan kəsər. Hər kəs Əmmarı qəzəbləndirsə, Allah ona qarşı qəzəb edər, hər kəs Əmmara lənət göndərsə, Allah da ona lənət edər” - deyir.[70]

---

[70] Əl-Vaqidi ən-Nişapuri. Əsbəbun-nuzul, s. 131-132; Ət-Təbəri. Cəmulbəyan an təhvili ayətil-Quran, c. 4, s. 148, 5-ci hissə; İbn Kəsir.Təfsirul-Quranil-Əzim, c. 1, s. 530;

Cahiliyyət illərində bəzi xeyirxah insanlar “haram torpaqlarda” unudulmuş yaxşı davranışları geri qaytarmaq ümidi ilə Abdullah ibn Cədanın evində “Hilfu-fuzul” (Böyük anlaşma) adlanan müqavilə bağladılar. Qüreyşin Bəni-Haşim, Bəni-Müttəlib, Bəni-Əsəd ibn Əbdülüzza, Zöhrə ibn Kilab və Təmim ibn Mürrə qəbilələri tərəflər idilər. “Füzul”- böyük, üstün dəyər və məziyyətlərin mühafizəsi - mənasını verirdi. Məhəmməd də bu müqavilənin bağlanmasında iştirak etmişdir. Müqaviləyə görə Məkkədə nə məkkəliyə, nə də qeyri-məkkəliyə zülm olunmayacaqdı. Sonralar Peyğəmbər (s) demişdi: “Əmilərimlə birlikdə Abdullah ibn Cədanın evində elə bir anlaşmada iştirak etmişəm ki, o, mənə qırmızı dəvədən daha xoşdur. İslam gəldikdən sonra bu cür anlaşmaya çağrılsaydım, gedərdim”[71].

Peyğəmbər bildirmişdi ki, namus, var-dövlət və canın toxunulmazlığı Allah yanında Kəbədən daha üstündür. Kəbənin, yaxud ondan bir hissənin zərər verib, fayda gətirəcəyini düşünmək bütpərəstlikdir. Məhəmmədə peyğəmbərlik verilməmişdən əvvəl Məkkədə yağışdan sel yaranmış, Kəbəni su basmışdı. Kəbənin uçmaq təhlükəsi olduğundan Qüreyş böyükləri və əsil-nəcabatlılar onu yenidən tikmək qərarına gəldilər. Hamı, o cümlədən Məhəmməd də həvəslə işləyirdilər. Qara daşı divarın küncünə yerləşdirmək üstündə mübahisə yarandı. Sonda, Səfa qapısından ilk daxil olacaq adamın daşı yerinə qoymasına razılaşdılar və bu vaxt Məhəmməd oradan daxil oldu. O, çox gözəl bir təklif verdi: Daşı bir parça üzərinə qoyaraq, hər qəbilə başçısı onun bir ucundan, Məhəmməd də bir ucundan tutmaqla daşı divarın küncünə yerləşdirdilər.

Peyğəmbərin təyin edilməsindən əvvəl ərəb bütpərəstliyinə rişxəndlə baxıb, xalqın uydurmalarla yaşadığını bilənlər də vardı.

---

Əs-Suyuti. Əd-Durrul-mənsur fi-t-təfsiril-məsur, c. 2, s. 573-574; H.F.Nurullah, yenə orada, s. 233.

[71] İbn Hişam. Peyğəmbərin həyatı, c. 1, s. 92; Məhəmməd Qəzali. Peyğəmbərin həyatı, c. 1, s. 123 (Tərcümə Elvüsal Məmmədovundur).

Lakin onlar ərəbləri bütpərəstlikdən uzaqlaşdıracaq güc və vasitələrə sahib deyildilər.

İran alimi Ayətullah Seyyid Məhəmməd Hüseyn Fəzlullah qeyd edir ki, nübüvvət başqa dastan və rəvayətlərdən bir çox xüsusiyyətlərinə görə fərqlənir. Bu dastan mursil (Allah, varlığın Yaradıcısı, göndərən), rəsul (elçi, bənzərsiz şəxsiyyət, göndərilən) Hz.Muhammməd (s), sünnət və islam risalətidir. Quranda insan və rəsul kimi qeyd edilən Məhəmmədin bütün təcrübələrini müşahidə etdikdə iki şəxsiyyətin (insan və rəsul) birləşərək "din"in təcəlli etməsini, yeganə həqiqəti və ayrılmazlığı görürük.[72]

Hz.Məhəmmədin peyğəmbərliyinin başlanğıcında Əlinin (ə) də imamətinin elan edilməsi onu göstərir ki, bu iki məqam ayrı deyil. Peyğəmbər camaata təqdim olunduğu gün onun canişini də tanıtdırılır, deməli Məhəmməd axırıncı peyğəmbər olduğundan peyğəmbərliklə imamətliyin kökü bir olub, bir-birinə bağlıdır.[73]

Gizli dəvət illərində Qüreyş müşrikləri, xüsusilə də Əbu Süfyan Məhəmmədin dəvəti haqqında eşitdikdə istehza ilə gülüb, "Bu da xaçpərəstliyi təbliğ edən Vərəqə və Üməyyə kimi sakitləşəcək" deyir. Onlar Peyğəmbərə bu müddətdə hörmətsizlik etmir, Peyğəmbər də açıq şəkildə bütləri tənqid etmirdi. Dəvətin ilkin mərhələsi bütlərin əleyhinə hücuma qalxmadan və ya əldədüzəldilən allahlar haqqında pis danışmadan Tək Allaha iman gətirmək və Hz.Məhəmmədin risalətinə şəhadət verməkdən ibarət idi. [74] Be"sətin dördüncü ilində "Və ən yaxn qohumlarını qorxut" ayəsi nazil olduqda açıq dəvət başlandı.[75] Peyğəmbər bütləri, müşrikləri açıq şəkildə pisləməyə başladıqda, Qüreyş müşrikləri başa düş-

---

[72] Ayətullah Seyyid Məhəmməd Hüseyn Fəzlullah. Əhli-beytin həyat tərzi. Həzrət Muhammməd. Bakı, 2007, s. 14-28

[73] Yenə orada

[74] Yenə orada

[75] Əş-Şüəra, 26 (214); Hacı Fuad Nurullah. İmam Hüseyn (ə), s. 42.

dülər ki, bu, Vərəqə və Üməyyə dəvəti deyil və ona qarşı ciddi mübarizəyə başladılar.[76]

Gizli dəvətin aparıldığı üç il ərzində Qüreyş qəbilələrinin başbilənləri eyş-işrətlə gün keçirir, Məhəmmədin (s) gizli fəaliyyətindən qismən xəbərdar olsalar da, hər hansı əks reaksiya vermirdilər. Bu müddət ərzində Məhəmməd bəzi səhabələrlə Məkkəətrafı dərələrə çəkilib, orada namaz qılır, öz fikirlərini söyləyirdilər. Bir dəfə müşriklər bu vəziyyətə istehza etdikdə Səd ibn Əbu Vaqqas onlardan birini yaraladı. Bundan sonra Məhəmməd Ərqəmin evini namaz qılmağa təyin etdi.

Məhəmməd Allah tərəfindən peyğəmbər təyin edildikdən üç il sonra yuxarıda qeyd edildiyi kimi, "Hicr" surəsinin ayəsi olan Allahın əmri ilə qohum-əqrəbasını islama dəvət etməyə başlayır. Bu vaxta qədər o, kiçik bir dəstəni haqq yola dəvət edə bilmişdi. İndi isə öz dəvətini açıq şəkildə həyata keçirməli idi. Artıq qeyd olunduğu kimi, bir gün o, Kəbə yanındakı Səfa təpəsinə qalxıb, uca səslə "Yə səhabə!" deyə səslədi (Bu ifadə adətən təhlükə vaxtı istifadə olunurdu). Peyğəmbərin çağırışı camaatın diqqətini cəlb etdi. Qüreyşin müxtəlif qəbilələrindən adamlar dəstə-dəstə onun yanına tələsdilər. Camaat toplaşdıqdan sora Peyğəmbər dedi: "Camaat, dağın arxasında düşmən dayanıb, sizə onların hücuma hazırlaşdığını desəm, mənə inanarsınızmı? Hamı bir ağızdan "bəli" dedi. Çünki ömür boyu səndən yalan eşitməmişik". Onda Hz.Məhəmməd (s) dedi: "Ey Qüreyş əhli, özünüzü oddan xilas edin! Mən, Allah qarşısında sizin üçün heç bir iş görə bilmərəm. Sizi acınacaqlı əzabdan çəkindirirəm. Mən, düşməni uzaqdan görüb, bu barədə öz qövmünə xəbər verən gözətçiyə bənzəyirəm". Hamı sükutla gözlədiyi vaxt Peyğəmbərin əmisi Əbu Ləhəb (od atası – yəni "cəhənnəmlik") öz acı dilini işə salıb "Vay olsun sənə! Bizi

---

[76] Cəfər Sübhani. Həzrət Muhəmməd, s. 157-162.

elə buna görə bura yığmısan”? - deyir. Beləliklə, camaat yavaş-yavaş dağılışır.[77]

Məhəmmədin bu çıxışı haqda Quranda da ayə vardır: “De: “Əgər Allah istəsəydi, mən onu (Quranı) sizə oxutmazdım və Allah da onu sizə bildirməzdi. Mən ondan (Quran nazil ediləndən) qabaq sizin aranızda (qırx il) ömür sürmüşəm. Bu müddət ərzində məni doğru danışan bir adam kimi tanıyırsınız. Qırx yaşından sonra mən necə sizə yalan deyə bilərəm? Məgər (bunu) dərk etmirsiniz” (Yunus,16).[78]

Bu hadisədən sonra Məkkədə müsəlmanlardan ibarət böyük bir dəstə yarandı. Güclü Qüreyş bu dəstəni asanlıqla dağıda bilərdi, lakin dəstə təkcə qüreyşilərdən ibarət deyildi, başqa qəbilələrdən də çoxlu müsəlman olan vardı, onlarla mübarizə aparmaq çətin idi. Odur ki, qüreyşilər Peyğəmbəri və müsəlmanları ələ almaq və ya qorxudub əziyyət vermək və ya, bu da nəticə verməsə Məhəmmədi öldürmək üçün onillik plan nəzərdə tutmuşdular.[79]

Bu vaxt Bəni-Haşimə, Məkkə və Kəbəyə başçılıq edən mənəviyyatca təmiz, iradəli və səxavətli insan, Əlinin atası, Hz.Məhəmmədin (s) əmisi Əbu Talib idi. O, ərəblər arasında böyük nüfuza malik idi. Qüreyş başçıları yığışıb onun yanına getdilər və dedilər: “Qardaşın oğlu tanrılarımızı pisləyib, əqidəmizə istehza edir, ata-babalarımızın düz yolda olmadığını deyir. Ona de ki, bizimlə işi olmasın, ya da onu himayəndən çıxarıb, bizim ixtiyarımıza burax”. Yuxarıda qeyd edildiyi kimi babası - Əbdülmüttəlib öləndən sonra Məhəmmədi əmisi Əbu Talib himayəyə götürmüşdü. Əbu Talib onlara mülayim cavab verib, onları sakitləşdirir. Peyğəmbər isə Quranın bəlağətli ayələrindən istifadə edib, haram aylarda Həccə gələnlər arasında öz dəvətini davam etdirirdi. Müşrik başçıları bir də ayıldılar ki, Məhəmməd ətraf qəbilələrdə özünə

[77] Sireyi Hələbi, c.1, s. 194; Cəfər Sübhani. Hz.Muhəmməd. s. 163.
[78] Əbdülhəmid əbu Süleyman. Ağıl və möcüzə...,s.
[79] Cəfər Sübhani. Hz.Muhəmməd, s. 164-165.

xeyli tərəfdar toplayıb. Onlar yenidən Əbu Talibin yanına gəlib, onu hədələdilər. Əbu Talib onların əsəblərini cilovlamaqdan ötrü qardaşı oğlu ilə danışacağına söz verdi.[80] Əbu Talib Məhəmmədin (s) bu yolda nəyə qadir olduğunu bilmək istəyirdi. Peyğəmbər ona dedi: "Əmi, Günəşi sağ, Ayı sol əlimə versələr belə (yəni bütün dünyanı mənə versələr) yenə öz məqsədimdən dönən deyiləm". Çünki, bu, Allahın əmri idi. Əbu Talib qarşıdakı təhlükəni görsə də, belə dedi: "Allaha and olsun ki, səni himayə etməkdən çəkinməyəcəyəm. Öz işini sonadək davam etdir".[81]

Qüreyş başçıları islamın durmadan inkişafını görüb, üçüncü dəfə Əbu Talibin yanına gəlirlər və özləri ilə Ümarə ibn Valid ibn Müğeyrəni də gətirdilər. Onlar Əbu Talibin Məhəmmədi oğulluğa götürdüyünü zənn edib, Ümarəni ona oğulluğa təklif etdilər. Əbu Talib bundan çox qəzəblənib dedi: "Mənə həddən artıq pis təklif etdiniz. Mən sizin uşağınızı öz qucağımda böyüdüm, siz isə mənim uşağımı, ciyərparəmi qətlə yetirəsiniz. And olsun Allaha, bu iş baş tutan deyil!" Müşriklər növbəti dəfə Əbu Talibin yanına gəlib, Məhəmmədi mal-dövlət və vəzifə ilə aldatmaq istədilər. Peyğəmbər isə onlara: "Mən sizdən heç bir şey istəmirəm. Mənim bircə təklifim odur ki, Allahın təkliyini qəbul edəsiniz". Bu cavab onları şoka saldı. Onlar dedilər: "360 tanrı əvəzinə tək Allahamı inanaq! Biz bunu sonuncu din xaçpərəstlikdə də eşitmişik".[82]

Bu vaxta qədər Məhəmmədin hörmətini saxlayan bütpərəstlər budan sonra islamın inkişafının qarşısını almaq üçün hər vasitəyə əl atmağa başladılar. Əbu Talib bütün Bəni-Haşim nümayəndələrini yığıb Məhəmmədi dəstəkləməyə çağırdı. Bunun Peyğəmbərə (s)

---

[80] Yenə orada, s. 165-166.

[81] Cəfər Sübhani, yenə orada, 166

[82] Əl-Kəmil fit-tərix, c. 2, s. 56; Cəfər Sübhani.Hz.Muhamməd (s), s. 168-169.

böyük köməyi olsa da Əbu Cəhl Səfa təpəsində Məhəmmədi təhqir edir. Bunu eşidən Məhəmmədin əmisi və süd qardaşı cəsur Həmzə Əbu Cəhlin başını kamanla yaralayır, o, öz səhvini boynuna alır. Həmzənin islamı qəbul etməsi islamın tərəqqisində böyük amil idi.[83] Sonradan Əbubəkr və Ömər ibn Xəttab da islamı qəbul edirlər, bu da müsəlmanlara kömək etdi. İslamın yayılmasının qabağını almaq üçün müşriklər Bilal Həbəşi, Əmmar Yasir və ata-anası, Abdullah ibn Məsud, Əbuzər və (gücləri çatan) başqalarına olmazın işgəncələr verirdilər.

Müşriklər insanların Peyğəmbərlə danışdıqdan sonra islamı qəbul etdiklərini görüb, hər yolla bunun qarşısını almağa çalışırdılar. Böyük şair Ə"şanı da yoldan edib geri döndərirlər. O, Peyğəmbərə yaxşı mədh yazmışdı. İçgi düşgünü olduğu üçün evinə dönüb daha bir il içmək, sonra Peyğəmbərin yanına gəlib müsəlman olmaq istəyir, ancaq ölür.[84]

Tüfeyl bin Əmr isə öz qəbiləsində ad çıxarmış şair idi. Müşriklər onu Məhəmmədə yaxın buraxmaq istəmirdilər. O, qulaqlarına pambıq tıxayıb Kəbəni təvaf edirdi ki, Peyğəmbərin sözlərini eşidib, ona valeh olmasın. Necə oldusa, lap yaxında olduğu üçün Məhəmmədin şirin səslə Quran oxuduğunu eşitdi, özünü danladı ki, sən şairsən, söz xridarısan, qulaq as, xoşun gəlsə qəbul, gəlməsə, rədd et. Sonra Peyğəmbər evə gedəndə dalınca gedir, əhvalatı ona danışır və Peyğəmbər islamı ona açıqlayıb, Quran oxuyur. Tüfeyl bu vaxta qədər belə şirin söz eşitmədiyini deyib, öz qəbiləsində islamı yaymağa başlayır. Xeybər döyüşündə 70-80 nəfərlə Peyğəmbərə köməyə gəlir.[85]

Məhəmmədə ilk vəhy, yuxarıda qeyd olunduğu kimi, 610-cu ilə aid edilir. Bu vaxtlar o, Məkkə yaxınlığındakı Cəbəlu-n-Nur dağının Hirə mağarasına çəkilər, ibadət edərdi. Müəlliflər ona

---

[83] Sireyi İbn Hişam, c. 1, s. 31; Tərix Təbəri, c. 2, s. 72; Cəfər Sübhani. Hz.Muhamməd, s. 170

[84] Cəfər Sübhani, yenə orada, s. 211

[85] Sireyi İbn Hişam, c.1, s. 410; Cəfər Sübhani, yenə orada, s. 212.

gələn ilk vəhyin müxtəlif ayələr olduğunu göstərsələr də, bizcə bu "Ələq" surəsinin ayələridir (1-19). Çünki, burada oxumağı bilməyən Məhəmmədə ilk dəfə "İnsanı yaradan Rəbbinin adı ilə oxu!" əmri verilir. Sonra isə "Allahın ən kəramətli olduğu, oxuyub-yaza bilməyən insanı qələmlə öyrətdiyi" qeyd olunur. Deməli, ilk nazil edilən də "Ələq" surəsinin ayələridir. Bəzi mənbələr isə o vaxta qədər onun qulağına başa düşülməyən bəzi səslərin gəldiyini qeyd edirlər.[86]

Məhəmməd Allahdan ona vəhy gəldiyini, Onun Tək olduğunu, hər şeyə qadir olduğunu, bütlərin boş şey olduğunu, Tək Allaha ibadət etməyi insanlara tövsiyə edirdi. Məhəmmədin (s) ilk çıxışlarını düşmənçiliklə qarşılayan Məkkə əyanları əvvəlcə onu dilə tutmaq, sonra isə qorxutmaqla tutduğu yoldan çəkindirməyə çalışdılar, onu hətta öldürməyə cəhd etdilər. Peyğəmbərin həyatını qələmə alan İbn Hişam (İbn İshaqa istinadən) belə yazır: "Məkkə əyanları Məhəmməddən soruşdular: "De görək istədiyin nədir?" Sonra ona belə təklif etdilər: "Əgər sən şöhrət axtarırsansa, biz səni bütün ərəb qəbilələrinin başçısı edərik, əgər sənə var-dövlət lazımdırsa, biz onu da sənə verərik". Məhəmməd onları rədd etdikdə isə, əsəblənmiş qüreyşlilər demişdilər: "Yox, əgər sən doğurdan da peyğəmbərsənsə, bunu bizə sübut et! Bizim torpaqlarımızı zəngin otlaqlara çevir, ya camaatımızı ehtiyac və aclıqdan qurtarmaq üçün Suriya və İraqdakı çaylardan bizim yerlərdən də axıt. Əgər bacarırsansa bunları et ki, biz sənin doğruçu peyğəmbər olduğuna inanaq"[87].

Peyğəmbər, ailəsi və yaxınlarının haqqa gəlməsini çox istəyirdi, odur ki, onları yenidən islama dəvət etdi. Çünki onların ərəblər arasında nüfuzu yüksək idi. İslamı qəbul edəcəkləri təqdirdə nəticəsi yaxşı olardı. Bibiləri Peyğəmbəri yoxlamağa gələndə demişdi ki, heç nədən şikayətim yoxdur. Amma Allah mənə əmr edib

---

[86] İslam. Ensiklopedik lüğət, s. 368.
[87] Nailə Vəlixanlı. Ərəb Xilafəti, s. 13-14.

ki, ən yaxın qohumlarıma xəbərdarlıq edim. Bibiləri dedilər ki, çağır onları gəlsinlər, Əbu Ləhəbi çağırma, o, gəlməz. Peyğəmbər onları çağırdı, sözə birinci Əbu Ləhəb başladı: "Bunlar sənin əmilərin və əmilərinin uşaqlarıdır. Danış, amma sabiiliyi (özlərini Yəhya peyğəmbərin davamçıları sayan monoteistlər) bir kənara qoy. Onu da bil ki, qəbilən ərəblərə qarşı çıxacaq gücdə deyil! Məndən yaxşı kim səni tutub-saxlaya bilər?! Atanın oğulları sənə bəs edər. Əgər dediklərində israr etsən, Qüreyş tayfaları tərəddüd etmədən sənin üzərinə atılacaqlar, ərəblər də onlara kömək edəcəklər. Atasının oğullarına sənin qədər yamanlıq etmiş kimsə görməmişəm". Peyğəmbər (s) susub, o məclisdə heç bir şey demədi. Daha sonra ikinci dəfə onları çağırıb dedi: "Allaha həmd olsun! Ona şükür edir, Ondan kömək istəyirəm. Ona inanır və Ona təvəkkül edirəm. Təsdiq edirəm ki, Allahdan başqa İlah yoxdur, O, təkdir, şəriki yoxdur... Başçı olan şəxs ailəsini aldatmaz. Özündən qeyri İlahın olmadığı Allaha and içirəm ki, mən, xüsusilə sizə, ümumiyyətlə bütün insanlara göndərilmiş peyğəmbərəm. Allaha and olsun ki, yatdığınız kimi öləcək, oyandığınız kimi həşr olunacaq, bildiklərinizə görə hesaba çəkiləcəksiniz. Qismətiniz ya əbədi Cənnət, ya da həmişəlik Cəhənnəm olacaqdır!". Əbu Talib dedi:

"Sənə kömək etmək necə də xoşdur! Nəsihətini qəbul edib, dediklərini təsdiqləmək bizə xoşdur! Onlar atanın övladlarıdır və mən də onlardan biriyəm. Sevdiyini sevərəm, sənə nə əmr olunubsa, onunla yoluna davam et, Allaha and olsun ki, hələ də səni himayə edib qoruyuram...". Əbu Ləhəb yenə sözə qarışıb deyir: "Allaha and olsun ki, bu, iyrənc hərəkətdir! Başqaları işə qarışmadan ona mane olun!" Əbu Talib yenə dedi: "Allaha and olsun ki, yaşadığımız müddətcə onu qoruyacağıq!" Əbu Talib Məkkənin əsilnəcabatlı adamı idi, Hz.Məhəmmədi böyük tutub, onu qorumağı öhdəsinə götürmüşdü və kimsə özündə cəsarət tapıb, onun himayəyə götürdüyü adama nə isə edə bilməzdi. Əbu Ləhəb isə ağına-bozuna baxmadan öz mənafeyi və nüfuzu üçün çalışan birisi

idi. Hansı işin ona zərər gətirib, etibarını zədələyəcəyini düşünməz, qızışaraq bir sıra axmaqlıqlara yol verərdi. Oğlu Utbə hələ islamdan əvvəl Peyğəmbərin qızını almışdı. Məhəmməd peyğəmbərliyini elan edəndən sonra Utbə Peyğəmbərin qızını boşayıb Suriyaya gedir. Peyğəmbər onu qarğıyır. Rəvayətə görə onu Suriyada səyahət zamanı şir və ya kaftar parçalayır[88]. Bütün bu pisliklərin başında isə Əbu Süfyanın bacısı olan Əbu Ləhəbin arvadı həyasız qadın Ummu Cəmil dururdu. O, Əbu Ləhəbin özündən də pis idi. Uca Allah onların ikisi haqqında "əl-Məsəd" (Quran,111) surəsini endirib, onları rüsvay etmişdir.

Müşriklər isə Peyğəmbər və tərəfdarlarına hər cür mane olurdular. Quranda bu haqda belə deyilir: "Kafir olanlar (öz dostlarına): "Bu Quranı dinləməyin, o oxunduqda (eşidilməsin deyə) səs-küy (şuluqluq salın) ki, bəlkə, bununla (Məhəmmədə) qalib gələsiniz!" - dedilər" (Fussilət, 26). Sonra isə Allah-Təalə buyurur: "Bilirik ki, onların (Quran barəsində) dedikləri söz səni çox kədərləndirir. Həqiqətdə isə onlar səni yalançı hesab etmirlər, ürəklərində sənin həqiqi peyğəmbər olduğunu yaxşı bilirlər. Ancaq o zalımlar (müşriklər) Allahın ayələrini inadla inkar edirlər" (əl-Ənam, 33). Əlbəttə, belə idi. Onlar Məhəmmədin savadsız olduğunu bilirdilər. Bir gündə onun Quran oxuması möcüzə deyildimi?

Peyğəmbər dəvətini açıq elan etdikdən sonra müşriklər qəzəbdən partlamaq həddinə gəldilər, Peyğəmbərin (s) tərəfdarlarının qanını toxunulmaz (haram) torpaqlarda axıdır, evlərini başlarına uçurur, şərəflərini tapdalayır, Peyğəmbərə məcnun deyirdilər. (Müşriklər Peyğəmbərə) belə dedilər: "Ey özünə Kitab nazil edilən kəs! Axı sən divanəsən!" (əl-Hicr, 6).

Əmmar bin Yasir müşriklər tərəfindən olmazın işgəncələrə məruz qalan müsəlmanlardan biri idi. O, Bəni-Məxzum qəbiləsinin köləsi idi. Ata-anası da müsəlman idilər. Müşriklər onlara Əbahda qızmar qumlar üstündə işgəncələr verdiklərindən Yasir kişi əzabla-

---

[88] Z.M. Bünyadov. Dinlər, təriqətlər... s. 84.

ra dözməyib, vəfat etdi. Əmmarın anası Sümeyyəyə işgəncə verəndə o, Əbu Cəhlə ağır sözlər dediyinə görə o, əlindəki mızraqla Sümeyyənin qasığından vurub onu qətlə yetirdi. Belə işgəncələr azançı Bilal, Xəbbab ibn Ərət və başqalarına da verilirdi.

Müşriklər elə bilirdilər ki, zəif müsəlmanlara edilən zülm- işgəncə və onların məsxərəyə qoyulması onları Allah yolundan döndərəcək. Lakin əksinə oldu, onların sayı daha da artdı. Onda onlar Peyğəmbərin, sonra isə Əbu Talibin yanına danışığa adam göndərməyi qərara aldılr və Ütbə ibn Rəbiəni Hz.Məhəmmədin yanına göndərdilər. O, xeyli danışıb, Peyğəmbəri bu yoldan dönməyə çağırdı. Peyğəmbər ona "Fussilət" surəsindən bir neçə ayə oxuyub, Allahın kəlamını ona çatdırdı ki, əgər müşriklər imandan üz döndərsələr, Allah onları Ad və Səmud qövmləri kimi məhv edər. Ütbəni sanki ildırım vurdu, o, Qüreyşin yanına qayıdıb, əllərini Məhəmmədin yaxasından çəkmələrini onlara məsləhət gördü. Eləcə də Əbu Talibin yanına gedən elçilər də əliboş qayıtdılar.[89] Müşriklərin başçıları Məhəmmədin ətraf qəbilələrdə özünə xeyli tərəfdar topladığını görüb, yenidən Əbu Talibin yanına gedib deyirlər ki, sən yaş və vəzifənə görə bizdən üstünsən, biz əvvəl də sənə qardaşın oğlunu bu işlərdən çəkindirməyi demişdik. Ancaq sən buna məhəl qoymadın, artıq səbr kasamız dolub. O, bizim dinimizi tənqid edib, bizi ağılsız adlandırır. Onun qarşısını almasan, ona və onu himayə etdiyinə görə sənə qarşı mübarizə aparacağıq. Qoy bu iki dəstədən biri məhv olsun.[90] Sonra təqiblər və müsəlmanlara qarşı işgəncələr başladı. Əbu Talib Bəni-Haşim nümayəndələrini yığıb Məhəmmədi qorumağı xahiş etdi. Bəziləri iman gətirdiyinə, bəziləri də qəbilə təəssübkeşliyinə görə dəstək verdilər, biri Əbu Ləhəb olmaqla üç nəfər razılıq vermədilər. Bəni-Haşimin dəstəyinə baxmayaraq müşriklər Həzrəti tək görəndə üstünə hücum çəkib, onu təhqir edirdilər. Belə hücumların birində

[89] Məhəmməd Qəzali, yenə orada, s. 168-186.
[90] Cəfər Sübhani, yenə orada, s .165.

Əbubəkr ağlaya-ağlaya müşriklərə deyir ki, "Rəbbim Allahdır" deyən bir şəxsi öldürmək istəyirsiz? Bu sözdən sonra onlar Məhəmməddən əl çəkirlər.[91] Bir dəfə Əbu Cəhl (Həmzə əvvəllər başını kamanla yaraladığından həya etməyib) müşriklərə söz verir ki, Məhəmməd namaz qılanda onun başına daş salacağam. Səhəri dediyinə əməl etmək istədikdə, Allah onun ürəyinə elə qorxu salır ki, o, əlində daş, titrəyə-titrəyə geri qayıdır. Əlbəttə bu, Allahın onun gözünə göstərdiyi möcüzə idi. Əqəbə ibn Əbu Muit isə Peyğəmbər (s) Kəbə ətrafını təvaf edərkən onu söyüb, əmmaməsini başından götürüb onun boynuna salır və məsciddən bayıra çıxarır. Məhəmmədin qonşuluğunda yaşayan əmisi Əbu Ləhəb və arvadı – Əbu Süfyanın bacısı Ummu Cəmil ona ən çox əziyyət verənlər idilər, onlar hər gün onun başına zibil, bir dəfə isə qoyun qarnı atmışdılar. Sonradan Peyğəmbərin azançısı olmuş, əslən həbəş olan Bilal Üməyyə ibn Xələfin qulu idi. Üməyyə Peyğəmbərin qatı düşməni olduğu üçün islamı qəbul etmiş Bilala olmazın işgəncələr verirdi ki, bütpərəstliyə qayıtsın. Azca qabağa gedərək qeyd edək ki, Bədr savaşında müsəlmanlara əsir düşən Üməyyə ilə oğlunu bəziləri buraxmaq istəsə də, Bilalın istəyi ilə ikisi də öldürüldü. Əmmar Yasir, ata-anası, Abdullah ibn Məsud, Əbuzər və başqalarına da belə işgəncələr verilmişdir. Peyğəmbərin (s) bir neçə düşməninin adlarını qeyd etmək istəyirik. Bunlar Əbu Ləhəb, Əsvəd ibn Əbdyəğus, Valid ibn Müğeyrə, Ümeyyə və Übeyy ibn Xələf, Əbulhəkəm ibn Hişam (Əbu Cəhl), As ibn Vail (Əmr ibn Asın atası), Əqəbə ibn Əbu Müit, hiyləgər siyasətçi Müaviyə, atası Əbu Süfyan və s.

Nəhayət, Allah-Təalə müsəlmanlar üçün yol açdı, 614-cü ildə 11 və ya 12 kişi və 4 qadından ibarət ilk müsəlman qafiləsi Həbəşistana hicrət etdi və onlar Həbəşistan hökmdarı Nəcaşinin ədalətinə sığındılar. 615-ci ildə isə 77 (80) kişi və 13 qadından

[91] Sirə İbn Hişam, c1. s. 31; Tarix Təbəri, c.2, s. 72; Cəfər Sübhani, yenə orada, s. 170.

ibarət dəstə Hz.Əlinin qardaşı Cəfər Təyyarın başçılığı altında Həbəşistana hicrət etdi.[92] Qəzəblərinin həddi olmayan müşriklər Abdullah ibn Əbi Rəbiə və Əmr ibn Asın başçılığı altında bir dəstəni müsəlmanları geri qaytarmaq üçün qiymətli rüşvətlə (hədiyyələrlə) Həbəşistana göndərdilər. Onlar yalanlar uydursalar da ədalətli hökmdar onları boş əllə geri qaytardı.

İslamın ən qatı düşmənlərindən olan Ömər ibn Xəttab Peyğəmbəri öldürmək üçün yola çıxmışdı. Yolda öz bacısı və ərinin də müsəlman olduğunu eşidib, onlara gedir, ərini vurub yerə yıxır, sinəsinə çöküb onu boğmaq istəyir, bacısı onu ərinin üstündən çəkmək istəyəndə vurub bacısının üzünü yaralayır, onun üzündən axan qanı gördükdə özünə gəlir, daxilindəki xeyir Allahın əzmi ilə bir anda şərə üstün gəlir, Quranın bəzi ayələri yazılmış vərəqləri oxuyub, "Bu sözlər nə gözəldir" deyir. Ömər haqqa boyun əyib, Peyğəmbərin yanına gedir və islamı qəbul edir.

Böyük cəngavər Həmzə və güclü Ömərin də islamı qəbul etdikdən sonra müsəlmanların nüfuzunun bir az da artdığını görən müşriklər müsəlmanları ümumiyyətdən təcridetmə planına keçdilər. Peyğəmbərlə tərəfdarlarını susuz və kölgəsiz, isti qumluq olan Bəni-Haşim vadisinə qovdular. Bəni-Müttəlib qəbiləsi də müsəlmanlı-kafirli, təkcə doğma tayfasına düşmən kəsilən Əbu Ləhbdən başqa, onlara qoşuldu. Üç il ərzində susuz, ac, qızmar qumlar üstə olmazın əzab-əziyyət çəkən müsəlmanları bazarda alış-veriş etməyə də qoymur, tacirləri onlara yemək-içmək və pal-paltar satmağa qoymur, onların mallarını baha qiymətə özləri alırdılar. Qüreyşin bəzi mərhəmətli adamları Peyğəmbər və tərəfdarlarının belə vəziyyətinə dözməyib, dəvəni azuqə ilə yükləyib, yüyənini buraxıb, həmin vadiyə tərəf yönəldirdilər.

İlk müsəlmanlar hər şeylərini itirəcəklərini bildikləri halda ilahi prinsipi - islamı seçmişdilər. Çəkdikləri ağrı-acı dinin təbliğinə mane olmurdu, əksinə, onları bir az da mübariz edirdi. Bu arada,

[92] Z.M. Bünyadov. Dinlər, təriqəylər... s. 146

Hişam ibn Əmr, Züheyr ibn Əbu Ümeyyə, Mütim ibn Ədiyy, Əbu Buxturi ibn Hişam, Zəm"ə ibn Əsvəd birləşərək, Kəbədə müsəlmanların təcridi barəsindəki qərarı cırıb atmağı öhdələrinə götürdülər. Səhər gəlib Kəbə ətrafına yığışdıqda, Əbu Cəhl onlara mane olmaq istəsə də, bir şey çıxmadı. Mütim qərarı cırmaq üçün Kəbəyə girdikdə möcüzə ilə üzləşdi - qarışqalar kağızı yemiş, təkcə, "Allahım, sənin adınla!" sözləri qalmışdı - cahiliyyət dövründə ərəblər yazdıqlarını bu sözlərlə başlayırdılar.

Bu hadisədən sonra müsəlmanlar Məkkəyə qayıtdılar, lakin sevincləri uzun sürmədi. Peyğəmbəri daim düşmənlərdən müdafiə edən əmisi Əbu Talibin və onu maddi və mənəvi sıxıntı çəkməyə qoymayan sevimli arvadı Xədicənin vəfatı onu çox məyus etdi[93], müşriklərsə yenidən hücuma keçdilər. Rəvayətə görə Peyğəmbər deyibmiş ki, Qüreyş mənə ən böyük əziyyəti Əbu Talibin vəfatından sonra etmişdir. Müşriklər Peyğəmbər (s) və tərəfdarlarını ələ salıb məsxərəyə qoyur, onlar namaz qılarkən üstlərinə zir-zibil, kəsilmiş mal-qaranın içalatını və nəcis atırdılar.

Peyğəmbər Zeydı də özü ilə götürüb, Məkkədən əlli mil məsafədə olan Taifə, tərəfdar-kömək axtarmağa gedir. Lakin taiflilər müşriklərdən pis idilər, onlar uşaqlarını öyrədib, Peyğəmbəri daşa basdılar və o, bir təhər özünü Ütbə və Şeybə bin Rəbiənin bağına çatdırdı. Onlar xristian kölə Əddası çağırıb, "Bir salxım üzüm aparıb o adama ver" - dedilər. Əddas üzümü ona verdi, Peyğəmbər "Bismillah" deyib üzümü yemək istəyəndə Əddas onun kimliyini öyrəndi və onu qucaqlayıb, öpməyə başladı. Qardaşlar: "Əddası da korladı" dedilər. Onlar Peyğəmbərin Məkkəyə "qazancla qayıtmasını" istəmirdilər. Hz.Məhəmməd Məkkəyə gəlib, Mütim ibn Ədiyyə onu himayəyə götürməyi təklif etdi, o, bunu qəbul edib, övladları ilə Peyğəmbəri qorumağa qalxdı. Peyğəmbər vaxt itirmədən insanları islama dəvət etməyə başladı. Elə bu arada İsra və Merac hadisəsi baş verdi. 619-cu il Rəcəb ayının 27-də

[93] Z.M. Büyadov. Dinlər, təriqətlər... s. 146.

Peyğəmbər (s) Məscidu-l-Həramdan Qüdsdəki Məscidu-l-Əqsaya aparıldı və oradan Meraca-göyün qatlarına götürüldü [94], ona Sidrətülmüntəha, Beytülməmur, Cənnət, Cəhənnəm, Rəfrəf və s. göstərildi. Bunların hamısını Cəbrayıl (ə) yerinə yetirmişdi, bunlar haqqında Qurani-Kərimdə məlumat var. Meracda müsəlmanlara beş vaxt namaz vacib edildi. Layiqi ilə qılınan namaz insanı alçaq əməl və davranışlardan qoruyar. Səhər, Peyğəmbər gecə baş verənləri insanlara danışdı. Əlbəttə, müşriklər buna inanmadılar, müsəlmanların da bəziləri bu danışıqlara inanmayıb, islamdan üz döndərdilər.[95]

Peyğəmbər yenə də gördüyü hər kəsi Quranla xəbərdar etməyə başladı. Əbu Ləhəb isə onu qarabaqara izləyib deyirdi: “Ona qulaq asmayın! O sabi və yalançıdır!” Bunu eşidən başqa qəbilənin adamları: “Ailən və qəbilən səni hər kəsdən yaxşı tanıyır” deyib, dəvətindən üz çevirirdilər. Qəbilələrin çoxu Peyğəmbərin islama çağırışını rədd etmişdi. Müşriklər kiminsə gəldiyini gördükdə tez yanına qaçıb deyirdilər: “Qüreyşin gədəsindən ehtiyat et ki, səni də tovlayıb yoldan çıxarmasın!”

Məhəmmədin peyğəmbərliyini, Allahın elçisi olduğunu qəbul edənlər Əli, Xədicə, Peyğəmbərin oğulluğa götürdüyü Zeyd, Məkkə taciri Əbubəkr, Osman, Təlhə, Əbdürrəhman və qohum-əqrəbasından 50 nəfər olmuşdur. Mərdliyi və cəsarəti ilə şöhrət qazanmış, Peyğəmbərin əmisi Həmzənin də islamı qəbul etməsi müsəlmanların cəmiyyətini gücləndirsə də, qüreyşilərin onlara qarşı nifrətini bir az da artırdı. Onlar müsəlmanları hər yerdə təqib edirdilər. Qeyd olunduğu kumi, Əbu Talibin, az sonra Xədicənin vəfatından sonra Məhəmməd peyğəmbər lap çətin vəziyyətə düşdü. Qüreyşin fitnəkar başçıları “Dərun-n-ədva”da (toplaşma, müzakirə yeri) toplaşıb, Peyğəmbəri öldürməyi qərara aldılar. Müşriklər hər qəbilədən bir nəfər olmaqla yığışıb, bir yerdə

[94] Yenə orada, s. 146-147.
[95] Məhəmməd Qəzali, yenə orada, s. 234.

Peyğəmbəri (s) öldürməyi qərara alırlar ki, günah bir nəfərin üstünə düşməsin, çoxluğa qarşı isə müsəlmanlar vuruşa bilməzlər. Bunun üçün 40 nəfər onun evini mühasirəyə alır. Allah onların bəsirətini bağlayır, Peyğəmbər Hz. Əlini öz yerinə uzadıb, onların arasından çıxıb, Əbubəkr ilə Yəsribə gedir.

Başqa ərəblərdən fərqli olaraq Yəsrib əhalisinin qonşuluğunda yəhudilər yaşayırdılar. Odur ki, onların tövhid inancı haqda məlumatları vardı. Yəhudilər yəsriblilərlə din barəsində söhbət etmiş, onları bütpərəstliklərinə görə qınamışdılar.

Mübahisə zamanı yəhudilər yəsriblilərə deyirdilər: "Allahın peyğəmbər göndərməsinə az qalıb, Ad və İrəmin kökü necə kəsilibsə, biz də onun rəhbərliyi ilə sizin kökünüzü elə kəsəcəyik". Bundan sonra Yəsribdə yavaş-yavaş islam barədə danışmağa başladılar. Məkkədə islama bəslənən nifrət Yəsribdə ehtiramla əvəzlənmişdi. Yəsriblilərin islama dair eşitdiklərindən heç üç il keçməmiş Mədinə bu yeni dinin möhkəm qalasına çevriləcəkdi. Məkkəlilər yaxşı bilirdilər ki, yeni dinə qulaq verib, olum-qalımına imkan yaratsalar, bütpərəstliyin mərkəzi Məkkə süqut edəcəkdir.

Yəsribdəki Övs və Xəzrəc qəbilələri arasında düşmənçilik hökm sürürdü. Bu düşmənçiliyi onların arasına yəhudilər salmışdılar. Çünki onların sayı Ərəbistanda az idi, onlar ərəblərlə savaşsaydılar məhv olardılar. Onlar hiylə ilə bu ədavət toxumunu ərəblər arasında səpmiş və bu ədavət atadan oğula ötürülür, düşmən doğulur, düşmən də böyüyüb boya-başa çatırdılar.

Yəsrib və ətraf ərazilərdə məskunlaşmış yəhudilər səlibçi zülmündən qaçaraq Ərəbistan çöllərinə pənah gətirmişdilər. Xristianlar onları zorla xristianlaşdırmaq, ya da məhv etmək istəyirdilər. Çünki yəhudilər İsa peyğəmbər və anası Məryəm haqqında pis fikirdə idilər. Xristianlar düşünürdülər ki, İsanın çarmıxa çəkilib öldürülməsində günahkar yəhudilərdir. Davamlı hərc-mərclik o həddə idi ki, yəsriblilərin qulağına islama dair xəbər çatdıqda ümidlənmişdilər. Kim bilir, bəlkə də yeni din onlara həyat bəxş

edəcək və ölkələrinə əmin-amanlıq gətirəcəkdi. Peyğəmbərlə ilk dəfə görüşən yəsriblilər artıq orada islamın təbligatçılarına çevrilmiş, hamılıqla islamı qəbul etmişdilər. Bu belə olmuşdu. 621-ci ilin həcc mövsümü – Besətin 12-ci ilində 10 xəzrəcli və 2 övslüdən ibarət olan bir dəstə Yəsribdən Məkkə yaxınlığındakı Əqəbə dərəsinə gələrək, orada Peyğəmbərlə görüşüb, islamın ilk müqaviləsini bağladılar. Müqavilədə deyilirdi: "Allahın Rəsulu ilə peyman bağladıq ki, aşağıdakı əməlləri yerinə yetirək: Allaha şərik qoşmayaq, oğurluq və zina etməyək, övladlarımızı öldürməyək, bir-birimizə böhtan atmayaq, xeyir işlərdən boyun qaçırmayaq".[96] Bu, tarixə Birinci Əqəbə müqaviləsi kimi daxil oldu. Bu beyət zamanı başlıca şərtlər tövhid prinsipini qəbul etmək və cəmiyyətin sabitliyi üçün əhəmiyyəti olan və burada qəbul olunmuş ümumi dəyərlərlə ziddiyyət təşkil etməyən ehkamları qəbul etmək idi.[97] Növbəti il həccə gələn yəsriblilər Peyğəmbərdən Yəsribdə islamı gücləndirəcək bir nəfər istədilər, o da Musab ibn Ümeyri onlarla göndərdi. Növbəti həcc mövsümündə Musab Məkkəyə gəlib, Peyğəmbəri (s) xoş xəbərlə müjdələdi ki, çoxlu insan beyətə gələcək. Yəsriblilər 73 qadın, 2 kişi gecə Əqəbə vadisinə Peyğəmbərlə görüşə gəldilər, beyət etdilər. Peyğəmbər onlara 12 nəfər öz aralarından seçməyi tapşırdı və onlara dedi: "Məryəmin oğlu İsanın həvariləri kimi siz də öz tayfanıza zaminsiniz, mən də öz tayfama zaminəm" [98]. Yəsriblilər Peyğəmbəri namusları kimi qoruyacaqları, canları ilə ona arxa olacaqları, onlar sağ ikən kimin isə Peyğəmbərə xətər yetirə bilməyəcəyinə and içdilər. Bu gün tarixə İkinci Əqəbə müqaviləsi kimi daxil oldu. Onun səciyyəvi cəhəti bu idi ki, artıq burada iştirak edənlərin hamısı müsəlman idi, buraya islam dininin prinsiplərini öyrənməyə yox, Peyğəmbərlə daha sıx və hüquqi əsaslar üzərində qurulmuş əlaqələr yaratmaq

---

[96] Əhli-beytin həyat tərzi, s. 56; Z.M. Bünyadov. Dinlər, təriqətlər...s. 147.

[97] Ramiz Mürsəlov, yenə orada, s. 43.

[98] Z.M. Bünyadov. Dinlər, təriqətlər...s. 147; İbn İshaq. Yürüşlər, c. 1, s. 273-276; M.Qəzali, yenə orada, s. 241-251.

üçün gəlmişdilər.[99] Bundan xəbər tutan müşriklər Peyğəmbəri qətlə yetirmək istədilər. Allah-Təalə bu haqda ayə nazil etdi: "Ya Rəsulum! Yadına sal ki, bir zaman kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da Məkkədən çıxardıb, qovmaq üçün Dəru-n-nədvada sənə qarşı hiylə qururdular. Allah da onların bu hiyləsinə qarşı tədbir tökdü. Allah tədbir tökənlərin ən yaxşısıdır" (əl Ənfal, 30). Peyğəmbər bundan sonra müsəlmanlara Yəsribə hicrət etməyi tövsiyə etdi. 622-ci ilin aprel ayında müsəlmanlar qafilələr şəklində Yəsribə hicrət etməyə başladılar. Qısa bir müddət ərzində Məkkənin bəzi məhəllələri boşaldı. Həbəşistandakı mühacirlər də Yəsribə gəldilər. Müsəlmanların Yəsribdə məskunlaşması qüreyşiləri yenidən qəzəbləndirdi. Onlar Peyğəmbəri (s) qətlə yetirməyi qərara aldılar. Peyğəmbər isə, yuxarıda qeyd olunduğu kimi, Hz.Əlini (ə) öz yatağında uzandırıb, ona heç bir şey olmayacağını söyləyib, özündə olan əmanətlərin hamısını qaytararaq, hicrət edənlərin hamısından sonra Əbubəkrlə birlikdə evin arxa pəncərəsindən çıxaraq Sövr mağarasına getdilər. Müşriklər Allahın hövl-qüvvəsilə onları mağarada tapa bilmədilər və onlar üç gün sonra oradan çıxıb Yəsribə getdilər.

Müşriklər Peyğəmbəri əldən buraxdıqları üçün çox peşman oldular.[100] Ona görə də Əbusüfyan onların dirisi və ya ölüsünü gətirənə 200 dəvə mükafat vəd etmişdi. Bu çox böyük bir vardövlət idi. Bunu bilən Süraqə ibn Malik mükafatı qazanmaq üçün hərəkətə başlayır və Peyğəmbərgilə az qalmış atı büdrəyir və onu yerə çırpır. Bu iş yenidən təkrar olduqda, Süraqə Məhəmmədin həqiqi peyğəmbər olduğunu anlayır və Peyğəmbərdən üzr istəyir və sonra da onu axtaranlara Peyğəmbərin artıq çıxıb getdiyini deyib, onları geri qaytarır.

Peyğəmbərlə Əbubəkr bir həftə yol getdikdən sonra Quba adlı bir kəndə çatdılar və bir müddət orada qalıb, Hz.Əlini gözlədilər.

---

[99] Ramiz Mürsəlov. Mədinəyə hicrət..., s. 46.
[100] Z.M. Bünyadov. Dinlər, təriqətlər... s. 147.

Bu müddət ərzində onlar orada bir məscid tikdilər ki, o məscid islam tarixində birinci məscid hesab olunur. Nəhayət, müsəlmanlar bir cümə günü Qubanı tərk edib Yəsribə doğru irəliləməyə başladılar. Peyğəmbərgili Yəsribdə səbirsizliklə gözləyirdilər. Bütün Yəsrib əhli onları təntənə ilə qarşılamağa çıxmışdılar və günlərin birində Peyğəmbərgili yüksək xurma ağacına dırmanmış bir yəhudi birinci görüb, var gücü ilə qışqırdı: "Budur, babanız Peyğəmbər gəldi!". Hamı Peyğəmbəri öz evində saxlamaq istəyirdi. Lakin o, dəvəsinin Əbu Əyyub Xalid bin Zeyd əl-Ənsarinin evinin qabağında çökdüyünü görüb, oraya qonaq düşdü. Sonralar Peyğəmbər dəvənin çökdüyü yeri satın alıb, orada bir məscid və özü üçün bir ev tikdirdi[101]. Bəra ibn Azib demişdi ki, onun gəlişinə insanların sevindiyi qədər nəyə isə sevindiklərini heç vaxt görməmişdim.[102]

Peyğəmbər yəqinliklə bilirdi ki, Allah-Təalə ona kömək edəcək və islamın itib-batmasına imkan verməyəcəkdir. Amma bir şeyə təəssüf edirdi ki, vəhyin endiyi ilk gündən şahidi olduğu qabalıq, inkar və təqib onu yurdundan qovub, səhralara salmışdı.

13 il çağırışdan sonra dönüş baş verdi, dəvət öz gücünü toplamış, Yəsribin Övs və Xəzrəc qəbilələri islamı qəbul etmiş, Peyğəmbərə tabe olub, islama kömək edəcəklərinə söz vermişdilər. Peyğəmbərin on il ərzində ədalətli, tolerant, xeyirxah və etiqad azadlığına hörmət edən ümmət üçün dövlət qura bilməyi, özü də müvəffəqiyyətlə qura bilməyi son dərəcə heyrət doğururdu.

---

[101] Yenə orada.

[102] İmam Buxari, 7, 208-209; M.Qəzali, yenə orada, s. 274-282.

## Məhəmməd peyğəmbərin Mədinə həyatı

Tərəfdarlarından sonra Yəsribə hicrət edən 53 yaşlı Peyğəmbərin həyatında və islam tarixində bir dönüş nöqtəsi oldu. Belə ki, islam dini Yəsribdə hakim mövqe tutmuş, Peyğəmbər isə orada qurulmuş ilk islam dövlətinin başçısı olmuşdu. Məhəmməd peyğəmbər (s) Yəsribdə əsaslanandan sonra müsəlmanlar onu, yuxarıda qeyd edildiyi kimi "Mədinə nəbəviyyə" yəni peyğəmbər şəhəri adlandırmağa başladılar və bu, coğrafiyaya Mədinə şəhəri kimi daxil oldu. Həmin vaxt Mədinədə üç qrup əhali yaşayırdı. Bunlar ənsar, yəni mədinəli müsəlmanlar, mühacirlər - yəni hər şeylərini Məkkədə tərk edib Mədinəyə hicrət etmiş müsəlmanlar və bir də çox qədim zamanlardan Yəsribdə məskunlaşan üç yəhudi qəbilələrindən ibarət idilər. Peyğəmbər mühacirlərin iqtisadi vəziyyətini qaydaya salmaq məqsədilə onların hər birini ənsardan biri ilə qardaşlaşdırdı. Digər tərəfdən üç yəhudi qəbiləsi ilə qarşılıqlı anlaşma əldə edildi. Bu qarşılıqlı anlaşma yəhudilərin hər cür hücumdan, basqınlardan qorunmasını, sərbəst şəkildə ibadət edə bilmələrini nəzərdə tuturdu. Bunun müqabilində yəhudilər də Məhəmmədə və müsəlmanlara qarşı nə sözlə, nə də işlə heç bir pis hərəkət etməməli idilər. Yəhudilər müqaviləni pozacaqları tərzdə onların malları və canları müsəlmanlara halal edilirdi.[103] Peyğəmbər Mədinədə müsəlmanlar arasında icma yaratdı. İcma qan qohumluğu əsasında deyil, eyni dini təlimə mənsub olmaq əsasında qurulmuşdu. O, bədəvi və oturaq həyat sürən ərəblər arasındakı fərq və ziddiyyətləri aradan qaldıraraq, onları vahid bayraq altında birləşdirdi, Tək Allaha ibadət etməyi rəsmi dövlət dini elan etdi, idarəetmə sistemində "şura" (məşvərətçilik) prinsipini həyata keçirdi, sosial münasibətlərdə və iqtisadi həyatda "ədalət" anlamı-

[103] Z.M Bünyadov. Dinlər, təriqətlər, məzhəblər s. 147-148.

nı bir vacib şərt kimi irəli sürdü. Məhz Mədinədə müsəlmanlara ilk dəfə olaraq öz dini biliklərini təsis etmək imkanı verildi, şəhər və kəndlərdə azan səsləri eşidilməyə başladı. Burada əsasən islam dövlətinin şər"i əsaslarını aydınlaşdıran ayələr nazil olmağa başladı. Bir az sonra müsəlman cəmiyyətinin müxtəlif üzvləri arasında qarşılıqlı himayədarlığın təmin edilməsinə yönəldilmiş zəkatın vacibliyi rəsmiləşdirildi.[104] Peyğəmbər (s) icmanın həm dini, həm də dünyəvi başçısı idi. İcma, islamı qəbul edənlərin hamısı üçün açıq idi. Peyğəmbər ilk olaraq burada məscid tikdirdi, qeyd edildiyi kimi əshablarla mühacirləri qardaşlaşdırdı, özü də Əli ilə qardaşlaşdı. Peyğəmbərin yaratdığı qardaşlıq sözdə deyil, əməldə də özünü göstərirdi. Qardaş qardaşının hər cür ehtiyacını qarşılayır, evini, işini onunla paylaşırdı. Subaylar evləndirilir, qardaşlarının qürbət hissini yaşamamaları üçün əllərindən gələni edilirdilər. Mədinədə qardaşlığın səbəblərini tanınmış Misir alimi Məhəmməd Əbu Zöhrə (1898-1974) belə açıqlayır:

- Birinci: güclü və zəif arasında yaxınlığı təmin etmək, möminlər arasındakı dostluğu möhkəmləndirmək və bir möminin digərindən üstün tutulmasına imkan verməmək;

- İkinci: mühacirlər müxtəlif qəbilələrin nümayəndələrindən təşkil olunmuşdular. Məsələn: Qəraşioğulları daha varlı idilər. İslam qardaşlığı sayəsində onların aralarındakı qəbilə təəssübkeşliyi, əsil-nəcabətə bağlılıq kimi hallar aradan qaldırılmalı idi;

- Üçüncü: Yəsrib qəbilələri arasında da birlik yox idi. İslamı qəbul etməzdən qabaq Yəsribin Xəzrəc və Övs qəbilələri arasında dəhşətli müharibə olmuşdu, ədavət hissi mütləq unudulmalı idi. Bunun da öhdəsindən islam qardaşlığı gəldi;

- Dördüncü: Məhəmməd peyğəmbərin qardaşlıq prinspi təkcə hər hansı bir arzuedilməz halın qarşısını almaq, yalnız mühacirlərlə mədinəli müsəlmanlar arasında birlik yaratmaq deyil, həm də müsəlman olan bütün insanları birliyə alışdırmaq məqsədi gü-

[104] Ramiz Mürsəlov. Mədinəyə hicrət...s. 52-53

dürdü. Bundan sonra belə bir sistemə böyük ehtiyac hiss olunacaqdı.[105] Qardaşlığın yuxarıdakı təsviri islam cəmiyyətində sabitliyə yol açan, parçalanmadan qoruyan əlaqələr sistemini özündə əks etdirir. Bəli, qardaşlıq islam cəmiyyətini iğtişaşlardan, hərcmərclikdən sığortalayan qüvvə idi. Mədinəli müsəlmanların məkkəli mühacirlərlə qardaşlaşması qəbilə təəssübkeşliyi münasibətlərinin də tezliklə aradan qalxmasına rəvac vermiş oldu.[106] Nümunələrdə də göründüyü kimi, Məhəmməd peyğəmbər (s) möminlər arasındakı din (iman) qardaşlığı hissini gücləndirməyə çalışmış, bu şəkildə cəmiyyətdə vəhdəti təmin etmiş, müsəlmanlara ümmət şüuru qazandırmış, bu da möminlərin həmrəyliyi baxımından əhəmiyyət kəsb etmişdi.[107]

Günümüzdə də qardaşlıq prinspi böyük əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, islam həmrəyliyinin bərqərar olmasında Azərbaycanın özünəməxsus mövqeyinin möhkəmləndirilməsini təmin etmək məqsədi ilə 10 yanvar 2017-ci il tarixli qərarı ilə 2017-ci ili "İslam həmrəyliyi ili" elan etmişdir. Bundan məqsəd müsəlman ölkələrinin bir-biri ilə həmrəy olmaları, bir-birilərinə daim dəstək olmalarına çalışmalarıdır.[108]

---

[105] Aslan Həbibov. İslam həmrəyliyi: dünəndən bu günə. İslam həmrəyliyi və Azərbaycan: reallıqlar və perspektivlər. Bakı, 2018, s. 22-23; Məhəmməd Əbu Zöhrə. Xatəmu-n-nəbiyyin. Qahirə, Dərul-fikr əl-ərəbi, 2012, c. 2, s. 490-493.

[106] Cərrar Hüsni Ədhəm. Allah naminə qardaşlıq və sevgi, s. 48, (Tərc. Elvüsal Məmmədov), "İdrak" İctimai Birliyi, Bakı, 2010: Aslan Həbibov, yenə orada.

[107] Rza Nəhvi. Qaidətu-l-uxuvva fi-l-hivari-l-isləmi - Əl-islami, Kəlimə jurn. 1996, s. 102-103, ərəb dilində. 102. Elvüsal Məmmədov. İslam həmrəyliyi: dünəndən bu günə, İslam həmrəyliyi və Azərbaycan: reallıqlar və perspektivlər. İslam həmrəyliyinin dini-ideoloji əsasları. Bakı, 2018, s. 87.

[108] İlkin Əlimuradov. İslam həmrəyliyi və Azərbaycan: Reallıqlar və perspektivlər. Ön söz, Bakı-2018, s. 4

Aslan Həbibovun qeyd etdiyi kimi, qardaşlıq universal anlayışın - islam həmrəyliyi və birliyinin təşviqedici elementini əmələ gətirir. Bəzi müsəlman müəlliflər qardaşlığı kollektiv vərəsəlik adlandırırlar. Onlara görə, Allah insanı yer üzünün varisi olmaq üçün yaratmış, ona ədaləti yaymaq, mənəvi abadlaşdırma işini icra etmək vəzifəsi tapşırmışdır. İnsanlar qardaşlıq prinspindən çıxış etsələr, onlara tapşırılan vəzifənin öhdəsindən gələ biləcəklər.[109]

Fələstin əsilli Səudiyyə Ərəbistanı tədqiqatçısı Ədnan Rza Nəhvi (1928-2015) müsəlman həmrəyliyi problemini tədqiq edərkən qardaşlıq prinsipinə məsuliyyət, ülfət, fikir və hiss nöqteyi-nəzərindən toxunmuşdur. O, Allah naminə qardaşlığı müsəlmanların birliyində əhəmiyyətli məsələ hesab etmiş, bu həmrəylikdə müsəlmanların orta məxrəcə gəlməsində metod və davranış tərzi olaraq qardaşlığın qəbuluna çağırmışdır.

Əbdülhəmid əbu Süleymanın qeyd etdiyinə görə islamın ana mənbələri və peyğəmbər təcrübəsi qardaşlıq prinsipinin nəzəri və praktik baxımdan əsaslandırılmasında arqument bazasını təşkil edir. Ayə və hədislərdən məlum olur ki, möminlər qardaşdırlar, müsəlmanlar digər müsəlmanlar arasında baş verən anlaşılmazlıq, mübahisə və münaqişələri aradan qaldırmalıdırlar (Quran, XLIX, 10); müsəlmanlar bir-birini lağa qoymamalı, xoşagəlməz adlarla çağırmamalıdırlar (Quran, XLIX, 11); bir-birinin ayıblarını axtarmamalı, qeybətini etməməlidirlər (Quran, XLIX, 12) və s.

Qardaşlıq prinspi müsəlman cəmiyyətində fəallıq və müsbətlik kəsb etdirmədə, bərabərlik, həmrəylik və əməkdaşlığı formalaşdırmada mühüm amil hesab olunur. Bu ideyanı müdafiə edən nöqteyi-nəzər onunla əsaslandırılır ki, islam insanların münasibətlərini Allah sevgisi əsasında tənzimləyir, onlar arasında irq,

[109] Aslan Həbibov, yenə orada

dil, rəng, sosial status və sair baxımdan fərq qoymur, iman birliyini qohumluq və digər birlik formalarından üstün tutur.[111]

Peyğəmbər Yəsribə hicrətindən təxminən altı ay sonra silahlı dəstələr təşkil etmək, onların rəhbərliklərini təyin etmək, müsəlmanlara müharibə etməyə izn verən ayənin nazil edilməsindən sonra isə bilavasitə ordu quruculuğu işləri ilə məşğul olmağa başladı.[112]

---

[111] Əbdülhəmid Əbu Suleyman. İslam iqtisadiyyatı nəzəriyyəsi. (tövhid və qardaşlıq iqtisadiyyatı: fəlsəfə, müasir kontekstdə məfhumlar və təkliflər. Ərəb dilindən tərcümə edən Elvüsal Məmmədov. Bakı, 2017, s. 34

[112] Ramiz Mürsəlov, yenə orada, s. 237 Məhəmməd Rəsulullah. Muəssəsətu-l-bələğ. 1992, s. 25; Ramiz Mürsəlov, yenə orada, s. 237.

## Məhəmməd rəsulullah və yəhudi münasibətləri Azərbaycan tədqiqatçılarının əsərlərində

Peyğəmbər Yəsribdə bir az yaşadıqdan sonra yəhudilərlə əlaqələr yaradıb, müqavilələr bağlamağa başladı ki, müsəlmanlarla yəhudilər bir-birilərinə hörmət əsasında dinc-yanaşı yaşayıb, bir-birlərinə basqın etməyəcəklər. Hicrətdən bir neçə il sonra Mədinənin bütün bütpərəst ərəbləri icmaya daxil oldular. Hz.Peyğəmbərin Əhli-kitabla münasibətindən bəhs edərkən ilk növbədə ağlımıza Mədinə vəsiqəsi - sazişi (konstitusiya) gəlir. İbn Hişamın rəvayət etdiyinə görə Peyğəmbər (s) Yəsribə hicrət etdikdən çox keçməmiş şəhərin bütün müsəlman əhalisini bir yerə topladı. Həmçinin Əhli-kitab sayılan yəhudiləri də dəvət edərək, qarşılıqlı şərtlər qoyaraq, yuxarıda qeyd olunan kimi, müqavilə imzaladı.[113] Belə ki, Mədinə vəsiqəsini Avropa dillərinə ilk dəfə tərcümə edən Vellhausenin 47 maddəyə ayırdığı "Mədinə müqaviləsi"nin yarısı (24-47) birbaşa yəhudilərlə əlaqəlidir. Müqavilədə xüsusi yer tutan on altıncı maddəyə görə ədalət və qarşılıqlı yardımlaşmaya riayət etməklə yəhudilərin də müsəlmanlardan ibarət birliyə (icmaya) girə bilmələri üçün açıq qapı qoyulmuşdu.

On altıncı maddədə qeyd olunur ki, yəhudilərdən bizə tabe olanlar zülmə uğramadan, əleyhimizdəkilərlə yardımlaşmadan yardım və dəstəyimizə haqq qazanırlar.[114]

Vicdan azadlığının on dörd əsr əvvəl Hz. Məhəmməd (s) tərəfindən qurulan islam dövlətinin konstitusiyasında mövcud olduğunu açıq-aydın görürük. Müqavilənin 25-ci maddəsində deyi-

---

[113] Məhəmməd Səid Ramazan Buti. Fiqhu-s-sirə. Dəru-l-fikr, Beyrut, 1994, s. 133; Nurlan Məmmədzadə. Həzrət Peyğəmbər və Əhli-kitab. Bakı İslam Universiteti. Elmi məcmuə, nömrə 12, 2017, s. 162.

[114] M.Hamidullah. El-Vesaiku-s-siyasiyye. (tərc. Vecdi Akyüz), Kitabevi yayınları, s. 68; Nurlan Məmmədzadə, yenə orada

lir: "...Yəhudilərin dinləri (hüquqları) möminlərin dinləri (hüquqları) ilə onları əlaqədar edir.[115] Əhli-kitabın öz dinlərini tətbiq etmə haqqına Quranda da zəmanət verilir (Məidə, 5/42). Müqavilədə Peyğəmbərin yəhudilərə bir haqq tanıması ilə birlikdə həmçinin onu da qeyd etməliyik ki, gələcəkdə onlar tərəfindən ola biləcək hər hansı bir təhlükəni zərərsizləşdirən bəndlər də vardır. Otuz altıncı maddədə cinayət və qisas hadisələrində yəhudilərə qisas haqqı verilir. Qırx üçüncü maddədə yəhudilərin müşrikləri himayələri altına almaları qadağan edilir. Qırx dördüncü maddədə isə Mədinəyə qarşı təcavüz olarsa, müsəlmanlarla birgə yəhudilərin də silahlanmasının vacibliyi qeyd edilir.[116]

Bəzi tədqiqatçılar, özündə əks etdirdiyi prinsiplərə görə bu sazişi dünyanın ilk konstitusiyası hesab edirlər. Tarixdə insan hüquq və azadlıqlarını bu şəkildə təsvir edən akt Avropada 600 il sonra – XIII əsrdə qəbul olmuş "Maqna Karta"dır. Bu, müsəlman ölkələrində demokratik prinsiplərin formalaşdığı, insanların hüquqlarının müəyyən olunduğu bir dövrdə Avropa ölkələrində avtoritar, anarxiya hökmranlığının olduğu, insanların hüquq və azadlıqlarının tanınmadığını əsaslandırır.[117]

Müsəlmanların müasir dövrdə nisbətən zəif inkişafının səbəbini isə Peyğəmbərin vəfatından sonra onun tövsiyələrinin unudulmasında görürük – peyğəmbər balalarının, peyğəmbər ardıcıllarının islam dövlətinin idarə edilməsindən uzaqlaşdırılıb, onların təqib və məhv edilməsi, başqa ölkə və xalqların əsarət altına alınması və xalqlara zülm edilməsində görürük. Bunlar isə islamı yaymaq adı altında edilirdi. Halbuki, Allah – Təalə Quranda Peyğəmbərə buyururdu: "Əgər Rəbbin istəsəydi, yer üzündə olan-

---

[115] Yenə də orada, s. 69

[116] M.Hamidullah, yenə orada, s. 70-71 ; Nurlan Məmmədzadə, yenə orada, s. 163.

[117] Azadə Bəxtiyar qızı Bağırova. Dünyəvi demokratik Türkiyədə hicab problemi (sosial – ideoloji aspektdə). Fəl. üzrə fəl. dok. üçün dissertasiya. Bakı – 2019, s. 21-22.

ların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?! (Sənin vəzifən ancaq islamı təbliğ etməkdir. 10-99); Heç kəs Allahın izni olmadan iman gətirə bilməz. Allah murdarlığı ağıla gəlməyənlərin üzərinə qoyur" (Quran, 10-100).

Buna bənzər başqa bir neçə misal: Dünyanın yarısını zəbt edən Makedoniyalı İskəndərdən, Bütöv Şərq və Qərbin yarısını istila edən Çingiz xandan, Avropanı yox etməyə qalxan Hitlerdən sonra anaların göz yaşlarından, xarabalıqlardan, yetim qalmış uşaqlardan başqa nə qaldı? İki yüz ildən çox bir müddətdə Rusiyanın və başqa xristian ölkələrinin köməyi ilə Azərbaycanın dədə-baba torpaqlarını zəbt etməyə çalışan ermənilərin vəhşiliklərindən sonra Qarabağ nə günə qaldı?

Əlbəttə, bir az yuxarıda qeyd olunanlara əsasən ümumilikdə Əhli-kitab adlanan yəhudi və xristianların doğru yolda olduqlarını, dinlərində qalmalarının düzgünlüyünü demək olmaz. Çünki, hər iki dinin sonradan təhrif olunması və mənsublarının küfrlə ittiham edilməsi haqqında Quran ayələri mövcuddur (2/ 79, 88, 89, 100, 155 ; 3/71, 78 ; 5/72, 73; 9/30). Belə olduqda Peyğəmbərin (s) Əhli-kitaba xoş rəftarı onlara qarşı dözümlülük kimi başa düşülməli və əsla bugünkü dinlərarası dialoq tərəfdarlarının fikirlərinə əsas vermədiyini qeyd etmək lazımdır. Hətta hicrətin elə birinci ilində Peyğəmbərin Mədinədəki dindaşları ilə yaxın əlaqədə olan Xeybər (bəzi yerdə Heybər yazılır) yəhudilərinə göndərdiyi bir məktubda yazdıqları belə deməyə əsas verir: "Rəhman və Rəhim olan Allahın adı ilə!... Allahın Rəsulu, Musanın dostu və qardaşı, Musanın gətirdiyi hər şeyi təsdiq edib doğrulayan Muhamməddən. Ey Tövrata tabe olub, onun ətrafına toplanan insanlar! Diqqət edib bilin ki, gerçəkdən Allahın sizə söylədiyi bu sözləri öz Kitabınızda tapacaqsınız:

"Məhəmməd Allahın peyğəmbəridir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, bir-birləri ilə mərhəmətlidirlər. Sən onları rüku – namazda belini əyib təzim edən, səcdəyə qapanan, Allahdan riza

və lütf diləyən görərsən. Onların nişanəsi alınlarında olan səcdə izidir. Bu, onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkinə bənzədilirlər ki, o, artıq cücərtisini üzə çıxarmış, onu bəsləyib cana-qüvvətə gətirmiş, o cücərti də möhkəmlənib gövdəsi üstünə qalxaraq əkinçiləri heyran qoymuşdur. Allahın bu təsbiti kafirləri qəzəbləndirmək üçündür. Onlardan iman edib, yaxşı əməllər işləyənlərə Allah-Təalə məğfirət və böyük mükafat vəd etmişdir”.[118]

Allah haqqı üçün, sizə vəhy olunan şey haqqı üçün, eyni şəkildə sizdən əvvəl gəlib keçmiş qəbilələrinizi “mənn” (qüdrət halvası) və “səlva” (bildirçin əti) ilə ruziləndirən xatirinə, ata- babalarınızı Fironun əlindən və əməlindən qurtarmaq üçün dənizi qurudanın haqqı üçün mənə deyin: “Allahın sizə vəhy etdiyi Kitabda, Muhamməde iman etməyə məcbur olub-olmadığınız qeyd olunmamışdırmı? Əgər belə deyilsə mənə xəbər verin. Əgər Kitabınızda bu qeydləri tapmasanız (mənim dinimi qəbul etməniz üçün) sizə heç bir məcburiyyət yoxdur. Həqiqətən, yanlış ilə gerçək yol bir-birindən ayrılmışdır. Sizi Allahın və Rəsulunun yoluna dəvət edirəm.”[119]

Hicrətdən sonrakı ilk ayların yəhudilərlə müsəlmanlar arasında barış və əmin-amanlıqda keçdiyi müşahidə olunur. Həmin dövrdə yəhudilərlə müsəlmanları tövhid dövlətində birləşdirməyə çalışan Rəsulullah Yəsribə gəldiyi ilk vaxtlarda yəhudilərin mübarək günü Aşura günündə yəhudilər kimi müsəlmanların da oruc tutmasını əmr etmişdi.[120]

---

[118] Fəth, 48/29.

[119] M. Hamidullah, yenə orada, s. 106 ; Nurlan Məmmədzadə, yenə orada, s. 164

[120] Peyğəmbər (s) Mədinəyə gəldikdə yəhudilərin Aşura günü oruc tutduqlarını görüb soruşdu : “Bu nədir”? Bu, Allahın İsrail oğullarını Firon və yardımçılarının şərrindən qurtardığı mübarək bir gündür. Musa onu orucla keçirirdi” dedilər. Peyğəmbər (s) dedi : “Biz Musaya sizdən daha yaxınıq” və bizə həmin gün oruc tutmağı əmr etdi (Buxari M.Ənsar, s. 52 ; Saum, s. 69 ;

İlk illərdə Rəsulullahın yəhudilərlə olduqca mülayim rəftarlı olduğu, onları islama cəlb etmək üçün xeyli əmək sərf etdiyi, hətta yəhudi adətindəki tövhidə zidd olmayan yaxşı və gözəl şeyləri tətbiq etdiyi, yəhudilər tərəfindən ziyafətə dəvət edildikdə dəvət olunan yerə getdiyi məlumdur. Peyğəmbərin (s) yəhudilərlə sosial və ictimai əlaqələri o qədər inkişaf etmişdi ki, hətta onların uşaqlarının da ona xidmət etmələrinə icazə verirdi. Bir dəfə ona xidmət edən yəhudi gənclərdən biri ölümcül xəstəliyə tutulduğu üçün Peyğəmbər onu ziyarətə getmiş və islama dəvət etmişdi. O da ölməzdən qabaq müsəlman olmuşdu.[121]

Peyğəmbərin yəhudilərin vacib məsələlərinin həllində yaxından iştirakı Mədinə vəsiqəsində də qeyd edilir. Azərbaycan alimi Nurlan Məmmədzadənin qeyd etdiyi kimi Mədinə vəsiqəsinin ikinci bölməsində məhkəmə işlərinin Rəsulullah tərəfindən həll edilməsi bildirilir.[122] Bu hökmə istinadən yəhudilər tərəfindən ona gətirilən bir çox məsələdə Rəsulullah Tövratla hökm vermişdir. Onun yəhudilər arasında Tövratla hökm verməsinin ən məşhur dəlillərindən biri "Səhih Buxaridə" qeyd olunan rəvayətdədir: Peyğəmbərin (s) yanına zina etmiş kişi və qadın gətirib hökm verməsini istədilər. O, "Siz bu halda nə edirsiniz" soruşdu. "Üzlərinə qara yaxıb, eşşəyə tərsə mindirərək camaat arasında gəzdirməklə rüsvay edirik" dedilər. Peyğəmbər dedi: "Tövratı gətirin və əgər doğru deyirsinizsə oradan oxuyun". Tövratı gətirdilər. İnandıqları bir adam Rəcm ayəsinə qədər oxuyub əlini ayənin üstünə qoydu. Peyğəmbər: "Əlini qaldır" dedi. O, əlini qaldırdıqda Rəcm (Daşqalaq) ayəsi göründü. Yəhudi dedi: "Ya Muhamməd,

---

Təfsir , 10 / 11, 20 / 2 ; Ənbiya, s. 24 ; Müslim. Siyam, 19 / 127; Əbu Davud. Saum, s. 63 ; Tirmizi. Saum, s.49 ; Nurlan Məmmədzadə, yenə orada.

[121] Buxari . Mərda, s. 11.

[122] M.Hamidullah. s. 71 ; Nurlan Məmmədzadə, yenə orada.

onlar haqda rəcm əmri vardır. Lakin onu biz öz aramızda gizləyirik”. Peyğəmbər zina edənlər haqda rəcm əmri verdi.[123]

Rəsulullahın Əhili-kitaba verdiyi bu qədər dəyər və ehtiramı, həmçinin ədalət şərtlərinə bağlı qalaraq onlarla münasibətlərini müşahidə edən bəzi yəhudilər ona iman gətirmiş və islamı qəbul etmişdilər. Onların başında məşhur yəhudi alimi Abdullah ibn Səlam gəlirdi. Peyğəmbərin bəşəri münasibətlərdə göstərdiyi bu dürüstlüyü və ideal şəxsiyyəti qarşısında müsəlman olmadığı halda onun tərəfində döyüşüb ölən yəhudilər də vardı. Bunun ən bariz nümunəsi Muxayriq adlı yəhudi alim idi. Uhud günü o, yəhudilərə belə demişdi: “Ey yəhudi camaatı, vallahi, Muhammədin sizə qalib gələcəyini daha öncədən bilirdiniz”. Onlar isə: “Bu gün səbt günüdür” dedilər. Yəni, səbt – şənbə günü yəhudilər vuruşmadıqlarına görə müsəlmanlara kömək etməyəcəklər. O da: “Səbt günü deyil” deyərək silahını alıb islam ordusuna gəldi və belə vəsiyyət etdi: “Əgər döyüşdə ölsəm bütün mallarım Muhammədindir. O, bu malları Allahın göstərdiyi yerə sərf etsin”. Uhud günü o, müsəlmanların səfində döyüşüb, həlak oldu. Peyğəmbər: “Muxayriq yəhudilərin ən xeyirlisidir” dedi və onun bütün malını təsəddüq şərti ilə vəqf etdi.[124]

Lakin yəhudilər arasından bəzi imanlı şəxslərin müsəlman olması və ya islama xoş münasibət göstərməsi istisnalıq təşkil edirdi. Belə ki, yəhudilər əksər halda islam və Peyğəmbərinə (s) qarşı düşmən mövqedə dururdular. Bu düşmənçilik və kin o dərəcəyə çatmışdı ki, gündəlik həyatlarında belə islamın Peyğəmbərini və əshabi-kiramı məsxərəyə qoyurdular. Onların belə hərəkətləri barədə Quranda ayə də vardır:

“Yəhudilərin bir qismi sözlərin yerini dəyişib təhrif edir və dillərini əyərək dinə (islama) tənə vurmaq məqsədilə (sənə qarşı)

---

[123] Buxari. Tövhid, s. 51 ; Müslim. Hüdud, s. 28 ; Tirmizi. Hüdud, s. 10 ; İbn Macə. Hüdud, s. 10; Nurlan Məmmədzadə, yenə orada, s. 165.

[124] Təbəri, II, s. 73; İbn əl-Əsir.Əl-Kəmil fi-t-tərix. Dəru-l-Kutubu-l-İlmiyyə, Beyrut-Livan1998, II, s. 55; Nurlan Məmmədzadə, yenə orada.

“eşitdik və qəbul etmədik”; eşit, eşitməz olasan (kar olasan) va “rainə” deyirlər. Əgər onlar “eşitdik və itaət etdik, eşit və bizə tərəf bax!” desəydilər əlbəttə onlar üçün daha xeyirli və doğru olardı. Lakin Allah onları öz küfrləri ucbatından lənətə düçar etmişdir. Onların yalnız az bir hissəsi iman gətirmişdir” (Quran, 4-46).

Belə hərəkətlərə baxmayaraq Məhəmməd peyğəmbər müqavilə şərtlərini pozmurdu. Xeybərli bir çoban, sürüsü ilə birlikdə müsəlmanların ordugahına sığınıb, islamı qəbul etdiyini bildirdikdə Peyğəmbər ona ağasına xəyanət etməməyi, sürünü aparıb ona qaytarmağı və yenidən ordugaha qayıtmağı əmr etmişdi.[125]

[125] İbn Kəsir. Əl-Bidəyə va-n-Nihəyə, IV, s.580; Nurlan Məmmədzadə, yenə orada, s.166

## Məhəmməd rəsulullah və xristian münasibətləri Azərbaycan tədqiqatçılarının əsərlərində

*Azərbaycan islamşünasları öz əsərlərində Məhəmməd peyğəmbərlə xristianlar arasında olan münasibətləri də araşdırmışlar.*

Peyğəmbərin xristianlarla əlaqələrinə gəlincə o, hicrətin ilk illərində onlarla yəhudilər qədər əlaqədə olmamışdır. Çünki xristianlar Ərəbistan yarımadasının uzaq Yəmən bölgəsində yaşayan Nəcran və Bəlhəris qəbilələrinin bir çox qollarından ibarət idilər. Məkkə və Mədinədə, həmçinin yaxın ətraflarda xristianlar mövcud deyildi. İslam dövlətinin qüdrəti artdıqca Mədinə və ətraf ərazilər islamlaşaraq müsəlmanlığı qəbul etdikcə, xüsusilə də Hüdeybiyyə sülhündən sonra Rəsulullahın xristianlarla münasibətləri inkişaf mərhələsinə keçdi. İslam dövlətinə bağlanmağı qəbul edən təbəələr olaraq cizyə vergisini ilk dəfə ödəyən Əhli-kitab zümrə də məhz Nəcran xristianları olmuşlar.[126]

Qaynaqlarda zəmanəmizə qədər gəlib çatan, Peyğəmbərin yuxarıda qeyd olunan məktubundan sonra Nəcran xristianları öz midraslarının (məktəb və məhkəmə müəssisəsi) rəhbəri və ən böyük din adamları olan Əbu Harisə ibn Əlqəmə, onun müavini Əbdülməsih və karvanbaşı əl-Eyləminin başçılığı altında altmış nəfərdən ibarət bir heyəti Mədinəyə göndərdilər. Günortadan sonra onlar məsciddə olan Məhəmmədin (s) hüzuruna çıxdılar, ibadət vaxtının çatdığını bildirib, ibadət etmək istədiklərini bəyan etdilər. Rəsulullah çölə çıxaraq, onları məsciddə buraxdı, onlar üzlərini şərqə tutaraq ibadətlərini etdilər. Sonra Peyğəmbərlə onlar arasında elmi-dini mövzuda mübahisələr başladı. Bunun bir neçə gün davam etdiyini qeyd edirlər. Həm islam, həm də xristianlıq haqqında davam edən bu mübahisə və müzakirələrdə bəzən yəhu-

[126] M. Hamidullah, I, s. 619; Nurlan Məmmədzadə, yenə orada, s. 167

dilərin də yer aldıqları bildirilir. Ali-İmran surəsinin səksəndən çox ayəsinin bu günlər nazil olduğu rəvayət olunur.[127]

Nəcran xristianlarının bu gəlişində Peyğəmbərlə onlar arasında bir sülh müqaviləsi imzalanır[128] və ona bağlılıq, təbəəlik nəcranlılar tərəfindən qəbul edilir. Sülhün şərtləri belə idi:

Nəcranlıların mallarına, canlarına, dini həyat və tədbiqatlarına, ailələrinə, məbədlərinə, mülkiyyətlərində olan hər şeyə şamil olmaq şərti ilə Allahın himayəsi və Rəsulullahın zimməti (himayəsi) onlara və onlarla bağlı ətrafdakı insanlar üzərinə bir haqdır.

1. Heç bir yepiskop dini ərazisinin xaricinə, heç bir papaz vəzifəsini gördüyü kilsənin xaricinə, heç bir rahib içində yaşadığı monastrın xaricində başqa bir yerə göndərilməyəcəkdir.
2. Aldıqları borclarda heç bir faizdən söz açıla bilməz.
3. Əvvəlki qan davaları qurtarmışdır.
4. Uşr vergisindən azaddırlar.
5. Torpaqlarına heç bir hərbi birlik ayaq basmayacaqdır.
6. Hər hansı biri alacağını tələb etdikdə ədalətlə hökm ediləcək.
7. Nə zülm edəcəklər, nə də zülmə məruz qalacaqlar.
8. Aralarından kimsə faiz alarsa, Rəsulullahın zimmətindən çıxarılacaq.

Müqavilədən göründüyü kimi nəcranlılara mükəmməl və ideal din, vicdan və ibadət hürriyyəti verilmişdi. Peyğəmbərin (s) Nəcran din adamlarına – xristian əhaliyə göndərdiyi başqa bir məktubda da yuxarıdakı müqavilənin dinlə bağlı bölümü ilə demək olar ki, üst-üstə düşən şeylərdən bəhs olunurdu.[129]

---

[127] İbn Kəsir. Təfsir ibn Kəsir. Dəru-l-fikr, Beyrut-Livan, 1999, I, s. 262; Qurtubi, IV, s. 4; Nurlan Məmmədzadə, yenə orada, s. 167.

[128] M. Hamidullah. El-Vesaiku-s-Siyasiyye,s 194; Nurlan Məmmədzadə, yenə orada.

[129] M.Hamidullah,s. 198; Nurlan Məmmədzadə, yenə orada, s. 168.

Mədinədə qəbilə quruluşu hökm sürür, əhalinin hər bir əşirəti öz əkin sahələrinin yaxınlığında, ayrıca bir məntəqədə yaşayır, lakin icmanın xeyir-şərində də iştirak edirdi. Məsələn, qəbilələrdən birinin adamı təsadüfən çətinliyə düşəndə onlar bir-birlərinə yardım edirdilər. Hicrət zamanı Yəsribdə 78 ədəd müşahidə və gözətçi bürcü vardı. Bunlardan qonşu əşirətlərin hərəkətlərinə göz qoymaq üçün müşahidə məqsədilə istifadə olunurdu. Bu, qəbilələr arasındakı münasibətlə bağlı idi. Yəsribdə belə bürclərin tikintisi islamın gəlişinə qədər davam etdi. Qəbilələrin bir-birinə qarşı inamsızlığına baxmayaraq, onlar arasında qohumluq əlaqələri geniş yayılmış və bu əşirətlər arasında qız verib – qız almaq ənənəsi dərin kök salmışdı. Başqa sözlə desək, izdivac məsələsi Yəsribdə daxili bir hadisə idi, onlar Məkkə əhli kimi kənardan qız almırdılar.[130]

Azərbaycan alimi Ramiz Mürsəlov və başqa tədqiqatçıların qeyd etdikləri kimi, Peyğəmbərin Yəsribdə ilk gördüyü iş məscid tikmək oldu. Bu məscid uzun müddətdir fədakarlıqla müdafiə olunan islam şüarlarının aləmə car çəkiləcəyi, bəndənin Allahla rabitəsini təmin edib, könülləri dünyanın “kir”indən təmizləyən namazların qılınacağı yer olacaqdı. Peyğəmbər Yəsribdə deportasiya, müsadirə və düşmənçilik siyasəti yürütmək fikrində deyildi. Əksinə, yəhudilik və bütpərəstliyin mövcudluğunu qəbul etmişdi. O, yəhudi və müşriklərə bərabər şərtlərlə müqavilə bağlamaq təklif etdi. Müqaviləyə görə hər kəs öz dinində qalacaqdı. Heç bir (mədinəli) müşrik Qüreyşdən kiminsə malı və canını himayəsi altına ala bilməz. O, hər-hansı qüreyşlinin bir möminə təcavüzünə mane olmalıdır. Müsəlmanlar və yəhudilər razılığa gəlmişdilər ki, Mədinəyə düşmən hücumu olarsa, onu müdafiə edəcəklər. İnsanlara Mədinədən çıxmaq və ya orada qalmaq sərbəstliyi verilmişdi. Peyğəmbər (s) müqavilədə müsəlmanlarla Məkkə müşrikləri arasında davam edən düşmənçiliyə də toxunmuşdu, o, onlarla dostluq

[130] Ramiz Mürsəlov, yenə orada, s.18

və ya hər-hansı əməkdaşlığı qəti surətdə rədd etmiş, onlara hər-hansı bir köməyin göstərilməsini haram bilmişdi.

Ərəb tarixçisi Əl-Yəqubinin yazdığına görə islam icmasının ilkin özəyinin təsis edilməsində Peyğəmbər əsasən Həmzə ibn Əbdülmüttəlibə, Übeydə ibn əl-Haris ibn Əbdülmüttəlibə, Əli ibn Əbi Talibə, Cəfər ibn Əbi Talibə və bir neçə başqa ən yaxın adamlarına etimad bəsləyir, onların xidmətindən istifadə edirdi.[131] Bu arada mütəmadi olaraq maliyyə qanunları, cihad, qəza, siyasi hakimiyyət, mülki hüquq, cəzalandırma sistemi, xums, zəkat, vərəsəlik, nikah, talaq, müsəlmanların bir-biri ilə hüquqi münasibətləri, ticarət, ibadətlər, dini vacibatlar haqqında və sosial əlaqələri tənzimləyən ayələr nazil edilməyə başlayır. Yeni təşkil edilən siyasi rəhbərlikdə Peyğəmbər siyasi lider və islam dövlətinin banisi idi.[132]

Peyğəmbərə müsəlman icmasının tənzim və idarə edilməsinə xidmət edəcək və onun özünəməxsusluğuna uyğun olan bir dövlət qurmağın zəruriliyi barədə müvafiq ayələr nazil olmuşdu və belə bir dövlət quruculuğunun təsis edilməsi haqqında hələ hicrətdən əvvəl düşünülmüşdü.[133] Ayələrdə deyilirdi: “Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etməyinizi əmr edir” (Nisə, 58). “Yetimin malına xeyirxah məqsəd (onu qoruyub saxlamaq, çoxaltmaq) istisna olmaqla, həddi-buluğa çatana qədər yaxın düşməyin. Ölçü və çəkidə düz olun, söz söylədiyiniz zaman (lehinə və ya əleyhinə danışdığınız adam) qohumunuz olsa belə, ədalətli olun (Ənam, 152) və s.

Mədinədə erkən müsəlman icmasının sosial-iqtisadi həyatını idarə etmək üçün müvafiq qurumlar təsis edilmişdi. Bunlar: xərac divanı (divanu-l-xərac) - bu bəzən “xərac və vergilər divanı” da

---

[131] Ramiz Mürsəlov, yenə orada, s. 237; Tərixu-l-Yəqubi, c.2, s. 69-78

[132] Ramiz Mürsəlov, yenə orada, s. 237-238; Muəssəsətu-l-bələğ, s. 30

[133] İbn əl-Qəyyum əl-Cövziyyə. Ət-Turuqu-l-hakimiyyətu, 1989, s. 4; Ramiz Mürsəlov, yenə orada, s. 243

adlanırdı, məktublar (yazışmalar) divanı (divanu-r-rəsail), hərbi mükəlləfiyyət və səfərbərlik divanı (divanu-l-ceyş), sədəqələr üzrə divan (divanu-s-sədəqat), divanu-l-məzalim (şikayətlər üzrə divan) və s. idi.[134]

Ramiz Mürsəlovun qeyd etdiyi kimi, Peyğəmbər (s) Mədinə sakinləri arasında ixtilafların aradan qaldırılmasına və əlaqələrin normal hala salınmasına başladı. Bu, ona öz dini mövqeyinə, əzəmətli şəxsiyyətinə, məsələləri həlletmədə çevikliyinə, ürəkgenişliyinə və uzaqgörənliyinə görə asanlıqla nəsib olurdu.

Hz.Məhəmmədə olan nifrətlərindən Allahın xatırladılmasını rədd edən müşriklərlə yanaşı Kitab əhli olan yəhudilər onlara qarşı çıxmaqdansa, Allaha qarşı çıxaraq, hökmlərindən üz döndərmiş, müşriklərin belə ağızlarına gətirmədikləri şəkildə Onu təsvir etmişdilər. Ancaq Peyğəmbər yəhudilərə, əvvəlcə, sıxmaq üçün əl uzatmışdı. Lakin onların onu və dinini məhv etmək üçün sözləşdiklərini görüb əks hərəkətə keçdi.[135]

İndi də vəziyyət islam yenicə yarandığı dövrdəki, hicrətdən əvvəlki və hicrətdən sonrakı dövrdəki kimidir. Bugün müsəlman ölkələri yer üzünün quldurları tərəfindən hər tərəfdən sıxışdırılmış, islamın tədricən məhvi üçün xəbis planlar cızılmışdır.

Peyğəmbər Məkkədə 13 il Beytu-l-Müqəddəsə üz tutub namaz qılırdı, Mədinədə də belə davam edirdi (Bəzi ədəbiyyatda isə Peyğəmbərin üzünü istədiyi səmtə və ya göyə tutduğunu da qeyd edirlər). Yəhudilər Peyğəmbəri nüfuzdan salmaq üçün şaiyə yayırdılar ki, Məhəmməd yeni dinin nazil olduğu və başqa dinlərin qüvvədən düşəcəyini deyir, özü isə bizim qibləyə üz tutub, namaz qılır. Bu da, bir sıra ərəb müəlliflərinin qeyd etdikləri kimi, Peyğəmbəri incidirdi. Allah-Təalə ayə göndərib, onun səbr etməsini buyurur. Hicrətin on yeddinci ayında O, Peyğəmbərə vəhy

[134] Ramiz Mürsəl9ov, yenə orada, s. 238-241; Əl-Yəqubi. Ət-Tarix, 2\233; Əl-Qəlqəşəndi. Subhu-l-işa fi snaəti-l-inşa,1\90

[135] M.Qəzali, yenə orada, s. 306-340

göndərib, Məkkəni (Kəbə evini) Qiblə təyin etdiyini buyurur. Hədislərə görə Peyğəmbər zöhr namazının iki rükətini qılmışdı, Cəbrayıl (ə) nazil olub onun əlindən tutur, üzünü Məscidul-Hərama döndərir, bütün namaz qılanlar da üzlərini təyin olunmuş qibləyə çevirirlər. Bəziləri bunu çətin qəbul etsə də, müsəlmanların əksəriyyəti bunu sevinclə qəbul etdilər.[136] Qiblənin Kəbəyə təyin edilməsi əvvəla yəhudilərə kəskin cavab idi və onların dedi-qodularının qarşısını aldı. İkinci tərəfdən isə, əvvəldən Kəbəyə üz tutub namaz qılanların islamı qəbul etmələrini tezləşdirdi. Ramiz Mürsəlov qeyd edir ki, Qiblənin Məscidülhərama tərəf dəyişdirilməsi qüreyşiləri Peyğəmbərin (s) guya bütün ərəblərin etiqadlarına qarşı çıxdığını bəhanə edərək, ərəbləri Peyğəmbərə qarşı ayağa qaldırmaq imkanından məhrum etdi. O, həm də mühacirlərə daim öz vətəni Məkkəni xatırladır, onlarda Məkkəni fəth etmək əzmini artırırdı.[137] Orucluğun fərz edilməsi isə, Bədr döyüşündən sonra olmuşdur, bu haqda aşağıda bəhs olunacaqdır.

Övs və Xəzrəc qəbilələrinin islamı qəbul etməsi nisbətən asan olmuşdur. Daim bir-biri ilə vuruşan bu qəbilələrdən bir qrupu hələ Məkkədə Peyğəmbərlə görüşmüş, Mədinədəki yəhudilərdən bir ərəbin peyğəmbər olacağını eşitdiklərinə görə Məhəmmədə inanıb, ona iman gətirdilər və bu yolla onlar qəbilələri arasında sülh yaranacağına ümid edirdilər.

Ərəb müəlliflərinə istinad edərək Ramiz Mürsəlov qeyd edir ki, Peyğəmbərin dövründə tərtib olunmuş əhalinin inzibati bölgüsü haqqında ilk sənədə görə Mədinə şəhəri səkkiz inzibati dairəyə bölünmüşdü: Xəzrəc bin Ouf, Bəni-Harisə, Bəni-Saidə, Bəni-Cəşm və s.[138]

---

[136] Ət-Təbəqatu-l-kubra, c.1, s. 241-242; Ə”lamu-l –vəra, s.81-82, Sireyi İbn Hişam, c.1, s.6-6; Əl-Kəmil fi-t-tərix, c.2, s.80; Cəfər Sübhani. Hz.Muhamməd, s. 305-307

[137] Ramiz Mürsəlov. Mədinəyə hicrət, s. 97

[138] Ramiz Mürsəlov. Yenə orada, s. 40; İbn Hişam. Əs-Sirə ən-nəbəviyyə, 1\2; Əbu Ubeyd,1, mval, 124

Peyğəmbər, yuxarıda qeyd edildiyi kimi, Mədinədə yeni icma - müsəlman icmasının əsasını qoydu, bədəvi və oturaq həyatı sürən ərəblər arasındakı fərq və ziddiyyətləri aradan qaldıraraq, onları vahid bayraq altında birləşdirdi, tək Allaha ibadət etməyi rəsmi dövlət dini elan etdi, idarəetmə sistemində "şura" prinsipini həyata keçirtdi, sosial münasibətlərdə və iqtisadi həyatda ədalət anlamını bir vacib şərt kimi irəli sürdü. Məhz Mədinədə, müsəlmanlara ilk dəfə olaraq öz dini birliklərini təsis etmək imkanı verildi; islam ümməti üzərində dini rəhbərlik və siyasi hakimiyyət Peyğəmbərə məxsus oldu. Burada əsasən, islam dövlətinin şər"i əsaslarını aydınlaşdıran ayələr nazil olmağa başladı. Bir az sonra, müsəlman cəmiyyətinin müxtəlif üzvləri arasında qarşılıqlı himayədarlığın təmin edilməsinə yönəldilmiş zəkatın vacibliyi rəsmiləşdirildi, azan vermək ənənə şəklini aldı. Burada əsası qoyulan məscid islam icması binasının mərkəzi sütunu sayıla bilər. Beləliklə, müsəlmanlar arasında ədalət və bərabərlik ruhu hakim oldu, onların vahid hənif din ətrafında birliyinin əsası qoyuldu ki, bu məsələlər Ramiz Mürsəlovun "Mədinəyə hicrət..." əsərində ətraflı işıqlandırılmışdır.[139]

Əvvəllər məscidlər tikilərkən orada minbər və minarə nəzərdə tutulmurdu. Peyğəmbər Abbas ibn Əbdülmüttəlibin mövlası Kilaba iki-üç pilləli bir minbər düzəltdirib, onu qiblə istiqamətində qoydurdu. Azan vermək üçün isə Bilal məscidin məsulu, Ömərin qızı Həfsənin evinin damına çıxaraq, oradan azan verərdi.[140]

---

[139] Ramiz Mürsəlov, yenə orada, s. 52-53; İbn Qəyyum əl-Cövziyyə. Zad əl-məad fi huda xeyr əl-ibad. c. 2, s. 57; Muhamməd Səid Ramadan əl-Buti.Fiqh əs-sirə. Dəməşq, 1068, s. 214

[140] İbn Səəd. Ət-Təbəqat əl-Kubra, c. 1, s. 250-251; İbn Kəsir. Ət-Təfsir əl-kəbir, c. 2, s. 31; Əs-Səmhudi. Vəfa əl-vəfa, c. 1, s. 75; Ramiz Mürsəlov, yenə orada, s. 53-54.

Peyğəmbər ictimai həyatı Mədinə sakinləri arasında birliyin təmin edilməsinə xidmət edəcək tərzdə təşkil etməyə çalışaraq, müsəlman cəmiyyətinin ilk rəsmi sənədini (səhifə) təsis etdi. Mədinədə sakin olan hər bir icmanın vəziyyətini müəyyən etmək, ortaya çıxan ixtilafların həllində insanlara Peyğəmbərə müraciət etmək zərurətini başa salmaq lazım idi. İslam cəmiyyətində ali icraedici hakimiyyətin Peyğəmbərə məxsus olduğunu bir sıra Quran ayələri təsdiq edirlər. Peyğəmbər hakimiyyət məsələlərində Quran ehkamlarına əsasən mühakimə yürüdürdü. Lakin bu ehkamların əməli tətbiqi məsələlərində isə şəxsən ictihad edir və ya səhabələrlə məsləhətləşirdi. Peyğəmbərin (s) təsis etdiyi "səhifə" üç hissədən ibarət idi: birinci hissə müsəlmanlara, ikinci hissə yəhudilərə, üçüncü hissə isə Mədinənin ümumi məsələlərinə həsr edilmişdi. Orada xüsusi olaraq qeyd edilirdi ki, hakimiyyətin mənbəyi Allahdır, Mədinə icması daxilində meydana çıxan mübahisəli məsələlərdə ali hökm Peyğəmbərə məxsusdur; səhifədə müsəlmanlarla yəhudilər arasındakı əlaqələrin tənziminə, hərbi məsələlərə, təsadüfi adam öldürülməsinə görə qanbahası təyin edilməsinə və hərbi əsirlərin mübadiləsi məsələlərinə geniş yer verilirdi.

Məlum olduğu kimi, Mədinə bölgəsinin ərazisinin böyük bir hissəsi yəhudi icmasına mənsub idi və burada əmin-amanlığı təmin etmədən dini çağırışı Mədinənin xaricində yaymaq mümkün deyildi. Hicrətin və ya Mədinədə sakin olmağın müsəlmanların sayca az olduğu, onların təkcə Mədinədə və ətraf bölgələrdə sakin olduğu və müxtəlif təhlükələrə məruz qaldığı ilkin mərhələlərdə islam icması üçün əhəmiyyəti olduqca böyük olmuşdur. Vəziyyət tələb edirdi ki, müsəlmanlar Mədinədə yaşayaraq Peyğəmbərə (s) yaxın olsunlar, lazım gələn vaxtda islam uğrunda döyüşə girə bilsinlər. Peyğəmbərin qonşuluğunda yaşamaq onlara həmçinin islam dini

haqqında yeni-yeni məlumatlar əldə etməyə, təfəkkür tərzində dönüş yaratmağa kömək edirdi. Təbiidir ki, Hicrət Mədinə əhlindən olmayan müsəlmanlara aid idi və onun nəticəsində Mədinədə sığınacaq tapan böyük müsəlman kütləsi cəmiyyətdə müəyyən iqtisadi və sosial çətinliklər yaratmışdı. Mədinənin əhalisinin artması onların işlə təmin olunması problemini meydana gətirmişdi. Məkkədən hicrət etmiş və əsasən ticarətlə məşğul olmaq təcrübəsinə malik olan müsəlmanlardan ibarət kiçik bir hissə nəzərə alınmazsa, əhalinin əsas hissəsi əkinçilər idi. Mədinə bölgəsində əkinçilik üçün yararlı torpaqların əksəriyyəti yəhudilərə məxsus idi. Onların Mədinə torpaqlarından çıxarılması isə Bədr döyüşündən sonra, yəhudilərin müsəlmanlara qarşı fitnəkarlıqlarından sonra başladı.

İndi isə bir qədər Hicrət haqqında. Hicrət etmək şərti, islama beyət gətirməyin mühüm şərti kimi Məkkənin fəth edilməsinə qədər qalmışdı, fəthdən sonra isə, ona lüzum olmadığına görə ləğv edildi. [141] Ərəb tarixçisi-hədisşünas Əhməd ibn Hənbəlin "Əl-Musnəd"idinə əsaslanan Ramiz Mürsəlov qeyd edir ki, ancaq beyət şərtləri isə qalıb, inkişaf etməkdə idi. Onun qeyd etdiyinə görə tarixi qaynaqlar sübut edir ki, məkkəlilər Hicrətin doğuracağı təhlükəni dərk etməyərək ona mane olmur, Məkkədə gərginliyin əsas səbəbi olan müsəlmanlardan yaxa qurtara bildikləri üçün məmnunluq hissi duyurdular.[142] Bu, əlbəttə, Yəsrib hicrəti vaxtı idi, artıq bu vaxt müsəlmanlar nisbətən güclənmişdilər. Əvvəllər isə, yuxarıda qeyd olunduğu kimi, müşriklər hicrətə gedən müsəlmanları Məkkəyə qaytarmaq üçün onların arxasınca getmiş, onları tapa bilməyib əliboş geri qayıtmış, sonradan isə Həbəşistana getmiş, oranın başçısı Nəcaşiyə hədiyyələr, qızıl-gümüş rüşvəti təklifi vasitəsilə mühacirləri geri qaytarmağa çalışsalar da, boş əllə geri

---

[141] Əhməd bin Hənbəl. Əl-Musnəd, 3\415,468-469; Ramiz Mürsəlov, yenə orada, s. 55-57

[142] R.Mürsəlov, yenə orada, s. 58

qayıtmış, yeni hicrətə getmək istəyənlərə, o cümlədən Peyğəmbərə mane olmağa çalışmışdılar.

Mühacirlərin könüllü olaraq Yəsribə hicrət etməsi onların dində səbatlılığını və Peyğəmbərə olan imanlarının möhkəmliyini, onun yolunda hər şeyi qurban verməyə hazır olduqlarını nümayiş etdirdi. Hicrət möminlərin Məkkədə qarşılaşdıqları sıxıntı, yadlaşma və zülmə son qoydu. Yəsrib mühacirlərə azadlıq və inam verdi və onlar yerli əhali ilə əqidə, təfəkkür və siyasi mənafelər ümumiliyinə əsaslanan vahid bir icma təşkil etdilər.

Hicrətdən sonra müsəlmanlar qüreyşlilərin zülm və təqiblərindən asudə olmuşdular. Lakin qüreyş təhlükəsi hələ tamamilə aradan qalxmamışdı. Qüreyşilər ətraf qəbilələrlə sazişə gələrək, müsəlmanları Mədinədə təcrid etmək istəyirdilər. Bunu görən Peyğəmbər cavab tədbiri olaraq Şama gedən Məkkə karvanlarının yolunu kəsib, qüreyşilərin can damarını qırmaq qərarına gəlir.

İslam tarixində müsəlmanların qüreyşiləri hədəf alan ilk önəmli səfərlərindən biri Nəhlə səfəridir. 624-cü ildə baş vermiş bu səfər zamanı Abdullah bin Cəhşin komandanlığı altında kiçik bir dəstə Nəhlə vadisinə tərəf yönəlib, orada bir Qüreyş karvanı ilə rastlaşdı və karvanı ələ keçirdi. Bu səfər müsəlmanlarla qüreyşilər arasındakı münasibətləri daha da gərginləşdirdi. Məhəmməd (s) Məkkə karvanlarını ələ keçirməkdə onları iqtisadi cəhətcə zəiflətmək məqsədini güdürdü, qüreyşilər isə müsəlmanları hərbi cəhətdən əzmək planını hazırlayırdı. Hicrətin ikinci ilində, demək olar ki, bütün Qüreyş ailələrinin qatıldığı bir karvanın Şama getməsi xəbəri müsəlmanlara məlum oldu. Peyğəmbər ənsardan və mühacirlərdən bir dəstə düzəldib, karvanı ələ keçirməyi təklif etdi. Təklif qəbul olundu və dərhal 300 nəfərdən çox bir dəstə düzəldi. 624-cü il, martın 9-da dəstə Bədrə tərəf yollandı.[143] Bu haqda aşağıda söhbət edəcəyik.

[143] Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, s. 148.

Mühacirlərin bəzisi Yəsribə öz ailəsi, qohum əqrəbası, bəzisi mal-mülkü ilə gəlmiş, bəzisi də qüreyşilərin zülmündən "canını götürüb" qaçmışdı. Onları Mədinədə yerləşdirmək elə də asan deyildi, Peyğəmbər özü müxtəlif vaxtlarda Bəni-Əmr, Bəni-Səlim və Bəni-Malik əşirələrinin mənzillərində yaşayıb, xütbələrini Səid bin Xeysəmənin evində edirdi. Sonra öz şəxsi vəsaiti ilə torpaq alaraq, məscid tikməyə başladı, məscidin yanında zövcələri üçün kiçik otaqlar ayırdı.[144] Camaatın yarısı mədinəlilərin evlərində yerləşdirildi, qalanı isə məscidin çardağı (süffə) altında yerləşdilər və "əhlu-s-suffə" –"çardağ, kölgə əhli" kimi tanınmağa başladılar. Bəzi mühacirlərə isə Mədinə ətrafında olan sahibsiz torpaqlar və səhabələrin öz torpaqlarından ayırdıqları torpaqlar verildi.[145] Əhlu-suffənin bilavasitə Peyğəmbərin (s) yaxınlığında olmaları onların əqidələrində islam dünyagörüşünün təsirini gücləndirirdi. Onlar Peyğəmbərin buyurduqlarını yerinə yetirir, onun mühafizəsini təşkil edir, sadə yeməklərlə kifayətlənirdilər.[146]

Hicrətdən bilavasitə sonra Peyğəmbər başlıca olaraq islam prinsiplərinin aydın şəkildə xalqa çatdırılması, insanların təfəkkürünün və dünyagörüşünün yenidən tərbiyə edilməsi və düzgün səmtə yönəldilməsi ilə məşğul idi. O, həmçinin yeni sosial münasibətlərin kök salması və cəmiyyətin daxili birliyinin təmin edilməsinə xüsusi əhəmiyyət verməli olur, müsəlmanların gündəlik qayğılarını və ehtiyaclarını qarşılayır, lakin qarşıda duran əqidəvi və əxlaqi tərbiyə məsələləri bunların ikinci plana çəkilməsini tələb edirdi. Peyğəmbərin şəxsi məişəti və maddi vəziyyəti də başqa müsəlmanlarınkından yaxşı deyildi. Onun mənzili və zövcələrinin sığınacaq yerləri olduqca sadə idi. Yeməyi adətən bir-iki dənə xurma və arpa çörəyi ilə məhdudlaşırdı. O, xarici görkəminə və təmizliyinə həmişə fikir versə də, geyimi həmişə sadə olub, bahalı

---

[144] İbn Hişam. Əs-Sirə ən-nəbəviyyə, 2, s. 88; Ramiz Mürsəlov, yenə orada, s. 63.

[145] Əl-Bəlazuri. Əhməd bin Yəhya. Ənsab əl-əşraf, 1, s. 263.

[146] Ramiz Mürsəlov, yenə orada, s. 63

olmazdı.[147] Xeybər, Fədək və digər yəhudi bölgələrinin fəthindən sonra ona çatan payların hesabına Peyğəmbərin maddi vəziyyəti bir qədər yaxşılaşdı.[148]

Mühacirlərin və ənsarların bir-biri ilə qardaşlaşması isə Mədinə əhalisi arasındakı əlaqələrin tənzimlənməsi üçün zəmin yaratdı və bu qardaşlaşma ittifaqı islam birliyi əsasında həyata keçirdi, bu da, Quranın çağırışına cavab idi: "Həqiqətən möminlər (dində) qardaşdırlar" (Hucurat, 10). "O, sizin qəlblərinizi (islam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz" (Ali-İmran, 103).

Lakin qardaşlaşma ittifaqı mühacirlərin ilk dəstələrini əhatə etmişdi. Sonradan Mədinəyə gəlmiş mühacirlər bu ittifaqın şərtlərindən kənarda qalmışdı, onların sosial məsələləri həll olunmamışdı. Qardaşlaşma ittifaqı mühacirlərin problemlərini müvəqqəti həll etmişdi. Onların arasındakı varislik ittifaqı Bədr döyüşündən sonra pozulmuş və bu problemlər öz köklü həllini gözləyirdi.

Qurandan məlum olduğu kimi, ilk islam icmasında ali inzibati və siyasi hakimiyyət Peyğəmbərin əlində cəmlənmişdi. Bu hakimiyyət ilk mərhələlərdə Qüreyş mühacirlərinə və Hicaz qəbilələrinə şamil olsa da, müsəlmanların sayca artması ilə öz fəaliyyət dairəsini genişləndirdi.[149]

İslamın yayılması uğrunda cihad dövlət siyasətinin tərkib hissəsinə çevrildi. Hökm Allaha, idarəetmə hüququ isə Onun Peyğəmbərinə məxsusdur, ona itaət etmək, əmrlərini yerinə yetirmək hər bir müsəlmanın borcudur. O, idarəetmə işlərində səhabələrlə məsləhətləşsə də, əmri özü verirdi və ona itaət etmək vacib idi. Buna görə də, indiki təbirlə desək, Peyğəmbər (s) həm ali baş komandan, həm hərbi işləri planlaşdıran, həm də siyasi rəhbər idi. Təxminən otuz döyüşə Peyğəmbər şəxsən özü rəhbərlik etmişdir.

---

[147] İbn Səad. Ət-Təbəqat, 1-2\14;
[148] R.Mürsəlov, Yenə orada, s. 220-221
[149] Ramiz Mürsəlov,yenə orada, s. 74.

Qırx beş döyüşə rəhbərliyi isə o, başqalarına həvalə etmişdi. Peyğəmbərin rəhbərlik etdiyi döyüşlər "qəzavat", başqalarının rəhbərlik etdikləri döyüşlər isə "səraya" adlanırdı.[150]

İslamın müdafiəsi və genişləndirilməsi üçün hazırlıq dövlətin başlıca vəzifələrindən biri idi. İslam ordusunun özəyini döyüşün dini fərz olduğunu və ümumi mənafeyə qulluq etdiyini dərk edən azad mömin kişilər təşkil edirdilər. Qəzəvatda o qədər də çox adam iştirak etməsə də, ümumi vəziyyət böyük miqdarda insanı müharibəyə hazır vəziyyətdə saxlamağı, onları silah və nəqliyyat vasitələri ilə təmin etməyi tələb edirdi. Məhz buna görə də, Bəni-Qəynuqa və ən-Nəzir məğlub edildikdə, onlara qarşı irəli sürülən əsas tələb, silahlarını təhvil verərək, torpaqlarını tərk etmək tələbi idi. İbn Sədin xəbər verdiyinə görə, Bəni- Qəynuqa fəth edildikdə müsəlmanlar onların anbarlarından çoxlu silah əldə etdilər. Onlardan silahların alınması Məhəmməd bin Məsləməyə tapşırılmışdı. Peyğəmbər həmin silahlardan xoşladığı üç nizə və üç qılınc götürdü, onları özünün iki qalxanı ilə birlikdə saxlayırdı.[151]

Ən çox qənimət Hüneyn vuruşunda əldə edildi. İbn İshaqın qeyd etdiyinə görə bu qələbədən Peyğəmbər altı minə qədər kəniz və azad qadın və sayı-hesabı bilinməyən dəvə və mal-qara əldə etmişdi. Müsəlmanlar iyirmi dörd min dəvə, qırx mindən çox mal-qara, dörd minə qədər zireh ələ keçirmişdilər. Döyüşçülərin hər birinə dörd dəvə, qırx mal-qara, üç zireh çatdı. Peyğəmbər (s) qənimətlərin bir hissəsini "qəlblərinə islama qarşı hüsn-rəğbət salınmışlara" (əl-muəlləfə qulubuhum) payladı. İbn İshaq əksəriyyəti qüreyşli olan və hərəsinə yüz dəvə verilmiş on iki nəfərin adını çəkir.[152]

[150] Yenə orada, s. 151-152.

[151] İbn Səad. Ət-Təbəqat, 1-2\172,174; Ramiz Mürsəlov, yenə orada, s. 224-225.

[152] İbn Hişam.Əs-Sirə ən-nəbəviyyə, 4\134, 140; Ramiz Mürsəlov, yenə orada, s.225- 226.

Peyğəmbər iqtisadi həyatın çiçəklənməsini təmin edəcək bir quruluşu möhkəmlətməyə, ticarət, sənaye və əkinçiliyi inkişaf etməyə yönəldilmiş bir sıra tədbirlər həyata keçirdi. İslam ümumi mənafeyi ifadə edən, cəmiyyətin çeşidli təbəqələri və qurumları arasında əlaqələri tənzim edən, sülh və əmin-amanlığı qoruyaraq, müsəlmanlar arasında silahlı toqquşmaların qarşısını alan, iqtisadiyyat sahəsində sağlam münasibətlərin kök salmasını və sələmçilik (ər-riba) kimi qeyri-qanuni, haram gəlir mənbələrini qadağan edən, əxlaqsız hərəkətləri və istismarı ləğv etməyə çalışan vahid, mərkəzləşdirilmiş hökumət aparatını qanuni elan etdi.[153]

İslam çağırışının əvvəlindən müsəlmanları zəkat və sədəqə verməyə sövq edən ayələr nazil edilirdi. Kasıblara kömək və dövlət xəzinəsini gücləndirmək üçün Peyğəmbər ayrı-ayrı varlı şəxslər və əşirətlərdən zəkat və sədəqə vermələrini tələb edirdi. [154] Bu məqsədlə insanlardan davarın sayına, kənd təsərrüfatı məhsulları, ticarət və başqa gəlirli işlərə görə vergilər də alınırdı. Vergi, zəkat və sədəqə toplayanlar üçün xüsusi vəzifə "əl-musəddiqun" (sədəqə yığanlar) təyin edilmişdi. [155] Onlardan başqa vəhy katibləri, möhürün məsulu, mühasib, nəzarətçi, qanun gözləyənlər, cizyə toplayanlar, qazilər və başqa vəzifələr də var idi.

Çoxları düşünürdü ki, Peyğəmbərin vəfatı ilə onun qurmuş olduğu icmanın siyasi qurumu da dağılıb, məhv olacaqdır. Gözlənilmədən baş qaldıran "riddə" (dindən geri çəkilmə-mürtədlər) hərəkatı göstərdi ki, müsəlman cəmiyyəti hələ vahid tam şəkildə təşəkkül tapmamışdır. Bu, icmanın tərkibinə daxil olan qüvvələrin islam amal və müddəalarına olan inamlarının eyni olmadığını, burada, imanda sabitqədəm ictimai qüvvələrlə yanaşı tərəddüd göstərən, islamı qəbul etməkdə müəyyən mənafe güdən, islama sədaqəti olmayan qüvvələrin də mövcud olduğunu göstərdi.[156]

---

[153] Ramiz Mürsəlov, yenə orada ,s.229.
[154] Yenə orada.
[155] Yenə orada, s.232.
[156] Ramiz Mürsəlov,yenə orada, 235.

Yaranmış yeni şəraitdə islam təfəkkürünə görə, ümmət iki cəbhədən ibarət idi: İslam əqidəsinin daşıyıcıları olan Dəru-l-islam və islamı qəbul etməkdən imtina edən Dəru-l-kufr. Müsəlmanlar artıq riddə döyüşlərinə və fütuhata ayrı-ayrı qəbilələrin nümayəndələri kimi gəlmirdilər; onları birləşdirən bayraq müəyyən bir qəbiləni təmsil etmirdi, onlar döyüşə konkret bir dini əqidənin nümayəndələri olan müsəlmanlar kimi daxil olurdular. Riddə iğtişaşları öncül islam cəmiyyəti və dövlətçiliyi üçün ciddi bir təhlükə idi. Xəlifə Əbubəkrin (İmam Əlinin köməyi sayəsində) iğtişaşçılar üzərindəki qələbəsi Peyğəmbərin (s) vəfatı ilə əlaqədar olaraq əhalinin müəyyən hissəsində yaranmış tərəddüdlərə və şəkk-şübhələrə son qoydu. Riddə iğtişaşlarının təşəbbüskarları və iştirakçıları həqiqi müsəlmanlarda özlərinə qarşı inamsızlıq oyatdılar. Onlara etibar etməmək və onlara ürək qızdırmamaq xəlifə Əbubəkrin hakimiyyəti dövründə dövlət siyasətinin mühüm müddəası idi. Ət-Təbəri yazır: "Əbubəkr ölümünə qədər riddə əhlinə etibar edib, onların köməyindən istifadə etmədi."[157] Bu hal Ömər ibn əl-Xəttabın dövründə davam edirdi. Artıq erkən islam icmasının kifayət qədər möhkəmlənməsinə baxmayaraq, onların (mürtədlərin) sədaqətinə inanmaq çətin idi.

Müsəlmanlar müxtəlif mənşəli insanlardan təşkil olunmuş bir ümmətdir və bu ümmətin birliyi başqa birlik formalarından daha mətin olması ilə fərqlənir. Peyğəmbərin (s) Mədinə əhalisinin qeydiyyatının birinci səhifəsində deyilirdi: "Müsəlmanların hər biri digərini himayə etməlidir, onların hamısı bərabərdir, böyük-kiçik, varlı-kasıb arasında heç bir fərq yoxdur. Hər kəs istədiyi adamla qonşu ola bilər və o, öz qonşusunu himayə etməlidir".

Yuxarıda qeyd edildiyi kimi, Peyğəmbərin Mədinədə ilk tərtib etdiyi rəsmi sənədə "səhifə" deyilirdi. Peyğəmbərin oradakı fərmanına görə Mədinədə fəsad törədənlərə qarşı təhlükəsizlik

[157] Ramiz Mürsəlov, yenə orada, s. 236 Ət-Təbəri. Ət-Təfsir əl-kəbir, 1\5\2457

orqanları və həbsxanalar yox idi. Quran ədalət və qəza məsələlərini ümumi təhlükəsizliyin hər hansı bir hissəsi hesab edir və bu məsələlərin yalnız Peyğəmbərin (s) səlahiyyətinə aid edilməsini lazım bilir.[158]

Sənəddəki razılığa görə yəhudilər müsəlmanlarla müharibə edənlərə qarşı onları (müsəlmanları) dəstəkləməli idilər. Peyğəmbər yəhudilərin müharibədə iştirakını deyil, onların mənən, ruhən dəstəyini istəyirdi. Lakin Xəndək müharibəsində onlar qüreyşilərlə əlbir oldular. Elə ona görə də Peyğəmbər öz uzaqgörənliyi ilə sənəddə qeyd etmişdi ki, yəhudilər Peyğəmbərin icazəsi olmadan Mədinədən kənara çıxa bilməzlər.

Sənəddə "Bu sənəd sahibləri üçün Yəsribin daxilində müharibə etmək haramdır" sözləri də qeyd edilmişdi. Bu da Mədinədəki qəbilələr və əşirətlər arasındakı daimi davalara dini cəhətdən son qoyulması məqsədini güdürdü.

Peyğəmbər yaratdığı dini "islam" (Allaha özünü təslim etmək) adlandırdı və ibadətlərin təşkili və rəsmiləşdirilməsi ilə məşğul olmağa başladı. İbadətlərdən ən ümdəsi olan namazı irəli sürdü, gündə beş dəfə namaz qılmaq müsəlmana fərz oldu. Quranda da bu öz əksini tapıb, orada dəfələrlə namazın vacibliyi, onun vaxtında qılınması və ona səhlənkarlıq edilməməsi tələb olunur.

Müsəlmanların vəziyyəti sabitləşdikdən sonra ətraf səhralarda kəşfiyyat aparmaq, Məkkə-Şam yollarına nüfuz etmək, orada-burada vurnuxan narahat qəbilələrin vəziyyətini öyrənmək üçün silahlı dəstələr göndərilirdi. Həmin günlərdə məkkəli Kürz ibn Cabir əl-Fəhri Mədinə ətrafındakı sürüləri yığıb aparmışdı. Peyğəmbərin (s) dəstəsi Bədr yaxınlığındakı Səfvana qədər onu təqib etdi, islam bayrağını Hz.Əli (ə) tutmuşdu. Müsəlmanların yaxınlaşdığını bilən Kürz ibn Cabir oğurladığı malları atıb, dəstəsi ilə qaçır, müsəlmanlar ona çata bilməmişdi. Bu yürüş "Birinci Bədr

[158] Ramiz Mürsəlov, yenə orada,s.76

yürüşü” adlandı. [159] Səhralara göndərilən dəstələrə “səriyyələr” deyilirdi (səriyyə müasir ərəb dilində rota mənasındadır). Bu səriyyələr olmasaydı səhranın bədəvi müşrikləri və quldurları heç şübhəsiz, Mədinəyə hücum edəcək, bu toxunulmaz (haram) diyarı viran edəcəkdilər. Dəstələrin göndərilməsinin ikinci səbəbi isə Qüreyşi onun axmaqlığının nə ilə nəticələnə biləcəyi barədə xəbər-dar etmək idi. Qüreyş islamın Məkkədən kənarda da möhkəmlən-məsini istəmirdi. Peyğəmbər qərara gəlmişdi ki, Məkkə liderlərinə müsəlmanların əzildiyi günlərin keçmişdə qaldığını, qisas gününün yetişdiyini hiss etdirsin. Hicrətdən sonra Mədinədə yaşayan müsəlmanlar Məkkədə müşriklərin onlardan qəsb etdiklərinin əvəzinə onların karvanlarına hücum edirdilər. Məkkə əhlinin həyatı əsasən ticarət əsasında qurulmuşdu. Aydın idi ki, bu ticarəti məhv etməklə bölgədə Məkkənin hökmranlığına son qoyulacaqdı. Bu, çox çətin vəzifə idi, çünki Məkkənin ticarət fəaliyyəti təkcə bir səmtlə məhdud deyildi. Onun ticarət əlaqələrində Şam, İraq, Həbəş, Yəmən, Nəcd, Yəmamə və Bəhreyn kimi ölkə və şəhərlər görkəmli yer tuturdular və bu ticarət mütəmadi olaraq həm yay, həm də qış mövsümlərində aparılırdı və müsəlmanlara məkkəli-lərin ticarətlərini ləğv etmək çox çətin bir iş idi. Müşriklərin ti-carətinə zərər vurmaq məqsədilə Peyğəmbər Bədrə tərəf hərəkət edərkən, Rəhva qəsəbəsində bir quyu yanında namaz qıldılar. Sonra orada “Məscidu biri Rəhva” adlı məscid tikildi. [160] Belə yü-rüşlərin birində - hicrətin ikinci ili, ramazan ayının 17-də Bədr döyüşü baş verdi.

[159] Şahlar Şərifov. İslam tarixi. B.Nurlar, 2013; H.F.Nurullah. İmam Əli(ə), s.49

[160] Hicaz Albümü: Fotoğraflarla Kutsal Topraklar, Diyanet işleri Başkanlığı, 2010; H.F.Nurullah. İmam Əli, s.48.

## Bədr döyüşü

Peyğəmbər Məkkə müşriklərinin Əbu Süfyanın başçılığı altında böyük bir karvanla Şamdan Məkkəyə qayıtdıqları xəbərini aldı və bu karvanı ələ keçirməyi qərara aldı.

Bədr döyüşünə Allah-Təalə özü icazə vermişdi. "Zülmə məruz qaldıqlarına görə vuruşanlara izn verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə, qadirdir" (Həcc, 39). Bu döyüş mühacirlər üçün halal idi, çünki orada əldə edilən qənimət mühacirlərin Məkkədə əllərindən alınan mal-dövlətin əvəzi olacaqdı. "Quran əhvalatları" kitabının müəllifi Rəhman Salmanov qeyd edir ki, müsəlmanlara xəbər çatdı ki, onların Məkkədə tərk etdikləri evlərinin əşyalarını müşriklər başqa ölkələrdə satmaq üçün aparırlar.[161] Bədr döyüşü ənsarların iştirak etdikləri və onların Peyğəmbərlə birlikdə Mədinədən kənarda vuruşduqları ilk döyüş idi.[162] Peyğəmbər (s) bir bayraq Müsəbə, birini də Əliyə (ə) verib, hicrətin ikinci ili, Ramazan ayının 8-i, bazar ertəsi 313 nəfərlik ordu, 3 at, 70 dəvə ilə Bədrə sarı yollanır.

Əbu Süfyanın məkkəliləri köməyə çağırdığını Peyğəmbər eşitdikdən sonra məsələnin ciddiləşdiyini hiss etdi. Şura çağırıb camaatın döyüşüb-döyüşməyəcəyi barədə fikrini bilmək istədi. Əbubəkr və Ömər qüreyşlilərin güclü olduğu üçün Mədinəyə qayıtmağı təklif etdilər, bu isə rüsvayçılıq olduğuna görə Peyğəmbərin heç xoşuna gəlmədi. Sonra səhabələrdən Miqdad ayağa qalxıb, Peyğəmbərin dalınca gedəcəklərini, Bəni İsrailin Musaya dediklərini (Sən öz Allahınla bilikdə get vuruş, biz burada gözləyirik) deməyəcəklərini söylədi. Peyğəmbər sevinib, ona dua etdi.

---

[161] Rəhman Salmanov. Quran əhvalatları. Bakı, 2015, s. 133

[162] Ramiz Mürsəlov, yenə orada, s. 157; İbn Səəd 201\ 7,14,15; Ənsab əl-əşraf, 289

Ordunun çoxu mədinəlilər olduğu üçün Peyğəmbər onların rəyini bilmək istəyir. Çünki onlar Peyğəmbəri Mədinə daxilində qoruyacaqlarına söz vermişdilər. Mədinəli Səd ibn Məaz ayağa qalxıb "Ya Peyğəmbər, bircə nəfər də olsun sənin əmrindən çıxmayacaq" dedi. Peyğəmbər sevinərək, hərəkətə keçmək əmri verdi və dedi ki, ya karvanı ələ keçirəcəyik, ya da Məkkə qoşunu ilə rastlaşıb vuruşacağıq.

Peyğəmbər 305 nəfərlə Bədr yaxınlığında yerləşdi. Bəzi mənbələrdə bu say 313 nəfər göstərilir. "Səhihu-l-Buxari"də rəvayət edilən Bəra ibn Azibin sözü də bunu təsdiq edir.[163] (Yuxarıda da elə bu say 313 qeyd olunmuşdur. Ola bilsin Peyğəmbər 8 nəfəri başqa yerlərdə yerləşdirib). Hədislərdə qeyd edildiyinə görə axiruzzaman İmam Mehdinin (ə) səhabələrinin sayı da 313 olacaq. Müşriklərin karvanına başçılıq edən Əbu Süfyan bundan xəbər tutub, yolunu dəyişir və əvvəl Məkkəyə xəbər göndərdiyi təhlükənin sovuşduğunu çatdırır. Məkkədən karvana köməyə çıxmış müşriklər bu xəbəri eşitdilər və onlar arasında ikitirəlik yarandı. Ordunun yarısı qan tökməklə müsəlmanları daha da qəzəbləndirməyi münasib hesab etməyib, geri dönməyi məsləhət bilirlər. Davakar əhval-ruhiyyəli Bəni-Zəhra və Bəni-Üdeyy əşirələri onlardan ayrılandan sonra müşriklərin bir hissəsi Məkkəyə geri döndü.[164] Qalanları isə 950 nəfər döyüşçü, 700 dəvə və 200 atlı ilə "müsəlmanlara dərs verməyi" qərara aldılar. Peyğəmbər (s) döyüş ərəfəsində yüksək səslə Allahı çağırırdı: "Allahım, mənə verdiyin vədi yerinə yetir! Allahım, köməyini əsirgəmə!" Hücuma birinci müşriklər başladılar. Çox inadlı olan (müşrik olaraq Allaha inanmayan) Əsvəd ibn Əbdüləsvəd müsəlmanların düzəltdiyi hovuza tərəf cumaraq qışqırdı: "Allaha söz verirəm ki, ya onların düzəltdiyi hovuzun suyundan içəcəyəm, ya onu dağıdacağam, ya da bu yolda öləcəyəm!"

---

[163] Səhihul-Buxari. Kitabul-məğazi, VI bab, hədis 3957-3959; Aqil Şirinov. Azərbaycanda tolerantlıq mühitinin formalaşmasında Əhli-beyt irsinin rolu. Azərbaycan və Əhli-beyt irsinin rolu. Məqalələr toplusu, Bakı – 201s. 36

[164] Ramiz Mürsəlov, yenə orada, s.158.

Onun qarşısına Həmzə çıxıb, bir zərbə ilə onun ayağını kəsdi. Əsvəd sürünərək hovuza çatıb, onu dağıtmaq istədi, Həmzə onu hovuzun yanında öldürdü - Əsvədin verdiyi vədlərdən ancaq üçüncüsü həyata keçdi. Bunu görüb Ütbə və Şeybə qardaşları və Ütbənin oğlu Valid meydana çıxıb döyüşçü tələb etdilər. Onlarla döyüşməyə üç müsəlman göndərildi. Onlar göndərilən əsgərlərin onlara tay olmadıqlarını bildirib, özlərinə tay döyüşçü tələb etdilər. Peyğəmbər Übeydə, Həmzə və Əlini onların qarşısına çıxartdı. Onlar belə adlı-sanlı cəngavərlərin onların qabağına çıxarılmasına hətta qürrələndilər də. Həmzə ilə Əli rəqiblərini bir göz qırpımında öldürdülər, Validlə Übeydə isə bir-birini yaraladılar. Həmzə ilə Əli Validi öldürüb, Übeydəni öz döyüşçülərinin yanına gətirdilər. Peyğəmbər alaçıqda birdən Əbubəkrə dedi: "Sevin, Allahın köməyi gəldi! Budur, Cəbrayıl atını toz-dumanın içinə sürür!". Hz.Əli Bədr savaşında Valid ibn Ütbə, Şeybə, As ibn Səid As, Hənzələ ibn Əbu Süfyan, Təimə ibn Ədi, Nofəl ibn Xuveylid və digərlərini öldürmüşdü. [165] Əbu Cəhl öldürüldükdən sonra isə məkkəlilər dağılışdılar.[166]

Bədr döyüşü Allahın köməyi, Peyğəmbərin müdrikliyi və Həmzə ilə Hz.Əlinin qəhrəmanlığı sayəsində uduldu. Döyüşdə müşriklərin 70 cəngavəri ölmüş, 70-i əsir düşmüşdü, onların arasında Abbas ibn Əbdülmüttəlib və Əqil ibn Əbi Talib də var idi. Onlar fidyə (əsirin azad olunması üçün verilən pul) verib azad oldular və islamı qəbul etdilər. Müsəlmanlardan 14-ü həlak oldu. Şəhid müsəlmanları döyüş meydanının bir küncündə dəfn etdilər, müşrikləri isə bir quyuya tökdülər. Peyğəmbər (s) onlarla diri olan adamlar kimi danışaraq, onların səhv yol tutduqlarını dedi. Hz.Əlinin öldürdüyü düşmənlər arasında yuxarıda adları çəkilən Qüreyş başçılarından əlavə Ümeyr ibn Osman kimi cəngavər də

---

[165] Əllamə Məclisi. Biharul-ənvar, c.36, s.22; H.F.Nurullah. İmam Əli (ə), s.48-49.

[166] Surac Salih.Peyğamberimizin Hayatı, Nesil Yayımları, c.2, s.35.

var idi. Deyilənlərə görə döyüşdə öldürülənlərin yarıdan çoxunu Hz. Əlinin (ə) qılıncı məhv etmişdi. Qeyd olunduğu kimi, cəmi 14 müsəlman qətl edilmişdi, Allahın lütfü ilə onlar Cənnətə getdilər. Allah-Təalə döyüş haqda ayə nazil etdi: “(Ey Rəsulum!) Həqiqətən siz Bədrdə düşmənə nisbətən az və zəif olduğunuz halda, Allah sizə yardım etdi. Allaha şükür edən olmaq üçün Allahdan qorxun!” (Ali İmran, 123). Bu döyüşdə imanla küfr, ata ilə oğul, qardaş qardaşla üz-üzə gəlmişdi. Əbubəkr Peyğəmbərlə, oğlu Əbdürrəhman Əbu Cəhllə idi, Ütbə müsəlmanlara qarşı vuruşda öldü, oğlu Hüzeyfə isə Peyğəmbərin səhabəsi idi. Peyğəmbər üç gün Bədrdə qaldı, sonra əsirlər və qənimətlərlə Mədinəyə döndü.[167]

Bədr döyüşü Allahın köməyi və Peyğəmbərin müdrikliyi sayəsində, müşriklərin sayı çox olsa da, müsəlmanların qələbəsi ilə nəticələndi.

Bədr döyüşü qüreyşlilərlə müsəlmanlar arasında ilk silahlı qarşılaşma, əvvəlcədən hazırlanmış əməliyyat idi. Həm də Bədr döyüşü ilk döyüş idi ki, burada qənimət ələ keçirmək qarşıya məqsəd qoyulmuşdu. Döyüşdən qabaq Peyğəmbər öz ordusunun müsəlmanların ən şüurlu, sədaqətli, qüreyşlilərə qarşı ən çox nifrət bəsləyən mühacirlərə əsaslandığını bəyan etmişdi. Əgər müsəlmanlar məğlub olsaydılar, Peyğəmbərin hakimiyyəti ciddi təhlükəyə məruz qalar, bəlkə də bu təhlükə islamın yox edilməsinə gətirib çıxarardı. “Ənsab əl-əşraf”da qeyd edilir ki, Peyğəmbər döyüşdən qabaq Allaha dua edərək deyir: “Pərvərdigara, bu gün ordumu həlaka uğratsan, heç vaxt sənə ibadət edilməyəcək”.[168] Bizcə Peyğəmbərin belə deməsi şübhəlidir. İkincisi də, Allah-Təalə öz sevimli peyğəmbərinin ordusunu niyə həlaka uğratsın ki?! Əvvəlki dinlərdən sonra islamı axırıncı din və Məhəmmədi bütün dünyaya sonuncu peyğəmbər göndərməmişdi məgər?

---

167 M.Qəzali, yenə orada, s.353-376.

168 Ənsab əl-əşraf, c.1, s.198; Ramiz Mürsəlov, yenə orada, s.159-160.

Bədr döyüşü ilk döyüş idi ki, Mədinədən kənarda aparılırdı və islamın gələcək taleyi Bədr döyüşünün nəticəsindən asılı idi. Ona görə də müsəlmanlar Bədrdəki qələbə gününü hər il qeyd edirlər. Bədr döyüşü Quranda adı çəkilən yeganə döyüşdür. Bədr döyüşünün nəticələrinin müsəlmanların mənəviyyatının möhkəmlənməsində, onların Peyğəmbərin (s) ətrafında daha sıx birləşməsində, Peyğəmbərin Mədinədə mövqe və nüfuzunun dərinləşməsində, onun Mədinə yəhudilərinə qarşı siyasətinə yenidən nəzər salmasında böyük əhəmiyyəti olmuşdur. Bədr döyüşü Peyğəmbərin bir hərbi sərkərdə kimi istedad və bacarığını nümayiş etdirdi. Bədr döyüşü hər şeydən əvvəl ərəblərin qəlblərində qüreşilərə qarşı daşıdıqları qorxu və heybəti yox etdi, bir çox qəbilələrin Peyğəmbərə yaxınlaşmasına gətirib çıxartdı, Peyğəmbərə zəfərlə Mədinəyə qayıdıb, orada daxili cəbhəni təmizləməyə, daxili sabitliyi zəiflətməyə çalışan bəzi qüvvələrə qarşı qəti tədbirlər görmək imkanı verdi.[169]

Bu Bədr savaşı "İkinci Bədr döyüşü" adlandı və bu savaş müsəlmanların bütpərəstlər üzərində ilk böyük qələbəsi oldu. Bu döyüşdən sonra müsəlmanlar müdafiə mövqeyindən hücum taktikasına keçdilər və artıq özlərinin mükəmməl bir qüvvə kimi yetişdiklərini nümayiş etdirdilər.[170]

Bədr döyüşü ilə bağlı bir neçə vəhy nazil olub, onların ikisini qeyd etmək istərdik: "Allah bu köməyi sizə yalnız sizin üçün bir müjdə və ürəkləriniz sakit olsun deyə etmişdi. Qələbə yalnız Allahdandır. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir"(Əl-Ənfal,10). "Bu onların Allaha və Onun Peyğəmbərinə qarşı çıxmalarına görədir. Kim Allaha və Onun Peyğəmbərinə qarşı çıxsa, (bilsin ki,) Allah (ona) şiddətli əzab verər" (Əl-Ənfal, 13).

Qələbədən sonra müşrik qəbilələrinin arasında ixtilaflar yarandı, bəziləri müsəlmanlara yaxşı münasibət bəsləməyə başladı,

---

[169] Ramiz Mürsəlov, yenə orada, s.160-161.
[170] Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər...s. 148.

məğlubiyyət bəzilərininsə nifrətini daha da artırdı. Məkkədə yaşayan müsəlman ya imanını gizlətməli, ya da zəlil və köməksiz yaşamalı idi. Mədinədə də bir dəstə müşrik və yəhudi üzdə islamı qəbul etsə də, içləri kin, nifrət və küfrlə dolu idi. Onların başında Abdullah ibn Übeyy dururdu. Tanınmış yəhudi şairi Kəb ibn Əşrəf isə müşriklərə başsağlığı verib, intiqam ruhlu qəsidələr yazmışdı. Belə bir mövqedən sonra müsəlmanlarla yəhudilərin arasındakı düşmənçilik daha da böyümüşdü. Müsəlmanların yəhudilərlə bağladıqları müqaviləni pozmaq, onları yarımadadan qovmaq fikirləri əsla olmamışdır. Əksinə, onlar gözləyirdilər ki, yəhudilər bütpərəstlərlə mübarizədə onlara kömək edəcək, tövhid əqidəsinə dəstək verəcəklər. Lakin, yəhudilər belə düşünmürdülər, heç düşünməzdilər də. Çünki qəlbən Allaha bağlı olanları az idi. Həm də onların dinini başqa din əvəz edirdi. Bir də onlar xristianlardan gördüklərini görmüşdülər. Yuxarıda qeyd olunduğu kimi xristianlar onları Ərəbistan çöllərinə, Cəhənnəmə bənzəyən Yəmənə köçməyə məcbur etmişdilər. Ona görə də, müsəlmanlar dövlət qurmağa çalışdıqları bir vaxtda yəhudilərin onu dağıtmaq istəməsi, islamın şirkə savaş açdığı günlərdə israiloğullarının Hz.Məhəmməd (s) və səhabələri əleyhinə iş aparıb, küfrün yanında yer almaları başadüşüləndi, lakin qəbuledilməz idi. Müsəlmanlar Bədr qələbəsinə sevinərkən onlar Peyğəmbərə demişdilər: “Döyüşməyi bilməyən tayfa ilə bu fürsəti əldə etməyin səni aldatmasın! Səninlə müharibə etsək, bizim kim olduğumuzu biləcəksən!”. İlk dəfə, Mədinədə yaşayan Bəni-Qəynuqə yəhudiləri müsəlmanları lağa qoymuşdular, müsəlmanlar qəzəblərini boğmuş, onların hiylələrinin faş olacaq vaxtını gözləmişdilər. Bir dəfə bazarda yəhudilər bir ərəb qadına sataşmış və bununla müsəlmanlarla onlar arasında müharibə başlamışdı. Qalalarına sığınıb döyüşən yəhudilər 15 gün mühasirədən sonra təslim oldular. Peyğəmbər Bəni-Qəynuqə yəhudilərini Şamdakı Əzraət ərazisinə sürgün etdi, onların çoxu orada məhv oldu. Allah-Təalə Ali İmran surəsinin 12-13-cü ayələrində

yəhudilərin rüsvayçılıqla məğlub olacaqları haqqında məlumat vermişdir. Özlərini təkallahlı (monoteist) hesab edən yəhudilərin islamın şirk üzərində qələbə çalmasından qəzəblənmələri heç bir qəlibə sığmırdı. Müsəlmanlar, əhdə xilaf çıxıb, Allah və Peyğəmbərinə (s) savaş elan edən, Qüreyşə dəstək verən, şad və qəmli günlərində onun yanında olan hər kəsi cəzalandırdılar, həddini aşan yəhudi liderlərinə "bərk" qulaqburması verdilər. Yuxarıda haqqında qeyd etdiyimiz müşrikləri yana-yana dəstəkləyən şair Kəb bin Əşrəfi isə Əbu Nailə və Məhəmməd ibn Məsləmə öldürdülər.

Yuxarıda orucun Ramazan ayında fərz (vacib) olunması haqqında qeyd etmişdik. Yəni, Bədr döyüşündə müşriklər üzərində ilk qələbədən sonra Mədinəyə həvəslə qayıdan Peyğəmbər hicrətin ikinci ilinin Ramazan ayında orucun fərz buyurulduğunu müsəlmanlara elan etdi. Bu ay müsəlmanları hənif dinlə bağlayan müqəddəsliyə malikdir və Qurani-Kərim Ramazanda bütöv şəkildə Allahın Göy təbəqələrindən olan Lövhi Məhfuza nazil olunmuş[171] və sonra oradan Cəbrayıl (ə) vasitəsi ilə ayəbəayə, surəbəsurə Məhəmməd (s) peyğəmbərə çatdırılmışdır. Ramazan "ramada" kökündən olub istilik, hərarət, yandırmaq mənasını verir və by ayda oruc tutanların günahlarının Allah tərəfindən yandırılması-bağışlanmasını bildirir (İraqdan başqa bütün ərəb ölkələrində orucluq ayına Ramadan deyilir).

Mədinə əhalisi arasında islamı dəstəkləyən qüvvələrin çox olmasının bir səbəbi də, onların çoxunun müşrik olmasına baxmayaraq, burada müşrikliyi dəstəkləyəcək bir dini müəssisənin, qurumun olmaması, bu məfkurəni yayacaq din xadimlərinin mövcud olmaması idi. Onların hər il Məkkəyə gedib, Mənat bütünü ziyarət etmələri mütəşəkkil deyildi. Lakin bu, o demək deyildi ki, Mədinə əhalisi islamı dərhal qəbul etmişdir, o (islam), Mədinə əhalisinin

---

[171] Ramiz Mürsəlov, yenə orada, s.104; Əl-Bəlazuri. Ənsab əl-əşraf, c. 1, s. 276

əqlinə tədricən hakim kəsilmiş, Peyğəmbərin hakimiyyəti Mədinədə müəyyən vaxtdan sonra möhkəmlənmişdir.[172]

Mədinədə qəbilə quruluşunun möhkəm olduğunu nəzərə alan Peyğəmbər onu olduğu kimi saxladı, lakin onu müsəlmanların əqidə birliyinə əsaslanan yeni, daha yüksək təşkilat forması ilə təkmilləşdirdi. Bu təşkilati qurum Peyğəmbərin daxili və xarici siyasətdə mövqeyini möhkəmləndirdi. Bu, cəmiyyətdə islama xidmət edənlərin mənafeyini daha da yüksək tutur, eyni zamanda fərdi meyilləri ümumiləşdirərək vahid bir axına yönəldirdi.[173]

Belə müvəffəqiyyətlərlə yanaşı, Ramiz Mürsəlovun qeyd etdiyi kimi, Mədinədə islamla müxalifətdə olan qruplaşmalar da var idi. Quran belə qruplaşmalarda cəmləşənləri "qəlbində xəstəlik olanlar", "münafiqlər" və "yəhudilər" adlandırır. "O kəslər ki, qəlblərində mərəz vardır" cümləsi Quranın 12 ayəsində təkrarən qeyd olunur. "Qəlblərində mərəz olanlar" üç ayədə münafiqlərə aid edilir.[174]

Quranın bir neçə ayəsində münafiqlərin əzaba düçar olacaqları, onların Cəhənnəm əhli olacaqları və orada əbədi qalacaqları qeyd olunur. Onlar Allah haqqında pis düşünür, Onun ayələrinə istehza edir, Onun Peyğəmbərini incidir, müsəlmanların yanında lovğalanıb təkəbbürlənir, kafirlərlə əməkdaşlıq edir, islama qarşı fitnəkarlıq edirdilər. Allah-Təalə öz Peyğəmbərinə (s) əvvəl səbr etməyi, sonra onlarla alış-verişi kəsməyi və axırda onlara qarşı cihad etməyi əmr edir.[175] Məcmə bin Cariyə kimi bəzi münafiqlər isə islama sadiq idilər.

Məhəmməd peyğəmbərin Yəsribə hicrəti ilə başlayan yeni mərhələdə onun dini çağırışı yeni istiqamət və vüsət kəsb edir. O, burada artıq, sorğu gününün dəhşətli səhnələrinin təsirindən sarsılmış adi bir insan deyildir. Yeni şərait onu bir sərkərdə, müdrik

[172] Ramiz Mürsəlov, yenə orada,s.106.
[173] Yenə orada.
[174] Yenə orada, s.112.
[175] Yenə orada, s.115-116.

dövlət xadimi, genişlənməkdə olan müsəlman icmasının təşkilatçısı kimi yetişdirir. İslamın bir dini təsisat kimi inkişafının və Məhəmmədin peyğəmbərlik risaləsinin Mədinədə yayılmasının həlledci mərhələsi başlanır. Bu baxımdan hicrət təkcə islam tarixində sadə bir hadisə - Peyğəmbər tərəfdarlarının kiçik bir qrupunun təqiblərdən yaxa qurtararaq əmin-amanlığa çıxması və buradan çıxış edərək,  öz məfkurə düşmənlərinə qarşı  630-cu ildə Məkkənin fəthi ilə nəticələnən hərbi yürüşlər təşkil etməyə başlaması dövrü yox, Ramiz Mürsəlovun fikrincə, həm də islam dininin inkişafının mühüm mərhələsidir.

Məşhur islamşünas alim İ.Goldsiyer Mədinə dövründə Məhəmməd peyğəmbərin şəxsiyyətində baş vermiş inkişaf prosesini nəzərdə tutaraq, onun "xəyalpərvər və gələcəkdən xəbər verən şəxsdən inkişaf edərək müdrik dövlət xadimi və qanunvericisinə çevrildiyini" qeyd edir. Digər şərqşünas Gustav fon Gryunebaum isə Peyğəmbərin dövründə Mədinədə fəaliyyət göstərən üsul-idarəni "ümmət imperiyası" adlandırır.[176]

Yəhudilərə gəlincə, onlar Peyğəmbərin Mədinə sakinləri ilə görüşlərinə, Əqəbə beyətlərinə, islamın Mədinə əhli arasında yayılmasına və Peyğəmbərin Mədinəyə hicrətinə maneə törətməmişdilər. Müsəlmanların yəhudilər üzərində üstünlüyü hələ müşahidə olunmurdu. Peyğəmbər yəhudilərlə yumşaq davranaraq, onları islama cəlb etməyə və ya heç olmazsa onların islama qarşı hüsn-rəğbətlərini və yardımlarını qazanmağa çalışırdı. O, bu işdə islamın öz mahiyyəti etibarı ilə yəhudilik kimi tövhid dini olmasından və tək Allaha ibadət etməyə çağırışından geniş istifadə edirdi. Buna görə də bəzi yəhudilər artıq, islamı qəbul etmişdilər. Lakin yəhudilər hiss edirdilər ki, islam, ərəb cəmiyyətində yayılmış digər dini etiqadların-müşrikliyin, bütpərəstliyin, xristianlığın və yəhudiliyin aradan qaldırılmasına yönəldilmişdir.  Buna görə də yəhudilərin əsas kütləsi islamdan təcrid olunmuş halda olub, Peyğəm-

---

[176] Ramiz Mürsəlov, yenə orada, s.10.

bərlə (s) əməkdaşlıq etmir, onun heç bir təşəbbüsünü dəstəkləmir, heç bir fəaliyyətində iştirak etmir, əksinə, bəzi tanınmış yəhudilər din məsələlərində Peyğəmbərlə yerli-yersiz mübahisələr edir, onu əhali arasında gözdən salmağa, ona təzyiq göstərməyə çalışır, bununla da islam dövlətinin təşəkkülünə, möhkəmlənməsinə, Mədinə bölgəsində sabitlik yaranmasına ciddi təhlükə yaradır, öz mübahisələri ilə əhalidə islam dininə qarşı şəkk-şübhə və inamsızlıq oyatmağa çalışırdılar.[177]

Yəhudilər Məhəmməd peyğəmbərin islama çağırışına səs vermədilər, Peyğəmbərə qarşı düşmənçilik etməyə başladılar. Quran Peyğəmbərə onlardan uzaq durmağı, onlarla ehtiyatlı davranmağı tövsiyə edir (Ali İmran, 118).

Peyğəmbərin on dörd illik dəvəti bütpərəstlərə təsir etmədiyindən Allah- Təalədən cihad hökmü gəldi. Hicrətin ikinci ilindən doqquzuncu ilinədək kafirlər, müşriklər və Ərəbistan yəhudiləri ilə səksəndən çox döyüş olmuş və Peyğəmbərin iştirak etdiyi döyüşlər yuxarıda qeyd edildiyi kimi "qəzavat" adlanmışdır.[178]

Yəhudilərlə ilk ixtilaflar hicrətin birinci ilinin axırlarında başladı və hicrətin on dördüncü ayında qiblənin Beytu-l-Müqəddəsdən Məkkəyə-Məscidu-l-Hərama-Kəbəyə çevrilməsi ilə nəticələndi. İxtilaflar isə get-gedə artır və ciddi xarakter almaqda davam edirdi. Qiblənin dəyişməsindən sonra yəhudi əhbarlarının Peyğəmbərə qarşı laqeydliyi açıq ədavətə çevrildi. Ramiz Mürsəlovun da qeyd etdiyi kimi, onlara Ovs və Xəzrəc qəbilələrindən cahillikləri ilə ifrata varan bir neçə adam da qoşuldu. Lakin onlar Peyğəmbərə (s) qarşı açıq hərəkət edə bilmədikləri üçün zahirən onunla dostluq edir, daxilən isə əks mövqedən çıxış edirdilər. Onlar bilərəkdən haqqı batilə qarışdırır, Peyğəmbərin nübüvvətini yalan kimi qələmə verir, yerli-yersiz Peyğəmbərlə mücadilə edirdilər[179], müsəl-

---

[177] Ramiz Mürsəlov, yenə orada, s.135-137.

[178] H.F.Nurullah. İmam Əli(ə), s.54.

[179] Ramiz Mürsəlov, yenə orada, s. 137-138; İbn Hişam, c.2, s.135-139; Əl-Bəlazuri. Ənsab əl-əşraf, c.1, s.185

manları təhqir edirdilər. Bir dəfə də, haqqında yuxarıda ötəri bəhs edildiyi kimi, bir müsəlman qadın Qəynuqə bazarında malını satandan sonra oturub istirahət etdiyi vaxt yəhudi zərgərlər ondan üzünü açmagı tələb edirlər, qadın tələbi rədd etdikdə yəhudinin biri qadının paltarını yuxarı qaldırır və yəhudilər ona gülməyə başlayırlar. Müsəlman qadının harayına gələn bir müsəlman vurub yəhudini öldürür, yəhudilər də vurub onu öldürürlər və bu olay hicrətin ikinci ilinin şəvval ayında, Bədrdəki qələbədən sonra Peyğəmbərin Qəynuqə yəhudiləri üzərinə hücumu ilə nəticələnir.

Peyğəmbərin Bəni-Nəzirə əşirətinə (oymağına) hücumu isə səhabələrin ona xəbər verdiklərinə görə, bir müsəlmanın Bəni-Amir əşirətindən iki adamı xəta üzündən öldürməsi ilə əlaqədar idi. Peyğəmbər yəhudilərlə danışıqlar əsnasında hiss etdi ki, yəhudilər onu (kişini) qətlə yetirmək istəyirlər. Ramiz Mürsəloun da qeyd etdiyi kimi, Peyğəmbər müsəlmanları ayağa qaldıraraq, yəhudiləri altı gün mühasirədə saxladıqdan sonra bəninəzirəlilər təslim oldular. Başda Bəni-Ouf bin əl-Xəzrəc əşirəti olmaqla başqa yəhudi əşirətləri bəninəzirəlilərə köməyə çalışsalar da, bir şey çıxmadı. Mədinənin cənubunda yerləşən Bəni-Qüreyzə əşirəti də Peyğəmbərlə əhd bağlamasına baxmayaraq, Əbu Süfyanın fitnəsinə uyaraq, nəzirəlilərə köməyə qalxmışdılar. Xəndək döyüşündə də onlar Əbu Süfyana kömək etməyə razılaşsalar da, bundan bir şeyin çıxmayacağını görən müşriklər aclıq və soyuq küləklərə dözməyib, Mədinənin mühasirəsini tərk etdilər. Bundan sonra Peyğəmbər qüvvələri qüreyzəlilərə qarşı yönəltmək imkanı əldə etdi. Onları məğlub edib, bir çoxunun boynunu vurdurdu, torpaqlarını isə müsadirə etdi, qadınlarının bir qismini müsəlmanlar arasında bölüşdürdü, Reyhanə adlı xoşagəlimli bir qadını isə özü götürdü.[180]

---

[180] Ramiz Mürsəlov, yenə orada, s.140-146.

Erkən islam tarixinin tarixi hadisələri sübut edir ki, müsəlmanların apardıqları müharibələrin əksəriyyəti müdafiə xarakterli olmuşdur.

İslamın zühuru zamanı Ərəbistan yarımadasında əmin-amanlığı və təhlükəsizliyi təmin edəcək, qəbilələr arasında münasibətləri tənzim edəcək, onları müəyyən qanun-qaydaya tabe olmağa vadar edəcək və onlar arasında vaxtaşırı meydana çıxan ixtilafları sülh yolu ilə həll edəcək bir mərkəzi hakimiyyət yox idi. Amansız və sərt təbii şərait, quraqlıq, aclıq və başqa təbii fəlakətlərin hökm sürdüyü Ərəbistanda tez-tez silahlı toqquşmaların baş verməsi təbii bir hal idi. Bölgədə yaşayan qəbilələr qənimət ələ keçirmək, bir-birinin otlaqlarını, su quyularını və məhsuldar torpaqlarını tutmaq, sadəcə öz canını qorumaq uğrunda ardı-arası kəsilməyən basqınlar edirdilər.[181]

Bu arada Bədr vuruşunda ağır məğlubiyyətə uğramış Məkkə müşrikləri, başda Əbu Süfyan olmaqla, bu məğlubiyyəti heç cür unuda bilmirdilər və Bədrin qisasını almağa hazırlaşırdılar.

[181] Yenə orada, s.148-149.

## Uhud döyüşü azərbaycanlı tədqiqatçıların əsərlərində

Ramiz Mürsəlovun da qeyd etdiyi kimi, Müaviyənin atası, Yezidin babası Əbu Süfyan Bədr məğlubiyyətindən sonra and içdi ki, Peyğəmbərə "dərs verməyincə" qüsl etməyəcək, yəni arvadı ilə yaxınlıq eləməyəcək (bəlkə də murdar qalacağını nəzərdə tuturdu). Bədr döyüşünün nəticələri qüreyşilərin həyatında və mənəvi ruhunda mühüm dəyişikliklərə səbəb olmuşdu. Əbu Süfyan Məkkənin başçısı olduğuna görə qüreyşilərin özlərinə inamını bərpa etməyə çalışaraq, bu savaşda həlak olan döyüşçülər üçün ağlamağı qadağan etdi və onların intiqamını almamış, zinət əşyalarını taxıb bəzənməyi yasaq etmişdi[182] Z.M. Bünyadovun qeyd etdiyinə görə o, adamları ilə Mədinə yaxınlığında yerləşən Ərizə hücum edib, xurma ağaclarını yandırdı, iki nəfəri qətlə yetirib qaçdı. Müsəlmanlar onları təqib etməyə başladılar, təqibçilərdən canlarını qurtarmaq üçün onlar qarət etdiklərini yolda atıb qaçdılar.[183] Sonra hicrətin üçüncü ilinin sonlarında o, yenidən bir dəstə döyüşçü ilə Mədinənin cənub - şərq hissəsinə qədər gəlib, bir gecə Bəni-Nəzirə əşirətində qalıb, tez geri dönmüşdü. O, bununla Peyğəmbərə (s) Bədr döyüşü ilə barışmadığını və müharibənin hələ sona yetmədiyini bildirmək istəyirdi. Lakin bununla yanaşı Əbu Süfyan Mədinə münafiqləri və yəhudiləri arasında elə bir həmrəylik yarada bilmədi. [184] Müşriklərin müsəlmanlara qarşı hərəkətləri hazırkı vəziyyətdə ermənilərin azərbaycanlılara qarşı əməllərinə oxşayır, onlar Bədrdəki məğlubiyyətin əvəzini çıxmaq istədikləri kimi ermənilər də 44 günlük müharibədəki məğlubiyyətlərinin əvəzini

[182] Ramiz Mürsəlov, yenə orada, s.161; İbn Hişam, 2-1/ 23
[183] Dinlər, təriqətlər... yenə orada.
[184] Ramiz Mürsəlov, yenə orada.

çıxmaq istəyirlər, ancaq buna nə gücləri çatır, nə də imkanları, ondan-bundan kömək istəyirlər.

Dolanışıqları ticarətdə olan müşriklərin karvanlarının müsəlmanlar tərəfindən tez-tez müsadirə edildiyinə görə ticarətdən məhrum olan Qüreyş naəlac qalıb yolunu dəyişsə də, Peyğəmbərin əmri ilə Zeyd ibn Harisə özü ilə yüz süvari götürüb, Səfvan ibn Ümeyyənin çoxlu gümüş apardığı karvanını tutdu, müşriklər qorxuya düşüb qaçdılar[185]. Bütün bunlar tezliklə baş verəcək Uhud döyüşünə zəmin hazırlayırdı.

Uhud Mədinənin təqribən altı km. - də yerləşən böyük dağdır. Bu dağın ətəyində 23 mart 625-ci ildə Mədinə müsəlmanları ilə başda Əbu Süfyan olmaqla Məkkə müşrikləri arasında döyüş baş verdi. Bədr vuruşunda öldürülənlərin müşrik ailə üzvləri Əkrəmə bin Əbu Cəhl, Səfvan bin Üməyyə, kafirlərə başçılıq edən Əbu Süfyan, onun arvadı - Ütbənin qızı Hində və başqaları Bədrdə öldürülənlərin qanını almağa çağırırdılar. Əbu Süfyanın ordusunda olan qadın dəstəsinə Hində başçılıq edirdi. Onun atası Utbə, əmisi Şeybə, qardaşı Valid və oğlu Hənzələ Bədr döyüşündə öldürüldükləri üçün o, Məhəmməd, Həmzə və Əlidən qisas alacağına and içmişdi. Bunun üçün o, qul həbəş Vahşə bu üç nəfərdən birini öldürərsə, onu azad edəcəyinə söz vermişdi[186]. Əbu Süfyan mal-dövlətini sərf edərək beş min süvari toplayıb, Mədinəyə doğru yürüşə başladı (Seyid Cəfər Şəhidinin yazdığına görə müşriklər tərəfindən döyüşə üç min kişi, iki yüz atlı və min dəvə cəlb olunmuşdu[187]). Peyğəmbər (s) Əbu Süfyanın hücumundan xəbər tutub cümə günü camaatı məscidə yığdı və şura təşkil etdi, onların rəylərini soruşdu. Yaşlı və təcrübəli şəxslərdən olan bir dəstə şəhərdə qalıb, müdafiə olunmağı məsləhət gördü. Abdullah bin Übeyy də onlarla idi. Peyğəmbər bu təklifi qəbul etdi. Ertəsi gün

[185] Dinlər, təriqətlər...s. 148-149.

[186] Şahlar Şərifov.İslam tarixi, s.35

[187]Seyid Cəfər Şəhidi. İslam tarixi və təhlillər. Tərcüməçi Arif Əliyev. Bakı, 2000, s.87.

əksəriyyəti çılğın cavanlardan ibarət olan o biri dəstə şəhərdən çıxıb, düşmənə hücum etmək təklifini irəli sürdü, çoxluq ikinci dəstənin tərəfində idi və onların təklifi qəbul olundu. Şəhərdən çıxmağa məcbur edilən Peyğəmbər [188] hərb libası geyinib, bayraqdar Hz.Əlini (ə) təyin etdi. Bu vaxt cavanların dəstəsi Peyğəmbərin onların təklifini qəbul etməsinə peşman olub, düşməni şəhərdə qarşılamaq fikrini irəli sürdülər. Peyğəmbər hər anda yeni bir qərarın qəbul edilməsini qeyri-məqbul sayıb dedi: “Müharibə zamanı əyninə geymiş döyüş paltarını yenidən çıxarmaq Peyğəmbərə yaraşmaz”. Z.M. Bünyadov və R.Mürsəlovun qeyd etdiklərinə görə müsəlmanlardan döyüşə gedənlərin sayı cəmi min nəfər idi. Döyüş başladı, Abdullah bin Übeyy (Peyğəmbərin Mədinəyə gəlməsi ərəfəsində onu Mədinənin başçısı seçəcəkdilər) təxminən üç yüz döyüşçü ilə birlikdə döyüşdə iştirak etməkdən boyun qaçıraraq geri çəkildi. Bəhanəsi də bu oldu ki, Məhəmməd bizim təklifimizə əhəmiyyət verməyərək, uşaqların sözünü qəbul etdi.[189] Bu, islam ordusunu müəyyən qədər zəiflətsə də onun qələbə əzmini sarsıda bilmədi. Başqa tayfalardan da döyüşdən boyun qaçıran var idi.[190] Müsəlmanların qoşununun sayı cəmi 700 nəfər qaldı. Uhudda qəfil arxa hücumlardan qorunmaq üçün Peyğəmbər dağ keçidində oxçular yerləşdirdi və Abdullah ibn Cübeyri onlara başçı təyin etdi. Əbu Süfyan isə Xalid bin Validi eyni məqsədlə - fürsət düşəndə arxadan həmlə etməyə dörd dəfə artıq qüvvə ilə dağın arxasında yerləşdirmişdi. Əbu Süfyanın çox güclü olan və Kəbşul-Kəsibə (döyüşçülərin qoçu) adlanan bayraqdarı Təlhə bin Əbu Təlhəni Hz.Əli bir zərbəyə yerə sərdi, bayrağı onun qardaşı götürdü. Həmzə də şücaətlə vuruşurdu. Müsəlmanların az olmasına baxmayaraq, düşmən itki verib, qaçmağa başladı. Bunu görən pusqudakı oxçular qənimət yığmağa axışdılar. Bunu görən pusquda du-

[188] Z.M.Bünyadov. Dinlər, təriqətlər...s. 149.
[189] Yenə orada, s. 88.
[190] Ramiz Mürsəlov, 162-163.

ran müşrik dəstənin başçısı Xalid bin Valid hücum edib, keçiddə qalanları öldürdü və qənimət yığanlara hücum etdi. Müsəlmanların başqa dəstəsi isə qaçan düşməni təqib edirdi. Təqib edilən düşmənlər Xalidin hücumunu görüb geri qayıtdı, sayca az olan müsəlmanlar düşmənin əhatəsində qaldı. Başda Hində olmaqla Məkkə qadınları qətlə yetirilən müsəlmanların qulaq, burun və başqa bədən üzvlərini kəsib götürürdülər. Bunu görən Peyğəmbər onlardan intiqam alacağına söz verdi. Bu vaxt intiqam haqqında ayə nazil oldu ki, verilən cəza nə olubsa, intiqamda da ona uyğun cəza olmalı və ya səbr olunsa daha yaxşıdır.[191] Ayə nazil olduqdan sonra Peyğəmbər sözünü geri götürdü. Döyüşdə Peyğəmbər yaralandı və dişi sındı. Müşriklər qışqırıb yalandan dedilər ki, Məhəmməd öldürüldü. Müsəlmanların bəziləri bunu eşidib dağılışmağa başladılar. Əli ibn Əbi Talib bunu görüb, Peyğəmbəri ayağa qaldırdı, Təlhə ibn Ubeydillah yaralı olmasına baxmayaraq Peyğəmbəri (s) çiyninə götürüb yuxarı qaldırdı ki, döyüşçülər onun sağ olduğunu görsünlər.[192] Hz.Əli Peyğəmbəri var gücü ilə qoruyurdu. O, dedi: "Ya Əli, Rizvan adlı mələk deyir: - Əlidən başqa oğul, Zülfüqardan başqa qılınc yoxdur." Əli (ə) və bir neçə başqa döyüşçünün dözümü sayəsində və axşam qaranlığı düşdüyündən məkkəlilər aralandılar. Peyğəmbərin alnı cızılmış, dodağı yaralanmış, dişi sındırılmışdı. [193] Hz. Əli sipərində su gətirib, Peyğəmbərin əl-üzünün qanını yudu. Peyğəmbər dedi: "Öz Peyğəmbərinin üzünü qana bulaşdıran qövm Allahın qəzəbinə gəlsin".[194] Peyğəmbərin sözünün pusquda qoyulan döyüşçülər tərəfindən unudulması müsəlmanların məğlubiyyətinə səbəb oldu və 70 müsəlman öldürüldü, onların 38-i Xəzrəc qəbiləsindən idi. Şəhid olanların uşaqları yetim, arvadları dul qalmışdı. Uşaqların avara və başsız qalmaması üçün elə bu zaman kişilərə dörd arvad almağa icazə verildi.

---

[191] Şahlar Şərifov. İslam tarixi, s. 35-36
[192] İslam tarixi və təhlillər, s. 89.
[193] Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, s. 149
[194] H.F.Nurullah. İmam Əli (ə), s. 54-57.

Həmçinin şəhidlər barəsində ayələr nazil oldu ki, onların Allah yolunda qurban getmələri ailələri üçün fəxr və onlara təskinlik sayıldı.

Müşriklər əldə olunmuş qələbəni Bədr döyüşünün intiqamı üçün kifayət hesab etdilər. Əbu Süfyan dedi ki, bu döyüşdə Bədr məğlubiyyətinin əvəzini çıxdıq. Onlar döyüşü davam etdirməyib Məkkəyə qayıtdılar, çünki Allah-Təalə onların ürəyinə qorxu salmışdı. Peyğəmbər (s) döyüşün ertəsi günü müşriklərin ordusunu təqib edərək, Həmra əl-Əsəd məntəqəsinə qədər gedib çıxdı. Bu, Mədinədən on mil aralı, müşriklərin yolu üstündə idi. Peyğəmbər bu hərəkəti ilə göstərmək istəyirdi ki, müşriklərin çoxluğu onu qorxutmur, müvəqqəti məğlubiyyət onun qələbə əzmini qıra bilməz.[195] Lakin Mədinə ətrafında məskunlaşan bəzi qəbilələr və islamın düşmənləri Uhud məğlubiyyətindən istifadə etmək niyyətinə düşmüşdülər.

Müsəlmanların alicənablığı, rəhimli və ürəyiyumşaq olmaları, düşmənlərin isə hiyləgər, məkrli və daşürəkli olmaları müsəlmanlar üçün baha başa gəlirdi. Uhud döyüşündə Peyğəmbər öz qılıncını bibisi Safiyyənin oğlu Zübeyr bin Əvvam istəsə də ona verməmiş, cəsur döyüşçü Əbu Dücanəyə verərək onu döyüşə göndərmişdi. O da qabağına çıxanı qılıncdan keçirirdi. Növbəti dəfə qılıncını qaldırıb, düşməni vurmaq istəyəndə qılıncını saxlayır. Sonra ondan bu haqda soruşanda deyir ki, qılıncı endirəndə düşməndən bir fəryad eşitdim ki, onu vura bilmədim, o, Əbu Süfyanın arvadı Hində bint Ütbə idi. O isə, az sonra Peyğəmbərin əmisi cəngavər Həmzəni zənci Vahşiyə nişan verdi, o da uzaqdan üçbaşlı nizəni atıb onu qətlə yetirdi. (Rəvayətə görə vəhşiləşmiş əxlaqsız qadın Həmzənin ciyərini çıxarıb, onu dişlərinə çəkmişdi).

Peyğəmbər Bəni-Əsəd qəbiləsinin Mədinəyə hücum etdiyini eşitmişdi. Ona görə də Peyğəmbər Əbu Sələməni çağırıb ona dedi:

---

[195] İbn Hişam, c. 3, s. 45; Ənsab əl-əşraf, c.1, s.327; İbn Səad,2-1\35; Ramiz Mürsəlov, yenə orada, s. 164-165.

“Bəni - Əsəd qəbiləsi bizim üzərimizə hücumdadı, onlar bizə çatmamış sən onların üstünə hücum et” və 150 döyüşçü ilə onu yola saldı. Dəstə Peyğəmbərin (s) dediyi kimi gecələr yol gedib gündüzlər gizləndilər ki, düşmən ayıq düşməsin, onlar Nəcd ərazisində Qatan dağına çatdıqda düşmənin qaçıb getdiyini bildilər. Əbu Sələmə qənimət əldə edib Mədinəyə qayıtdı, bu bir növ qələbə idi. Bu hadisədən sonra münafiq və yəhudilər başa düşdülər ki, müsəlmanlar elə də zəifləməyiblər. Bundan sonra islamın düşmənləri hiyləyə əl atdılar. Əvvəlcə Əzəl və Qarə qəbiləsindən bir neçə nəfər Peyğəmbərin yanına gəlib camaatlarının çoxunun islamı qəbul etdiklərini, lakin dinin hökmlərini bilmədiklərini və onlara bunu öyrətmək üçün bir neçə bilicinin onlara göndərməsini xahiş etdilər. Peyğəmbər 6 nəfər onlara qoşdu, onlarsa Bəni - Hüzeylə məxsus Rəc”i su hövzəsinə çatanda müsəlmanların üstünə atılıb, onların dördünü öldürdülər, ikisini əsir alıb Məkkəyə apardılar, məkkəlilər isə onları qətlə yetirdilər.

Bir müddət sonra Bəni-Amir qəbiləsindən bir dəstə gəlib Nəcd əhalisinin müsəlman olmaq ümidi ilə Peyğəmbərdən öz səhabələrindən bir neçəsini oraya göndərməyi xahiş etdilər. Peyğəmbər Nəcd əhalisinin müsəlman olmayacağından qorxduğunu dedi. Dəstə başçısı Əbu Bəra onlarla gedəcək hər bir nəfərə cavabdeh olduğunu söylədi. Peyğəmbər 40 nəfər seçilmiş müsəlmanı onlarla yola saldı. Onlar Bəni-Amirlə Bəni-Süleym qəbilələri arasındakı Bir Məunəyə çatanda bir qasidlə Peyğəmbərin (s) yazdığı məktubu Amir ibni Tüfeylə göndərdilər. O, məktubu oxumadan cırıb atdı və qasidi qətlə yetirdi. Sonra Bəni-Amir qəbiləsindən müsəlmanlara hücum etməyi tələb etdi. Onlar rədd etdikdə Bəni-Suleymdən bunu tələb etdi, onlar hücum edib müsəlmanları qırdılar, onların ardınca gələn iki müsəlmandan birini öldürüb, o birisinə dağ basıb buraxdılar ki, müsəlnmanlara dağ çəkdiklərini bildrsinlər. Onun adı Əmr ibni Ümeyy idi. O isə Mədinəyə dönəndə Bəni-Amirdən iki nəfərlə rastlaşır və onları öldürür. Bir Məunə hadisəsi Peyğəmbərə

çox pis təsir edir. Bəni-Amir qəbiləsi o iki öldürülən üçün müsəlmanlardan qanbahası tələb edirlər. Peyğəmbər onlarla Bəni-Amirlə sazişdə olan Bəni-Nəzir yəhudilərinin yanına gedib, onlardan araçılıq etməyi xahiş edir. Onlar razılıq verəndən sonra nakişilik edərək, bir nəfəri göndərirlər ki, Peyğəmbərin dayandığı evin damına çıxıb, oradan Peyğəmbərin başına daş salıb onu öldürsün. Peyğəmbər bundan agah olub Mədinəyə qayıdır və onları Mədinədən qovmaq qərarına gəlir. Bəni-Nəzir qəbiləsinin mühasirəsi cəmi 6 gün çəkir, onlar təslim olurlar və Peyğəmbər (s) onları Suriyaya sürgün edir.[196]

Z.M. Bünyadovun qeyd etdiyinə görə, bundan sonra Dum”ətul-Cəndəl və Bəni-Mustəliq savaşları da müsəlmanların qələbəsi ilə qurtarır.[197]

---

[196] İslam tarixi və təhlillər, s. 91-95.

[197]Z.M.Bünyadov. Dinlər və məzhəblər... yenə orada.

## Xəndək (Əhzab) döyüşü haqqında

Uhud davasından sonra müsəlmanların ruhdan düşdüyünü zənn edən müşriklər Peyğəmbərə sülh təklif etdilər. Onlar hiylə işlətmək istəyərək: "Gəl biri-birimizin dinlərinə toxunmayaq, sülh edək, bu hər iki tərəf üçün sərfəlidir" dedilər. Özləri isə sonradan sadə müsəlmanları yoldan çıxaracaqlarını düşünürdülər. Quranda xəbər verildiyi kimi, Allah-Təalə Peyğəmbərə buyurdu: "Yalançılara tabe olma. Onlar səndən mülayimlik istəyirlər ki, onlar da (yalandan) mülayimlik göstərsinlər." (Əl-Qaləm, 8-9)

Mədinə münafiqləri də müşriklərin tərəfini saxlayıb, müsəlmanları qorxudurdular ki, onların qoşunu çoxdur, sülh bağlamasaq, onlar bizi məhv edərlər. Lakin Allah-Təalə buyurdu:

"Ya Peyğəmbər, Allahdan qorx, kafirlərə və münafiqlərə tabe olma. Həqiqətən, Allah bilən və hikmət sahibidir."(Əl-Əhzab, 1)

Peyğəmbər Allahın buyuruğunu eşidıb, müşriklərin sülh təklifini qətiyyətlə rədd etdi. Müşriklər qərara gəldilər ki, müsəlmanlara son zərbəni vursunlar. Peyğəmbər islama qarşı hazırlanan fitnədən xəbərdar olsa da, bunu gizli saxlayaraq, Mədinədə daxili cəbhəni möhkəmləndirir, burada baş verə biləcək daxili çaxnaşmaya qarşı əks tədbirlər görürdü. Daxili birliyin təmin ediləcəyi halda müsəlmanların qüvvəsi xarici düşməni dəf etmək üçün kifayət idi. Mədinədən xaricdə olan əşirətlərinköməyinə ehtiyac olmadığı üçün Peyğəmbər (s) o qədər də onlara etimad etmirdi. İslamla tarixi düşmənçilikləri olanlar özlərinə həmfikirlər toplamağa başladılar. Onlar ərəb tayfalarına, yəhudilərə üz tutdular. Bütün bu güclər bir yerə toplandı və islamı aradan götürmək qərara alındı. Müxtəlif firqələrdən təşkil olunmuş bu qüvvələr Əhzab (firqələr) adlanırdı. Bəni-Nəzir qəzvəsində məğlub olan yəhudilər Xeybər qalasında topanaraq müsəlmanlardan intiqam almaq istəyirdilər.

Bu məqsədlə Bəni-Nəzir qəbiləsinin başçıları Huyeyy ibn Əxtab, Səllam ibn Əbulhuqeyq, Kənan ibn Rəbiə, Hövzə ibn Qeys və Əbu Amir Məkkəyə gedərək Əbu Süfyanla görüşüb belə dedilər: "Biz bilirik ki, siz də bizim kimi islamiyyəti yox etmək istəyirsiniz. Bizim istəyimiz budur ki, siz də bizimlə əlbir olub, böyük bir ordu toplayaraq Mədinəyə hücum edək". Əbu Süfyan onların sadiqliyini yoxlamaq üçün belə dedi: "Siz Kitab əhlisiniz, səmavi Kitabınız var, haqla batil şəriətləri bir-birindən ayıra bilirsiniz. Bilirsiniz ki, bizim Muhamməddlə düşmənçiliyimizin yeganə səbəbi gətirdiyi dinin bizim adətlərimizlə uyğun gəlməməsidir. Sizcə, bizim ibadət etdiyimiz 360 büt üstündür, yoxsa Muhammədin ibadət etdiyi Bir Allah?" Bu zaman yəhudilər utanmadan belə cavab verdilər: "Bütpərəstlik Muhammədin dinindən daha üstündür. Siz öz dininizdə qalın və onun dininə qətiyyən meyl göstərməyin".[198] Yəhudilərin bu sözlərindən sonra Əbu Süfyan və Qureyş başçıları onlarla əhd-peyman bağladılar ki, nə qədər sağdılar Məhəmmədlə müharibədən çəkinməyəcəklər və sinələrini Kəbənin divarına yapışdırıb and içdilər. Yəhudilər Məkkədən xoş xəbərlə qayıdaraq Nəcdə gəlib islamla qatı düşmən olan Qatavan qəbiləsini də döyüşə təhrik etdilər. Qatavan qəbiləsinin Bəni-Fəzarə, Bəni-Murrə və Bəni-Əşcə tayfaları qələbədən sonra Xeybərin birillik məhsulunun onlara çatacağı şərtilə yəhudilərə müsbət cavab verdilər. Qureyş də öz müttəfiqləri Bəni-Səlimi, Qatavan isə Bəni-Əsədi bu döyüşdə iştirak etməyə razı saldı. [199]

Əhzab müsəlmanlarla vuruş üçün 10 minlik bir qoşun səfərbər edib, Mədinəyə göndərdilər. Əl-Vaqidi yazır: "Qüreyşilər Mədinəyə hücum etmək üçün Məkkədən çıxanda Peyğəmbərlə müqavilədə olan Xüzaə qəbiləsindən bir atlı çaparaq gəlib bu haqda Peyğəmbərə xəbər verdi. Məkkədən Mədinəyə yolun dörd gün çəkəcəyini bilən Peyğəmbər əhalini toplayıb, düşmənin artıq yolda

---

[198] Tarix Təbəri, c. 2, s. 233 ; Şahlar Şərifov. İslam tarixi, s. 41
[199] Yenə orada

olduğunu bildirdi.[200] (Təxminən 400 km. məsafəni piyada ordunun qumlu səhra ilə dörd günə qət etməsi bir az şübhəli görünür, burada nəyinsə səhv yazıldığını demək olar). Hz. Peyğəmbər səfərbərlik elan etdi, Salman Farisinin təklifi ilə şəhərin şimal tərəfində dərin və enli xəndək qazıldı, qalan tərəflər isə xurma bağları və tikililər olduğu üçün o səmtlərdən düşmənin gəlməsi mümkün deyildi. Xəndəyin qazılması bir aya başa gəldi, orada 8 keçid qoyuldu, hər keçiddə bir mühacir və bir ənsarla bir neçə əsgər keşik çəkirdi. Mədinəyə çatmış müşrik ordusu xəndəyin ətrafında dayanmalı oldu. Bu vaxt qış fəsli olsa da Mədinədə quraqlıq hökm sürürdü. Müşrik ordusunun ərzaq tədarükü az olduğu üçün onlar uzun müddət Mədinəni mühasirədə saxlaya bilməzdilər. Buna görə də müşrik qoşunu Bəni-Qureyzə qəbiləsindən kömək istəmək qərarına gəldi. Əbu Süfyan Huyeyy ibn Əxtaba dedi: "Əgər Bəni-Qureyzə qəbiləsini Muhamməddən döndərə bilsən, çox yaxşı olar. Huyeyy Bəni-Qureyzə qəbiləsinin başçısı, Məhəmmədlə müqavilə bağlamış Kəb ibn Əsədin yanına gedib, uzun danışıqdan sonra onu müqaviləni pozmağa razı saldı. Bundan xəbər tutan Peyğəmbər (s) Səd ibn Məazla Səd ibn Ubadəni Kə"bin yanına göndərdi. O isə nümayəndələr danışığa başlayanda onları və Hz.Məhəmmədi təhqir etməyə başlayır. Nümayəndələr Peyğəmbərin yanına qayıdıb, baş verənləri ona xəbər verdikdə o, uca səslə: "Allahu əkbər, ey müsəlmanlar, qələbə yaxındadır" deyə buyurdu.[201] Xəndəyin qazılmasında müsəlmanlar çox əziyyət çəkdilər. Peyğəmbər onları fədakarlığa çağırır, qələbə vəd edirdi. O, vəd edirdi ki, bütün Ərəbistan fəth olunacaq, İran və Rum diz çökəcəkdir. Müşriklərsə Peyğəmbəri məsxərə edərək deyirdilər ki, qarınlarını doyura bilməyənlər İran və Rumu məğlub etmək istəyirlər! Tezliklə qələbə çalacaqlarına ümidvar olan müsəlmanlar Əhzab qoşununu gördükdə "Peyğəmbərin vədi gerçəkləşdi" dedilər. Onlar ölüb-

---

[200] Ramiz Mürsəlov, yenə orada, 165; Əl-Vaqidi. Əl-Məğazi, s. 444;
[201] Şahlar Şərifov. İslam tarixi, s. 42

öldürməyə hazır olduqlarını Peyğəmbərə bildirdilər. Allah-Təalə isə onların iman və əzmkarlığı haqqında buyurdu:

"Möminlər həmin qoşunları görüb dedilər: "Budur Allah və onun Rəsulunun bizə vəd etdiyi, Allah və Onun Peyğəmbəri düz dedi". "Onların yalnız iman və itaəti artdı."[202]

Xəndək döyüşü 31 mart 627-ci ildə başladı. Bu savaş Məkkə müşrikləri ilə müsəlmanların üçüncü və sonuncu savaşı idi. Müsəlmanlar düşməndən müdafiə olunmaq üçün yuxarıda qeyd olunduğu kimi, Salman Farisinin təklifi ilə Mədinə ətrafında xəndək qazdıqlarına görə bu savaş Xəndək döyüşü adlandı. Müşriklər bu döyüşə müxtəlif qəbilələr, qruplar və yəhudiləri də cəlb etdiklərinə görə yuxarıda qeyd edildiyi kimi bu döyüş həm də Əhzab (qruplar, dəstələr) döyüşü adlanırdı. Müsəlmanların 3000, müşriklərin isə 10000 qoşunu, 600 süvarisi var idi. Müsəlmanların ordusunun sayı Uhuddakından üç, Bədrdəkindən isə doqquz dəfə çox idi.

R. Mürsəlovun qeyd etdiyinə görə Peyğəmbər (s) qadın və uşaqları müdafiə bürclərində yerləşdirdi. Onun zövcəsi Aişə, Səad ibn Məazzın anası ilə birlikdə Bəni-Harisə bürcündə, bibisi Safiyə bint Əbdülmüttəlib isə Fari bürcündə idi.[203]

Altı günün tamamında xəndəyin qazılması başa çatmışdı.[204] (Şahlar Şərifov isə "İslam tarixi"də xəndəyin bir aya qazıldığını qeyd edir, səh. 42, bu haqda müxtəlif rəylər var. O boyda xəndəyin əllə altı günə qazılması şübhəli görünür).

Məkkəlilər Uhud döyüşündə yetərli qələbə çalmamışdılar. Həm də müsəlmanlar Uhuddan sonra məkkəlilərin Misir, Suriya və İraqa gedən karvanlarının yolunu kəsirdilər. Buna görə də müşriklər döyüşə çox ciddi hazırlaşıb, başqa qəbilələrdən də muzdla əsgərlər toplamışdılar. Düşmən gəlib, xəndəyin o tərəfində dayandı. Xəndək çox dərin və geniş olduğuna görə düşmənlər onu keçə

---

[202] əl-Əhzab, 22.

[203] Ramiz Mürsəlov, yenə orada, s. 166.

[204] Ramiz Mürsəlov, yenə orada, s. 166-167; İbn Səad.Kitab ət-təbəqat əl-kubra, 2-1\48;

bilmədilər. Onlar iyirmi gündən çox Mədinə ətrafında qaldılar. Bütün bu müddət ərzində müşriklər mədinəlilərin müdafiə xəttini hərbi yolla keçməyin mümkün olmadığını dərk edərək, diplomatik yolla qələbə qazanmağa çalışdılar. Onlar Bəni-Qureyzə yəhudiləri ilə danışıqlar apararaq, onları Peyğəmbərlə ittifaqlarını ləğv etməyə razı saldılar. Bəni-Qureyzənin döyüş meydanını tərk etməsi əhali arasında iğtişaş saldı və təhlükəli bir vəziyyət yarandı. Quran bu haqda qeyd edir: "O zaman onlar üstünüzə həm yuxarı, həm də aşağı tərəfdən hücum etmişdi, (qorxudan) gözünüz hədəqəsindən çıxmış, ürəyiniz ağzınıza gəlmişdi. Allah barəsində də müxtəlif fikirlərə düşdünüz, məhz onda möminlər imtahana çəkilmiş (kimin həqiqi mömin, kimin münafiq olduğu bəlli olmuş) və möhkəm sarsılmışdılar (Əhzab,10-11). Bəni-Qureyzənin döyüşçülərinin azlığına baxmayaraq onların geri çəkilməsi ilə müdafiə xəttində boşluq əmələ gəlmişdi. Qüreyşilər yaranmış vəziyyətdən istifadə edə bilmədilər, Bəni-Qureyzədən müsəlmanlar əleyhinə hərbi əməliyyata qoşulmağı tələb etməklə kifayətləndilər. Onlar isə şənbə günü onlarda müharibə etməyin haram olduğunu bəhanə edərək, bundan boyun qaçırdılar.[205] Axırda, Qüreyşin ən güclü pəhləvanı Əmr ibn Əbdüvəd bir neçə döyüşçü ilə birlikdə xəndəyin dar yerini tapıb, şəhər tərəfə keçdi və vuruşmaq üçün pis sözlərlə özünə tay səslədi. Heç kim onun qabağına çıxmağa cürət etmədi. Sonra o: "Deyirsiniz ki, sizlərdən kim öldürülsə, Cənnətə gedəcək. Məgər aranızda Cənnətə getmək istəyən yoxdur?" Nəhayət Peyğəmbər (s) dedi: "Bu bütpərəstin şərini islam ümmətinin üzərindən kim götürə bilər?". Heç kimdən səs çıxmadı, Hz.Əli (ə) ayağa qalxıb, "mən" dedi. Peyğəmbər "Səbr et, olsun ki, başqa bir könüllü də tapıla!" O, sualını bir də təkrar etdi, yenə Əlidən başqa heç kəsdən səs çıxmadı. Peyğəmbər dedi: "Ya Əli, bu şəxs Əmr ibn Əbdüvəddir!" Hz.Əli cavabında: "Mən də Əli ibn Əbi Talibəm" dedi. Peyğəmbər onun başına əmmamə qoyub, belinə qılınc bağlayıb dedi: "Get,

[205] Ramiz Mürsəlov, yenə orada.

Allah səni qorusun!” Sonra: “Ilahi, bu döyüş meydanında əmim oğlunu tənha qoyma!” dedi. [206] Əmr ibn Əbdüvəd Hz.Əlini kiçikləyərək “Məgər sən mənim kim olduğumu bilmirsən?” soruşdu. Hz. Əli: “Mən əvvəlcə səni tövhid və islama dəvət edirəm. Əgər qəbul etmirsənsə, gəldiyin yolla geri qayıt, Peyğəmbərlə döyüşdən çəkin” dedi. Əmr ibn Əbdüvəd dedi ki, mən ata-babalarımın dinindən dönmərəm, döyüşsüz də geri qayıtsam, Qüreyş qadınları mənə gülər”. Hz.Əli dedi ki, onda mən səni Allah yolunda öldürəcəyəm. Hz.Əli Əmrlə üzbəüz dayananda Peyğəmbər dedi: “İmanla küfr mübarizəyə qalxmışdır!”. Əmr birinci zərbə endirib, Hz.Əlinin (ə) qalxanını iki böldü və başını yaraladı. Hz.Əlinin cavab zərbəsi isə Əmr ibn Əbdüvədin başını iki yerə böldü. Əmrin ölümü Qüreyşin məğlubiyyəti demək idi. Əgər həmin gün Hz. Əli olmasaydı islamdan əsər-əlamət belə, qalmazdı. Hz.Əli Əmrin başını kəsib Peyğəmbərə (s) gətirəndə o, dedi: “Xəndək günü Əlinin zərbəsi Səqəleynin (cin və insanların) ibadətindən əfzəldi”.[207]

Mühasirənin uzun çəkməsi Qüreyş müşriklərinin arasında narazılığa, təminat-təchizatla bağlı çətinliklərə səbəb oldu. Əsməyə başlayan soyuq küləklər və toz-torpaq mühasirənin nəticəsini həll etdi. Geriçəkilmə əməliyyatı bir günün içində sona yetdi. Peyğəmbər geri çəkilməkdə olan qüvvələri təqib etmək fikrindən vaz keçdi.[208]

Öz tədqiqat əsərində Ramiz Mürsəlov qeyd edir ki, Xəndək döyüşü qüreyşilərin müsəlmanlar üzərində qələbə çalmaq və islamı yox etmək üçün etdikləri son cəhdi idi. Onlar bu məqsədlə bütün daxili imkanlarını və müttəfiqlərini səfərbər etmişdilər. Qüreyşilər uzun müddət meydanı tərk etməmiş və müsəlmanların cəbhəsini parçalamaq üçün müxtəlif hiylələrə əl atmışdılar. Bütün bunlar istənilən nəticəni vermədikdə qüreyşilər islam və onun “dövlətini”

---

[206] H.F.Nurullah. İmam Əli (ə), s. 58-59.
[207] Yenə orada, s. 59-60.
[208] Ramiz Mürsəlov, yenə orada, s. 168-169.

yox etmək cəhdlərinin əsassızlığını dərk etdilər və özlərinin Peyğəmbərə qarşı siyasətinin nə dərəcədə düzgün olduğunu götür-qoy etməyə başladılar. Müsəlmanların da Qüreyşdən olduqlarnı, Məkkə - Kəbəni qiblə seçdiklərini, haram ayları pozmadıqlarını yenidən düşünməyə başladılar. Ticarətlə məşğul olan Məkkə əhli üçün islam və onun yenicə yaranmış dövləti nə dərəcədə təhlükə ola bilərdi.[209] Əlbəttə, bütün bu fikirlər müsəlmanlardan "yaxşıca dərs alandan" sonra müşriklərin ağlına gəlmişdi.

Xəndək müharibəsinin sonu müsəlmanlar üçün ümidverici, məkkəlilər üçün isə həddən artıq sarsıdıcı oldu. Qüreyş tacirləri üçün aydın oldu ki, artıq Mədinə bazarlarını birdəfəlik əldən verdilər. Bundan əlavə müsəlmanların Məkkə tacirlərinin Suriyaya gedən ticarət yollarını təhlükə altına almaqla yanaşı, onların öz işləri ilə rahat məşğul olmalarına da imkan verməyəcəklərini başa düşdülər. Əbu Süfyanın rəhbərlik mövqeyi də Qüreyşin nəzərində alçaldı. Ümumiyyətlə, Qüreyş qəbiləsinin əzəməti digər qəbilələrin nəzərində nüfuzdan düşdü. Gözlənilməz hadisənin baş verməsi bəzi bədəvi ərəblərin islama olan meylini artırdı və onlar artıq yəqin etdilər ki, qeyri-adi bir qüvvə müsəlmanlara yardım edir. Ona görə də bu müharibədən sonra bütün hadisələr müsəlmanların xeyrinə dəyişməyə başladı.[210]

Qüreyşilərin geri çəkilməsi və islama qarşı hərbi əməliyyatların dayandırılması Peyğəmbərə (s) islam icmasını möhkəmlətmək və icmanın əmin-amanlığı üçün daim təhlükə yaradan ətraf qəbilələrə zərbələr endirərək, onları ram etmək imkanı verdi.[211]

Əhzab və başqa məhəlli döyüşləri göstərirdi ki, Mədinənin şərq və şimal nahiyələrində yaşayan Fətfan, Əsəd, Bəni-Səlim və başqa qəbilələr su, otlaqlar və məhsuldar torpaqlar ələ keçirmək üçün daim Mədinə ətrafına hücumlar edirlər. Buna görə də bu

[209] Yenə orada, s. 170-171.
[210] Seyid Cəfər Şəhidi. İslam tarixi.., s. 98.
[211] Ramiz Mürsəlov, yenə orada, s.171

basqınlara qarşı əks tədbir görülməli idi. Hicrətin altıncı ilində bu məqsədlə iyirmiyə qədər əməliyyat həyata keçirilmiş, bunlardan ikisinə şəxsən Peyğəmbər özü başçılıq etmişdi. Bu əməliyyatlar həm də B`ir-Məunədəki şəhidlərin qisasını almaq üçün edilirdi. Fürsətdən istifadə edən Peyğəmbər ordunun bir hissəsini Məkkə yaxnlığındakı Kira əl-Qəmim bölgəsinə göndərərək, məkkəlilərə öz qüvvəsini nümayiş etdirdi. Zeyd bin Harisəni isə əl-İysə göndərib, qüreyşilərin ticarət karvanını və adamlarını əsir aldı. Zeyd bin Harisə səkkiz həmləyə başçılıq etmişdi. Bu il ərzində Həsmi, Vadi-l-Qura, Dum"ətu-l-Cəndəl və Fədək bölgələrinə altı dəfə hücum edildi, bunlardan məqsəd onları Məkkə müşrikləri ilə ticarət etməkdən çəkindirmək idi.[212] Bu məsələləri R. Mürsəlov öz əsərində uğurla əsaslandırmışdır.

[212] Yenə orada, s.171-172.

## Hüdeybiyyə sülhü haqqında

Hicrətin altıncı ilinin zu-l-qədə ayında Peyğəmbər Məkkəyə ümrə ziyarətinə getməyi qərara aldı. Bir çox qəbilələr onun bu qərarını dəstəkləyərək islamı qəbul etdilər və ziyarətə getmək istəklərini bildirdilər. Peyğəmbərin çağırışına min dörd yüz nəfər səs verdi. Onlar Zu-l-Həlifə məntəqəsində toplanaraq ehrama girdilər və özləri ilə gətirdikləri yetmiş baş qurbanı bəzədilər.[213] Yığışanların görkəmlərindən məlum olurdu ki, onlar haram ayda Məkkəyə dini ayini yerinə yetirməyə gedirlər. 628-ci ilin 13 martında Peyğəmbər (s), yanlarında qılıncdan başqa heç bir silah olmayan 1500 nəfər səhabə ilə yolda heç bir maneəyə rast gəlmədən Usfan adlı bir yerə gəlib çatdı. Məkkə müşrikləri bu xəbəri eşidib, Peyğəmbərin yolunu silahla bağlamağa qalxışdılar. Xalid ibn Valid ordusunun ön hissəsini Usfan istiqamətinə göndərdi. Peyğəmbər isə ənənəvi Hacc yolu ilə deyil, başqa yolla gedib, haram ərazisinin kənarındakı Hüdeybiyyəyə çatdı.[214] Qüreyşilər Əl-Həlis ibn Əlqəməni Peyğəmbərin yanına göndərib, onun geri qayıtmasını tələb etdilər. Peyğəmbərin ümrə ziyarətini əda etməsi və bunun üçün ənənəvi sülh yolunu pozmamaq qərarı Məkkə müşriklərini çətin vəziyyətdə qoymuşdu. Peyğəmbərin şərtlərinə razı olub, onu Məkkəyə buraxmaq qüreyşilərin nufuzunu sarsıda və təslimçilikdə günahlandırılmalarına səbəb ola bilərdi. Ona ziyarət etməyə izn verməmək isə onların zəvvarlara hər cür şərait yaradılması haqqında vədlərinə müxalif idi. Buna görə də, qüreyşlilərin danışıqlar aparmaq və Peyğəmbəri ziyarət fikrindən daşındırmaq üçün göndərdikləri Əl-Həlis ibn Əlqəmə Peyğəmbərin yanından qayıdandan

[213] Ramiz Mürsəlov, yenə orada, s. 173; Əl-Vaqidi. Əl-Məğazi, s. 572-573; İbn Səad. Ət-T. bəqat, 2\69; Əhməd əl-Hənbəl. Əl-Musnəd, 3\420;

[214] Z.M Bünyadov. Dinlər, təriqətlər... yenə orada; Ramiz Mürsəlov, yenə orada, s. 273; Əl- Vaqidi. Əl-Məğazi, s. 574

sonra Qüreyşin onunla müharibə edəcəyi təqdirdə Bəni-Kinanə qəbiləsinin Qüreyşi dəstəkləməyəcəyini bildirdi. Peyğəmbər deyirdi ki, mən buraya heç kimlə vuruşmağa gəlməmişəm. Biz Beyti təvaf etməyə gəlmişik. Kim bizə mane olarsa, onunla vuruşacağıq.[215] Göründüyü kimi, Peyğəmbər bununla müşriklərə, müsəlmanlara ziyarətə mane olanlara qarşı vuruşmağa hazır olduqlarını və növbəti sülh elan etmək lüzumunu da bildirir, gəlişinin dini vacibatı əda etmək istəyini elan edir. Peyğəmbər Osman bin Əfvanı müsəlmanlara Kəbəni ziyarət etməyə icazə almağa və sülh müqaviləsini bağlamağa Məkkəyə göndərir. Üç gün keçsə də, gedənlərdən bir xəbər olmadığına görə, müsəlmanlar gedənlərin qətlə yetirildiyini və müşriklərin döyüşə hazırlaşdıqlarını fikirləşirlər, müsəlmanlar arasında gərginlik yaranır, müharibə etməyə gəlmədikləri üçün özləri ilə quldurlardan müdafiə olunmağa ancaq qılınc götürdüklərinə görə təşvişə düşdülər. Peyğəmbər (s) onların öz beyətlərini təzələmələri lüzumunu hiss edib, Hüdeybiyyədə ağac altında, "Qüreyşlilərin müharibə edəcəyi təqdirdə qaçmamaq" haqqında onlardan beyət qəbul edir.[216] Bu beyət islam tarixinə "Beyətu-r-Rizvan" və ya "Beyətun təhtə-ş-şəcərə" adı ilə daxil oldu.[217] Münafiqlərin az bir hissəsi istisna olmaqla hamı beyət etdi. Peyğəmbərin ciddi səyi və böyük diplomatik fəaliyyəti nəticəsində məkkəlilərlə saziş bağlamaq işi baş tutdu. Qüreyşlilər müsəlmanların beyət etdiklərini və müharibəyə hazırlaşdıqlarını bilib, sülh bağlamağa və müsəlmanların gələn il Məkkəyə buraxılmasına razı oldular. Bu razılığın yaranmasına Peyğəmbərin öz səhabələri ilə Hüdeybiyyədə yerləşdiyi vaxt səksən silahlı Məkkə müşrikinin müsəlmanlara hücum etməsi, lakin əsir tutulub, Peyğəmbərin yanına gətirilməsi, onun da onlara cəza verməyib hamısını azad et-

[215] Ramiz Mürsəlov, yenə orada, 173-175; Əl-Vaqidi. Əl-Məğazi, s. 593; İbn Hişam, 3\356-357; Əl-Vaqidi. Əl-Məğazi, s. 593

[216] Ramiz Mürsəlov, yenə orada, s. 175; Əl-Vaqidi, yenə orada, s. 602-603

[217] Z.M.Bünyadov. Dinlər, təriqətlər yenə orada.

məsi də az rol oynamamışdı.[218] Bağlanan müqavilənin şərtlərinə görə qüreyşlilərlə müsəlmanlar arasında on il müddətinə sülh elan olunurdu. Bu müddət ərzində əhali sərbəst şəkildə öz mövqeyini müəyyən edə bilərdi – ya müşriklərlə, ya da müsəlmanlarla əhd bağlaya bilərdi.

Peyğəmbər bu il ümrə ziyarətini etmək fikrindən daşınıb, gələn il qüreyşlilər Məscidu-l-Həramı müvəqqəti tərk etdikdən sonra öz səhabələri ilə birlikdə "qınında olan qılınclardan" başqa özləri ilə heç bir silah götürməmək şərtilə Kəbəni ziyarət etməyə və orada üç gün qalmağa razılıq verdi. Bəziləri sülh müqaviləsində müşriklərə çoxlu güzəştlərin olduğuna görə ona etiraz etdilər. Lakin Allah-Təalə bu barədə ayə nazil edərək buyurdu: "Ya Peyğəmbər! Həqiqətən Biz sənə (müsəlmanların fütuhatının başlanğıcını qoyan, Kəbənin yerləşdiyi Məkkə şəhərinin, habelə bir-çox məmləkətlərin fəthinə səbəb olacaq Hüdeybiyyə sülhü ilə) açıq-aşkar bir zəfər bəxş edtik! Allah (bununla) sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq, sənə olan nemətini tamam-kamal edəcək və səni düz yola müvəffəq edəcəkdir!" (Fəth,1-2). Peyğəmbər (s) ümrə ziyarətini yalnız bir il təxirə salmağa razılıq verməklə böyük siyasi qayələrə nail olmuşdu və sonrakı il onlar həyata keçirildi.

Peyğəmbərin Hüdeybiyyədə keçirdiyi iyirmi gün tarixi hadisələrlə zəngin idi. "Ər-Rizvan" və ya "Əş-Şəcərə" beyəti ilə müsəlmanlar özlərinin Peyğəmbərə sədaqətlərini bir daha sübut etdilər, bu böyük uğur idi. Əl-Buxari yazır: "Biz belə hesab edirik ki, Məkkə əslində Hüdeybiyyə günü "Ər-Rizvan" beyəti ilə fəth edilmişdir".[219] Müfəssirlərin fikrincə, "Fəth" surəsinin bütün ayələri Hüdeybiyyə günlərində baş vermiş böyük hadisələrin təsvirinə həsr edilmişdir. Onlardan birini qeyd edirik: "Hüdeybiyyə səfəri zamanı bir ağacın altinda (Beyətu-r- Rizvanda) sənə beyət edənlər,

[218] Qurani Kərimin azərb.dilinə tərcüməsi, Bakı, 1991, s. 48, a. 24
[219] Ramiz Mürsəlov, yenə orada, s. 175-177.

şübhəsiz ki, Allaha beyət etmiş olurlar. Allahın (qüdrət) əli onların əllərinin üstündədir. Kim (beyəti) pozsa, ancaq öz əleyhinə pozmuş olar (bunun zərəri yalnız onun özünə dəyər). Kim Allahla etdiyi əhdi yerinə yetirsə, Allah da ona böyük mükafat verər!" (Fəth,10).

Şübhəsiz, Hüdeybiyyə sülh müqaviləsinin imzalanması Peyğəmbərin böyük siyasi qələbəsi idi. O, islamın gücünü və icmanın möhkəmliyini sübut etdi və islamı şimal istiqamətində yaymağa və icmanın hüdudlarının genişləndirilməsinə imkan yaratdı. Məkkə və Mədinə arasındakı ərazilərdə sakin olan əşirətlər bir-birinin ardınca islamı qəbul edərək, yeni islam dövlətinə qoşuldular.[220]

Sülh nəticəsində altı il davam edən müharibə vəziyyəti dinc həyatla, əmin-amanlıqla əvəz olundu; İslama meyl göstərənlərin bu dinin qəbul etmələrini asanlaşdırdı, Peyğəmbərə islamı daha da uzaqlara yaymaq imkanı verdi. İbn İshaq qeyd edir ki, Hüdeybiyyə sülhü ilə Məkkənin fəthi arasında bütün əvvəlki müddət ərzindəkindən daha çox adam islamı qəbul etdi.[221] İslamın genişlənməsinin nəticələrindən biri, Məkkəni fəth etmək üçün böyük bir ordunu səfərbər etməyə imkan verdi. Məkkənin fəthi ərəfəsində islam ordusunun döyüşçülərinin sayı on min nəfərə çatırdı.[222] Əl-Vaqidi insanların bir-birilərinə etibar etməsinə, can qızdırmasına işarə edərək yazır: "Müharibə insanlar arasında maneələr yaratmış, hər yerdə müharibə əhval-ruhiyyəsi duyulurdu. Sülhün yaranması ilə insanlar bir-birilərinə inam bəslədilər. (Yuxarıda qeyd edildiyi kimi), sülh dövründə islamı bütün əvvəlki vaxtlardan daha çox adam qəbul etdi, islam ərəb aləminin hər yerinə yayıldı".[223]

Yuxarıda qeyd edildiyi kimi, Hüdeybiyyə sülhünə görə, müşriklərlə müsəlmanlar arasında 10 il müharibə olmayacaq, müsəlmanlar həmin il (Hüdeybiyyə sülhü imzalanan il) həcc mərasimini

---

[220] Yenə orada, s. 207.
[221] Ramiz Mürsəlov, yenə orada, 198-199; İbn Hişam, 3-336
[222] İbn Səad, 2-100; Ramiz Mürsəlov, yenə orada; İbn Səad, 2-100
[223] Ramiz Mürsəlov, yenə orada, s. 177-178; Əl-Vaqidi. Əl-Məğazi, s. 607

yerinə yetirməyəcəkdilər. Eyni zamanda qərara alınmışdı ki, qüreyşilərdən biri öz sahibinin, yaxud qəyyumunun razılığı olmadan Peyğəmbərin (s) yanına gedib ona sığınarsa, geri qaytarılacaq. Müsəlmanlardan isə biri gedib müşriklərə sığınarsa, o, geriyə təhvil verilməyəcək. İlk baxışda müsəlmanların əleyhinə görünən və buna görə də, yuxarıda qeyd edildiyi kimi, bəzi möminlərin etirazına səbəb olan Hüdeybiyyə müqaviləsi tezliklə öz müsbət nəticələrini verməyə başladı. Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, qüreyşlilər Məhəmmədi və müsəlmanları rəsmi olaraq tanıyıb, onlarla sülh sazişi bağlamaq məcburiyyətində qalmışdılar.[224]

Hüdeybiyyə sülhü qüreyşilərin, hicrət etmələrinə mane olduqları bəzi adamlara sərbəst şəkildə Mədinədə müsəlmanlara qoşulmalarına imkan verdi. Məsələn, Nəim ən-Nəhham qırx nəfər öz qohumları ilə Mədinəyə hicrət etdi. Peyğəmbər Hüdeybiyyədən gedəndə Xüzaə qəbiləsində hamı müsəlman olmuşdu.[225]

Hüdeybiyyə sülhündən sonra Məkkədə qalmış müsəlmanlar öz əqidələrinə sədaqət göstərir, bu dinin əsas prinsiplərini müşriklərə izah edirdilər. İslamın sülh məramını, onun ticarətin və iqtisadi inkişafın təmin edilməsinə şərait yaradacağını müşriklər biləndən sonra yavaş-yavaş müsəlmanlara ürək qızdırmağa başladılar. Bu mühüm dəyişiklik Məkkədə get-gedə daha geniş vüsət alırdı. Xalid bin əl-Valid, Əmr ibn əl-As kimi tanınmış adamların Mədinəyə gəlib islamı qəbul etmələri və islam dövlətinə xidmət etməyə hazır olduqlarını bildirmləri və Məkkə əhlinin islama olan meylini hiss edərək, Məkkə müşriklərinin rəhbəri Əbu Süfyan Hüdeybiyyə sülhünün imzalanası və Peyğəmbərin (s) ümrə ziyarətinə gəlməsinə müqavimət göstərə bilmədi. Lakin Hüdeybiyyə sülhü formal xarakter daşıyırdı, bir-birinə zidd əqidə və dünyagörüşünə malik tərəflər arasında imzalanmışdı, onu himayə edəcək bir sosial qüvvə

[224] Z.M. Bünyadov. Dinlər,təriqətlər, məzhəblər, .s. 149-150.
[225] Ramiz Mürsəlov, yenə orada; Əl-Vaqidi, yenə orada, s. 749

yox idi və o, uzun zaman davam edə bilməzdi. Hicaz bölgəsində vəziyyət sabit deyildi və sülh hər an pozula bilərdi, pozuldu da. İslam mövqeyində olan Xüzaə əşirəti ilə Məkkə müşriklərinin tərəfində olan Kinanə əşirəti arasında müharibə başladı, Əbu Süfyan müharibənin genişlənəcəyindən ehtiyat edərək, dərhal Mədinəyə getdi və sülh müqaviləsinin vaxtının uzadılması üçün cəhd göstərdi. Lakin sülhün uzadılmasında qanunauyğunsuzluq görən və məsələnin köklü şəkildə həll edilməsi zərurətini hiss edən Peyğəmbər Əbu Süfyana rədd cavabı verdi, onun cəhdi baş tutmadı və o, əliboş geri qayıtdı. Bu haqda R. Mürsəlov öz kitabında ətraflı məlumat verir.[226]

Bir il sonra Peyğəmbər səhabələri ilə birlikdə Məkkəyə gəlib, ümrə ziyarətini etdilər, Kəbəni təvaf etdilər, Bilal ilk dəfə Kəbənin yanında azan verdi. Müsəlmanlar Məkkədə üç gün qalaraq, qurbanlarını kəsdikdən sonra Mədinəyə döndülər.[227]

Bu ümrə ziyarətinin müsəlmanlar və qeyri müsəlmanlarn mənəviyyatına böyük təsiri oldu. İslamı qəbul edənlərin qəlbində bu din daha dərin kök saldı, başqa dinlərin nümayəndələri arasında islama meyl gücləndi, onlar islama qarşı müharibə etməyin mənasız olduğunu başa düşdülər. Yuxarıda qeyd edildiyi kimi, Xalid bin əl-Valid, Əmr ibn əl-As, Osman ibn Təlhə kimi tanınmış şəxslər (ürəklərindəki islama qarşı kini gizlədərək) islamı qəbul etdilər, ancaq sonralar onların iç üzü açıldı.

Hüdeybiyyə sülhü ərəfəsində müsəlmanlar kifayət qədər qüvvə toplasalar da, Peyğəmbər sülhü əldə etmək üçün müşriklərə çox güzəştə getsə də, sonradan müsəlmanlar bunun bəhrəsini gördülər.

---

[226] Ramiz Mürsəlov, yenə orada, s. 209-210.

[227] Yenə orada, s. 178.

## Xeybər döyüşü haqqında

Xeybər Mədinədən şimala 250 mil məsafədə bol sylu və məhsuldar torpağı olan bir vadidə yerləşir. Akad. Z.M. Bünyadovun qeyd etdiyinə görə Orada islamdan çox əvvəl yəhudilər yaşamış, əkinçiliklə məşğul olmuşdular və Hicazın şimal bölgələrini kənd təsərrüfatı məhsulları ilə təmin etmişdilər. Xeybər həm də Peyğəmbərin, sakit durmadıqlarına görə Mədinədən qovub çıxartdığı yəhudilər üçün sığınacaq yeri idi. Xüsusilə Bəni-Nəzirə əşirəti orada sığınacaq taparaq, ətraf yəhudiləri arasında iş aparır və onları Peyğəmbərə (s) qarşı qaldırmağa cəhd edirdi. Xeybərlilər bütpərəst ərəbləri müsəlmanlarla vuruşa təhrik edir, özləri də müsəlmanlarla düşmən olan ərəb qəbilələri ilə birlikdə Mədinə üzərinə qəflətən hücum etməyə hazırlaşırdılar. Barış təklifini də qəbul etmədiklərinə görə[228] R. Mürsəlovun qeyd etdiyi kimi, Peyğəmbər Hüdeybiyyə sülhünü bağlayıb qayıdandan sonra öz səhabələrinə Xeybəri fəth etmək haqda göstəriş verdi. Bundan məqsəd Mədinədə yaranmaqda olan islam dövləti üçün potensial təhlükə mənbəyini ləğv etmək idi, çünki yuxarıda qeyd edildiyi kimi, Xeybər Bəni-Nəzirə və Fəzzarə yəhudi əşirətlərinin sığınacağına çevrilmişdi. Oranın alınması Bəni-Nəzirənin təxribatçılıq hərəkətlərini dayandırması, islamın şimal bölgələrində yayılmasına mane olan bu ittifaqın dağıdılması demək idi. Həm də Xeybərin fəthi onun bol çeşidli məhsullarına yol açır və Şam bölgələrinə gedən ticarət yolları üzərində nəzarəti ələ almağa imkan yaradırdı.[229]

Beləliklə, 628-ci ilin aprel ayında Peyğəmbər 1600 əskərdən ibarət bir ordu ilə Mədinədən çıxıb, gözlənilmədən Xeybərə hücuma başladı. Müsəlmanlar Xeybərə hücuma hazırlaşarkən Pey-

---

[228] Z.M Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, s. 150.

[229] Ramiz Mürsəlov, yenə orada, s. 180-181;

ğəmbər (s) Qətəfan və Fədək qəbilələrinin Xeybərə köməyə hazırlaşdıqlarından xəbər tutub, yəhudilərin böyük ümid bəslədikləri müttəfiq qüvvələrin onlarla birləşməsinə imkan verməyib, vaxtında onları zərərsizləşdirdi.[230]

Peyğəmbər qalanın fəthi üçün bir neçə dəfə səhabəlrdən (Əbubəkr, Ömər ibn Xəttab) göndərsə də, heç bir nəticə verməmişdi. Axırda Peyğəmbər Hz.Əlini Xeybər üzərinə göndərməyi qərara aldı. Onu çağırtdırdı, onun gözləri və başı ağrayırdı. Peyğəmbər ağzının suyundan onun gözlərinə çəkdi. Deyilənlərə görə o, ömrünün sonunadək nə gözağrısı, nə də başağrısı gördü. Peyğəmbər Xeybərin fəthini ancaq Hz.Əlinin bacaracağını düşünürdü. O, Peyğəmbərdən yəhudilərlə nə vaxtadək vuruşacağını soruşduqda Peyğəmbər, "Allahın birliyini və mənim peyğəmbərliyimi təsdiq edənədək onlarla vuruş" dedi.[231]

Hz.Əli Xeybər Qalasının divarlarına yaxınlaşıb, islam bayrağını yerə sancdı. Xeybərin cəsarətli döyüşçülərindən bir qrupu onun dəstəsinin üzərinə hücum etdi. Şücaətləri ilə tanınan qala rəisi Haris, qardaşları Mərhəb və Yasər növbə ilə Hz.Əliyə hücum etsələr də, Hz.Əli onları öldürdü. Yəhudilər qalaya qaçıb, darvazanı bağladılar. Şeyx Müfid Abdullah Cədəli Hz.Əlidən (ə) qeyd edir ki, o, Xeybərin qapısını yerindən çıxardıb, özünə sipər edərək, yəhudilərlə döyüşdü, sonra onu qala ətrafında qazılmış xəndəyin üstünə qoyub, üzərindən qalaya keçdi. Geri qayıdarkən, 70 müsəlman darvazanı güclə qaldırıb, kənara atdılar (Bu hadisədə, həmin anda Hz.Əliyə ilahi qüvvənin verildiyini ehtimal etmək olar, çünki bir insanda 70 nəfərin gücü ola bilməz). İbn Əbi-l- Hədidin bir qəsidəsində "Qırx dörd əlin aça bilmədiyini qoparıb atan Əli" qeyd edilir. Belə olduqda adamların sayı 22 olur. Hədislərdə isə darvazanı 40 pəhləvanın qaldıra bilmədiyi deyilir. Xeybər qalasının fəthi islam tarixində çox mühüm hadisə idi. Döyüşdən sonra yəhudilərin

[230] Z.M. Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, yenə orada.
[231] H.F.Nurullah. İmam Əli (ə), s. 61-62.

xahişi ilə sülh bağlandı, onlar Fədək bağlarını Peyğəmbərə bağışladılar, var-dövlətlərinin yarısını müsəlmanlara verdilər. Beləcə, müsəlmanlar yəhudilərin fitnələrindən xilas oldular, Mədinədə əmin-amanlıq bərpa edildi.[232]

Əsasını Ğəffar və Əsləm əşirətləri təşkil edən Xeybər döyüşünə gedən müsəlman ordusunun sayı min dörd yüz nəfər idi. Ona görə də Xeybər döyüşündə əldə edilmiş qənimət Ğəffar və Əsləm əşirətləri arasında paylandı. Bu iki qəbilə bütünlüklə islamı qəbul edib, Mədinədə yurd salmışdılar.[233] Bir az əvvələ qayıdaraq qeyd edək ki, Peyğəmbər hicrətə gedərkən Əsləm diyarından keçirmiş. Səksən evdən ibarət olan Əsləm əşirəti Peyğəmbərin (s) çağırışına cavab olaraq islamı qəbul edib, onun arxasında axşam namazı qıldılar.[234] R. Mürsəliovun qeyd etdyinə görə Məkkənin fəth edilməsində Əsləm əşirətindən dörd yüz nəfər, otuz süvari, Bəridə ibn əl-Həsib və Nəciyə ibn əl-Əcəm adlı iki bayraqdar iştirak edirdi.[235]

Xeybər camaatı öz torpaqlarında qalaraq işləməkdə və illik məhsulun yarısını müsəlmanlara verməkdə davam edirdilər. Bu vəziyyət Ömər ibn Xəttabın dövründə, əkinçiliklə məşğul olan işçi qüvvəsinin çoxalmasına qədər davam etdi. Bir az irəli gedərək deyd edək ki, Xəlifə Omər yəhudiləri Şama köçürtdü və Xeybər torpaqlarını müsəlmanlar arasında payladı.[236]

---

[232] Yenə orada, s. 62-63.

[233] Ramiz Mürsəlov, yenə orada, s. 196-197; İbn Səad, 2-1-70

[234] İbn Səad, 4-1-178; Ənsab əl-əşraf, 1\262; Ramiz Mürsəlov, yenə orada, s. 202.

[235] Ramiz Mürsəlov, yenə orada, s. 203; Əl-Vaqidi, 568; İbn Hişam, 3-404

[236] Əbu Ubeyd. Ət-Təbəqat, 2-1\82; Ramiz Mürsəlov, yenə orada, s. 183.

## Fədəkin döyüşsüz təslim olması haqqında

Fədək Xeybərdən şimal-şərqə tərəf iki günlük məsafədə, Təy dağından isə bir gecəlik yol məsafəsində yerləşən, münbit torpaqları olan bir vadidir. Burada əş-Şəmrux adlanan istehkam, bir sıra kənd və əkin sahələri mövcuddur. Buranın əhalisi yəhudi, rəhbəri isə Yuşə bin Nundur. Onların Xeybər əhalisi ilə əlaqələri yaxşı idi və Peyğəmbər Xeybəri mühasirəyə aldıqda, yuxarıda qeyd edildiyi kimi, fədəklilər xeybərlilərə kömək etmək istədilər. Yuxarıda qeyd olunduğu kimi Peyğəmbər çevikliklə bunun qarşısını aldı. O, Əli ibn Əbi Talibi qoşunla onların üstünə göndərib, onları yerində oturtdu. Peyğəmbər (s) Xeybəri fəth etdikdə fədəklilər qorxuya düşüb, adamlarını Peyğəmbərin yanına göndərib, illik gəlirlərinin yarısını müsəlmanlara verməyi boyun oldular. Peyğəmbər bu şərti qəbul etdi, fədəklilər də, Peyğəmbərə yenidən onların üstünə qoşun göndərmədiyi üçün razılıq etdilər.[237]

Fədəkin fəthində islam ordusu iştirak etmədiyi, Fədək Peyğəmbərə müharibəsiz təslim olduğu və islam fiqhinə görə islam ordusunun iştirakı olmadan əldə olunan torpaqlar Peyğəmbərə məxsus olduğu üçün Peyğəmbər onu istədiyi şəxsə verə bilərdi. Fədək torpağı yəhudilər tərəfindən Peyğəmbərə verildiyi zaman “İsra” surəsinin 26-cı ayəsi nazil oldu: “Va əəti zə-l-qurbə haqqahu va-l-miskinə vabnə-s-səbili va lə tubəzzir təbziran” – Qohumlarının, yoxsulun, yolda (möhtac) qalmışın haqqını ver və israfçılıq etmə”. İmam Sadiq (ə) buyurub: “Va əəti zə-l-qurbə...” ayəsi nazil olanda Peyğəmbər Cəbrayıldan soruşdu: “Zə-l-qurbə deyildikdə kimlər nəzərdə tutulur”? Cəbrayıl dedi: “Sənin qohumların”. Peyğəmbər bunu eşitdikdə Fatimə (ə) və onun övladlarını çağırıb buyurdu:

---

[237] Ramiz Mürsəlov, yenə orada, 183-184 ; İbn Hişam. Əs-Sirə. 3\408; Əl-Bəlazuri. Futuh əl-buldən, s, 28

“Allah mənə əmr edib ki, Fədəki sizə bağışlayım.”[238] Və Fədəkin gəlirlərini əsgərlər arasında bölüşdürməyib, onu qızı Fatimeyi Zəhraya bağışladı. Peyğəmbər vəfat edəndən sonra xəlifə Əbubəkr bunun düzgün olmadığını bildirib, Fədək bölgəsini müsəlmanların ümumi mülkü hesab etdiyini söyləyir və onun miras verilməsinin (əslində Fədək miras deyil, yuxarıda qeyd edildiyi kimi, bağışlanma idi) səhv olduğunu söyləyir. Ancaq Peyğəmbərin sağlığında Əbubəkr bu haqda heç şey deməmişdi. Yezidin atası Müaviyə qəsb elədiyi xəlifəlik dövründə isə o, həmin bölgəni öz hərbi köməkçisi Əbdülməlik ibn Mərvana bağışladı. Bəs Xəlifə Əbubəkr onu müsəlmanların ümumi mülkü kimi qeyd etmişdi! Peyğəmbərin, sevimli qızı, onun dediyi kimi, dünya xanımlarının başçısı Fatimeyi Zəhraya bağışladığı bölgə, sonradan Peyğəmbərin balalarına qənim kəsilən Mərvanın oğluna verildi. Ömər ibn Əbdüləziz hakimiyyətə gələndə Fədəki Fatimə övladlarına qaytardı.[239] Özlərini Peyğəmbərin varisləri hesab edən Abbasilər isə onu Peyğəmbər övladlarından yenidən geri aldılar.

629-cu ildə Şama göndərilən 15 nəfərlik kəşfiyyat dəstəsi Qəssanilərin sərhəd mühafizəçiləri tərəfindən pusquya salınaraq öldürüldü. Yenə həmin ildə Bursaya göndərilən müsəlman elçisi edam edildi. Buna görə də Peyğəmbər (s) oğulluğu Zeyd ibn Harisənin başçılığı altında 3000 nəfərlik bir ordunu Şama göndərdi. Ordu Lut gölünün cənubunda yerləşən Mu”ta adlı yerə yetişən zaman Bizans qoşunları ilə rastlaşdı (İbn Hişamda Bəlqa bölgəsinin Məşarif kəndində). Müsəlman ordusu sayca özündən olduqca çox (200 min) və Heraklin komandanlığı altında olan Bizans qoşunları ilə vuruşda məğlub oldu. Döyüşdə ordunun komandanı Zeyd ibn Harisə,

[238] Şahlar Şərifov. İslam tarixi, s. 48; Təfsiri Əyyaşi, c. 2, s. 287

[239] Ramiz Mürsəlov, yenə orada, 183-184 İbn Səad. Ət-Təbəqat, 2-2\86; Əl-Bəlazuri. Futuh əl-buldən, s. 29;

Hz.Əlinin (s) qardaşı Cəfər ibn Əbi Talib, Abdullah ibn Rəvahə və başqaları şəhid oldular. Xalid ibn Valid başsız qalmış ordunu bir yerə toplayaraq tamamilə məhv olmaqdan qurtardı və Mədinəyə gətirdi. Bu igidliyinə görə Peyğəmbər Xalid ibn Validə Seyfullah - Allahın qılıncı ləqəbini verdi[240]

[240] Z.M.Bünyadov. Dinlər, təriqətlər, məzhəblər, yenə orada, s. 150.

## Vadi-l-Quranın alınması haqqında

Vadi-l-Qura Ərəbistan yarımadasının ən böyük və ən məhsuldar bölgələrindən biri idi. Ən böyük yaşayış məntəqəsi Qarh kəndi idi, buranın da əhalisi yəhudilər idi.[241] Peyğəmbər Xeybər döyüşünü başa çatdırdıqdan sonra Vadi-l-Quraya sarı irəliləyib, onun sakinlərini islama dəvət etdi. Onlar islamı qəbul etməkdən imtina etdikdə, onlarla vuruşub qalib gəldi və onlarla da, Xeybər sakinləri ilə olduğu kimi, illik məhsulun yarısını müsəlmanlara verməklə razılığa gəldi. Peyğəmbər bununla bütün Hicazı yəhudi fitnəsindən qurtardı.[242] Ömər ibn əl-Xəttab öz vaxtında Vadi-l-Qura torpaqlarının bir hissəsini kəsib götürmüşdü.[243]

Bir az əvvələ qayıdaraq qeyd edək ki, əvvəllər islam dövlətinin hüdudları Mədinənin hüdudları ilə üst-üstə düşürdü. Peyğəmbər islamı qəbul edənlər üçün Mədinədə yaşamağı vacib şərt hesab edirdi. Lakin islam icmasının Mədinədə qarşılaşdığı hadisələr onu Mədinədən kənardakı qəbilələr və bölgələr ilə əlaqəyə girməyə vadar etdi. Hicrətin birinci ilinin sonundan etibarən Peyğəmbər (s) öz fəaliyyətini Mədinədən xaricə genişləndirməyə başladı. Yuxarıda qeyd olunduğu kimi, Peyğəmbərin özünün rəhbərlik etdiyi çıxışlar “qəzəvat”, rəhbərliyini başqalarına tapşırdığı döyüşlər isə “sərayə” adlanırdı və bunlar əsasən siyasi xarakter daşıyırdı. Sərayə ərəb dilində “səriyyətun”un cəmi olub, dəstə deməkdir, müasir ərəb hərbçiliyində səriyyətun rota mənasını bildirir. Peyğəmbərin ilk yürüşlərini yönəltdiyi bölgə Mədinənin cənubi-qərb nahiyəsində yerləşən Zəmrə bölgəsi oldu. Onun ən məhşur yerləri Qüreyşin karvanlarının keçdiyi vadilər idi. Hərbi yürüşdən sonra

---

[241] R.Mürsəlov, yenə orada; Əl-Maqdisi. Əhsənu-t-təqasim, s 83; Yaqut əl-Həməvi, 4-534;

[242] Şahlar Şərifov. İslam tarixi, s. 48

[243] Ramiz Mürsəlov, yenə orada, s. 185; Əl-Bəlazuri. Futuh əl-buldən, s. 34

onun rəhbəri Məhşi ibn Əmr öz düşmən hərəkətlərini dayandırmağa məcbur olmuşdu.[244]

İndi isə Hicrət haqqında bir haşiyə qeyd edək. Peyğəmbər Yəsribə hicrət edəndən sonra onu "Hicrət evi"nə (Dəru-l-hicrə) çevirmiş və islamı qəbul etmək niyyətində olanların qarşısında Mədinəyə hicrət edib, orada yaşamağı bir şərt kimi qoymuşdu. Hədis kitabları Peyğəmbərin islamı qəbul edənlərdən Mədinəyə hicrət etmək haqqında əhd alması barədə rəvayətlər nəql edir və Peyğəmbərin bu sözlərini iqtibas edirlər: "Kim hicrət etməzsə, həlak olacaqdır", "Əgər siz islamı qəbul edirsinizsə, bizimlə hicrət edəcəksiniz" və əşirətlərin bəzilərindən "Allahın və Rəsulunun yanına hicrət etməyi" tələb edirdi.[245] Mədinəyə hicrət etməyi bir şərt kimi irəli sürməkdən məqsəd müsəlmanların bir yerdə, Peyğəmbərin yanında olmalarını, onunla daim təmasda olmalarını, ondan islam prinsiplərini öyrənmələrini təmin etmək, onların müşriklərlə əlaqələrini kəsmək və təbii ki, yenicə yaranmaqda olan islam dövlətini birlikdə qorumaq və genişləndirmək idi. Hicrətin bir şərt kimi irəli sürülməsi Mədinədə daxili sabitliyi təmin etdi, mühacirlərin hesabına onun əhalisini artırdı. Vaxt keçdikcə Mədinənin daxili həyatını inzibati cəhətdən tənzim etmək zərurəti özünü daha da qabarıq şəkildə biruzə verirdi. Ömər ibn Şibbə qeyd edir ki, Mədinədə ilk günlərdən etibarən belə bir qayda yarandı ki, mühacirlərdən kimin Mədinə əhli arasında tanışı vardısa, onun evində yerləşirdi; kimin tanışı yoxdursa, o, Peyğəmbər məscidi yanındakı çardaqda-talvarda (əs-suffə) qərar tutub, yerləşdirilməsini gözləyirdi. Ərəblərdən biri hicrət edən kimi, ənsarlardan özünə vəkil tutar, o, ona fiqhin sirlərini, Quran oxumağı öyrədərdi. Evlərə yerləşdirilə bilməyənlər isə elə çardaqda yaşayıb "əhlu-s-suffə" (çardağ əhli) adlanır və

---

[244] Yaqut əl-Həməvi. Mucəm əl-buldən, 4\505; Ramiz Mürsəlov, yenə orada, s. 192.

[245] Ramiz Mürsəlov, yenə orada, s. 194; Əhməd bin Hənbəl. Əl-Musnəd, 5\180, 181; 1\190;

gündəlik bir az xurma və yeməklə kifayətlənirdilər.[246] Əvvəllər hicrət fərdi şəkildə, üç-üç, beş-beş adam tərəfindən yerinə yetirilirdisə, Xəndək döyüşündən sonra hicrət edənlərin sayı çoxalırdı, hətta bütöv əşirətlər hicrət edirdilər, kimisi pis güzərandan, kimisi torpaqsızlıqdan və s.[247] Mühacirlərin sayı çoxaldıqca, həm hicrət şərtlərinin ağırlığı (mal-mülkünü, qohum əqrabanı, Vətəni qoyub getmək), həm də ki, Mədinədəki şəraitsizlk (ev, ərzaq çatışmazlığı və s.) Peyğəmbəri hicrətin şərtlərində güzəştə getməyə vadar etdi. Bu çətinliklərlə əlaqədar Peyğəmbər (s) demişdi: "İnnə əmrə-l-hicrə ləşədid!" - Hicrət məsələsi çox ağır məsələdir.[248] Peyğəmbərin güzəştlərinə görə islamı qəbul edən şəxs Mədinəyə Hicrət etmək və ya öz Vətənində qalmaq arasında hansının münasib olduğunu seçə bilərdi. İbn Səadın qeyd etdiyinə görə, birinci güzəştli Hicrət Hicrətin beşinci ilində baş vermişdi. Müzəyyənə əşirətindən dörd yüz nəfər islamı qəbul etdikdə, Peyğəmbər onlara öz diyarlarında mühacir olmağa icazə verdi və dedi: "Siz öz yerlərinizdə mühacirsiniz, qayıdıb öz mal-mülkünüzə sahiblik edin." [249]

Xəndək döyüşünə qədərki qəzavatlarda yalnız ənsarlar, mühacirlər və tək-bir əşirət iştirak edirdi. Bu, onu göstərir ki, hicrətin dördüncü ilinə qədər islam icmasının sərhədləri Mədinənin hüdudları ilə məhdudlaşırdı. Hicrətin altıncı ilinin axırlarında Peyğəmbər Hüdeybiyyə sülh müqaviləsini imzaladıqdan sora geri qayıdarkən, ona çoxlu səhra ərəbi də qoşuldu.[250] Onları evlərini tərk etməyə sövq edən dinə sədaqət hissi yox, qənimət ələ keçirmək hərisliyi idi. Quran səhra ərəblərinin əsl məqsədlərini açıqlayaraq yazır: "Siz (Xeybərə) qənimət əldə etmək üçün getdiyiniz zaman (Hü-

[246] Ramiz Mürsəlov, yenə orada, s. 194; Ömər ibn Şibbə.Tarixu-l-Mədinə, s. 286-287, 486-487;

[247] Ramiz Mürsəlov, yenə orada, s. 195.

[248] İbn Davud. Fəraiz, s. 156; Ramiz Mürsəlov, yenə orada, 198.

[249] Ramiz Mürsəlov, yenə orada; İbn Səad, 1-2--38

[250] İbn Hişam. Əs-Sirə ən-nəbəvıyyə, 3\355; Ramiz Mürsəlov, yenə orada, s. 195-196.

deybiyyə səfərinə getməyənlər) deyəcəklər: "Qoyun, biz də sizin arxanızca gələk". Onlar Allahın (Ya Peyğəmbər! Hüdeybiyyə səfərinə getməyib, evdə oturanları heç yerə aparma) sözünü dəyişdirmək istəyirlər" (Fəth, 15).

İbn İshaq bildirir ki, Peyğəmbər Xeybərdən döndükdən sonra rabiu-l-əvvəldən şəvval ayı daxil olmaqla Mədinədə qaldı. O, Ərəbistanın müxtəlif bölgələrinə, yuxarıda qeyd edildiyi kimi, dəstələr-səriyyələr göndərirdi. Zu-l-qədə ayında Peyğəmbər müşriklərin düz bir il öncə - zu-l-qə"də ayında imkan vermədikləri ümrəni - kiçik həcc ziyarətini əda etmək niyyətilə Məkkəyə yollanmağı qərara aldı. Bu ziyarəti yuxarıda qeyd edilən məsələyə görə "ümrətu-l-qisas" da adlandırırlar. Bununla bağlı Allah-Təalə ayə də nazil edib: "Haram ay (hicrətin yeddinci ilinin zu-l-qədə ayı) haram ay (hicrətin altıncı ilinin zu-l-qədə ayı) müqabilindədir... (Bəqərə, 194). Keçən il müşriklərin, ümrə ziyarətinə imkan vermədikləri müsəlmanlarla yanaşı bu il başqa yeni müsəlmanlar da Allahın Elçisi ilə səfərə çıxmışdılar. Peyğəmbərin (s) gəlişini eşidən məkkəlilər ondan üz çevirdilər. Qüreyşilər dedilər: "Muhamməd və onun səhabələri çox ağır və dözülməz vəziyyətdədirlər". Onlar Allahın Elçisi və səhabələrinə tamaşa etmək üçün Dəru-n-nədva - Məşvərət evinin yanına toplanmışdılar. Peyğəmbər məscidə daxil olub ucadan dedi: "Bu gün hünər göstərib, müşriklərdə qorxu yaradan kəslər Allahın rəhmətini qazanacaqlar". Sonra o, Kəbənin bir küncünə yaxınlaşaraq, onu öpdü və sonra iti addımlarla təvaf etməyə başladı. Səhabələr də onunla birlikdə təvaf edirdilər. Sonra Peyğəmbər Qara daşı öpüb, təvafa davam etdi.[251] İbn Hişam İbn Abbasa istinadən qeyd edir ki, bu ayinlər onlar üçün vacib deyildi. Lakin Vida həcci zamanı Peyğəmbər bu ayinləri təkrar edəndən sonra onlar Həccin sünnə ayinləri oldular. İbn İshaq qeyd edir ki, Peyğəmbər bu səfəri zamanı ehramda ikən

[251] İbn Kəsir. Ət-Təfsir, I, 330; İbn Cərir. Ət-Təfsir, II, 96-97; İbn Hişam, yenə orada, IV ki-tab, s. 649-650.

əmisi Abbasın baldızı Meymunə bint əl-Harislə, onun xahişi ilə nikahlanır. Nikaha görə Abbas Peyğəmbərin əvəzinə Meymunəyə dörd yüz dirhəm kəbin haqqı verir. [252] İbn İshaq qeyd edir ki, Peyğəmbər üç gün Məkkədə qaldı. Gün tamam olanda Hüveytib ibn Əbdülüzzə bir dəstə qüreyşi ilə gəlib Peyğəmbərə dedi ki, onu Məkkədən çıxarmaq ona tapşırılıb. Peyğəmbər (s) onları qonaq etmək istəsə də, onlar rədd edib, kobudcasına "çıx get buradan" dedilər. Peyğəmbər Meymunəni köləsi Əbu Rafiyə tapşırıb, Şərif adlanan yerə gedir, Əbu Rafi də Meymunəni oraya gətirir, Peyğəmbər orada Meymunə ilə evlənib, zu-l-hiccə ayında Mədinəyə qayıdır.[253]

Hicrətin ikinci ilində ramazan orucu və fitrə zəkatı vacib edildi, qiblə Qüdsdən Məkkəyə - Kəbəyə dəyişdirildi, yəhudilər buna görə bərk qəzəbləndilər, baxmayaraq ki, əvvəllər müsəlmanlara məsxərə edirdilər ki, "qiblələri də yoxdur".

Qeyd edildiyi kimi, Hicrətin ikinci ili Peyğəmbər Allahin əmri ilə qibləni Qüdsdən Məkkəyə - Kəbəyə dəyişdi. Bu, təkcə Mədinə yəhudilərinə cavab üçün deyil, həm də strateji məqsəd daşıyırdı və Məkkənin qədim və müqəddəs ocaq olduğunu ifadə edirdi.

---

[252] Beyhəqi. Dələiliu-n-nubuvvə, IV, 323; Tirmizi. Əl-Ədəb,V.2847; Nəsai. Əl-Mənasik,V 2873; Beyhəqi.Əs-Sünən, X, 228; Albani. Səhih Sünən Əbi Davud, 2163; İbn Hişam, yenə orada, IV kitab, s. 651.

[253] Hakim. Əl-Mustədrik, IV, 31; Beyhəqi. Dələilu-n-nubuvvə, IV, 330; İbn Hişam, yenə orada, IV kitab, s. 652.

## Məkkənin fəthi haqqında

İbn İshaq qeyd edir ki, Bəkr tayfası ilə Xüzaə qəbiləsi müharibə vəziyyətində olduğu vaxt islam dini onların arasında yayılmağa başladı. İslamın gəlişi insanları müharibə etməkdən çəkindirdi. Hüdeybiyyə andlaşmasının şərtlərindən biri də bu idi ki, hər bir tayfa öz istəyilə ya Peyğəmbərlə ya da Qüreyşlə andlaşma bağlaya bilərdi, buna söykənərək, Xüzaə qəbiləsi Peyğəmbərlə, Bəkr tayfası isə Qüreyşlə andlaşma bağladılar.[254] Lakin çox keçmədi ki, Bəkr və Bəni-Kinanə qəbilələri qureyşilərlə birləşərək, xüzaəlilərdən bir çoxunu öldürməklə Peyğəmbərlə bağladıqları andlaşmanı pozdular. Əmr ibn Salim Mədinəyə Peyğəmbərin yanına gəlib kömək istədi, Peyğəmbər dedi: "Sənə kömək ediləcək."[255] Sonra Büdeyl ibn Vərqa bir dəstə xüzaəli ilə kömək üçün gəldi, müsbət cavab alıb Məkkəyə döndü. Sonra Peyğəmbər qeyd etdi ki, sanki Əbu Süfyanın andlaşmanı təzələmək üçün Mədinəyə gəldiyini görürəm. Həqiqətən də Büdeyl Məkkə yolunda Əbu Süfyanla rastlaşır. Əbu Süfyan Mədinədə öncə Peyğəmbərin zövcələrindən biri olan qızı Ummu Həbibəyə baş çəkir. O, Peyğəmbərin (s) döşəkçəsinin üstündə oturmaq istəyəndə qız döşəkçəni qatlayır. Əbu Süfyan: "Qızım, başa düşmədim, sən döşəkçəni mənə layiq bilmədin, yoxsa məni döşəkçəyə?" Qızı: "Bu Allahın Elçisinin döşəkçəsidir, sən isə müşriksən, natəmiz adamsan. Mən sənin Allahın Elçisinin döşəkçəsinin üstündə oturmağını istəmədim." Əbu Süfyan ucadan: "Vallah, qızım, ata ocağından ayrılandan yaman bədxasiyyət olmusan!" Sonra o, Peyğəmbərlə görüşməyə getdi, o isə Əbu Süfyanı qəbul etmədi. O, Əbubəkrin, Ömər ibn Xəttabın, Hz. Əlinin, Fatimə xa-

---

[254] Əhməd. Əl-Musnəd, IV, 325; Beyhəqi, Əs-Sunən, IX, 234; İbn Hişam, yenə orada, IV kitab, s. 660.

[255] Şahlar Şərifov. İslam tarixi, s. 51-52

nımın yanına gedib, onlardan Peyğəmbərin onu qəbul etməsi üçün kömək istəsə də, onların heç biri bunu etmir. Nəhayət o, Hz. Əlinin məsləhəti ilə məscidə gedib, orada barışıq elan edərək, Məkkyə qayıdır. Ondan nə xəbərlə qayıtdığını soruşduqda isə o, olanları danışdı, məkkəlilər bunun bir xeyri olacağını soruşduqda, Əbu Süfyan: "Nə etməliydim ki? Çıxış yolum yox idi!" deyir.[256]

İslam ordusu müxtəlif kiçik və böyük döyüşlərdə sınaqdan keçdikdən, möhkəmləndikdən sonra bir vaxtlar Qüreyşin təhqir, təqib və işkəncələrindən Hicrətə məcbur olan Peyğəmbər hicrətin 8-ci ilində Məkkəni fəth etmək qərarına gəldi. Bir vaxt Məkkədən qorxu içində çıxmış mühacir müsəlmanlar Peyğəmbərin arxasınca, qalib vəziyyətdə, əzəmətlə Məkkəyə doğru hərəkət edirdilər. Bəzi müsəlmanlar tərəddüd etsələr də, Allah-Təalə ayələrlə öz Peyğəmbərinə qələbə müjdəsi vermişdi. Xəndək davasında məkkəlilərin yanında olan Süleym və Ğətəfan qəbilələri də bu səfərdə qüreyşilərin üzərinə yürüş edirdilər. Bütün ehtiyat tədbirlərinə baxmayaraq Məkkəyə səfər hamıya məlum oldu. Məkkəlilər dəstə-dəstə gəlib Peyğəmbərə beyət edir, onun ordusunun sıralarında dururdular. Peyğəmbər Məkkəyə yollanarkən Hatib ibn Əbu Bəltəə qüreyşilərə müsəlmanların Məkkəyə yürüşü haqqında məktub yazıb Müzeynə və ya Ummu Sara adlı bir qadına pul da verib onu Məkkəyə yola salır. Cəbrayıl (ə) bu haqda Peyğəmbəri (s) xəbərdar edir. Allah tərəfindən xəbərdar edilən Peyğəmbər Hz.Əlin, Zübeyr ibn əl-Əvvam və Miqdad ibn Əsvadı qadının dalınca göndərir. Onlar Xüleyfədə qadını yaxalayıb, saçına hördüyü məktubu onlara verməyə məcbur edirlər. Peyğəmbər Hatibi gətizdirib, onun niyə belə etdiyini soruşur. O deyir ki, mən Allaha və sizə inanıram, ancaq ailəm Məkkədədir və onları müdafiə edən də yoxdur, məktub yazdım ki, ailəmə dəyib-dolaşan olmasın.[257] Peyğəmbərin ordusunun Zəhrana çatmasına baxmayaraq, qüreyşilər hələ də onlardan

---

[256] İbn Hişam, yenə orada, IV kitab, s. 659-663.
[257] Şahlar Şərifov. İslam tarixi, s. 52

xəbərdar deyildilər. Ancaq etdikləri əməllərə görə (Peyğəmbərlə andlaşmada olan bir-çox xüzaəlinin qətlinə görə də) narahat idilər ki, müsəlmanlar hücum edə bilərlər. Ona görə də bir xəbər bilmək üçün Əbu Süfyan ibn əl-Hərb, Həkim ibn Nizam və Budeyl ibn Vərqa Məkkədən çıxdılar. Bu vaxta qədər Məkkədə yaşayıb, zəvvarlara su paylamaqla məşğul olan Abbas da elə həmin o niyyətlə ailəsi ilə birlikdə Məkkədən çıxmışdı və Cühfədə Peyğəmbərlə rastlaşdı. Niq əl-Uqab adlanan yerdə Əbu Süfyan ibn Əl-Haris və Əbu Umeyyə ibn Əl-Muğeyrə gəlib Peyğəmbərlə görüşmək istədilər. Peyğəmbərin zövcəsi Ummu Sələmə bu haqda məlumat verəndə o, bunu istəmədiyini bildirdi. Onların biri onun əmisi oğlu, o birisi isə bibisi oğlu, həm də qaynı idi. O dedi: "Əmim oğlu məni daim biabır edib, bibim oğlu isə Məkkədə mənə nalayiq sözlər deyib." Bunu eşidən və uşağı ilə gələn əmioğlu haray saldı ki, indi mən bu körpə ilə səhraya gedib, aclıq və susuzluqdan özümüzü həlak edəcəyik. Peyğəmbərin ürəyi yumşaldı və onları qəbul etdi, onlar üzr istəyib, islamı qəbul etdilər. Məkkəyə yaxınlaşanda Abbas ibn Əbdülmüttəlib qüreyşiləri islam ordusunun çoxluğu və təchizatı ilə qorxutmaq üçün Məkkəyə tələsdi. Məkkəlilər Peyğəmbərin Məkkəyə doğru gəldiyini bilmişdilər. Əbu Süfyanla Büdeyl ibn Vərqa yolda Abbasla rastlaşdılar. Abbas fikrindəkini Əbu Süfyana özünün istədiyi kimi "başa saldı". O, çarəsiz qalıb, Abbasın himayəsi altında, onun mindiyi Peyğəmbərin ağ ulağının tərkində islam qoşununun arasından keçib, Peyğəmbərin xidmətinə getdi, onları görən Ömər ibn Xəttab da tez Peyğəmbərin çadırına girib, Əbu Süfyanı öldürməyə ondan icazə istədi, Abbas isə dedi: "O, mənim himayəmdədir". Peyğəmbər Öməri sakitləşdirib, Abbasa dedi ki, onu öz çadırına apar, sabah yanıma gətirərsən. Səhər onlar Peyğəmbərin yanına gəldilər. O soruşdu: "Ey Əbu Süfyan! Mənim Allahın Elçisi olduğumu qəbul etməyinin vaxtı deyilmi?" Əbu Süfyan: "Atam-anam qurbanın olsun, sən nə qədər həlim və mərhəmətlisən! Amma Allaha and olsun, mən hələ də buna şübhə

edirəm”. Abbas ona dedi: “Vay halına, boynun vurulmamış “Lə ilahə illə-l-Lah, Muhammədun rasulu-l-Lah de və islamı qəbul et”. Əbu Süfyan Abbasın dediyini etdi və çarəsizlikdən islamı qəbul etdi. 20 il ərzində müsəlmanları təqib edənlərin başında duran Əbu Süfyan əzəmətli islam ordusu və Peyğəmbər (s) qarşısında necə də kiçilmişdi! Peyğəmbər onu Məkkəyə göndərib, islamı qəbul edənlərə, məsciddə olanlara, evlərində oturub qapılarını bağlayanlara və Əbu Süfyanın evinə sığınanlara da toxunulmayacağını əhaliyə çatdırmağı ona tapşırdı. Əbu süfyan Məkkə müşriklərinin rəhbəri olub çox təkəbbürlü və şöhrətpərəst olduğundan Abbas Peyğəmbərə Əbu Süfyanın evinə daxil olanların da əfv edilənlərdən olacağını deməsini məsləhət görmüşdü. Ramiz Mürsəlov isə öz kitabında yazır: “Peyğəmbər Məkkəyə daxil olarkən demişdi: “Kim Kəbəyə daxil olarsa, əmin-amanlıqdadır, kim Əbu Süfyanin evinə daxil olarsa, o da əmin-amanlıqdadır”. Beləliklə, təhlükəsizlik baxımından Əbu Süfyanın evi Kəbə evi ilə eyni məqamda tutulur”.[258] Bizcə, bu yanlış fikirdir. Peyğəmbərin necə deməsi yuxarıda qeyd olunub, həm də onun məqsədi Əbu Süfyanı ələ almaq idi, onun evini Kəbəyə bərabər tutmaq deyildi. Həm də, Kəbə nə qədər insan tuta bilərdi ki? Onda Peyğəmbər Abbasa tapşırmışdı ki, Əbu Süfyanı vadinin dar hissəsində ləngit ki, oradan keçən Allahın əzəmətli əskərlərini görsün. Abbas belə də etdi. Əbu Süfyan bütün qəbilələrin və Peyğəmbərin başçılıq etdyi Xədra - “yaşıl” qoşun dəstələrini görüb dəhşətə gəldi. O, Məkkəyə gəlib var gücü ilə qışqırdı: “Ey Qüreyş! Muhamməd sizin məğlub edə bilməyəcəyiniz bir qüvvə ilə üstünüzə gəlir. Kim Əbu Süfyanın evinə sığınsa, ona aman veriləcək! Arvadı Hində bint Utbə bunu eşidib, onun saqqalından yapışıb qışqırdı: “Bu yağ tuluğunu (yekəpər, kök adamı) öldürün! O, qəbilə başçısından alçaq adama dönüb!” Əbu Süfyan isə ucadan dedi: “Vay halınıza! Bu qadının sizi yoldan çıxarmağına imkan verməyin! İnanın mənə, Məhəmməd sizin əsla

[258] Ramiz Mürsəlov, yenə orada, s. 211.

məğlub edə bilməyəcəyiniz bir qüvvə ilə üstünüzə gəlib! Amma sizin çıxış yolunuz var. Kim Əbu Süfyanın evinə sığınsa, ona aman veriləcək!.. (O, hələ də şöhrətpərəstliyindən əl çəkmirdi). Qüreyşilər: "Allah sənə lənət eləsin! Sənin evin bizi necə qoruyacaq?" - deyə soruşdular. Onda, Əbu Süfyan sözünə davam edib: "Kim evində oturub qapısını bağlasa, məscidə sığınsa, islamı qəbul etsə ona aman veriləcək" - deyə ucadan söylədi. Bunu eşidənlər evlərinə və məscidlərə üz tutdular.[259] İbn İshaq bildirir: "Allahın Elçisi (s) müsəlman ordu başçılarına Məkkəyə daxil olarkən, yalnız müqavimət göstərəcək kəslərlə vuruşmağı əmr etmişdi. Bununla belə, o, bir neçə adamı, onlar hətta Kəbənin örtüyü altına sığınsalar belə, öldürməyi əmr etdi. Bunların arasında Amir ibn Lüeyy tayfasından olan Abdullah ibn Səd də vardı.

Peyğəmbər onu ona görə öldürməyi əmr etmişdi ki, o, islamı qəbul etdikdən sonra Allahın Elçisinin vəhy katibi olmuş, lakin bir müddətdən sonra islamdan üz döndərib, müşrik olmuş və Qüreyşin yanına dönmüşdü. Abdullah ibn Səd Osmanın yanına gəldi, onlar süd qardaşı idilər, o isə, onu gizlətdi. Ara sakitləşəndən sonra onlar Peyğəmbərin yanına gəlib, Abdullaha aman istədilər. O, uzun müddət susub, sonra "yaxşı" dedi. Onlar gedəndən sonra Peyğəmbər, səhabələrinə: "Mən uzun müddət susdum ki, sizlərdən biri durub onun boynunu vurasınız"- dedi. Sonralar Abdullah yenidən islamı qəbul etdi".[260]

Peyğəmbərin, öldürülməsini əmr etdiyi adamlar arasında Müqeys ibn Sübabə, İkrimə ibn Əbu Cəhl, Sara adlı bir qadın, Abdul-

---

[259] Təbəqani. Əl-Kəbir, VIII, 7264; Heysəmi. Məcməu-z-zəvaid, VI, 167; Beyhəqi. Dəlailun-n-nubuvvə, V, 68-69; Həkim. Əl-Müstədrik, III, 47; İbn Hişam, yenə orada, IV kitab, s. 663-669.

[260] İbn Kəsir. Ət-Tarix, IV, 297; İbn Cərir. Ət-Tarix, II, 160; Əbu Davud. Əl-Cihad, III, 2683; Nəsai: Ət-Təhrim,VII. 4078; Əbu Yəla. Əl-Musnəd, II, 757; Hakim. Əl-Müstədrik, III, 45; Beyhəqi. Əs-Sünən, VII, 40; Albani. Əs-Səhihə,1723; İbn Hişam, yenə orada, IV kitab, 672-673.

lah ibn Xətəbi, Huveyris ibn Nüqeyriz və başqaları var idi. Sonuncunu Əli ibn Əbi Talib öldürdü.

Peyğəmbər Zu-Tuvədən hərəkət edəndə Zübeyr ibn əl- Əvvama dəstəsi ilə Kudey tərəfdən, Səd ibn Übadəyə isə Kuda tərəfdən Məkkəyə girməyi əmr etdi. Səd şəhərə girərkən öz döyüşçülərinə demişdi ki, bu gün ölüm-dirim günüdür! Bu gün haramın halal olacağı gündür! Bunu Ömər ibn əl-Xəttab eşidib, Peyğəmbərə deyir ki, biz onun qüreyşilərlə qəddar davranacağından qorxuruq! (Görəsən niyə?) Allahın Elçisi Hz. Əliyə deyir ki, ona yaxınlaşıb, bayrağı ondan al! O bayraqla Məkkəyə sən daxil ol![261]

Müsəlman ordusu Məkkəyə yaxınlaşanda, sol cinahın başında Zübeyr, sağ cinahın başında Xalid ibn əl-Valid dururdu. Peyğəmbər Xalid ibn əl-Validi göndərərək Məkkəni mühasirəyə aldırdı. On beş nəfərə qədər müşrikin öldürüldüyü kiçik bir müqavimətdən sonra Məkkəlilər məğlub olduqlarını bildirdilər. Peyğəmbər (s) dağın döşündə durub, öz qələbəsini elan etdi: “Öz vədinə sadiq olan, bəndələrinə qələbə bəxş edən və düşmənlərini məğlub edən Allaha həmd olsun!”. Məkkə əhli bir-bir gəlib islamı qəbul etdiklərini bildirir və Peyğəmbərə beyət edirdilər.

Bir az sonra islam ordusu əzəmətlə Məkkəyə daxil oldu. Peyğəmbər Məkkənin darvazası qarşısında dayanıb uca səslə dedi: “Lə İlahə illə-l-Lah, vahdəhu vahdəh, sadaqa vahdəh va nasara abdəh”. Bu, tövhid və Allahı tərif şüarları Məkkədə aşkar səslənən ilk gün idi. Sonra Bilal Kəbənin damına çıxıb azan verdi, bütün müsəlmanlar Peyğəmbərə iqtida edib, namaz qıldılar. Peyğəmbər cəza gözləyən bütün məkkəliləri azad etdi, onları Yusif peyğəmbər qardaşlarını bağışladığı kimi, bağışladı. Bu böyük əfv məkkəlilərdə Peyğəmbərə qarşı məhəbbət oyatdı. Peyğəmbər Hz.Əli ilə birlikdə Kəbədəki bütün bütləri qırıb, bayıra atdılar.[262]

---

[261] Hafiz ibn Həcər. Əl-Fəth, VII, 601; Əbu Yəla, Əl-Musnəd, II, 684; Heysəmi. Məcməuz-z-Zəvaid, VI, 169; İbn Hişam, yenə orada, IV kitab, s. 671.

[262] H.F.Nurullah. İmam Əli(ə), s. 64-65.

Peyğəmbər müşriklik və bütpərəstlik dövrünün qurtardığını bəyan etdi, Kəbə və onun ətrafını bütlərdən təmizləmək haqqında əmr verdi. Təqribən 8 il əvvəl öz səhabələri ilə birlikdə tərk etməyə məcur olduğu doğma Məkkənin fəthi və qüreyşilərin islama dönüşü ilə Peyğəmbərin ən böyük məqsədlərindən biri artıq həyata keçmişdi.[263] Məkkə əhli evlərində saxladıqları bütləri qırıb, məhv etməyə başladılar. Peyğəmbər bundan sonra Mədinəyə hicrət etmək ənənəsinin dayandırıldığını bildirdi və Məkkə ərazisinin haram buyurulmuş olduğunu elan etdi: "Orada adam öldürmək, ov etmək və yaşıl ağac qırmaq haramdır". Peyğəmbər Məkkəyə ordu ilə daxil olub, oranı fəth etmişdi. Ona görə də hakimiyyət orada tamamilə ona mənsub idi. O, yerli əhali ilə istədiyi kimi rəftar edə bilərdi. Lakin o, Məkkəyə daxil olması ilə ədavətin sona çatdığını elan etdi. Onu incidənlərdən və ya islama qarşı müqavimət göstərənlərdən qisas almadı, qatı düşmənçilik edən dörd nəfərdən başqa heç kimi edam etdirmədi, müsəlmanlardan alınan əmlakı, o cümlədən də, öz evinin geri qaytarılmasını tələb etmədi. Məscidü-l-Həramda vəzifələrin çoxunu əvvəlki şəxslərdə saxladı. Məkkənin fəthi ilə müsəlmanlarla Məkkə müşrikləri arasında illər boyu davam edən müharibəyə son qoyuldu. Məkkə sakinlərinin daxili vəhdəti bərpa edildi. Mühacirlər Peyğəmbərlə (s) birlikdə Mədinədə qalacaqlarını bildirdilər, onların Məkkə sakinləri ilə mənəvi və sosial əlaqələri bərpa edildi. Mühacirlərdən bir qismi könüllü olaraq Mədinəyə köçdü, bir qismi isə Məkkədə qaldı. Peyğəmbər Məkkə əhlinin dövlət, təsərrüfat və hərbi işlərdə təcrübələrindən də geniş istifadə etdi. Bəni Abdu - ş- Şəms əşirətindən olan Müaviyəni dəftərxana rəisi, hətta bir az əvvəl islamın və Peyğəmbərin qatı düşməni olan Əbu Süfyanı belə (yəqin ki, arxada ara qarışdırmasın deyə) bir sıra diplomatik vəzifələrə cəlb etdi.[264]

[263] Z.M Bünyadov. Dinlər, təriqətlər...s. 150-151.
[264] Ramiz Mürsəlov, yenə orada, s. 212-213; İbn Səad, 79-89

İbn İshaq qeyd edir ki, müsəlmanlar Məkkədə qərar tutduqdan və sakitlik yaranandan sonra Peyğəmbər Kəbəyə gəlib, onu dəvənin üstündə yeddi dəfə təvaf etdi, əlindəki əyri uclu əsası ilə Qara daşa toxundu. Sonra Osman ibn Təlhəni çağırıb, Kəbənin açarını istədi, onun üçün qapını açdılar, o, içəri daxil olub, orada qamışdan düzəldilmiş göyərçin gördü, onu əzib tulladı, Kəbənin qapısı ağzında dayandı. Peyğəmbəri görmək üçün məscidə xeyli adam toplanmışdı.[265] İbn İshaq qeyd edir ki, Allahın Elçisi buyurdu: "Allahdan başqa məbud yoxur.! O, təkdir! Onun heç bir şəriki yoxdur! O, verdiyi vədə əməl etdi, Onun bəndəsi qalib gəldi! Köhnədən qalmış bütün pis adətləri, o cümlədən də, qan davasını, bütün borcları ləğv edirəm. Kəbəyə xidmət və zəvvarları su ilə təchiz adəti isə qüvvədə qalır... Allah-Təalə cahiliyyə dövrünə xas olan lovğalığı və əcdadınızla öyünmək adətini sizlərdən uzaqlaşdırdı, çünki bütün insanlar Adəmdən törəmişlər, Adəm isə torpaqdan yaradılmışdır. Sonra o, bu ayəni oxudu: "Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizlə tanış olasınız deyə sizi ayrı-ayrı xalqlar və qəbilələr etdik. Allah yanında ən hörmətli olanınız Allahdan çox qorxanınız (pis əməllərdən ən çox çəkinənizdir). Həqiqətən, Allah hər şeyi biləndir və hər şeydən xəbərdardır" (Əl-Hucurat, 13).

Sonra Peyğəmbər dedi: "Ey Qüreyş! Necə düşünürsünüz, mən sizinlə necə davranmalıyam?" Onlar cavab verdilər: "Sən bizimlə xoş davranacaqsan, axı sən həm yaxşı qardaş, həm də yaxşı qardaş oğlusan". Allahın elçisi buyurdu: "Gedin, siz artıq azadsınız!"[266] Peyğəmbər belə də etməli idi, çünki o, bir az əvvəl demişdi ki,

---

[265] Əbu Davud. Əl-Mənasik, II, 1878; İbn Macə. Əl-Mənasik, II, 2947; Beyhəqi. Dəlailu-n-nubuvvə,V, 74; Təbəqani. Əl-Kəbir, XXIV, 810; Albani. Səhih sunən Əbi Davud, 1655; İbn Hişam, yenə orada, IV kitab, s. 675.

[266] İbn Cərir.Ət-Tarix, II, 161; Beyhəqi. Əs-Sunən, VIII, 68, IX, 118; Əbu Davud. Əd-Diyət, IV, 4547, IV, 4549; İbn Macə.Əd-Diyət, II, 2627; Əhməd.Əl-Musnəd, II, 11; Əbdürrəz-zaq. Əl-Musannəf, IX, 17212; Albani.Əl-irva, 2197; İbn Hişam, yenə orada, IV kitab, s. 675-676 .

köhnədən qalmış bütün pis adətləri, o cümlədən qan davasını ləğv edirəm. İbn Hişam bəzi alimlərə istinadən qeyd edir ki, Peyğəmbər Məkkənin fəthi günü Kəbəyə daxil oldu və orada mələklərin təsvirlərini və digər təsvirləri gördü. İbrahimi (ə) əlində oxlar çəkən vəziyyətdə təsvir olunduğunu görəndə ucadan dedi: "İbrahim nə yəhudi, nə də xristian idi. O, ancaq batildən haqqa dönən bir müsəlman idi və müşriklərdən də deyildi" (Ali İmran, 67). Peyğəmbər (s) Kəbəyə yaxınlaşıb, Bilala Kəbənin üstünə çıxıb, azan verməyi buyurdu, Bilal oraya qalxıb azan verməyə başladı. İslamı naəlac qalıb qəbul edən Əbu Süfyan ibn Hərb, Əttab ibn Üseyd və Haris ibn Hişam Kəbənin həyətində oturmuşdular. Əttab dedi: "Allah bu azanı atam Üseydə eşitdirməməklə ona mərhəmət göstərmişdir. Çünki onu eşitdikdə o, Muhamməd qəzəbləndirəcək sözlər söyləyəcəkdi". Haris ibn Hişam isə: "Vallah, Muhammədin söylədiklərinin həqiqət olduğuna inansaydım, ona iman gətirərdim". Əbu Süfyan isə dedi: "Mən isə bir kəlmə də deməyəcəyəm, çünki ağzımı açan kimi bu daşlar da sözlərimi Muhamməd çatdıracaq". Bu vaxt Peyğəmbər onlara yaxınlaşıb dedi: "Mən sizin nə danışdığınızı bilirəm" və onların dediklərini təkrar etdi. Haris və Əttab buna məəttəl qalaraq dedilər: "Şəhadət edirik ki, sən Allahın Elçisisən! Allaha and olsun, bizlərdən heç birimiz sənə bu haqda xəbər verə bilməzdik!"[267]

İbn İshaq qeyd edir ki, Peyğəmbərin Məkkəni fəthinin ertəsi günü bir xüzaəli Hüzeyldən olan bir bütpərəsti öldürmüşdü. Allahın Elçisi bunu bilib dedi: "Ey insanlar! Allah-Təalə göyləri və yeri yaratdığı gün Məkkəni müqəddəs qıldı. Məkkə Qiyamət gününə qədər müqəddəs olaraq qalacaq. Allaha və Qiyamət gününə inanan orada qan tökməməli, ağac kəsməməlidir...".[268]

---

[267] İbn Hişam, yenə orada, IV kitab, s. 676-677.

[268] Əhməd. Əl-Musnəd, IV. 32, VI, 385; Əbu Davud. Əd-Diyət, IV, 4504; Tirmizi. Əd-Diyət, IV, 1406; İbn Hişam, yenə orada, s. 678.

İbn Hişamın qeyd etdiyinə görə Peyğəmbər Məkkəni fəth etdikdən sonra Kəbəni təvaf edərkən Fəzalə ibn Ümeyr ibn əl-Muləvvih əl-Leysi onu öldürmək istəmişdi. O, Peyğəmbərə yaxınlaşanda Allahın Elçisi ondan soruşur: "Sən Fəzaləsən?" "Bəli, ya Rasuləllah" cavab vermişdi. Peyğəmbər (s): "Ürəyində nə götür-qoy edirsən elə"? Fəzalə: "Mən Allah-Təaləni zikr edirdim". Allahın Elçisi gülümsəyib deyir: "Allahdan bağışlanmanı dilə!" Sonra əlini Fəzalənin sinəsinə qoydu, Fəzalənin ürəyi sakitləşdi. Fəzalə deyib: "Allaha and olsun, Peyğəmbər əlini sinəmdən götürən kimi, o, mənim üçün Allahın yaratdığı ən sevimli məxluqa çevrildi".[269]

Məkkənin fəthindən sonra Peyğəmbər məkkəətrafı qəbilələri Allahın yoluna dəvət etmək üçün oralara dəstələr göndərirdi. Xalid ibn Valid isə Tihamənin Cəzimə tayfası üzərinə hücum edib, onlardan bir neçə nəfərini öldürdü. Allahın Elçisi buyurmuşdu ki, yuxumda, yeyərkən tikənin boğazımda ilişib qaldığını gördüm. Əbu Bəkr dedi ki, ya Rasuləllah, Əlini göndər, Xalid ibn Validin səhvini düzəltsin. Peyğəmbər Əli ibn Əbi Talibi (ə) çağırıb dedi: "Ey Əli! Cəzimələlilərin yanına gedib, Xalidin törətdiyi əmələ görə onlardan üzr istə, öldürülənlərə görə onların yaxınlarına qanbahası ödə və orada bütpərəstliyə son qoy! "Sonra o, üzünü Qibləyə tutub, əllərini göyə qaldırıb: "İlahi! Xalid ibn əl-Validin törətdiyi əməldə mənim heç bir günahım yoxdur"- dedi.[270] Peyğəmbər bir neçə gün Məkkədə qaldıqdan sonra öz evinə - Mədinəyə qayıdanda İtab ibn Useydi Məkkəyə vali və pişnamaz təyin etdi. Bununla Peyğəmbər ağsaqqallar qala-qala 20 yaşlı bir gənci vali və pişnamaz təyin etməklə bütün əvvəlki ehtiram və sayqı göstərmələri alt-üst etdi. Yəni yüksək mövqeyə təyin olunmada yaşın çoxluğu deyil, bu işə layiq olan şəxsin olmasıdır. Muaz ibn Cəbəl isə dini işlər üzrə nümayəndə təyin olundu.[271]

---

[269] İbn Hişam, yenə orada, s. 680.

[270] Beyhəqi..Dəlailu-n-nubuvvə,V,. 114-115; İbn Hişam, yenə orada, s. 682-684.

[271] Şahlar Şərifov. İslam tarixi, s. 53

Məkkənin fəthindən sonra müsəlmanlar başqa bir ciddi təhlükə ilə qarşılaşdılar. Həvazin qəbilələri hələ Məkkənin fəthindən əvvəl müsəlmanlar üzərinə böyük yürüş planı hazırlamışdılar. Məkkənin fəthindən iki həftə sonra Həvazin qəbilələri 20 minlik bir ordu ilə Taif ətrafında toplaşdılar. Peyğəmbər 630-cu ilin yanvar ayında 12 minlik bir qoşunla onların qarşısına çıxdı. Həvazin və Səqif qəbilələrinin müttəfiq qoşunlarının komandanı Malik bin Ovf öz süvari birləşmələrini iki ordu arasındakı Huneyn vadisində yerləşdirmişdi. Onlar vadinin hər iki yamacında pusqu qurmuşdular. Soyuq və yağmurlu bir gündə müsəlman ordusunun ön hissələri vadiyə daxil oldu. Onlar vadinin ortasına yetişdikdə qəfil hücuma məruz qaldılar. İslam intizamına hələ tam alışmamış bədəvilər qaçmağa başladılar və müsəlmanlığı yenicə qəbul etmiş qüreyşiləri də onlarla birlikdə qaçmağa sövq etdilər. Vəziyyət ağırlaşdı. İslam ordusunun nüvəsini təşkil edən ənsar və mühacirlər arasına belə, vahimə düşmüşdü. Belə təhlükəli bir anda Peyğəmbər: “Ey ənsar! Ey ölümdən qorxmamağa and içənlər!” deyərək, qılıncını sıyırıb mərəkəyə atıldı. Qaçmağa üz qoymuş müsəlmanlar Peyğəmbərin (s) hərəkətindən ruhlanaraq geri döndülər. Özünü toplayan müsəlman ordusu yenidən hücuma keçdi. Müsəlmanlar Taifin üzərinə yeriyib, onu mühasirəyə aldılar. 14 günlük mühasirədən sonra Taif təslim oldu. Malik bin Ovf əsir düşmüş arvadını və uşaqlarını xilas etmək üçün islamı qəbul etdi. Həvazin qəbilələri birliyinin böyük bir qismi də müsəlmanlığı qəbul etdi.[272]

---

[272] Z.M.Bünyadov. Dinlər, təriqətlər…s. 151.

## Təbuq qəzvəsi haqqında

Peyğəmbərə xəbər gəldi ki, Rum qoşunları Bəlqa yanında toplanıb, müsəlmanlara hücum etmək istəyirlər. Bu orduda Ləxim, Amilə, Qassən və Cəzzam qəbilələri də iştirak edirdilər. Peyğəmbər Şam üzərinə yürüş etmək qərarına gəldi. Yayın istisi, meyvələrin yığılması vaxtı idi, xəzinə isə boş idi. Peyğəmbər adətən yürüşlərinin məqsədini əvvəlcədən deməzdi. Bu dəfə isə o, Təbuq döyüşündəki çətinliklərə görə rumlar üzərinə döyüşə getdiyini elan etdi. Təbuq Suriya sərhədi ilə Hicr və Şam arasında yerləşən bir bulağın adıdır.[273]

Camaatın bir neçə dəstəsi müxtəlif bəhanələrlə döyüşə getməkdən yayındılar. Onlar şəhvətpərəstlər (qadınlarından ayrıla bilməyənlər), münafiqlər[274], ağlayanlar (imkansızlar), məhsul yığanlar və fədakar möminlər idilər. Bəzi möminlər döyüşə gedə bilməsələr də ordunun toplanmasında yaxından iştirak edirdilər, 30000 nəfərə yaxın qoşun yığılmışdı. Təbuq döyüşünədək müsəlmanların ordusunun sayı 30000 olmamışdı. Lakin Təbuqa çatanda rumluların orada olmadıqları aşkar oldu. Bu qəzvə Peyğəmbər həyatda ikən müsəlmanlarla qeyri-müsəlmanlar arasında son qarşıdurma idi. Tarixdə Təbuq yürüşü adlanan bu yürüş elə bir önəmli nəticə vermədən başa çatdı.[275] Bundan sonra bütün Ərəbistan islamı qəbul etdi. Demək olar bütün qəbilələr islama tabe olduqları üçün həmin il "Sənətu-l-vufud" – "həmrəylik, birlik ili" adlandı.[276]

Hicrətin 10-cu ilində, yəni 632-ci ildə islam dini artıq Ərəbistan yarımadasının ən ucqar guşələrinə belə hakim kəsilmişdi.

---

[273] Şahlar Şərifov. İslam tarixi, s. 55

[274] Məqazeyi Vaqidi, c.3, s. 1003.

[275] Z.M.Bünyadov. Dinlər, təriqətlər... yenə orada, s. 151

[276] Şahlar Şərifov. İslam tarixi, s. 49-50, İslam tarixi və təhlillər, Təbuk qəzvəsi bölemü; H.F.Nurullah. İmam Əli (ə), s. 51-54.

Peyğəmbər Allahın ona buyurduğu islam dinini layiqincə təbliğ etmiş, öz risalətini bacarıqla yerinə yetirmişdi. Allahın Elçisi kimi özündən əvvəlki peyğəmbərlərin heç birinə nəsib olmayan bir qüdrət qazanmış Məhəmməd (s) Hicrətin 10-cu ilinin zu-l-qə"də ayının 25-də (632-ci ilin 21 fevralında) özünə cani – dildən bağlı olan 100 minlik səhabə ordusu ilə Həcc ziyarətini əda etmək qərarına gəldi (R. Mürsəlov bu tarixi Hicrətin 10-cu ili, zu-l-hiccə ayının 8-i – 632-ci ilin martında göstərir və qeyd edir ki, Peyğəmbər Mədinədən bütün ailəsi ilə birlikdə ilk və axırıncı dəfə Məkkənin müqəddəs yerlərinə "Böyük Həcc - əl-Həcc əl- Əkbər – tarixə Həccu-l-vida – Vida Həcci kimi daxil olan ziyarətə yola düşdü [277]). Tarixə "Vida Həcci" kimi daxil olmuş bu səfər əsnasında Peyğəmbər öz yaxın səhabələrinə Həccin bütün əməllərini, həcc ziyarətinin qayda-qanunlarını lazımınca öyrətdi. Həcc əsnasında Ərəfatda və Həccdən Mədinəyə qayıdarkən Qədir – xum adlanan yerdə vida xütbəsi söyləyən Peyğəmbər bu tarixi xütbəsində islam dininin gələcək inkişaf yollarını müəyyənləşdirdi, onun parçalanmaması, müsəlmanların təfriqəyə düşməmələri üçün özünün tövsiyələrini bəyan etdi. Peyğəmbər (s) öz xütbəsində müsəlmanların bir-biri ilə qardaş olduqlarını, bir-birlərinin canlarına və mallarına qəsd etməmələrini, qohumluq, ailə tellərinin müqəddəs olduğunu, hər bir müsəlmanın qadınlarla, kölələrlə yaxşı davranmalı, nəzakətlə rəftar etməli olduğunu bildirdi. Onun ümmətə olan ən əsas tövsiyələrindən biri də islamın birliyini göz bəbəyi kimi qoruyub saxlamaq idi. Peyğəmbər həm vida xütbəsində, həm də ölüm yatağında olarkən üzünü bütün ümmətinə və yaxın səhabələrinə tutaraq demişdi: "Ey camaat! Sizin aranızda iki şeyi əmanət qoyub gedirəm, onlardan biri Allahın Kitabı, o biri isə mənim Əhli – beytim, yəni ailəmdir. Onlardan möhkəm yapışın!"

Bir az əvvələ gedərək qeyd edək ki, Peyğəmbər Mədinəyə qayıtdıqdan sonra Bizansa qarşı yeni bir hərbi səfər təşkil etməyi

---

[277] R.Mürsəlov, yenə orada.

qərara aldı. 632-ci ilin may ayının 25-də səfərə hazırlıq başlandı. Ordunun komandanlığı Zeyd bin Harisənin oğlu Üsaməyə tapşırıldı. Hər tərəfdən mücahidlər axışıb Mədinəyə gəlirdi. Bu vaxt Məhəmməd peyğəmbər xəstələndi və bu vəziyyət müsəlmanlar içərisində narahatlığa səbəb oldu. Peyğəmbərin xəstəliyinin gündən-günə şiddətlənməsinə baxmayaraq o, səfərə hazırlıq işləri ilə ciddi maraqlanırdı. Ordu üçün Mədinə yaxınlığındakı əl-Curf adlanan yerdə qərargah qurulmuşdu. Peyğəmbərin xəstəlik nəticəsində gündən-günə zəifləməsi və əldən düşməsi müsəlmanların diqqətini başqa işlərdən yayındırmış, əllərini işdən soyutmuşdu. Onun ölə biləcəyinə inanmayanların sayı çox idi.

Nəhayət, Peyğəmbər ümmətə "Məidə" surəsinin həcc ziyarəti əsnasında nazil olmuş: "Bu gün sizin üçün dininizi kamil etdim, sizə olan nemətimi tamamladım və din olaraq sizin üçün islamı bəyənib seçdim" ayəsini oxudu. Bunula da, Quranın nuzulunun sona yetməsi, Peyğəmbərin dinin təbliği vəzifəsinin başa çatması bəlli olur. Bu ayə oxunan zaman Peyğəmbərin tezliklə Allah dərgahına qovuşacağı aydın olur. Peyğəmbər (s) Hicrətin 10-cu ili Səfər ayının 28-də, başqa bir rəvayətə görə isə, Rabiu-l-əvvəl ayının 12-də canını həmişə intizarında olduğu Rəbbinə tapşırdı, gözlərini əbədi olaraq yumub Allah dərgahına qovuşdu.

Üsamənin komandanlığı altında olan ordu Peyğəmbərin vəfat xəbərini eşidər-eşitməz Mədinəyə döndü. Yüz minlərlə müsəlman öz sevimli Peyğəmbəri ilə vidalaşmaq üçün Ərəbistanın hər tərəfindən Mədinəyə axışırdı. Peyğəmbərin yuyulması, kəfənlənməsi və dəfn işləri ilə Hz. Əli özü məşğul oldu. Peyğəmbərin əmisi Abbas və oğulları ona kömək etdilər. Peyğəmbər gecə vaxtı öz evində, xəstə yatığı yerdə dəfn edildi. Əvvəlcə kişilər, sonra qadınlar, daha sonra isə uşaqlar meyit namazı qıldılar.

Beşikdən qəbrədək sadə həyat tərzi keçirmiş, gündüzlərini, gecələrini xeyirli işlərə və ibadətə həsr etmiş Məhəmməd peyğəmbər bütün insanlara dünyada və axirətdə xoşbəxt olmağın yollarını

göstərmişdir. O, ümmətə tövsiyə etdiyi əməlləri əvvəl özü yerinə yetirib, yüksək əxlaq nümunəsi nümayiş etdirmişdi. Peyğəmbərin qəlbi bəşəriyyətə məhəbbət, insana sevgi hissləri ilə dolu idi. Allahın bu Elçisi o qədər mərhəmətli idi ki, həmişə əlində olanı yoxsullara verər, bəzən özü ac qalardı. Peyğəmbərimiz uşaqları çox sevər, onları qucağına alıb oxşardı. Günlərin birində, bir ərəb, Peyğəmbərin bir uşağı qucağına alıb öpdüyünü görmüş və təəccüblə: "On uşağım var, heç birini öpməmişəm" demişdi. Peyğəmbər isə ona: "Mərhəmət etməyənə mərhəmət olunmaz" – deyə cavab vermişdi. Nəvələri Həsən və Hüseyn oynayarkən namaz qılan babaları Məhəmmədin çiyinləri üzərinə çıxırlar. Peyğəmbər səbrlə onların düşmələrini gözləyib, sonra ibadətini davam etdirir.

Peyğəmbər son dərəcə təvazökar idi, kasıbla varlıya fərq qoymazdı, yoxsul bir adam onu bir iş üçün dəvət etsə idi, gedərdi. O, tez-tez kasıbların evlərinə gedib onlardan hal-əhval tutar, məclislərdə heç kəsin onun üçün ayağa qalxmasına razı olmaz, buna görə də məclislərə gecikməz, vaxtında ora gedərdi. Xəstələri yoxlayar, onların şəfa tapmaları üçün dua edərdi. Məclisə, izdihamlı yerə getdiyi zaman harada boş yer görsə, orada oturar, yuxarı başa dəvət edilməsini sevməzdi. Paltarını, çəkməsini özü yamayar, lazım olan şeyləri bazardan özü alar, başqasına yük olmazdı. Peyğəmbərimiz qonağı çox sevər, ona özü xidmət edərdi. O, müsəlman olmayan qonaqlarla da belə davranardı. Günlərin birində, bir nəfər onu ziyarətə gəlmiş, hüzuruna daxil olduqda titrəməyə başlamışdı. Bunu görən Peyğəmbər (s): "Dostum, titrəmə. Mən ki, hökmdar deyiləm, quru çörək yeyən bir qüreyşli qadının oğluyam" – deyib onu sakitləşdirmişdi.

Peyğəmbərin yaşayışı çox sadə və təmiz idi. O, daim təmiz geyinər, bədənini təmiz saxlayardı. Gündə bir neçə dəfə dişlərini yuyar, ətirlənməyi çox sevərdi. Səhabələrinə də təmizkar olmağı, məscidə, ictimai yerlərə təmiz getməyi tövsiyə edərdi. Az yeyər, süfrədən doymamış durardı. Məclisdə olduqda isə hamının doyun-

ca yeməsinə imkan vermək üçün süfrədən əlini hamıdan axırda çəkərdi.

Məhəmməd insanların ən comərdi idi. Özündə olan bir şeyi ehtiyacı olan kimsəyə verməyə hazır idi. İmkanı olan yerdə heç kəsi əliboş qaytarmazdı. Ona təşəkkür edən möhtaclara: “Mən ancaq paylayanam, verən Allahdır” – deyərdi. Bununla belə, o, dilənçiliyi sevməz, dilənçilərə işləyib qazanmağın yollarını göstərərdi. O, heç kimin qəlbini qırmaz, heç kəsi təhqir etməz, heç kəsə pis söz deməz, heç yerdə öz böyüklüyünü büruzə verməzdi. O, intiqam almağı sevməz, bağışlamağı sevərdi. Ona yaxşılıq edənlərin yaxşılığını isə heç vaxt unutmaz, daim minnətdarlıqla yadında saxlayardı. Peyğəmbər özündən yaşlılara ehtiram göstərər, özündən kiçiklərə isə mərhəmət və şəfqətlə yanaşardı.

Peyğəmbər tərkidünyalığı, tənbəlliyi, boş-boşuna oturmağı sevməz, həmişə bir işlə məşğul olardı. O, Mədinə məscidinin tikintisində də cani – dildən çalışmışdı.

Məhəmməd həm də gözəl ailə başçısı idi. Zövcələri ilə son dərəcə nəzakətli davranar, ev işlərində onlara kömək edərdi. O, tez-tez ümmətinin kişilərinə deyərdi: “Sizin ən xeyirliniz qadınları ilə ən yaxşı davrananızdır”. Qurani-Kərimdə “usvə hasənə” (gözəl örnək) adlandırılan Məhəmmədin həyatı, ibadəti, yaşayış tərzi, parlaq şəxsiyyəti təkcə müsəlmanlar üçün deyil, bütün bəşəriyyət üçün kamil insan, gözəl əxlaq nümunəsidir. Məhəmməd Xədicənin sağlığında başqa bir qadınla evlənməmiş, ömrü boyu bu sevimli zövcəsini dərin hörmət və ehtiramla yad etmişdi. Lakin Xədicədən sonra Məhəmməd bir sıra qadınlarla evlınmişdi ki, onlar aşağıdakılardır: Saudə (Sevda), Aişə, Həfsə, Zeynəb bintu Həzimə, Zeynəb bintu Cəhş, Ummu Sələmə, Cuveyriyə bintu-l-Haris, Meymunə bintu-l-Harisi-l-Hilaliyyə, Ummu Həbibə, Səfiyyə, Mariyə Qıbtiyyə, Aişə Əbubəkr qızı, Həfsə Ömər qızı, Ummu Həbibə isə Əbu Süfyanın qızı idi. Bu zövcələrinin içərisində Peyğəmbərin yalnız Mariyə Qıbtiyyədən İbrahim adlı oğlu olmuş, o da çox körpə ikən

vəfat etmişdir. Peyğəmbərin (s) 50 yaşdan sonra etdiyi bu izdivaclardan məqsədi qeyri-obyektiv şərqşünasların və islamşünasların iddia etdikləri kimi, keyf, əyləncə, şəhvət, ehtiras deyil, müxtəlif ərəb qəbilələri arasında birlik yaratmaq, düşmən qüvvələri neytrallaşdırmaq, döyüşlərdə həlak olmuş müsəlmanların uşaqlarını və dul qadınlarını başsız qoymamaq, islam dininin hökmlərini, şəriət qayda-qanunlarını qadınlara daha yaxşı başa salmaq, Cahiliyyət dövrünün bəzi zərərli adətlərini aradan qaldırmaq və başqalarına da nümunə göstərmək idi. Əgər Peyğəmbərin bu izdivacları keyf, əyləncə, şəhvət xatirinə olsa idi, o, bunu cavan vaxtlarında, gəncliyinin qızmar çağlarında edərdi.

Məhəmməd peyğəmbər Allahın bəşəriyyətə göndərdiyi son dinin, son səmavi Kitabın təbliğatçısı və peyğəmbərliyin axırıncısıdır. Onun adı Quranda bir dəfə Əhməd və dörd dəfə Muhamməd kimi vəsf edilmişdir.

Əslində islam "yeni" bir din deyildir. "Allah yanında haqq olan din islamdır" buyuran Quranın hökmünə görə islam Haqq-Təalənin ilk peyğəmbərdən etibarən öz elçiləri vasitəsi ilə yayılmış, onun təbliği kəmalə yetmişdir. İslam bütün dövrlərin və zamanların tələbinə, ehtiyacına cavab verən ilahi bir dindir. Qurani-Kərimdə xəbər verildiyi kimi, Məhəmməd yalnız ərəblərə deyil, bütün insanlığa peyğəmbər göndərildiyi üçün o, Allahın bu müqəddəs dinini təkcə Ərəbistan yarımadasında təbliğ etməklə kifayətlənməmiş, Həbəşistan, Misir hökmdarlarına, İran şahına, Bizans imeratoruna və başqa dövlət başçılarına məktublar göndərərək, onları böyük bir əzmlə islama dəvət etmişdir. Bu baxımdan Məhəmməd peyğəmbərin (s) diplomatik missiyası müasir dövrdə də xüsusi əhəmiyyətə malikdir.[278]

Camaatın əksəriyyəti səmimi qəlbdən iman gətirib, anladı ki, şirk və bütpərəstliyin aqibəti Cəhənnəmdir. Quranda göstərilməmiş və ibadətlərlə bağlı olan bir sıra tədbirlər ənənə şəklini aldı. Qara

---

[278] Z. M. Bünyadov. Dinlər, təriqətlər...s. 150 - 154

daşı öpmək, Kəbəni təvaf etmək, Mina vadisində Şeytana daş atmaq, qurban kəsmək, imkanı olan insana heç olmazsa ömründə bir dəfə həcc ziyarətini etməyin fərz buyurulması Məkkəni, müsəlmanları birləşdirən bir müqəddəs yer kimi qəbul etdirdi.[279]

Yekun olaraq qeyd edək ki, Allahın axırıncı - mükəmməl dinini - islamı bəşəriyyətə çatdırmaq üçün müvəkkil edilən Məhəmməd, yuxarıda qeyd edildiyi kimi, Əbdülmüttəlibin kiçik oğlu Abdullah və onun arvadı Əminənin yeganə övladı idi. Onun ulu babası Haşim ibn Əbdülmanaf isə hələ beşinci əsrdə Kəbə ətrafında məskən salmış Küseyyin nəvəsi idi. Uşaqlıqdan atası, sonra da anasından yetim qalan Məhəmmədi babası Əbdülmüttəlib, o da vəfat edəndən sonra əmisi - Əlinin atası Əbu Talib himayə etmişdi. 25 yaşında ikən dul qadın Xədicənin ticarət karvanına başçılıq edən Məhəmməd əmisinin tövsiyəsi ilə onunla evlənir və ondan bir neçə uşağı olsa da, ancaq bir qız övladı - Fatimə qalır.

[279] Dinlər, təriqətlər...yenə orada

## Əhli-beyt haqqında

Vida Həccindən sonra, yuxarıda qeyd edildiyi kimi, Peyğəmbər, ömrünün sonunun yaxınlaşdığını bilirdi. Ona görə də o, müsəlmanlara “Sizə biri Allahın Kitabı, digəri Əhli-beytim olmaqla iki ağır əmanət qoyub gedirəm” deyə vəsiyyət etmişdi. Bəziləri istisna olmaqla, müsəlmanlar Əhli-beytə hörmət göstərmiş və dini dünyagörüşlərində bu irsdən faydalanmışlar. Əhli-beyt irsi bütün əsas islam elmlərinin inkişafında mühüm rol oynamışdır. Kəlam, fiqh, təfsir və təsəvvüf başda olmaqla müxtəlif sahələrin alimləri öz elmi fəaliyyətlərində başda Hz.Əli olmaqla Əhli-beyt imamlarının dərin elm xəzinəsinə müraciət etmişlər. Bu, təkcə dini elmlərə deyil, dil, ədəbiyyat, kimya və fəlsəfəyə də aiddir. Məsələn, ərəb nəhvinin əsasını qoyan Əbu-l-Əsvad əd-Duali (v. 688) Hz.Əlinin (ə) əshabından olmuş və birbaşa özü nəhvlə əlaqəli bilikləri ondan öyrəndiyini qeyd etmişdir. Orta əsrlərdə kimya elminin ən məşhur alimlərindən olan Cabir ibn Həyyan isə İmam Cəfəri Sadiqin (ə) tələbəsi olmuş və bildiyi bütün bilikləri “hikmətin mənbəyi” kimi qiymətləndirdiyi bu Əhli-beyt imamından aldığını söyləmişdir. Əhli-beyt imamlarının Allahın varlığına inanmayan dəhrilərlə (kainatın əzəli olub heç kim tərəfindən yaradılmadığına inananlar, Musa peyğəmbər dövründə materializm fəlsəfəsinə yaxın olanlar) və islamın haqq dini olduğunu qəbul etməyənlərlə fəlsəfi xarakterli polemikaları onların düşüncə sahəsində nə qədər dərin biliklərə malik olduğunu göstərir.

Əhli-beytin qeyd olunan yüksək dəyəri səbəbilə məzhəbindən asılı olmayaraq bütün alimlər Hz. Peyğəmbərin bu əmanətinə böyük hörmət və sevgi bəsləmişlər. Şafeinin aşağıdakı sözləri bu hörmət və sevgini ifadə etmək üçün kifayətdir:

“Ey Allahın Elçisinin Əhli-beyti! Sizə sevgi bəsləmək Allahın nazil etdiyi Quranda fərz buyurulub. Sizin dəyərinizin ucalığı üçün təkcə bu kifayət edər ki, namazda sizə salam göndərməyənin namazı düzgün olmaz”.

Əbu Hənifə də iki il İmam Cəfəri Sadiqdən dərs almış və “Bu iki il olmasa, Numan həlak olardı” deyərək Əhli-beyt irsinin əhəmiyyətini vurğulamışdır.[280]

Azərbaycan əhalisi məzhəbindən asılı olmayaraq tarix boyu Əhli-beytə sevgi bəsləmiş, əsrlərlə təqiblərə məruz qalmış bu mübarək ailənin nümayəndələrinə öz ağuşlarını açaraq, onları düşmənlərindən qorumuşlar. Bu gün ölkəmizdə başda imam övladları olmaqla, Əhli-beyt nəslinə mənsub çox sayda ziyarətgahın mövcudluğu bu fikrin doğruluğunu təsdiqləyir. Üstəlik Əhli-beyt mənsublarının Azərbaycana pənah gətirməsi həm sünni, həm də şiə xanədanlıqları tərəfindən idarə olunan dövrlərə təsadüf edir. Deməli, Əhli-beyt, məzhəbindən asılı olmayaraq bütün Azərbaycan müsəlmanlarını birləşdirən bir dəyər olmuşdur.[281]

Azərbaycan xalqı istər Əməvilər, istərsə də Abbasilər dövründə işgəncə görən, təhqirlərə məruz qalan Əhli-beyt mənsublarına və tərəfdarlarına qucaq açmışdır. Bu xalq Hz. Peyğəmbərə onu görmədən iman gətirmiş, Vida xütbəsinə birbaşa qulaq asmadan onun vəsiyyətlərinə əməl etmişlər. Onlara pənah gətirən Əhli-beytə sahib çıxmış, nəyin bahasına olursa-olsun onları düşmənə təhvil verməmişlər. Əslində bu xalq Hz. Peyğəmbərin (s) görmək arzuladığı qardaşlarıdır. Necə ki, Allahın Rəsulu buyurmuşdur:

---

[280] Vasim Məmmədəliyev. “Azərbaycan və Əhli-beyt irsi” məqalələr toplusu. Bakı—2013, s. 10-11

[281] Aqil Şirinov. Azərbaycanda tolerantlıq mühitinin formalaşmasında Əhli-beyt irsinin rolu. Azərbaycan və Əhli-beyt irsi məqalələr toplusu, Bakı—2013, s. 21

“Məni görmədikləri halda mənə inanan qardaşlarımı görmək çox istərdim”.[282]

Quranda Əhli-beytə birbaşa aid olan ayə Əhzab surəsindədir: “...Ey Əhli-beyt, Allah sizdən hər cür əskikliyi (qüsuru) aradan qaldırıb, sizi tər-təmiz etmək istər” (Əhzab, 33\ 33). Fikrimizcə buna şərh artıqdır.

Hədislərdə isə Əhli-beytə sevgi haqda küllü miqdarda deyimlər var. Hz. Əlinin dediyinə görə Hz. Peyğəmbər belə buyurub: “Zaman qalmayıb, (axır zamana) bir gün qalsa belə Allah-Təalə mənim Əhli-beytimdən (dünyanı) əhatə etmiş ədalətsizlik kimi (dünyanı) ədalətli bərqərar edəcək bir nəfər göndərəcək”[283].

Peyğəmbər demişdir: “Sizi nemətlərilə ruziləndirdiyinə görə Allahı, Allahı sevdiyinizə görə məni, məni sevdiyinizə görə isə Əhli-beytimi sevin”.[284]

Yəməndən qayıdarkən Hz. Əlidən Peyğəmbərə şikayət etdilər. Peyğəmbər dedi: “Mənə əziyyət etdiniz”. Onlar: “Sənə əziyyət etməkdən Allaha sığınırıq, ya Rasulə-l-Lah” dedilər. Peyğəmbər isə: “Kim Əliyə əziyyət etsə mənə əziyyət etmiş olar” - buyurdu.”[285]

Peyğəmbər buyurmuşdur: “Nəfsim əlində olan Allaha and olsun ki, biz Əhli-beytə ancaq Cəhənnəmə girəcək insanlar nifrət edər”.[286]

Ənəs ibn Malik demişdir ki, Rəsulullahdan “Əhli-beytindən sənə ən sevimlisi kimdir” soruşulduqda o, buyurmuşdu: Hz. Həsən və Hz. Hüseyn, sonra o, Hz.Fatiməyə uşaqları gətirməyi tapşırdı. Onları qoxladı və bağrına basdı.”[287]

---

[282] Aslan Həbibov. Əli və Nino romanında Əhli-beyt. Azərbaycan və Əhli-beyt irsi, s. 287

[283] Əbu Davud. Mehdi, 3734

[284] Hakim ən-Nişapuri. Əl-Mustədrək

[285] İbn Hənbəl. Əl-Müsnəd.

[286] Hakim əl-Nişapuri. Əl-Mustədrək

[287] Tirmizi.Mənaqib, 3705...

Əhli-beytlə bağlı “Kisa hədisi” - “Ali-əba” hədisi də vardır. Bəziləri Ummu Sələmə, bəziləri isə Aişənin evində olarkən Peyğəmbərin yanına Hüseyn, Həsən, Fatimə xanım və Hz. Əli kiçik fasilələrlə gəlirlər. Peyğəmbər onlara bir-bir əbasının altına daxil olmağa icazə verir və sonra deyir: “Allahım, bunlar mənim Əhli-beytimdirlər. Onlardan hər cür qüsuru aradan qaldır və onları tər-təmiz et”.[288]

Vida Həccindən üç ay sonra - 632-ci ilin iyununda Peyğəmbər (s) vəfat etdi, onu Mədinədə öz evində dəfn etdilər.

Peyğəmbərin vəfatından sonra, Vida həccindən qayıdarkən, Qədir xumda, onun əvvəllər də elan etdiyini (Allahın əmri olduğu üçün) - açıq-aydın Əli ibn Əbi Talibi öz vəsisi və xələfi elan etməsini qətiyyətlə bildirməsinə baxmayaraq, Əlinin Peyğəmbərin dəfni və yas mərasimi ilə məşğul olduğundan o, xəlifəlik sırasında dördüncü yerdə qaldı. Bu haqda Füzulinin “Kərbəla vaqiəsi” və Yılmaz İldırımın “Kərbəla müsibəti” kitablarında məlumat vardır. Əbu Bəkrin xəlifə olmasına başda Əli ibn Əbi Talib olmaqla Haşimioğulları etiraz edib, ona beyət etməkdən imtina etdilər. Peyğəmbərin vəfatını fürsət bilən qəbilələr zəkat verməkdən imtina etdilər. Mərkəzi hakimiyyəti tanımayan bu qəbilələrlə yanaşı, Müseyləmə kimi yalançı peyğəmbərlər də ortaya çıxmağa başladı. Bir tərəfdə Mədinədə pərakəndəlik, digər tərəfdə dindəndönmə halları islam dövlətinə qarşı fürsət gözləyənlərin həvəslənməsinə səbəb oldu. Vəziyyətə tez bir zamanda müdaxilə edilməsə, bunun çox ağır nəticəsi ola bilərdi. Əli (ə) və Haşimioğulları Peyğəmbərin (s) vəfatından sonra qarışıqlıq düşməsin və islamın birliyinə xələl gəlməsin deyə aralarındakı ixtilafı bir kənara qoyub, müsəlmanların ümumi mənafeyi üçün birlikdə hərəkət etməyə qərar verdilər. Müsəlmanların həmrəyliyi sayəsində islam dövləti böyük bir təhlükəni dəf edə bildi. Əli ibn Əbi Talib və Haşimioğullarının bu

[288] Tirmizi.Təfsiru-l-Quran, 34

hərəkəti müsəlmanların vəhdəti baxımından böyük əhəmiyyət kəsb edirdi.

Peyğəmbərin vəfatından az sonra, onun vəsiyyətini unudub, onun sevimli qızı, Peyğəmbərin dünyanın dörd ən ali dünya qadınları adlandırdığından biri olan Fatimə xanımı incitməyə başladılar. Peyğəmbərin ona bağışladığı Fədək bağlarını ondan aldılar, özünə fiziki əziyyət verdilər, qapı arxasında sıxarkən mismar onun sinəsinə batdı və o, bu zülmlərə dözməyib, Peyğəmbərin (s) vəfatından altı ay sonra (bəzi mənbələrdə 75 gündən sonra), 18 yaşında vəfat etdi. Onu atası Peyğəmbərin yanında dəfn etməyə də qoymadılar. Onu daim təqib elədiklərinə görə, onun qəbrinə pislik olunacağından qorxaraq, Hz. Əli Fatimeyi Zəhra üçün bir neçə yerdə qəbir qazdı ki, onun harada dəfn olunduğu bilinməsin. İndi də Peyğəmbərin sevimli qızının qəbrinin harada olduğu dəqiq bəlli deyil. Deyilənlərə görə, Mədinədəki Bəqi qəbristanlığında onun ehtimal olunan qəbrinin üstünə indi də həmişə mazut tökürlər. Bu, çox güman Fatimeyi Zəhranı sevməyənlərin işidir.

# II FƏSİL

## Raşidi xəlifələr dövrü

### I xəlifə Əbubəkr

Erkən islam tarixini “Raşidi” xəlifələrsiz yazmaq düzgün olmaz. Raşidi xəlifələr dövrü cəmi 29 il müddəti əhatə edir. Mənbə və ədəbiyyatda Raşidi xəlifələrin sayı 4 göstərilir. Şahlar Şərifov İmam Həsəni də Raşidi xəlifələr sırasına daxil edərək, onların sayının beş olduğunu göstərir.[289]

I Raşidi xəlifə Əbubəkr haqqında “İslam Ensiklopedik lüğət”-ində yazılır: Əbubəkr əs-Sıddıq Abdullah (əl-Atiq) ibn Usmən, doğum ili təxminən 572-ci il. Deyilənlərə görə varlı Məkkə taciri olan Əbubəkr islamı birinci qəbul edən adamdır (Bu fikri Peyğəmbərin arvadı Xədicəyə, Əli ibn Əbi Talibə və başqalarına da aid edirlər. Başqa mənbələrdə isə onun islamı sonra qəbul etdiyi qeyd edilir). O, Məhəmmədin dostu, onun Yəsribə hicrətinə qədər müsəlman icmasına daim kömək edən adamdır. Hicrət vaxtı Peyğəmbəri müşayiət etmiş, təqibçilərdən Məkkə yaxınlığındakı mağarada onunla birlikdə gizlənmişdir. Deyilənlərə görə Peyğəmbər Hz.Əlini öz yatağına uzadıb, Yəsribə getmək istərkən qapını açdıqda Əbubəkrlə rastlaşır və onu Məkkədə qoymaq istəməyib, onu da özü ilə Yəsribə aparır. Yəsribdə o, Məhəmmədlə daha çox yaxınlaşıb, azyaşlı qızı Aişəni ona ərə vermişdir. (Şahlar Şərifov onun əsl adının Əbdüluzza və ya Əbdül Kəbə olduğunu qeyd edir. İslamiyyətdən sonra Peyğəmbər onun adını dəyişərək Abdullah qoymuşdur, Əbubəkr isə onun künyəsidir. Şahlar Şərifov. İslam

[289] Şahlar Şərifov. İslam tarixi, s. 67

tarixi, s. 67). O, Peyğəmbəri bütün səfərləri və hərbi yürüşlərində müşayiət etmiş, lakin özü 631-ci ilin həcc mərasimi sayılmasa bir dənə də siyasi və ya hərbi hərəkata başçılıq etməmişdir. Müsəlman mənbələri onu yumşaq və mənsəbpərəstliyi sevməyən (?) bir adam kimi qələmə verirlər. Rəvayətə görə Peyğəmbər xəstələnəndə Əbubəkri namaza başçılıq etməyə təyin etmişdir, bəzi rəvayətlərə görə hətta bunda israr etmişdir və Peyğəmbərin vəfatından sonra Əbubəkr guya təsadüfən icmanın başçısı olur. (Peyğəmbərin vəfatından sonra ənsarlar və mühacirlər Səqifə eyvanına toplanıb, onun yerinə İslam dövlətinə başçılıq edəcək adamı seçməyi müzakirə etməyə başladılar. Ənsarlar dedilər ki, İslam dövlətinin başçısı bizdən seçilməlidir. Çünki məkkəlilər Peyğəmbərə olmazın zülm edib, onu Yəsribə hicrət etməyə vadar etdilər. Bəziləri isə: "Bir nəfər sizdən, bir nəfər bizdən hakim seçilsin" dedilər. Əbubəkr isə dedi ki, belə bir addım müsəlmanların birliyinə ziyandır. Peyğəmbər Qüreyşdən olduğu üçün İslam dövlətinin başçısı da qüreyşli olmalıdır və onun "İmamlar Qüreyşdəndir" hədisini söylədi, bunun böyük təsiri oldu. Şiəlik məzhəbinə görə Peyğəmbərin (s) dediyi kimi, imamlar 12 nəfərdir, onların birincisi Hz. Əli, on ikincisi isə Mehdi - Sahibuzzamandır). Həm də başçı ənsarlardan olsaydı Mədinədəki Övs və Xəzrəc qəbilələri arasında yenidən toqquşmalar baş verəcəkdi. Və bu deyilənlərə görə ənsarlar iddialarından əl çəkdilər və başçının Qüreyşdən seçilməsinə razılıq verdilər) [290]. Ömər ibn Xəttab Əbu Ubeydə əl-Cərrahla Əbubəkrə beyət edib, hamını beyət etməyə çağırır, (bəzilərini çıxmaqla), məclisdəkilərin əksəriyyəti Əbubəkrə səs verir.[291] Ertəsi gün Peyğəmbər məscidində Ömər Əbubəkrin fəzilətləri haqda böyük bir xütbə oxuyub, camaatı ona beyətə səslədi. Peyğəmbərin yaxın qohumları və ənsarların bir dəstəsindən başqa qalanları Əbubəkrə səs verdi və o, islamın ilk xəlifəsi seçildi.

[290] Şahlar Şərifov. İslam tarixi, s. 68
[291] İslam. Ensiklopedik lüğət. Bakı, 2013, s. 105-106

Məlum olduğu kimi, öz qəbilələrinin müqəddəratını həll etməyə çalışan bir dəstə şeyx qorxu və tamahdan islamı qəbul etmişdilər. Onlardan bəziləri Peyğəmbəri görmüş, bəziləri isə onu heç görməmiş, onun dediklərindən və islam şəriətindən də xəbərsiz idilər. Bəzi qəbilələr islamın vacib qanunlarından sayılan zəkatı vermək istəmirdilər. Peyğəmbərin vəfatından sonra onlar baş qaldırıb, islamın əmrlərindən çıxmağa başladılar. Məkkədəki Qureyş, Taifdəki Səqif qəbilələri islama sədaqət göstərdilər. Peyğəmbərin vəfat xəbəri Məkkəyə çatdıqda Məkkə hakimi İtab ibn Useyd qorxusundan qaçıb gizləndi. Məkkə əhlinin də dindən dönəcəyindən hamı qorxurdu. Bu vaxt Süheyl ibn Əmr Kəbə qarşısında dayanıb dedi: “Ey Məkkə əhalisi! Məbada, siz sonuncu müsəlman və ilk olaraq dindən üz döndərənlərdən olasınız! And olsun Allaha ki, islam dininin işləri düzələcək. Peyğəmbərin vədi yerinə yetəcəkdir.” Süheylin bu çıxışı Məkkə əhlinin islamdan uzaqlaşmasının qarşısını aldı. Bu həmin Süheyl idi ki, Hüdeybiyyə sülhü imzalananda “Rəhman” sözünü müqavilədən çıxarmışdı. Lakin sonra dərk etmişdi ki, yeni dinin qarşısında müqavimət göstərmək faydasız və imkansızdır. Bəzi qüreyşlilər imanlı müsəlman olmuş, qəbilə başçılarının çoxu xeyirlərini müsəlmançılıqda görüb, xəlifə ilə həmkarlığa üstünlük vermişdilər. Nəcd, Yəmamə və Bəni - Təğlib qəbilələri isə yalançı peyğəmbərlərin ətrafına toplaşdıqdan sonra bu “peyğəmbərlərin” fəaliyyəti daha da artmışdı. Dindən dönənlərin hər an Mədinəyə hücumu gözlənilirdi. Bunları nəzərə alan xəlifə, Usamənin qoşununu Mu”təyə göndərdi (Peyğəmbər ömrünün son günlərində bunu etmişdi, onlar onun xəstəliyinin şiddətləndiyini eşidib Mədinəyə qayıtmışdılar). Usamənin qoşunu yola salındıqdan sonra müsəlmanlar iğtişaşları bir-bir yatırmağa başladılar. Peyğəmbərlik iddiasında olan Tuleyha ibn Xuveylid, Səcah, Museyləmətu-l-Kəzzab, Əsvadu-l-Ans və başqaları ya tutuldular, ya da qaçıb canlarını qurtardılar. Cənub və şərq tərəfdəki şəhər və qəbilələr yenidən Mədinəyə tabe oldular, Hadramaut sa-

kitləşdi, Yəmən kiçik müqavimətdən sonra təslim oldu. Qalmaqallar yatırıldıqdan sonra bədəvilər və qəbilə başçıları başa düşdülər ki, müqavimət göstərməyin və daxili münaqişələrin mənası yoxdur, islam hökumətinə tabe olmaları onların xeyirlərinədir. Böyük çətinlik və Hz. Əlinin də köməyi ilə Riddə hadisələri müsəlmanların xeyrinə, birinci xəlifənin qələbəsilə başa çatdı.[292]

Əbubəkr iki illik xəlifəliyi dövründə İran Sasani imperiyasının əlində olan İraqı, sonra Şam, Şəttü-l-ərəb, Hirə və başqa yerləri Musənnə, Xalid ibn Valid və başqa sərkərdələrin köməyi ilə tutdu. Xalid Hirəni tutduqdan sonra onları ildə 190 min dirhəm cizyə verməyə məcbur etdi. Bundan sonra ətrafdakı qəbilə rəisləri Hirəyə gəlib təslim oldular və vergilər təsbit olduqdan sonra xəlifə Xalid Zirar ibn Əzvarı, Zirar ibn Xəttabı, Kaka ibn Əmri və Musənnə ibn Harisi Dəcləyə qədər İrana aid olan torpaqlara vali təyin etdi. Sonra Xalid İranın Ənbar şəhərinə hücum edib onu tutdu. Sonra bəzi ərəb əsgərlərinə başçılıq edən Aqqa ilə döyüşdə onu məğlub edib xeyli əsir götürdü və əsirləri Aqqa ilə birlikdə soyuqqanlıqla edam etdirdi. Xalid ibn Valid İyaz ibn Qənəmə kömək etmək məqsdilə Dum"ətu-l-Cəndələ gəldi və burada xristian ərəb sərkərdəsi Ukeydir ibn Əbdülməlikin sülh istəməsinə baxmayaraq onu qətlə yetirdi.[293] (Peyğəmbər heç vaxt belə etməmişdi).

Əbubəkrin Bizansa qarşı mübarizəsi isə Yərmuğda baş verdi. O, Xalid ibn Validi İraqı tutmağa göndərdikdən sonra Şam və ətrafı üçün ayrı bir ordu hazırladı. Bu orduya Əmr ibn As, Yezid ibn Əbi Süfyan, Əbu Ubeydə əl-Cərrah və Şurahbil ibn Həsənə başçı təyin edildilər. Bunlardan ilk üçü qüreyşli, Şurahbil isə Qəhtanlı idi. Qələbə qazanılarsa Əmr ibn As Fələstinə, Yezid ibn Əbi Süfyan Şama, Şurahbil isə İordaniyaya vali təyin olunacaqdılar. İslam ordusunun Şama doğru hərəkət etdiyini öyrənən Bizans imperatoru Herakli Suriyadakı Homsa gələrək döyüş hazırlığına başladı. İslam

---

[292] Şahlar Şərifov. İslam tarixi, s. 69-70
[293] Şahlar Şərifov. İslam tarixi, s. 69-71

ordusuna dörd sərkərdənin başçılıq etdiyini öyrənən Herakli onları ayrı-ayrılıqda məğlub edəcəyinə ümid edirdi. Onun Şam, Cəzirə və Ərməniyyədən topladığı orduya Teador başçılıq edirdi. İslam ordusunu məğlub etmək istəyən bizanslılar döyüş yeri olaraq Yərmuğu seçdilər. Müsəlman ordusu Yərmuğa doğru hərəkətə başladı. Əbubəkr də Xalid ibn Validə Musənnə ibn Harisi İraqda öz yerinə qoyub, Yərmuğa getməyi əmr etdi. Yərmuğa gələn Xalid islam ordusunun baş sərkərdəsi oldu. 634-cü ildə baş verən döyüşdə çətinliklə də olsa müsəlmanlar qalib gəldilər. Bizans ordusunun məğlub olduğunu bilən Herakli "Əlvida Suriya, əbədiyyən əlvida" deyib Suriyanı əbədi tərk etdi. Döyüş vaxtı Xalid ibn Valid Əbubəkrin vəfat etməsi, Ömər ibn Xəttabın xəlifə olması və onun yerinə Ubeydə ibn Cərrahı ordu başçısı təyin etməsi xəbərini eşitsə də orduda parçalanma olmasın deyə, xəbəri orduya qələbədən sonra açıqlamışdı.[294]

Peyğəmbərin vəfatından sonra çoxlu lazımlı-lazımsız döyüşlər aparıldı, qanlar töküldü, özgə torpaqları tutuldu. "İslam dininin qanunlarına görə müsəlman şəxs özündən başqa adamlara və digər xalqlara zülm etməməlidir. Başqasını öldürmək, torpağını işğal etmək günahdır".[295] Az sonra Azərbaycanın da işğalı haqda məlumat veriləcək.

"...Və Əbubəkr gəldi" kitabının müəllifi Misir alimi Xalid Məhəmməd Xalid (1920-1996)[296] öz əsərini Peyğəmbərdən sonra birinci xəlifə olmuş Əbubəkrə həsr etmişdir. Kitabdan bir parçanı təqdim edirik: Peyğəmbərin qızı Fatimə ilə əmisi Abbbas Əbubəkrin yanına gəlib, Peyğəmbərin Fatiməyə bağışladığı, Peyğəmbərin vəfatından az keçmiş ondan alınan Fədək bağının ona qaytarılmasını xahiş edirlər. Əbubəkr Fatimə və Abbasa deyir:

---

[294] Şahlar Şərifov. İslam tarixi, s. 72

[295] Rəhman Salmanov. Quran əhvalatları. Bakı, 2015, s. 67

[296] Kitabın ərəbcədən tərcüməçisi, redaktoru və ön söz yazanı fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədovdur. Bakı, 2013

- Peyğəmbərin belə dediyini eşitmişəm: "Biz peyğəmbərlər miras buraxmırıq. Qoyub getdiyimiz hər şey sədəqə sayılır". - Və mən, Allaha and olsun ki, Peyğəmbər nəyi edibsə, onu edirəm. Onun etdiyini etməsəm, yolumu azacağımdan qorxuram. Bu fikir başa düşülmür. Əbubəkr özü deyir ki, Peyğəmbər nəyi edibsə, onu edirəm, ancaq Peyğəmbərin (s) etdiyini, qızına bağışladığı şeyi – artıq Fatiməyə bağışlanmış Fədək Peyğəmbər vəfat edən kimi ondan geri alınır. Kitabın müəllifi sonra yazır: "Əbubəkr yaxşı bilirdi ki, haqq sarıdan ən çox qayğıya layiq kəs Fatimədir – Peyğəmbərin qızıdır. Onu da bilirdi ki, Peyğəmbər, qızını çox sevmiş, onu hamıdan üstün tutmuşdu. Onu da yaxşı bilirdi ki, Fatimə, əri və uşaqları bu kiçik əraziyə möhtacdırlar. Əbubəkr Peyğəmbərin qızına "yox" deməkdənsə istənilən əziyyətə zövqlə razı olardı". Məntiq başa düşülmür.

Sonra kitabın müəllifi yazır: "Xəlifənin cavabını eşidən Xanım Fatimənin çöhrəsinə kədər çökdü. Əbubəkr yaxşı bilirdi ki, Fatimə Peyğəmbərə ən tez itaət edən, onun əmrinə qarşı çıxmayan birisidir. Amma atasının bu sözü deyib-demədiyi, belə bir hökmü qoyub-qoymadığı barədə Fatiməni şübhə bürüməsin deyə o, Ömərə, Təlhəyə, Zübeyrə, Səd ibn Əbu Vəqqasa, Əbdürrəhman ibn Övfə xəbər göndərib yanına çağırtdı. (Səlman Farisi, Bilal, Əmmar unuduldu. Axı onlar həmişə Peyğəmbərin yanında idilər.) Fatimənin yanında onlardan soruşdu: - "Əmri sayəsində göyün və yerin qərar tapdığı Allahın adına sizdən soruşuram: - Deyin görək, Peyğəmbərin belə buyurduğunu eşitməmisinizmi"? Onlar: - "Biz peyğəmbərlər miras buraxmırıq. Qoyub getdiyimiz hər şey sədəqə sayılır" dedilər. (Yuxarıda qeyd olunduğu kimi, Fədək artıq Peyğəmbər sağ ikən onun miraslığından çıxmışdı).

Fatimə xəlifəyə dedi: - "Sən də bilirsən ki, Peyğəmbər (s) o ərazini sağlığında ikən mənə hədiyyə etmişdi. Elə isə o, miras deyil, hədiyyə olaraq mənimdir."

Əbubəkrin cavabı belə oldu: - "Bəli, bilirəm. Amma onu da görmüşəm ki, Peyğəmbər sizə onun məhsulundan lazımınca verdikdən sonra qalanını kasıblara, yoxsullara, yolçulara paylayırdı. Deməli, o da istəyirdi ki, bu ərazinin məhsulundan həmişə kasıblara pay çatsın". Fatimə xəlifəyə dedi:

- "Qoy bu ərazi bizim olsun. Peyğəmbərin zamanında necə idisə, indi də ondan elə istifadə edək" (Bu fikrin ən optimal variant olmasına baxmayaraq Əbubəkr onu da rədd etdi). Əbubəkr dedi:

- "Mən belə hesab etmirəm. Çünki mən Peyğəmbərin vəfatından sonra möminlərin rəhbəriyəm. Peyğəmbər nəyi hara qoyubsa, mən də onu oraya qoymağa sizdən daha layiqəm (onun etdiyini etməyə sizdən daha layiqəm)! Göründüyü kimi, Siddiqin haqqa və qanuna bağlılığı elə bir sınağı dəf etmişdi ki, ağırlığı və dəhşəti yalnız ona məlum idi. Əbubəkr bu imtahandan uğurla – alnıaçıq, üzüağ çıxmışdı!" Məntiq başa düşülmür.

Əbubəkrin vəfatından sonra Ömər onun həyat yoldaşı Əsma bint Ümeysin yanına gedib soruşmuşdu:

- "Əbubəkr tənha qaldıqda Rəbbinə necə dua edirdi"? Əsma belə cavab vermişdi:

- "Səhər olduqda yatağından qalxır, dəstəmaz alıb namaz qılırdı... Quran oxuyur, ağlayırdı... Səcdəyə qapılır, ağlayırdı... Dua edir, ağlayırdı... Həmin vaxt mən evdə yanıq ciyərin qoxusunu alırdım"[297].

Maraqlıdır, Peyğəmbərin dostu, Allaha bu qədər yaxın adam niyə dostunun qızına qarşı belə olub? Məntiq başa düşülmür.

Əbubəkr iki il xəlifəlikdən sonra dünyasını dəyişir. Fatimə xanımı atasının yanında dəfn etməyə qoymayanları – Əbubəkri, sonra da Öməri Peyğəmbərin (s) yanında dəfn edirlər. Bir- birilərinin yanında ailə üzvlərini dəfn edirlər ya dostlarını?

---

[297] Xalid Məhəmməd Xalid. ...Və Əbubəkr gəldi. Tərcüməçi Elvüsal Məmmədov. Bakı, 2013, s. 90, 103-106, 122

## II xəlifə Ömər

II xəlifə Ömər ibn əl-Xəttab əl-Faruq təxminən 585-ci ildə doğulmuşdur. Mənşəcə II dərəcəli qüreyş nəsli olan əl-Adidən olub, parça satan ailəsindəndir. İslamı təxminən 616-cı ildə qəbul edib, ona qədər islamın düşməni idi. Peyğəmbəri öldürməyə gedərkən, ona bacısı Fatimə və əri Səidin də müsəlman olduqlarını deyirlər. O, bacısıgilə gedib, yeznəsini vurub yerə yıxır və sinəsi üstə çöküb, onu boğub öldürmək istəyir, bacısı onu ərinin üstündən çəkmək istəyəndə, vurub onun üzünü yaralayır. Bacısının üzündən axan qanı görüb kövrəlir və bacısına deyir ki, (gətir o vərəqləri, görüm orada nə yazılıb. Bacısı deyir ki, sən murdarsan, onu ancaq pak adamlar ələ ala bilər. Ömər yuyunduqdan sonra Quranın "Taha" surəsini oxumağa başladı. Quran onu məftun etdi və o dedi: "Bunlar necə də gözəldir"! Şahlar Şərifov. İslam tarixi, s. 74). Sonra Peyğəmbərin yanına gedib islamı qəbul edir. Mədinədə Peyğəmbərin yaxınları sırasına daxil olub, qızını ona ərə verir (Peyğəmbər insanları islama cəlb etmək və siyasi cəhətdən əlaqələr yaratmaq məqsədilə səlahiyyətli adamların qızları ilə evlənirdi). Ömər Peyğəmbərin bütün yürüşlərində iştirak edib, lakin döyüşçü kimi fərqlənməyib, müstəqil olaraq bir dəfə 30 nəfərlik dəstəyə başçılıq etsə də, yürüş döyüşsüz qurtarıb. Əbubəkrin xəlifə seçilməsində onun məsləhətçisi olmuş, qərarlar verməyi sürətləndirmişdir. Əbubəkr ölərkən əvvəlcədən qərarlaşdıqları kimi xəlifəliyə Ömərin təyin edilməsini tapşırmış (bax: Yılmaz İldırım. Kərbəla vaqeəsi), icma ona səs vermişdir. Onun vaxtında Misir, Suriyanın bütünlüklə, İran və Azərbaycanın çox hissəsinin zəbt edilməsi, birdinli ərəblərin icmasının çoxmillətli dövlətə çevrilməsi Ömərdən inzibati aparat sistemi yaratmaq tələb edirdi. Qərarlardan ən mühümü tutulan torpaqların bölünməsinin ləğvi və onun əvəzinə divana daxil olan bütün əshablar və döyüşçülərə maaş

(ata) və ərzaq payı (rızq) verilməsi idi. Bu fenomenin həyata keçirilməsi üçün o, 638-ci ildə Suriyaya gedir və yolüstü Yerusəlimlə müqavilə bağlayır, lakin bu sistem 640-cı ildə tam sürətlə baş tutur. Eyni vaxtda İraqda torpaqların kadastralarının yoxlanması həyata keçirilir, xərac və cizyələrin qədərləri təyin edilir. Misir zəbt edildikdən sonra Ömər oradan Məkkə və Mədinə üçün buğda gətirilməsi haqqında əmr verdi.

Əhli sünnə müəllifləri onun adı ilə çox şey bağlayırlar: Hər il Həccə getmək, zinaya görə daşqalaq etmək və ya qamçı ilə döymək və s. (Peyğəmbər (s) vaxtı da zina üstə daşqalaq edilirdi. Bu haqda yuxarıda onun yəhudilərlə mübahisə etdiyi vaxt qeyd olunub, daşqalaq yəhudilərdə də var idi.). O, canişinlərin pis işlərinə göz yumduğu üçün onlar onu sevirdilər və əyalətlərdə istədiklərini edirdilər. Elə onun Suriyaya vali təyin etdiyi islamın düşməni Müaviyə ibn Əbi Süfyan orada tam ağalıq edib, axırda qeyri- qanuni özünü Peyğəmbərin xəlifəsi elan edib, Əməvilər sülaləsinin əsasını qoydu və Peyğəmbərin balalarını qırdı və qırdırdı.

Ömərin onillik xəlifəliyi dövründə onun əmri ilə Sasanilər (Körpü, Büveyh, Qadisiyyə, Mədain uğrunda, Cəlula, Cəzirə, Əhvaz, Bəhreyn, Nəhavənd və s.) və Bizansla (Əsnadeyn, Fihl-bataqlıq, Şam, Mərc ər-Rum, Homs və s.) saysız-hesabsız döyüşlər olmuş, Sasanilərin bütün torpaqları, Bizansın tabeliyində olan Homs, Fələstin, Misir, İskəndəriyyə və s. yerlər tutulmuş, hətta ərəblər Azərbaycana qədər gəlmişlər. [298] Bu tutulan yerlərdə bacardıqları qədər çox soyğunçuluq edirdilər. İrandan Mədinəyə gətirilən qənimətlər o qədər çox idi ki, ərəblər o günəcən bu qədər qənimət görməmişdilər.

Ömərin xilafəti dövründə dövlət Məkkə, Mədinə, Kufə, Bəsrə, Suriya, Fələstin, Cəzirə və Misir olmaqla səkkiz vilayətdən ibarət idi. Hər vilayətdə vali, baş katib, sahibu-l-xərac, sahibu-l-əhdas (polis), sahibu-l-beytu-l-mal və qazi-din məmuru var idi. Dövlət

---

[298] Şahlar Şərifov. İslam Tarixi, s. 74-83

gəlirini xərac və uşrdən (gəlirin onda birindən) başqa zəkat, cizyə (müsəlman olmayanlardan alınan can vergisi) və xums (dini vergi-gəlirin beşdə biri) təşkil edirdi (bütün bu vergilərin ağırlığı yazıq kasıb əhalinin üzərinə düşürdü). İlk pul və həbsxana islahatı da Ömərin vaxtında həyata keçmişdi.[299]

Ömər 644-cü ilin 7 noyabrında Mədinə məscidində bir fars əsilli Əbu Lölö ləqəbli Firuz tərəfindən yaralanır. Yeni xəlifə təyin etmək üçün Ömər şura çağırır və Osman ibn Əfvanı xəlifəliyə irəli sürür (Yuxarıda qeyd edildiyi kimi, əvvəlki razılığa əsasən). Əhli sünnə alimləri onu ideal xəlifə kimi, şiə müəllifləri isə onu qəsbkar kimi təqdim edirlər.[300]

Yuxarıda qeyd olunduğu kimi, Əbubəkr haqqıda yazmış Xalid Məhəmməd Xalid Ömər haqqında da "Ömərin hüzurunda" adli kitab yazmışdır[301]. Həmin kitabın bəzi yerlərini oxuculara təqdim edirik:

Həzrəti Ömərin ədaləti günəşin şərqdən çıxması qədər məlum məsələdir. Məhəmməddən sonra xəlifə olanlar arasında dürüstlüyün bariz nümunəsi xəlifə Ömərdir. Ömər Peyğəmbər qədər mülayim olmasa da, tükü tükdən seçən dürüstlüyü, maliyyə məsələlərində düzgünlüyü, ədaləti tətbiqdə qərəzsizliyi, sadə və insanpərvər liderliyi ilə Peyğəmbəri xatırladırdı.

Allahın sevib seçdiyi bu insan (mənbəələrdə belə məlumata rast gəlinmir) haqda yazmaqla İlahi Dərgahda məqam qazanmaq məqsədim yoxdur.

Möminlərin əmiri ilə olmaq digər hökmdarlarla, krallarla, şahlarla olmağa bənzəmir. O, mömin hökmdar idi. Bəşər tarixinin yaranmasından bugünədək yaşamış hökmdarlar və dövlət başçıları arasında ən böyüyü, ən xeyrixahı, ən əxlaqlısı da məhz o idi! (Bəs Məhəmməd peyğəmbər?) Biz bunu heç bir mübaliğəyə yol

[299] Şahlar Şərifov. İslam tarixi, s. 82-83

[300] İslam. Ensiklopedik lüğət, s. 461

[301] Ömərin hüzurunda. Tərcüməçi və redaktor, ön söz və şərhlərin müəllifi: fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov. Bakı, 2013

vermədən söyləyirik, eşidirsinizmi, heç bir mübaliğəyə yol verмədən! O, elə bir zahid idi ki, ibadətindən canlılıq, zəka, zəhmət və qurub-yaratma fışqırırdı. O, elə bir müəllim idi ki, həyatın məfhumlarına düzəliş vermiş, ona ruhundan nur bəxş etmiş, davranışları ilə zinətləndirmişdi.

Elə bir insan idi ki, cümə xütbəsinə gecikmişdi. Uzaqdan tələsərək gəldiyini görmüşdülər. Əynində iyirmi bir yerdən yamanmış əba vardı. O, elə bir insan idi ki, Azərbaycandakı valisi ona şirniyyat hədiyyə göndərəndə hədiyyəni gətirmiş elçidən soruşmuşdu: "Oradakı bütün insanlar bundan alıb yeyə bilirlərmi?". Elçi: "Xeyr, ey möminlərin əmiri, bu, seçilmiş insanların yeməyidir" deyəndə Ömər titrəmişdi: "Hanı sənin dəvən? Hədiyyəni geri apar, valiyə verib de ki, "Ömər sənə bütün müsəlmanlar yeyib doymadıqca əlini yeməyə uzatmamağı əmr edir". (Niyə Xilafətdən bu qədər uzaq Azərbaycanı zəbt edirdilər ki?)

O, Allahın yer üzündəki çırağı, həyat hədiyyəsi idi!

Bəşəriyyətə kamilliyi öyrədən, hüzurunda bütün dünyanın əyləşib dərs aldığı müəllim olan Ömər!

Amma Ömər də Ömər idi. Lə ilahə illə-l-Lah deyən gündən (Yəni islamı qəbul edən gündən) tərəzinin Ömər gözü ağır gəldi, islamın gələcəyi güntək aydın oldu?

(Abdullah ibn Məsud qeyd etmişdir ki, Ömər müsəlman olanadək Kəbədə namaz qılmaq bizim üçün müşkül məsələ idi. Həmin dövrdə bir müsəlman Ömərin nə vaxt isə islamı qəbul edəcəyinə ümidin qalmadığını demişdi.)

Ömər Peyğəmbərə deyir: "Bu gündən etibarən biz gizlənərək Allaha ibadət etməyəcəyik. Peyğəmbər (s) onun bu rəyini münasib bilmişdi və dəvət gizləndiyi yerdən çıxıb, Allahın geniş dünyasına qədəm basmışdı. (M.Xalidin bu fikri düz deyil, dəvətin açıqlanması haqda Allah – Təalə ayə nazil edib).

Onun da fərqində idi ki, Allahın ona bəxş etdiyi iman, hidayət və xəlifəlik neməti ancaq və ancaq ilahi lütfdür! Allah bu nemət-

ləri başqasına da verə bilərdi. Amma O, Öməri seçmiş və demişdi: “Ey Ömər! Bu nemətləri mən sənə vermişəm!” (Allah Ömərlə danışmışdı?) Bu isə Öməri hey “əridir”, büzdükcə büzürdü. Həyanın doğurduğu şüur ona bu sözləri dedirtmişdi: “Kaş anası Öməri dünyaya gətirməyəydi!”

Ən böyük arzusu elə Ömər olaraq qalmaq idi; xəlifə və ya əmir olmağı əsla arzulamamışdı.

Üzrxahlığını bildirsəydi, belə bir ağır və mürəkkəb dövrdə xəlifəlik vəzifəsindən imtina etdiyinə görə sabah Rəbbi onu hesaba çəkəcəkdi. Odur ki, vəzifədən qaçmamışdı. Halbuki bu qorxu olmasaydı, hakimiyyətdən imtina edər, hökmdar olmağa “yox” deyərdi.

“Ey insanlar...Sizə əmir təyin olundum. Ən yaxşınız, ən güçlünüz və işlərinizi qaydasına qoyacaq birisi olduğuma ümid etməsəydim, əmiriniz də olmağı istəməzdim. Hesab gününü gözləmək Ömərə bəsdir!”

Bəli, Ömərin ən böyük arzusu Allahın bağışlamağı və razılığıdır.

Elə bir hökmdar ki, Allah qorxusundan hakimiyyətə xor baxmışdır.

Mühüm və ciddi işlər, ölkələri tutan qoşunların zəfər xəbərləri onun qəlbini sakitləşdirmirdi. Məzlumun ahı, dərdlinin iniltisi, haqqı tapdalanmışın: “Allahdan qorx, ey Ömər! – deməsi ilə sarsılmış bir hökmdar!

Hey deyirdi:

- Gecələr yatsam – özümü, gündüzlər yatsam, xalqımı itirmiş olaram! Həmişə ayıq idi. (Yəni heç yatmırdı?)

- Kaş anası Öməri doğmayaydı! Bütün bu əsmələr, bütün bu həya və qorxular nə üçün vardı? Çünki o bilmirdi...(?)

İslamı qəbul etmiş qırxıncı adam idi. Müsəlman olmağından dəqiqələr keçməmiş özündə böyük məsuliyyət hiss etmişdi Ömər! Təkcə islamın və mömin camaatın deyil, həm də bu dinin əsrlər

sonrakı taleyi qarşısında cəsur ürəyinə hakim kəsilmiş məsuliyyət idi bu!

- Müstəsna məsuliyyət sahibi olan, son nəfəsinə qədər bütün insanlara əmanət dərsi – özü də nə dərs! – keçən, himayədarlıqda nümunə - həm də nə nümunə! - nümayiş etdirən bir hökmdar!
- Özünü bitki yağına o qədər alışdırmışdı ki, axırda bağır-saqları qurtuldamış, əlini qarnının üstünə qoyub demişdi:
- “Ey qarın, kərə yağı uqiyələrlə (12 dirhəmə bərabər pul) satıldıqca bitki yağına vərdiş et!” (Ərəblərin hamısı indi də xeyirli olan bitki – zeytun yağından çox geniş istifadə edirlər).
- Qohumlarını yoxsul və məhrumiyyətli həyat yaşamağa məcbur etmiş, ağızlarındakı tikələri belə çəkib çıxarmışdı!!!
- Şama gedərkən Ömərə ləzzətli yemək gətirirlər. O isə iştaha ilə yemək əvəzinə göz yaşı axıdır.
- Əgər Əbubəkr xəlifəliyi ona düşünmə və icazənin verilmədiyi bir şəraitdə tapşırmasaydı, xəlifə olmaqdan imtina edər, özünün dediyi kimi, “möminlərə əmir olmaqdansa boynunun vurulmasını” üstün tutardı!
- Ömər vali təyin edəndə ona deyirdi ki, mən səni müsəlmanların qanını axıdıb namuslarına əl uzadasan deyə vali təyin etmirəm (Heyif ki, çox vaxt əksinə olurdu).
- Bəşəriyyətin bəxti gətirib, Ömər Allahın insanlara hidayəti idi!
- Bir gün bəzi səhabələr eşitdilər ki, Ömər dolanmaq üçün borc alıb (Stalinin də qarşılıqlı yardım kassasından bir neçə dəfə 15 – 20 rubl borc götürdüyü haqda dəqiq fakt var. Onu oxuculara təqdim etməyə ehtiyac duymuruq).
- Ömər eşitsəydi ki, xəzinədən bir dirhəm oğurlanıb, ya da boş-boşuna xərclənib, qiyamət qoparardı, tir-tir əsər, əsim-əsim titrəyərdi, sanki bir dirhəm deyil, bütöv bir xəzinə hədər gedib, boşuna sərf olunub!.

- Hökmdar Ömər hər bir hökmdara Allahın göstərdiyi nümunə idi!

Xalid Məhəmməd Xalid Əbubəkrin iki illik xəlifəliyini nə qədər tərifləmişsə, Ömərin onillik xəlifəliyini beşqat ondan çox tərifləmişdir. Allahın təyin etdiyi Məhəmməd peyğəmbər (s) haqqında bir neçə kitab oxumuşam. Onun haqqında bu qədər tərif heç bir kitabda yoxdur. "Ömərin hüzurunda" kitabının 129-cu səhifəsində heç yerdə rast gəlinməyən belə bir cümlə var: Peyğəmbər demişdir: "Sizinlə nə qədər yaşayacağımı bilmirəm, məndən sonra Əbubəkr və Ömərin arxasınca gedin". Ancaq o, öz yetirməsi, əmisi oğlu, qorxmadan onun ölüm yatağına uzanan, sevimli qızının əri, ən çox sevdiyi nəvələri Həsən və Hüseynin atası, bütün döyüşlərdə yanından ayrılmayan və daim onu qoruyan, Qədir Xumda Allahın əmri ilə özündən sonra xəlifə olacağını elan etdiyi Əlini heç yadına salmayıb! Xalid Məhəmməd Xalid müasir dövrün müəllifidir.

Həm Əbubəkr, həm də Ömər ibn Xəttab yalan hədislərin qarşısını almaq üçün Peyğəmbər haqda hədis söyləməyi insanlara qadağan etmişdilər. Ömər ibn Xəttab Əbu Hüreyrəyə demişdi: "Ya Hz.Peyğəmbərdən çox hədis rəvayət etməyi tərk edəcəksən, ya da səni Devsə sürgün edəcəm".[302] Ancaq Ömərin öz oğlu hədis yazırdı. Əbu Hüreyrədən soruşulduqda - "Sən Ömərin dövründə belə hədis rəvayət edirdinmi?" O, cavab vermişdi: "Əgər indi sizə rəvayət etdiyim kimi hədis rəvayət etsəydim, Ömər qılıncı ilə boynumu uçurardı".[303] Ömər ibn Xəttab Əbuzər, İbn Məsud, Uqbə bin Amr, Əbu Məsud əl-Ənsari, Abdullah ibn Hüzeyfə, Əbu-d-Dərda kimi peyğəmbər səhabələrini də hədis rəvayət etdiklərinə görə şəhər

---

[302] Usmani Muhammad Taqi. An approash to the Quranic seinces. Karachi, Pakistan, Darul İshaat, 2000, c. VIII, s. 106; Dürdanə Cəfərli. Müasir islamşünaslıqda "həqiqi islam" konsepsiyası.Dissertasiya, s. 15-16

[303] İbn Həzm Əbu Muhamməd Əli.Əl-Fasl fi-l-miləl va-l-əhva va-n-nəhl. Qahirə, Məktəbu-l-Xənci, 2010, c. I, s. 7; Birışık A. Hind Altkıtası Düşünce ve Tefsir ekolleri.İstanbul: İnsan Yayınları, 2012, s. 261; Dürdanə Cəfərli, yenə orada

həbsində saxlamışdı və onlara başqa yerə getməyə icazə vermirdi, görünür nədənsə çəkinirmiş."[304] Ömər bir dəstə məmuru Yəmənə hədisləri qadağan etməyə göndərərkən onlara demişdi: "Baxın, onlar arı vızıltısı kimi Quran oxuyurlar, qoy oxusunlar, hədis danışıb-yazsalar, Quranı tərk edərlər"[305]? Fikrimizcə, Peyğəmbər haqqında çoxlu hədislərin söylənməsi bəzilərinin Peyğəmbərə qarşı qısqanclıqlarından irəli gəlirdi. Allah tərəfindən bütün dünya millətlərinə göndərilən Peyğəmbərin kürsüsündə oturmaqlarına baxmayaraq hədislər mərhum Peyğəmbər (s) haqqında yazılırdı, onlar haqda yox! "Kərbəla müsibəti" kitabının müəllifi yazır ki, Peyğəmbər, vəfatı ərəfəsində ətrafındakılara (Hz. Əlini Peyğəmbər onda Yəmənə göndərmişdi) deyir ki, kağız-qələm gətirin, mən dünyamı dəyişəndən sonra aranızda hərc-mərclik düşməsin deyə, vəsiyyətimi yazın. Ömər deyir ki, bu, xəstə halında "ağlına gələni deyəcək", lazım deyil (Böyük Peyğəmbər haqqında deyilən söz yaxşı səslənmir!)

---

[304] Yenə orada;Dürdanə Cəfərli, yenə orada, s. 17
[305] Yenə orada

## III xəlifə Osman

Osman haqda "İslam. Ensiklopedik lüğət"ində və başqa mənbə və ədəbiyyatda rast gəldiyimiz məlumatları veririk. Osman ibn Əfvan ibn Əbul As ibn Umeyyə ibn Abdu-ş-Şəms ibn Abdu-l-Mənaf əl-Əməvi əl-Qureyşi təxminən 575-ci ildə, Peyğımbərdən beş il sonra doğulub. Anası Ərva bint Qureyz ibn Rabiə ibn Abdu-ş-Şəms ibn Abdul Mənafdır. Osman Ümeyyə nəslindən olub, Məkkənin varlı tacirlərindən idi. Peyğəmbərin ardıcıllarından biri olub, Peyğəmbərin ardıcılı kimi, işgüzarlığı və ya hərəkətləri ilə belə də seçilməyib. Peyğəmbərin Ruqəyya adlı qızı ilə evlənmişdi, o, xəstələnərək vəfat etmişdi. Osman müsəlmanların dəstəsi ilə Həbəşistana hicrət edib, artıq 623-cü ildə Mədinədə olub, Peyğəmbər onun qızı, o da Peyğəmbərin başqa bir qızı-Ummu Kulsumla evlənir, buna görə də Osmanın "Zu-n-nureyn"-(iki nur sahibi) ləqəbi də var idi. Məhəmməd peyğəmbər, Əbubəkr və Ömər vaxtı Osman ibn Əfvan özünü bir hərbi və ya siyasi xadim kimi göstərməmiş, bir varlı adam kimi həyatdan ləzzət almağı üstün tutmuşdur. Həyat yoldaşı Rüqəyyanın xəstəliyi ilə əlaqədar olaraq Bədr döyüşündə iştirak etməsə də başqa döyüşlərdə iştirak etmiş, ancaq vuruşlarda belə də fərqlənməmişdir. 644-cü ildə Ömərin ölümqabağı sözü ilə Osman xəlifə elan olunur. Ömər ibn Xəttab (Əli, Osman, Zübeyr ibn Əvvam, Səd ibn Əbi Vaqqas, Əbdürrəhman ibn Ovf və Təlhə ibn Ubeydullaha tapşırır ki, üç gün ərzində öz aralarından bir nəfəri xəlifə seçsinlər. Bəni-Ümeyyə tayfasının hamısı Osmanın lehinə səs verib, onu xəlifə seçdilər. Şahlar Şərifov. İslam tarixi, s. 84).

Osmanın hakimiyyəti vaxtı Sasani dövləti tamamilə zəbt olundu, ərəblərin Tunis və Zaqafqaziyada hökmranlıqları möhkəmləndi. Xəlifə Əbubəkrin dövründən başlayan İraq, İran, Suriya və Misirin tutulması davam edirdi. Azərbaycan, Təbəristan, Xorasan,

Sind, Ərzurum, Qars, Tarsus tutuldu. 648-ci ildə Osman Əmr ibn Ası Misir valiliyindən çıxarıb, onun yerinə öz süd qardaşı Abdullah ibn Səd ibn Sərəhi təyin etdi. O, Şimali Afrikaya hücum etmək məqsədilə Osmandan hərbi qüvvə alıb, Roma sərkərdəsi Qriqoriusu məğlub edib, Subeytilanı da tutur. Sonra Osman Suriya valisi Müaviyənin vasitəsi ilə Kipri işğal edir.

Suriya valisi Müaviyə ibn Əbu Süfyan Ömərin xəlifəliyi vaxtı dəniz donanması yaratmaq istəsə də, Ömər ona icazə verməmişdi. Osman öz xəlifəliyi vaxtı ona icazə verdi və o, Suriya sərhədlərində dəniz donanması yaratdı. 648-ci ildə o, Osmanın razılığı ilə Misir valisi Abdullah ibn Səd ibn Sərəhlə gəmiləri hazırlayıb Kipr üzərinə hərəkət etdilər. 649-cu ildə edilən bu dəniz səfərində Kipr alınmasa da o, illik vergi verməyə razı oldu. 653-cü ildə isə onlar Kiprlə yanaşı Radosu da zəbt etdilər.[306]

Osmanın orduları Bizansı Şimali Afrika, Kipr və Anadoluda sıxışdırdıqlarına görə Bizans imperatoru müsəlmanların dəniz donanmasını yox etmək üçün böyük bir donanma hazırlayıb, Ağ dənizə-Suriya və Misir sahillərinə yanaşdı. Bizans gəmilərinin sayı 500-dən çox olduğu və dənizdə yelkən meşəsi yaratdığı üçün bu döyüş "Əs-Səvari"-"Yelkənlər döyüşü" adlandı. Bizans donanmasının başında imperator Konstantin, ərəb donanmasının başında isə Abdulla ibn Səd dururdu. Vuruşda imperator yaralandı və Bizans donanması məğlub oldu.[307]

639-cu ildə hələ xəlifə Ömər vaxtı Azərbaycana başlanan hücumu xəlifə Osman vaxtı 646 – cı ildə Salman ibn Rəbiə davam etdirərək Naxçıvandan çıxıb, Şəki, Gorus, Beyləqan, Bərdə, Tərtər, Şəmkir, Şirvan, Şabran, Qəbələni zəbt edib, Dərbəndə üz tutdu. 653- cü ildə ərəblər Bələncərdə xəzərlərlə üz-üzə gəldilər, bu döyüşdə ərəblər məğlub oldular, Salman ibn Rəbiə də vuruşda öl-

---

[306] Futuhu-l-buldən, s. 218-226; Tərix Təbəri, II c., s. 600-602; Tərix İbn Əsir, III c.,s. 95-98; Şahlar Şərifov, s. 86

[307] Tərix Təbəri, II c., s. 618-620; Şahlar Şərifov. İslam tarixi, s. 86-87

dü.[308] Gördüyümüz kimi yuxarıda adları çəkilən raşidi xəlifələr vaxtı çoxlu özgə torpaqları, o cümlədən də Azərbaycan zəbt olunmuşdur. Nə yaxşı ki, Osmanın vaxtında Quranın mətni tərtib edilib qanuniləşdirildi, qalan nüsxələr məhv edildi. Onun xəlifəliyinin sonunda xəlifəliyə qarşı müxalifət yarandı, əyalətlərdə üsyanlar başladı. Bu, həm də Kufə, Bəsrə və Fustat kimi yeni mərkəzlərin əhəmiyyətinin artması ilə əlaqədar idi. Osman onların üzərində nəzarəti artırmaq məqsədi ilə əshabların zərərinə torpaq hədiyyəsi və çoxlu pul alan qohumlarını oralara canişin təyin etdi. Xəlifənin və onun qohumlarının varlanması müsəlmanların zahidlik edən hissəsini narazı saldı və onlar xəlifə Osmanı və Məhəmməd peyğəmbərdən sonrakı iki xəlifəni həyat tərzindən uzaqlaşmaqda təqsirləndirdilər.

Yuxarıda Ərəbistanda Ədnanilər və Qəhtanilər qəbilələrinin yaşadıqlarını qeyd etmişdik. Zaman keçdikcə cənublular Yəmani (yəqin ki, Yəmənə yaxın olduqlarına görə), şimalda yaşayanlar isə Qeysilər adlanmağa başladılar. Əvvəllər qəbilələr arasında düşmənçilik və ixtilaf adi hal sayılırdı. Peyğəmbərin təlimləri, islam dininin yayılması, ənsarlarla mühacirlərin Peyğəmbərin (s) səyi ilə qardaşlaşması, tayfa üstünlüklərinin ləğvi sayəsində özünüöymə və fəxretmə halları aradan getmişdi. Ancaq zaman keçdikdən sonra, xüsusilə Qureyş qəbiləsinin müsəlmanlara hakim olacağı aydın olandan sonra bu öyünmə və fəxretmə yenidən dirçəldi.

Osmanın xəlifəlik dövrünün ikinci yarısında hər şey yeni rəngə boyandı. Bir tərəfdən əhalinin Peyğəmbər zamanından və Əbubəkr dövrünün sadəliyindən uzaqlaşmalarından iyirmi il keçmişdi, digər tərəfdən isə Ömərin Qureyşə qarşı olan sərt rəftarı yox idi. Məsələ bundadır ki, belə dövrlərdə rəhbərlik etmək hər əzab-əziyyətə qatlaşmaq, Allaha xatir məsuliyyət hiss etmək tələb olunduğu halda, təm-taraqlı və cah-cəlallı həyat sürmək adi hala çevrilirdi ki, bunu da əldə etmək istəyənlər çox idi. Bəni-Saidə eyvanı altında Yəma-

---

[308] Şahlar Şərifov. İslam tarixi, s. 85-87

ni tayfasından sayılan ənsarın xilafət barəsindəki öz iddialarını mühacirlərin xeyrinə həll etmələrinə baxmayaraq, onların övladları və yeni müsəlman olmuşlar Misir, Bəsrə, Kufə və Şamın da hakimiyyətindən əl çəkib bütün bu şəhərlərin gəlirlərini Qeysi tayfasına təslim etməyə razı deyildilər.

Ömər öz xilafəti dövründə yəmanilərlə (Cənubi Ərəbistan əhli) qeysilər (Şimali Ərəbistan əhli) arasında ədalətə riayət etməyə çalışırdı, bir şəhərə yəmani hakim təyin etsəydi, digərinə qeysi hakim təyin edərdi. Osman isə belə şeyləri nəzərə almayıb istədiyini edirdi. Məsələn, o, Kufə valisi Səd ibn Əbu Vaqqası vəzifədən götürüb, qohumu Valid ibn Uqbəni onun yerinə təyin etmişdi.

Hicazdan kənarda yerləşən fəth olunmuş ərazilərin məhsulunu toplamaq müsəlmanlar üçün çətin idi. Onlar həmin ərazilərə şəxsən nəzarət etmək istəsəydilər və ya məhsulu toplamaq üçün oraya getməli olsaydılar, bu orada çoxlu sayda əhali toplanmasına səbəb olardı. Ona görə də xəlifə Osman minbərə çıxıb camaata dedi: “Mən sizin payınızı özünüzə qaytarıram; yəni, hər kəs öz evində öz torpağına sahib olur. Əsgərləri çıxmaqla torpaq sahibləri öz ərazilərini Hicazda, Yəməndə və başqa yerlərdə əraziləri olanlarla dəyişə bilərlər”. Bunu eşidən Mədinə əhli sevindi, çünki, belə olarsa hər kəs özünə yaxın olan ərazidə qalacaqdı. Beləliklə, ərazilərin dəyişdirilməsi başlandı. Təlhə ibn Ubeydullah, Mərvan ibn Hakəm, Əş”əs ibn Qeys və başqaları öz torpaqlarını kiçik ərazi sahibləri ilə dəyişdirdilər. Çox keçmədən Hicazda böyük torpaq sahibləri meydana gəldi. Onlar bir tərəfdən məhsuldar torpaqlardan kifayət qədər gəlir götürür, digər tərəfdən isə islamı ilk qəbul etdiklərinə görə başqalarından yüksək maaş alırdılar. Bundan əlavə, onlar xəlifədən hədiyyələr də alırdılar[309]. Bütün bunlar əhalinin yerdə qalan hissəsini narazı salırdı. Sonda isə bu, xəlifə Osmanın qətli ilə nəticələndi.

---

[309] Şahlar Şərifov. İslam tarixi, s. 84-85

656-cı ilin may ayının əvvəlində Misirdən Mədinəyə nümayəndə heyəti gəldi. Osman onların tələblərinə razılıq verdi, sonra isə Misirdəki canişininə məktub yazıb, nümayəndə heyəti qayıdarkən, onları edam etməyi əmr edir. Məktubu ələ keçirən misirlilər geri qayıdıb, başqa narazılarla birlikdə Osmanın evini mühasirəyə alırlar. Mədinənin yüksək əyanları düşmən bitərəfliliyini dəstəkləyirdilər. 17 iyunda Əbubəkrin oğlu Abdullahın başçılığı altında narazılar və qiyamçılar Osmanın evini mühasirə etdilər. Hz. Əli oğlanları Həsən və Hüseyni xəlifəni qorumağa göndərdi. Onlar Osmanın evinin qabağında keşik çəkirdilər. Qiyamçılar isə arxa tərəfdən, başqa evlərin içərisindən özlərinə yol açaraq, Osman ibn Əfvanın evinə soxulub, onu doğradılar; qatilin adı məlum olmadı. Rəvayətə görə qan Osmanın yanında olan Quranın üzərinə töküldü. Belə "Osman Quranları" çoxlu məscidlərdə var, o cümlədən Səmərqənddə, indi isə Daşkənddə - Tarix Muzeyində (Görünür, bu məlumatlardan düzgün olmayanları var). Osman ibn Əfvanın qətli hakimiyyət uğrunda mübarizə aparanların təhriki ilə Xilafətdə çoxillik vətəndaş müharibəsinə səbəb oldu. [310] Osmanı Xəşşi-Kovkəb (Mədinədəki Bəqi) qəbristanlığında dəfn etdilər[311].

[310] İslam. Ensiklopedik lüğət, s. 459-460
[311] Şahlar Şərifov, yenə orada, s. 85

## IV xəlifə Əli

Hz.Əli həm ata, həm də ana tərəfdən Haşim nəslindən olub fil ilindən 30 il sonra (m. 600 – cü ildə) Kəbə evində dünyaya gəlmişdir. Atası Əbu Talib ibn Əbdülmüttəlib, anası isə Fatimə bint Əsəddir.[312] Əmisi oğlu Məhəmməd uşaq vaxtlarından onu əmisindən alıb tərbiyə etmişdir.

Məhəmmədin sonuncu peyğəmbər və hər peyğəmbərin canişini olduğunu yuxarıda qeyd etmişik. Mənbələrin çoxunda peyğəmbərliyə xitam verildiyinə görə islam dininə başçılıq etməyi Allah – Təalə Peyğəmbər (s) vasitəsilə imamətlik institutuna həvalə etmişdi, onun da başında Məhəmməd peyğəmbərin ən yaxın silahdaşı, əmisi oğlu, uşaqlıqdan özü tərbiyə etdiyi, Peyğəmbərin öldürüləcəyi yatağına uzanaraq, canını belə onun yolunda fəda etməyə hazır olan və nəhayət sevimli ciyərparələri - qızı Fatimeyi Zəhranın əri, nəvələri Həsən və Hüseynin atası Əli ibn Əbi Talib dururdu. “Ənfal” surəsinin otuzuncu ayəsilə Allah-Təalə Hz.Peyğəmbərə müşriklərin onu qətl etmək istədiklərini xəbər verdikdə o, bu barədə Əliyə xəbər verib dedi ki, Allahın əmrinə görə sən mənim yatağımda yatmalısan ki, müşriklər duyuğ düşməsinlər. Hz.Əli dedi: “Dediklərini səmimi qəlbdən yerinə yetirməyə hazıram, ya Rasulə-l-Lah”. Əlinin bu səmimiyyətini görən Peyğəmbərin gözləri yaşardı, o, Əlini qucaqlayıb öpdü və vidalaşıb ayrıldılar. Hz. Əlinin bu fədakarlığına görə Allah-Təalə ayə nazil etdi: “İnsanların eləsi vardır ki, Allahın razılığını qazanmaq üçün öz canından keçər...” (Bəqərə. 207). Təfsir alimləri və tarixçilərin çoxu (Qəzali, Şafei, Maliki, Hənbəli və s.) bu ayənin Hz. Əliyə (ə) aid olduğunu qeyd edirlər.[313]

---

[312] Hacı Fuad Nurullah. Həzrət Əli (ə)...inasanlıq məktəbinin ustadı. Bakı, 2015, s. 14

[313] Şahlar Şərifov, İslam tarixi, s. 91-92

Peyğəmbər Allahın köməyi ilə onu öldürməyə gələnlərin arasından rahat keçərək Yəsrib tərəfə yola düşdü. Hz. Əli Məkkədə üç gün qaldıqdan sonra Fatimeyi Zəhranı, öz anası Fatimə bint Əsədi və Fatimə bint Zübeyri götürüb Yəsribə yollandılar. Onların Qübaya çatdığını bilən Peyğəmbər özü onları qarşılamağa gedir.

Hicrətin ikinci ilində Peyğəmbər deyir: "Ya Əli, Allah-Təalə mənə göstəriş vermişdir ki, Fatiməni sənə ərə verim. Mən onu sənə 400 misqal gümüş mehriyyə müqabilində verirəm". Onların Həsən, Hüseyn, Zeynəb və Ummu Kulsum adlı uşaqları olur.[314]

Yəsribə hicrətdən sonra Peyğəmbərlə müşriklər arasında saysız-hesabsız döyüşlər olmuşdur. Onların 27-də Peyğəmbər (s) şəxsən özü iştirak etmişdir, Əli də onunla birlikdə. Təkcə Təbuq döyüşündə Peyğəmbər münafiqlərin çevriliş edəcəyindən ehtiyatlanaraq, Əlini Mədinədə saxlamışdı. (Yeri gəlmişkən, münafiqlər haqqında maraqlı bir məlumatı qeyd etmək istəyirik. Peyğəmbər vaxtı münafiqlər, azca yuxarıda qeyd olunduğu kimi, tüğyan edirdilər. Raşidi xəlifələr vaxtı onların səsi çıxmırdı, mənbə və ədəbiyyatda bu haqda məlumat yoxdur. Hz.Əli vaxtı onlar yenə də baş qaldırdılar). Hz. Əlinin qəhrəmanlıq göstərdiyi döyüşlərə Bədr, Uhud, Bəni-Nəzir, Əhzab, Xeybər, Məkkənin fəthi, Huneyn və Taif döyüşlərini göstərmək olar. Döyüşlərdə göstərdiyi qəhrəmanlıqlara görə ona "Zeyğəmu-l-ğəzəvat" (döyüşlər şiri) və "Əsədullah" (Allahın yenilməz şiri) deyirdilər.[315]

Bədr döyüşündə Ütbə ibn Rəbiə, Şeybə ibn Rəbiə və Valid ibn Utbə meydana çıxıb özlərinə tay döyüşçü tələb etdikdə Peyğəmbər Həmzə, Əli və Übeydə ibn Harisi onlarla döyüşə göndərdikdə Hz. Əli Validi "bir göz qırpımında" öldürüb, yoldaşlarına da kömək etdi. O, As ibn Səid, Hənzələ ibn Əbu Süfyan, Umeyr ibn Osman, Nofəl ibn Xuveylid, Tueymə ibn Ədiy kimi Qureyş ordu başçılarını da öldürmüşdür. Uhud döyüşündə isə Hz. Əli (ə) "Kəb-

[314] Usul Kəfi, III c. s. 360; Şahlar Şərifov. İslam tarixi, s. 92
[315] Şahlar Şərifov, yenə orada, s. 92-93; İslam. Ensiklopedik lüğət, s. 134

şu-l-Kəsibə" başda olmaqla müşriklərin 9 bayraqdarını öldürdü. Mədinəyə qayıtdıqdan sonra Peyğəmbər Fatiməyə dedi: "Ey Fatimə! Al bu qılıncı, ərin öz borcunu əda etdi. Allah onun qılıncı vasitəsilə Qureyş böyüklərini məğlub etdi." [316]

Yuxarıda qeyd olunduğu kimi, Peyğəmbər vəfat edəndə Hz. Əli onu özü yuyub, onun dəfni ilə məşğul oldu. Mənbələr Peyğəmbərin Əlini öz varisi olduğunu dediyini qeyd etmişlər. "Və ən yaxın qohumlarını qorxut" (əş-Şüəra, 214) ayəsi nazil olanda yuxarıda qısaca qeyd olunduğu kimi, Peyğəmbər Əbdülmüttəlib övladlarını əmisi - Əlinin atası Əbu Talibin evinə toplayıb deyir ki, Allah məni bütün xalqlar üçün, xüsusilə sizin üçün peyğəmbər göndərmişdir. Siz Allahın Təkliyini və mənim onun rəsulu olduğumu qəbul etməlisiniz. Heç kimdən səs çıxmadı. Təkcə Əli ayağa qalxıb, Peyğəmbərin (s) dəvətini səmimi dildən qəbul etdi. Peyğəmbər dedi: "Bu Əli sizin aranızda mənim qardaşım, canişinim və xəlifəmdir, məndən sonra xəlifəm odur.[317]

Bir çox mənbələrin yazdığına görə Hz. Peyğəmbər ölüm yatağında olarkən üç şeyi vəsiyyət etmişdir:

1) Əlini ümmətin vəlisi və başçısı bilsinlər.

2) Müşrikləri Ərəbistan yarımadasından xaric etsinlər.

3) Mədinəyə müxtəlif qəbilələr tərəfindən ezam olunan dəstə və heyətləri Peyğəmbərin özü kimi mükafatlandırsınlar.[318]

Vida həccindən qayıdarkən Qədir Xum deyilən yerdə Peyğəmbər böyük bir xütbədən sonra "Mən kimin mövlası və rəhbəriyəmsə Əli də onun mövlası və rəhbəridir" dedi. Sonra Peyğəmbər (s) göstəriş verdi ki, hamı Əlini bu münasibətlə təbrik etsin. Təbrik edənlər arasında olan Ömər ibn Xəttab belə dedi: "Afərin sənə, ey Əbu Talibin oğlu! Sən mənim, bütün mömin kişi və qadınların mövlası və rəhbəri oldun". İbn Abbas isə: "Allaha and ol-

---

[316] Şahlar Şərifov, yenə orada, s. 93-94; Kəşfu-lqummə, s. 54

[317] Tarix Təbəri, II c. s. 217; Şahlar Şərifov. İslam tarixi, s. 90;

[318] Şahlar Şərifov. İslam tarixi, s. 91

sun, bu əhd-peyman hamının boynunda qalacaqdır" dedi.[319] Təfsir Razi, Musnəd Əhməd, Tərix Bəğdədi, Şeyx Abdu-r-Rauf Mə"nəvi Mısri - Feyzu-l-qədir, İbnu Hacər-əs-Səvaiq, Təfsir Sələbi, Mənaqib Xarəzmi, Şeyx Təbərsinin Məcməu-l-bəyanı və s. mənbələr bu hadisənin Hz. Əlinin (ə) xəlifəliyi ilə bağlı olduğunu qeyd edirlər.[320] Əhli sünnə alimi Əbu Səid Xudri yazir: "Peyğəmbər camaatı Əliyə itaət etməyə səslədi. Onun qolundan tutub yuxarı qaldırdı. Onlar hələ bir-birilərindən ayrılmamışdılar ki, "əl-Youm" (Məidə, 3) ayəsi nazil oldu. Peyğəmbər buyurdu: "Allahu əkbər! Allahu əkbər! Allah öz dinini kamil etdi, nemətini bizə tamamladı. Mənim risalət və peyğəmbərliyimdən, məndən sonra isə Əlinin vilayətindən razıdır." [321]

Əli kim idi? Uşaqlığından Peyğəmbərin evində böyümüş Əli ilk müsəlman[322] olub, sadəcə olaraq islam dininin bilikləri və müddəalarını deyil, islamın ruhunu, daxili məziyyətini mənimsəmiş və anlamış bir gənc idi. Əhli sünnə alimlərinin qeyd etdikləri kimi, o, Ömər ibn Xəttabin tərtib etdiyi "əşərayi mubəşşərə"- Cənnət vəd olunan 10 müjdələnəndən biri idi. Peyğəmbərin (s) vəfatından sonra təşkil olunan 6 nəfərlik məclisin üzvlərindən biri idi. Hicri tarixi təsis etməyi Ömər ibn Xəttaba o tövsiyə etmişdi. Vilayətlərdən gələn şikayətləri Osmana o çatdırırdı. Osmanın ölümündən sonra ona təklif olunan xəlifəliyi 5 gün ərzində rədd etdi, axırda naəlac qalıb, qəbul etdi. Çox mömin adam olub, "Dünya bir leşdir" deyib, bütün var-yoxunu sədəqə olaraq kasıblara paylayardı.[323] Əhli sünnə onu "mömin" xəlifələrdən biri, dindar və alicənablıq nümunəsi kimi saymış və sayırlar.[324] Lakin Müaviyə və tərəfdarları onu həmişə düşmən sayıb, təhqir edirdilər. Süleyman Bəlxi "Yənəbiu-l-məvad-

319 İrşad, I c., II bab, 50-ci fəsil ; Şahlar Şərifov. İslam tarixi, s. 95-96
320 Şahlar Şərifov, yenə orada, s. 96
321 Hakim Həsqani. Şəvahidu-t-tənzil, 212-ci hədis; Şahlar Şərifov, yenə orada
322 Şahlar Şərifov. İslam tarixi, s. 90
323 İslam. Ensiklopedik lüğət, s. 134
324 Yenə orada, 135

dət" əsərinin XVIII fəslində Ənəs ibn Malikdən nəql edir ki, Hz. Peyğəmbər belə buyurdu: "Mələklər yeddi il mənə və Əliyə salam göndərdilər. Çünki həmin yeddi ildə yalnız mənim və Əlinin dilindən Allahın birliyinə şəhadət kəlmələri səmaya ucalırdı.[325] (Bu fikrə əsaslanaraq, Əlinin islamı birinci qəbul etdiyini ehtimal etmək olar). O, öz biliklərini, o cümlədən hərbi biliklərini Peyğəmbərin özündən almış, onun ən yaxın dostu və silahdaşı olmuş, onun bütün hərbi işlərində yaxından iştirak etmiş, müsəlmanlar tərəfindən aparılan hərbi əməliyyatlarda onun strateji və taktiki qərarlarının qəbul edilməsinin şahidi olmuş və Peyğəmbərin əməkdaşına çevrilmişdi. Müsəlman hərb sənəti orta əsrlərdə Azərbaycanda türk savaş sənəti ilə sintezdə, vəhdət şəklində bir araya gəlmiş və burada Hz. Əli məktəbi faktoru böyük rol oynamışdır. Ona görə də, Azərbaycanda orta əsrlərdə müsəlman hərb sənətinin problemləri araşdırılarkən, ilk olaraq bununla əlaqədar olan, peyğəmbərimiz Hz. Məhəmmədin və Hz. Əlinin (ə) buyurduqları göstəriş və tövsiyələr tədqiq olunmalıdır. Hz. Əliyə müxtəlif elmləri, o cümlədən hərb elmini Peyğəmbər təlim etmişdir. Bu barədə İmam Əli belə buyurur: "Allahın Rəsuluna (s) elə bir ayə nazil olmamışdı ki, Allah-Təalə ona halal-haram, əmr və nəhy, itaət və asilik, yaxud olmuş və ya olacaq barəsində elə bir şey öyrətməmişdi ki, o da onu mənə öyrətməsin, mənə imla etməsin və mən də onu öz xəttimlə yazmayım. O, bütün bunların təvilini (şərhini), zahirini və batinini mənə xəbər vermiş, mən də yadda saxlamışam, sonra da ondan bir hərf belə unutmamışam" [326].

Hz.Əlinin hərbi istedadı əvvəl Bədr döyüşündə və sonralar bir çox qanlı döyüşlərdə, ağır və məşəqqətli müharibə yollarında özünü göstərmişdir. Hərb işində dərin və hərtərəfli, bəzən ətrafdakılar üçün anlaşılması mümkün olmayan biliklərə, o cümlədən hərbi

[325] Yenə orada, 134

[326] İmam Əlinin Nəhcul-Bəlağə əsəri, İİR-nın Azəbaycandakı Mədəniyyət Mərkəzi, 2009, s. 8

biliklərə vaqif olan Hz.Əli həm də hərbçi kimi müstəsna istedada malik idi. O, həm də müdrik strateq, hərb işini xırdalığınadək dərindən bilən sərkərdə, misli-bərabəri olmayan döyüşçü kimi islam uğrunda fədakarcasına vuruşmuş və onu qorumuşdur. O, özünü hər cür döyüş şəraitində səbirli, təmkinli, dözümlü aparmış, olduqca soyuqqanlı, həmişə ayıq-sayıq olmuş, ən çətin döyüş şəraitində şücaət və qəhrəmanlıq nümayiş etdirmiş və düşmənlərə qalib gəlmişdir. Hərbi cəhətdən çox hazırlıqlı olan Hz. Əlini Peyğəmbər döyüş zamanı ən çətin yerlərə göndərirdi. İbn əl- Əsir Uhud döyüşü haqqında bəhs edərək yazmışdır: "İslam Peyğəmbəri (s) hücum etmək istəyən bir müşrik dəstəni görəndə Hz. Əliyə "Onlara hücum et" əmrini verdi. Əli onların bir çoxunu öldürərək, pərən-pərən saldı. Peyğəmbər başqa bir dəstə gördü və Hz. Əliyə "Onlara hücum et" əmrini verdi. Əli onların bir qismini öldürüb, digərlərini qaçmağa məcbur etdi".[327] Təsadüfi deyil ki, Peyğəmbər islamın bayrağını da ən lazımlı vaxtda ona etibar edirdi.[328]

Mənbələrin müqayisəli təhlili sübut edir ki, ərəblərin Azərbaycana 639-cu ildən başlayan ilk hücumları və müəyyən hüdud çərçivəsində qazandıqları ötəri qələbələri adda-budda xarakterli olmuşdu və bunlar Xilafət üçün müvəffəqiyyətli hesab edilə bilməzdi. Nəticədə ərəblər eyni yeri bir neçə dəfə almalı olurdular. Mənbələrdəki ziddiyyətli faktlara baxmayaraq, ərəblərin Sasani imperiyasının Xəzərsahili vilayətlərinə, o cümlədən Azərbaycana real hücumu yalnız 642-ci ildə baş verən Nihavənd və Həmədanın işğalından bir il sonra yəni 643-cü ildə mümkün oldu. Ərdəbil yaxınlığında bir neçə gün davam edən şiddətli döyüşdən sonra Adərbadaqan (Azərbaycan) mərzbanının qoşunları məğlubiyyətə uğradı. Ərəb sərkərdəsi əmir Ütbə ibn Fərqad ilə Azərbaycan mərzbanı İsfəndiyar ibn Fərruxzad arasında bağlanmış müqaviləyə əsasən

[327] Haydar Baş. İmam Əli. Bakı,Təknur, 2013, s. 448

[328] Samir Məmmədov. İmam Əlinin (ə) hərb məktəbi və müsəlman hərb sənəti irsinin tədqiqi və öyrənilməsinin zəruriliyi haqqında. İslam maarifçiliyi və müasir dövr, Bakı, 2015, s. 590-592

yerli əhali can vergisi (cizyə) vermək şərti ilə Xilafətin siyasi hakimiyyətini qəbul etdi. Vergidən qadınlar, uşaqlar, xəstələr, vəsaiti olmayan şəxslər, ərəb ordusunda xidmət etməyə razı olan azərbaycanlılar azad edilirdilər. İtaət müqabilində əhalinin həyatı, mal-mülkü, dini və adətləri toxunulmaz elan olunurdu.[329] Bu, rəsmi belə idi, ancaq faktiki olaraq əhali hər yerdə soyulub talan edilirdi, bu, bütün yazı boyu qeyd olunub.

Ərəblər yaxşı başa düşürdülər ki, şimal sərhədlərini möhkəmləndirmədən Azərbaycanı və eləcə də cənubi Qafqazın başqa vilayətlərini tabe etmək mümkün olmayacaq. Buna görə də Ərdəbilin işğalından sonra xəlifə qoşunları dərhal Xəzər sahili ilə ərəblərin Babu-l-Əbvab adlandırdıqları Dərbəndə doğru irəlilədilər. Uzun çəkən mühasirədən sonra Dərbənd mərzbanı Şəhriyara (Şəhribəraza) can vergisi vermək şərti ilə ərəblərin hakimiyyətini qəbul etmək təklif olunur, lakin keçidi qorumaqla müsəlmanlara kömək etdiklərinə görə, dərbəndlilər xəlifə ordusunun əsgərləri kimi can vergisindən azad oldular. Dərbəndi almaqla şimaldan təhlükəsizliklərini təmin edən ərəblər yeni torpaqlar ələ keçirmək məqsədi ilə Cənubi Qafqazın hər tərəfinə - Muğan, Tiflis, Alan ölkəsi və Albaniyaya dəstələr göndərdilər. Bunlardan yalnız Bukeyrin başçılığı ilə Muğana hücum etmiş ərəb qoşunu müvəffəqiyyət qazana bilir və 644-cü ildə muğanlılarla müqavilə bağlanır. Sonra ərəblər Dərbənddən şimalda olan Xəzər torpaqlarını tutmağa cəhd etsələr də, Bələncər yaxınlığında məğlubiyyətə uğrayıb geri çəkilirlər. Bununla, ərəblərin Azərbaycana birinci əsaslı yürüşü başa çatır.

Xəlifə Ömərin ölümündən (644) sonra yaranmış qarışıqlıqdan istifadə edən Azərbaycan əhalisi üsyan edib, ərəblərlə bağlanmış müqavilələrin şərtlərini yerinə yetirməkdən imtina etdilər. Yeni xəlifə Osmanın (644 - 656) Azərbaycana göndərdiyi sərkərdə əl-Valid ibn Üqbənin hücumu ilə ərəblərin Azərbaycana ikinci yürü-

[329] Azərbaycan tarixi, Bakı, 1993. s. 121 (Z.M.Bünyadov və N.M.Vəlixanlının materi-alları əsasında).

şü başlanır. Azərbaycan yenidən işğal olunur və köhnə müqavilələr bərpa olunur, onların şərtlərinə görə, Azərbaycan əvvəlki təzminatla yanaşı ildə 800 min dirhəm Xilafətə təzminat verməyə məcbur olur.

Sonra hələ 640-cı ildə Ərməniyyəni tutub, onun paytaxtı Dvində (Dəbil) qərarlaşmış ərəb sərkərdəsi Həbib ibn Məsləmə ona köməyə gəlmiş Səlman ibn Rəbiənin dəstəsi ilə Sünik tərəfdən Albaniya ərazisinə girir, bir neçə günlük mühasirədən sonra Beyləqan şəhəri döyüşsüz təslim olur. Sonra Bərdə şəhər əhalisi güclü müqavimət göstərsə də, o da alınır. Sonra Səlman Albaniyanın Arsak, Uti, Sakasena vilayətlərini, Şəmkiri tutub, Qəbələ, Şəki, Kambisenan, Xeyzan, Şirvan, Şabran, Maskat, Lakz, Filan, Təbərsəran və Dərbəndin hakimləri ilə müqavilə bağlayır. Lakin çox keçmir ki, şirvanlılar və dərbəndlilər öz qoşunları ilə Dərbəndə gəlmiş Xəzər Xaqanının məsləhəti ilə ərəblərlə bağladıqları müqavilələrdən imtina edirlər. Səlman 652-ci ildə Dərbəndə girir və xəzərlərin müdaxiləsini dəf etmək üçün Bələncərə doğru irəliləyir, lakin ərəblər döyşdə məğlub olur, Səlman isə öldürülür. İki il sonra xəlifə sərkərdə Həbib ibn Məsləməni Qafqaza göndərir. Həbib, iqamətgahı olan Dəbildən vilayət hakimlərinə xəbər göndərib, onlardan itaət tələb edir. Az sonra xəlifə Osman Hüzeyfə ibn əl-Yəməni Azərbaycan, Arran və Ərməniyyəyə hakim təyin edir və o, burada Həbib ibn Məsləməni əvəz edir. İşğal etdikləri torpaqları daha yaxşı idarə etmək üçün Hüzeyfə canişinliyi Bərdəyə köçürtdü.[330] Gördüyümüz kimi yaltaq tarixçilərin ağız dolusu yazdıqları "ərəb fütuhatları" özgə torpaqlarını zəbt etməkdən başqa bir şey deyildi. Nə Peyğəmbər (s), nə də Hz. Əli vaxtı özgə torpaqlrın işğalı faktı qeyd olunmayıb.

Belə vəziyyət Əli ibn Əbu Talibin zamanınadək davam etdi.[331] Yuxarıda qeyd olunduğu kimi, öz qohumları və yaxınlarını döv-

[330] Yenə də orada,s.121-123
[331] Aslan Həbibov. İslam həmrəyliyi, s. 24

lətin mühüm vəzifələrində cəmləyib, Beytu-l-maldan çox əliaçıqlıla onlara böyük hədiyyələr verən Osmanın hərəkətlərindən qəzəblənən, başda Misirdən gələn nümayəndələr olmaqla bəzi dəstələr, yuxarıda qeyd olunduğu kimi, onu öldürdülər. Osmanın qətlindən sonra müsəlmanlar Peyğəmbər məscidinə toplanıb, növbəti xəlifənin kimliyi barədə məsləhətə başladılar. Əmmar ibn Yasir, Malik ibn Haris Əştər, Rafaə ibn Rafe və başqaları Əlinin evinə gedib onun xəlifəliyinə beyət etdilər. Qanuni xəlifə seçilən Hz. Əliyə qarşı başda Ömər ibn Xəttab vaxtı Suriyaya vali təyin olunan Müaviyə ibn Əbu Süfyan olmaqla müxtəlif qüvvələr, Abdullah ibn Ömər, Səd ibn Əbu Vaqqas baş qaldırdılar, onlar Hz. Əliyə (ə) beyət eləmədilər və bu, bir neçə döyüşlə nəticələndi.[332] Onun xilafətinə qarşı çıxanların daxili müharibələri müsəlmanların parçalanmasına səbəb oldu (İrəlidə görəcəyik ki, Suriya valisi Müaviyə bütün hiylələri ilə İmam Əli və balaları İmam Həsən və İmam Hüseynə qarşı necə məkrlər və hücumlar etmişdir). Əsasını Müaviyə ibn Əbu Süfyan qoyan Əməvilər xilafəti hakimiyyətə gələr-gəlməz ərəblər yenidən Azərbaycana hərbi yürüşlərə başladılar. Albaniya hakimi Varaz Qriqorun oğlu Cavanşir ərəblərlə danışıq apararaq (667-680), Albaniyanı xilafətə tabe ölkə elan edir, lakin ölkəsinin daxili müstəqilliyiyini qoruyub saxlaya bilir. Cavanşir 680-ci ildə onun siyasi xətti ilə razılaşmayan bizanspərəst knyazların qəsdi ilə öldürülür. Atası qəsbkar Müaviyə ibn Əbi Süfyanın əli ilə xəlifə qoyulan və üç il xəlifəlik edə bilən Yezid (Yeri gəlmişkən, Peyğəmbər (s) Əbu Süfyan, qardaşı Yezid və oğlu Müaviyəni lənətləmişdi.[333]) Cavanşirin qardaşı oğlu I Varaz Tridatı (680-699) şərq vilayətlərinin canişini, Alban məmləkətinin və Uti nahiyəsinin hökmdarı təsdiq edir. Yezidin ölümündən sonra 685-ci ildə xəlifəliyi ələ alan Əbdülməlik ibn Mərvan Bizans imperatoru II Yustinianla bağladığı sülh müqaviləsinə görə Cənubi Qafqaz hər iki döv-

---

332 Şahlar Şərifov. İslam tarixi, s. 97-98

333 Yenə orada, s. 96

lətin nüfuz dairəsinə düşür. 688-690-cı illərdə Albaniya və qonşu dövlətlər dəfələrlə ərəblər və bizanslıların hücumlarına məruz qalırlar. Nəticədə Albaniya üçqat zülmün - ərəblər, bizanslılar və xəzərlərin asılılığına düşür və hər üç ölkəyə vergi verməli olur. 705-ci ildən Albaniya siyasi müstəqilliyini də itirərək, Arran vilayəti adı altında ərəblərin tam tabeliyi altına düşür.

Ərəb işğalının ilk günlərindən ərəblərin Adərbadaqan adlandırdıqları (ərəb hərfləri dəl, zəl, ra, zə bir-birlərinə oxşadıqları və əvvəllər hərflərin üzərində və altlarında fərqləndirici nöqtələr olmadığı üçün ərəblərin Azərbaycan yazdıqları söz Adərbadaqan kimi oxunmuşdur) Azərbaycan və eləcə də Ermənistan, Şərqi Gürcüstan (Kartli) və əl-Cəzirə ilə birlikdə Xilafətin beş vilayətindən birinin tərkib hissəsi olan Albaniya məhz bu dövrdən başlayaraq, xəlifə Əbdülməlik ibn Mərvanın keçirdiyi yeni inzibati islahata əsasən, elə Albaniya kimi siyasi müstəqilliyini əldən vermiş Ermənistan, Şərqi Gürcüstan və Dağıstan torpaqlarının bir hissəsi ilə birləşdirilərək Ərminiyyə inzibati bölgəsinə aid edilir; ərəblərəqədərki Bizans inzibati bölgüsündən miras qalmış bu adın meydana çıxmasına əsas səbəb ərəblərlə əks cəbhədə olan Bizansa qarşı ideoloji mübarizə aparan erməni din xadimlərinə iltifat göstərən xəlifənin məqsədli siyasəti nəticəsində alban kilsəsinin erməni kilsəsinə tabe edilməsi və bununla əlaqədar bütün Arran və Ermənistan xristianlarına real rəhbərliyin erməni katolikosunun əlində cəmləşməsi, Azərbaycanın isə bir dövlət kimi dünya xəritəsindən silinməsi oldu.[334] O zamanlar Ərməniyyə və ya (Ərminiyyə) deyərkən yalnız Ermənistan deyil, müasir Azərbaycan torpaqlarının bir hissəsi və əlavə ərazilər (indiki Gürcüstan, Ermənistan, Dağıstan) nəzərdə tutulurdu. Ərməniyyə islam xilafətinin böyük inzibati əyalətlərindən biri idi. Bəzi mənbələrdə Dərbənddən Həmadana kimi uzanan torpaqlar Azərbaycan, Arran, Ərməniyyə adlı üç hissəyə bölünür, bəzən isə ümumiləşdirilərək ya hamısı Azərbaycan,

[334] Azərbaycan tarixi, yenə orada, s. 124-126

ya da Ərməniyyə adlandırılırdı. Ərəblər çox vaxt üç ölkəni – Azərbaycan, Arran və Ermənistanı bir inzibati vahiddə birləşdirərək, bir canişinlik yaradır və bunu bəzən Ərməniyyə, bəzən də Azərbaycan adlandırırdılar və bu şimaldan Dərbənd, cənubdan Həmədanı əhatə edirdi. İstəxri qeyd etmişdir: "Biz Ərməniyyə, Arran və Azərbaycanı xəritədə birləşdirir və ona bir ölkə kimi baxırıq..." Həmin Azərbaycanın hər tərəfini gəzib, onun xəritəsini tərtib edən İbn Hövqəl İstəxrinin dediklərini tamamlayaraq, Azərbaycan, Arran və Ərməniyyənin ümumi xəritəsini yaratmış və bunu "Azərbaycanın xəritəsi" adlandırmışdır. "Hüdud əl-aləm"in müəllifi Azərbaycan, Arran və Ərməniyyəni bir ölkə kimi qeyd edir" [335].

Bir az irəliyə gedərək qeyd edək ki, VIII əsrin əvvəllərində öz qüdrətli dövrünü sürən Ərəb Xilafəti mühüm strateji baza olan Azərbaycan və ona qonşu ölkələrdə daha da möhkəmlənmək uğrunda xəzərlərlə mübarizəyə başladı. 707-720-ci illərdə Dərbənd bir neçə dəfə əldən-ələ keçdi. Ərəb sərkərdəsi əl-Cərrah Dərbəndi alandan sonra şimala doğru hərəkət edib xəzərlərin bir neçə şəhər və qalalarını alıb, əsir tutduğu xəzərləri Qəbələ ətrafına köçürtdü. 730-731-ci illərdə xəzərlər və başqa türk tayfaları xaqanın oğlunun başçılığı altıda 300 minlik qoşunla Dərbənd, Dəryal və başqa keçidlərdən Azərbaycana soxulub, yolları üzərində olan şəhər və kəndləri qarət edə-edə Savalanadək irəliləyib, orada ərəbləri məğlub edib, Azərbaycan, Arran və Ermənistanın bir çox şəhər və kəndlərini dağıdıb, insanları öldürməyə, zorakılıq etməyə başladılar. Xilafət bu təhlükəyə qarşı Səid əl-Xəraşini Azərbaycana göndərdi. O, "müqəddəs" müharibədə vuruşmaq üçün könüllüləri ordusuna dəvət etdi. O, böyük bir qüvvə ilə əl-Cəzirədən keçib Xilat, Bərdə, Beyləqan, Varsan, Ərdəbil və onlarla başqa şəhər və qalaları xəzərlərdən təmizlədi. Elə bu zaman xəlifə öz qardaşı Məs-

[335] Z.M.Bünyadov. Azərbaycan VII – IX əsrlərdə, s. 136-137; Natiq Rəhimov. Azərbaycan hədislərdə. "Azərbaycan və Əhli-beyt irsi" məqalələr toplusu, Bakı- 2013, s. 39

ləməni Azərbaycan və Ərminiyyəyə hakim təyin etdi. O, ərəblərə tabe olmaq istəməyən Şabran, xəzərlərin yerləşdikləri Dərbənd və başqa yerləri yenidən işğal edib, Bələncər, Bəbəndər və Səməndər şəhərlərinədək irəlilədi. Azərbaycan, Ərminiyyə və əl-Cəzirənin hakimi təyin olunan Mərvan ibn Məhəmməd 732-733-cü illərdə 120 min qoşunla Arrana gəlib, Qazaxda düşərgə saldı. O, xəzərlərin Volqa çayı üzərindəki paytaxtınadək irəliləyib, xaqan başda olmaqla xəzərlərin bir qismini (Allahın buyurduğunun əksinə olaraq) islamı qəbul etməyə məcbur edib, 40 min xəzəri Samur çayı ilə Şabran arasına köçürtdü. Mərvan əhalini cürbəcür vergilərlə çapıb - talayır, Dərbənddə saxlanılan əsgərləri yedirdirdi.[336]

Mənbəələrin məlumatlarına əsaslanaraq cürətlə demək olar ki, Peyğəmbər dövründə əvvələn, işğalçılıq siyasəti yox idi, ikincisi, islamı zorla qəbul etdirmə yox idi, əhalini çapıb-talamaq yox idi (Çünki, yuxarıda qeyd olunduğu kimi, Quranda Allah-Təalə Peyğəmbərə (s) islamı güclə qəbul etdirməməyi buyurmuşdu). Onun vəfatından az keçməmiş yuxarıda saydıqlarımız baş verirdi. İslamın belə siyasətindən, başqa din və təriqət sahibləri, başqa millətlər və xalqlar əlbəttə narazı qalacaq və bu dinin yaradıcısına mənfi münasibət bəsləyəcəklər. Bunun səbəbkarları isə əvvəli müşrik olub, islamı naəlaclıqdan qəbul edib, sonradan vəzifə sahibləri olanların yenə də islama qarşı çirkin əməlləridir. Buna canlı misal olaraq Xilafətdən çox uzaqda yerləşən Azərbaycanın – Qafqazın 639-656-cı illər arası və Müaviyə vaxtı işğalını göstərmək olar.

Bundan sonra Xilafət Azərbaycanda mövqeyini möhkəmlətmək üçün bütöv ərəb qəbilələrini buraya köçürməyə başlayır. Dərbənd, Bərdə, Beyləqan, Qəbələ, Şirvan, Varsan, Təbriz, Miyanə, Sərab və b. strateji əhəmiyyətli şəhərlərdə hərbi məskənlər (rabatlar) salınır və bütün bu hərbi qarnizonlar yerli əhalinin hesabına saxlanırdı. Kufə, Bəsrə, Şam və başqa ərəb bölgələrindən Azərbaycandakı qohumlarının yanına saysız-hesabsız ərəblər axı-

[336] Azərbaycan tarixi, yenə orada, s. 126-128

şıb gəlir, hərəsi bacardığı qədər torpaq tutur, bəzən az miqdarda pulla alır və böyük torpaq sahiblərinə çevrilirdilər. Həddən ağır vergilərdən təngə gəlmiş kəndlilər kütləvi şəkildə kəndlərini tərk edib, hara gəldi gedirdilər. Torpaq sahibləri isə tərk edilmiş torpaqları da zəbt edib, daha da varlanırdılar.[337]

Erkən Xilafət dövründə feodal istismar formalarından biri olan yardarlıq Azərbaycanda geniş yayılmağa başladı. Yerli torpaq sahiblərini də var-yoxdan çıxaran vergilər onları öz torpaqlarını xırda hissələrə bölüb, yardarlara verməyə məcbur edirdi. Torpaqlar bütöv ərəb qəbilələrinin və ya milliyyətcə ərəb olan iri torpaq sahibləri və dövlət qulluqçularının himayəsinə verilirdi. Torpaq məhsulun 1/6-i və 1/7-i müqabilində icarəyə götürülürdü. Torpağın əsl sahibləri özlərini məmurların zülmündən müdafiə etmək üçün məhsulun bir hissəsini öz himayəçilərinə verirdilər. Mənbələrin yazdıqlarına görə hələ işğalın ilk illərində Azərbaycan əhalisinin çox hissəsi ixtiyarında olan torpaqları və bütöv kəndləri ərəb qəbilələrinin himayəsinə verir, həmin qəbilələr onların müdafiəçisi olur, onlar isə ərəblərin yardarlarına çevrilirdilər. Bu vəziyyət ərəblərin yerli əhali ilə bağladıqları müqavilələrdə öz əksini tapmışdı, buraya müxtəlif şərtlərlə yanaşı yerli torpaq sahiblərinə mənsub torpaqların onların özlərində qalması şərti də daxil edilmişdi. Zimmilər – başqa dinə mənsub sahibkarlar müsəlman icmasının himayəsində qalır, torpaq vergisi – xəracla yanaşı qeyri-müsəlmanların verdiyi can vergisi – cizyə də verirdilər. Şəraitə görə cizyə hər ilin gəlirinə görə yalnız kişilərdən – dövlətlilərdən 48 dirhəm, ortababdan 24 dirhəm, kasıblardan 12 dirhəm alınırdı. İslamı qəbul etmiş şəxslərdən isə yalnız onda bir – uşr vergisi alınırdı. Torpaq vergisini – xəracı dinindən asılı olmayaraq hamı ödəyirdi. Ancaq müsəlmanlardan fərqli olaraq, zimmilərdən bu vergi ikiqat alınırdı.[338]

---

[337] Yenə orada, s. 128

[338] Yenə orda, s. 129

Xərac və cizyədən başqa bu dövrdə eyni zamanda xums – mal və mülkiyyət üzərinə qoyulan vergi-gəlirin 1/5 – i qədər, zəkat – varlı müsəlmanlardan kasıb müsəlmanların xeyrinə alınan vergi, zəkat əl-fitr – orucluğun başa çatması münasibəti ilə verilən pay – fitrə, sədəqə - kasıblara verilən sədəqə də verilirdi. Bunlardan başqa Şirvanda (Bakıda) neft və duz mədənlərinin üzərinə də vergi qoyulmuşdu. Mənbələrin yazdığına görə IX əsrin əvvəllərində Xilafətin Azərbaycan və Arran vilayətlərindən ayrı-ayrılıqda ildə 4 – 4,5 mln. dirhəm vergi alınırdı. 725-726- cı illərdə Azərbaycanda əhali, torpaq, mal – qara və s. siyahıya alındı və vergi siyasəti dəyişdirildi, yeni vergilər təsis edildi, hətta nikah bağlanmasına görə də vergi vermək lazım gəlirdi (İslama bundan böyük ləkə nə ola bilərdi?). Cənubi Azərbaycanda isə əvvəlki Sasani dövlətinin vergilərindən "Novruz və Məhrəcan bəxşişləri"nin alınması bərpa edildi. Bu hal əhalinin kəskin narazılığına səbəb oldu. Buna görə də, yadellilərin zülmünə qarşı Xürrəmilər hərəkatı və Azərbaycanın igid oğlu Babəkin dəstəsinin qəhrəmanlıqları Azərbaycanı bürüdü. IX əsrin birinci rübündə bütün Cənubi Qafqazı Xilafətə qarşı mübarizə dalğası çənginə almışdı. Arranın xeyli hissəsi tamamilə Xilafətin asılılığından çıxmışdı. Azərbaycan xalqının Xilafətə qarşı bu uzun çəkən mübarizəsini yalnız 853-cü ildə Xilafətin qoşunlarına başçılıq edən sərkərdə Buğa əl-Kəbir (Böyük Buğa) yatıra bildi. Xəlifə əl-Mütəvəkkilin 861-ci ildə öldürülməsi ilə bağlı Xilafətdəki hərc-mərclikdən istifadə edən Məzyədi ərəb mənşəli Heysəm ibn Xalid ilk dəfə olaraq qədim Şirvanşah titulunu götürüb, müstəqil Şirvan dövlətini bərpa etdi. Ara qarışıqlığından istifadə edən azərbaycanlılar Alban padşahlığını, Dərbənd əmirliyini, qüdrətli Sacilər, 941-ci ildə Salarilər, 951-ci ildə Şəddadilər, 983-cü ildə Rəvvadilər dövlətlərini yaratdılar.[339]

Bir qədər əvvəlki fikrimizə qayıdaraq qeyd edək ki, Peyğəmbərin (s) "Mən Allahın Kitabını və Əhli-beytimi - Əlini və öv-

[339] Yenə orada, s. 129-138

ladlarımı sizə əmanət qoyuram" hədislərinə əsaslanan müsəlmanlar Hz. Əlinin Peyğəmbərin yerinə seçilməsini tələb edirdilər (Onlardan bir qrupu sonralar Hz. Əlini ilahiləşdirib, əliallahı adlandılar). Peyğəmbərin Hz. Əliyə olan hörmət və məhəbbəti isə başa düşüləndir. Məhəmməd yetim qalandan sonra onu babası Əbdülmüttəlibdən sonra Əlinin atası, Məhəmmədin əmisi Əbu Talib (o, Məhəmmədin atası Abdullahla bir anadan doğulmuşdu) himayəsinə alıb, daim onu qorumuşdu. Məhəmməd böyüyüb əli çörəyə çatandan sonra isə o, Əlini əmisindən alıb himayə və tərbiyə etmiş, Əli islamı ilk qəbul etmiş və Peyğəmbərin sevimli qızı Fatiməyə evlənmişdi. Peyğəmbər Əlini öz davamçısı və əvəzedicisi kimi görürdü. Hədislərdə onun bu istəyinin Allah tərəfindən dəstəklənməsi qeyd edilir. Peyğəmbər (s) Hz. Əliyə (ə) demişdi: "Ya Əli! Sən "İxlas" surəsi mislindəsən. Kim onu bir dəfə oxusa Quranın 1/3-ni, iki dəfə oxusa Quranın 2/3-ni, üç dəfə oxusa Quranı bütöv oxumuş hesab olunur. Səni də kim dili, əli və qəlbi ilə sevsə Cənnətə gedər. Təbuq döyüşünə gedərkən, Peyğəmbər Əlini Mədinədə öz yerinə qoymuşdu ki, münafiqlər onun yoxluğundan istifadə edib, dövlət çevrilişi etməsinlər. Peyğəmbər ona özü kimi inanırdı. Ona Harunun Musaya olan nisbəti kimi özünə nisbət hesab edirdi. Burada Əlinin kimliyi haqda qeyd etmək yerinə düşər. Şeyx Səduq və Qattal Nişapuri qeyd etmişlər ki, Yezid ibn Qanəb demişdir: "Mən, Abbas ibn Əbdülmüttəlib və Əbdülüzza tayfasından olan bir qrup adam Allah Evinin-Kəbənin kənarında oturmuşduq. Əlinin anası Fatimə bint Əsəd doqquz aylıq körpəyə hamilə vəziyyətdə Kəbə qarşısında doğuş ağrısı çəkə-çəkə deyirdi: "Pərvərdigara, mən Sənə, peyğəmbərlərindən gələnə, Sənin nazil etdiyin Kitablara iman gətirmişəm. Cəddim İbrahim-Xəlilin sözlərini təsdiq edirəm. Bu qədim evi o tikmişdir. Səni and verirəm onun və bətnimdəkinin haqqına, bu doğuşu mənim üçün asan et". Sonra Yezid ibn Qanəb davam edərək deyir ki, biz öz gözümüzlə Kəbə Evinin arxa divarının (yəni Kəbənin qapısının yerləşdiyi divarın arxasındakı divarın)

yarıldığını və Fatimənin Kəbəyə daxil olduğunu gördük. (Kəbənin dörd divarından üçü - Kəbənin qapısı yerləşən divar, İsmayıl peyğəmbərin məqamı-bağışlanma navalçası olan divar və Kəbənin qapısının arxasındakı divar - duaların qəbul olunması divarlarıdır (Abutalıb Məmmədov. Həcc ziyarəti). O, içəri girdikdən sonra divar birləşdi. Nə baş verdiyini bilmək üçün Kəbənin qapısını açmaq istəsək də, qapını aça bilmədik, başa düşdük ki, bu Allahın işidir. (İndi də Səudiyyə vəhhabiləri o divarın yarılan yerini nə qədər suvaqlayırlar ki, yarıq bilinməsin, o baş tutmur, yarıq yeri yenidən görünür). Dörd gün sonra Fatimə uşaq qucağında Kəbədən çıxdı və dedi: "Mən bütün qadınlardan üstünəm...Məryəmə Beytü-l-Müqəddəsdə doğuşa icazə verilmədi. Mən Allahın Evinə daxil olundum, övladımı orada dünyaya gətirdim, Behişt meyvələrindən də yedim, Kəbədən çıxmaq istəyəndə, nida gəldi ki, ya Fatimə, onun adını Əli qoy, Əliyyu-l- Ə"la. Mən ona öz adımdan götürdüyüm adı qoydum, onu öz ədəbimlə tərbiyə etdim, ona gizli elmlərimdən agahlıq verdim. Odur mənim Evimdə bütləri sındıran! Odur Evimin damında azan deyən, Məni pak bilən! Xoş o kəsin halına ki, onu dost tutar, ona itaət edər, vay o kəsin halına ki, onu düşmən tutar və ona müxalif olar".[340]

Hz. Əlinin Kəbədə dünyaya gəlməsi əhli sünnə alimlərinin də qəbul etdikləri bir həqiqətdir. Məşhur əhli sünnə alimi İbn Səbbağ Maliki özünün "Fisuhu-l-muhimmə" əsərində yazır: "Hz. Əlidən qabaq kimsə Kəbə evində dünyaya göz açmamışdı (Yəqin bundan sonra da Allahın hövlü-qüvvəsilə açmayacaq). Bu fəziləti Allah yalnız Əliyə aid etmiş və bununla da xalqa onun uca məqamını göstərmişdir".[341]

Əhməd ibn Hənbəl "Musnəd" əsərində Salman Farisiyə istinadən qeyd edir ki, Peyğəmbər deyirdi: "Allah mən və Əlinin nu-

---

[340] H.F.Nurullah. İmam Hüseyn (ə), s. 38; Yenə o, İmam Əli (ə), s. 18
[341] İbn Səbbağ. Fusul muhimmə, s. 144; Şahlar Şərifov. İslam tarixi, s. 88

runu bir yaradaraq, iki hissəyə bölüb, bir hissəsi mən, digəri isə Əlidir."[342]

Əlinin altı yaşı olanda Məkkədə qıtlıq oldu. Əbu Talibin evində böyüyən Peyğəmbər onun ailəsinin böyük olduğunu nəzərə alıb, əmisi Abbasa deyir ki, gəl Əbu Talibə kömək məqsədilə hərəmiz onun bir uşağını himayəyə götürək. Abbas Cəfəri, Həmzə Talibi, Məhəmməd isə Əlini himayəyə götürürlər. Peyğəmbər onu özünə layiq tərbiyə etdi. Əli Məkkə və Mədinədə nazil olan Quran ayələrini diqqətlə yazdığına görə o, vəhy katiblərindən və Quran hafizlərindən idi. "Hüdeybiyyə" sülh müqaviləsini də Peyğəmbərin (s) imlası ilə Hz.Əli (ə) öz dəst-xətti ilə yazmışdır. Peyğəmbər deyərdi ki, ümmətin islami sünnə və qəzavat qanunları barədə ən biliklisi Əli ibn Əbi Talibdir.[343]

Hz. Əli Peyğəmbərin əbasına bürünüb, onun yerində yatanda, müşriklər əbanı qaldırmadan onu Peyğəmbər bilib öldürə də bilərdilər. Məhəmmədi tuta bilməyib Hz. Əlini incidərək, onu Kəbə məscidində bir müddət həbs də edirlər. Bu zaman "İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda (Allahın rizası üçün) öz canını fəda edər. Allah öz bəndələrinə qarşı çox mehribandır" [344] ayəsi nazil oldu. Yaqubi "Tarix" əsərində yazır: "O gecə Əli Peyğəmbərin (s) yatağında yatmışdı. Allah-Təalə Cəbrayıl (ə) və Mikayıla (ə) vəhy etdi ki, Mən sizdən birini ölümə məhkum etmişəm, hansı biriniz fədakarlıq edib, özünü ölümdə qabağa salar? Hər ikisi həyatı, yaşamağı seçdilər. Vəhy gəldi ki, niyə Əli kimi deyilsiniz? Onu Məhəmmədlə bərabər qərar verdim və birinin ömrünü digərindən çox etdim. Amma Əli ölümü seçdi və Məhəmmədin yaşamasını üstün tutaraq, onun yatağında yatdı ki, Məhəmməd yaşasın. Gedin, onu öldürməyə hazırlaşan düşmənlərdən qoruyun. Mələklər yerə endilər. Biri Əlinin (ə) baş tərəfində oturdu

---

[342] Əllamə Məclisi.Biharul-Ənvar, c. 35 , s. 24; H.F. Nurullah. İmam Əli (ə), s. 19

[343] Şeyx Abbas Qumi. Zibdətul-əhadis; H.F.Nurullah. İmam Əli (ə), s. 29

[344] Bəqərə,207

ki, onu düşmənlərdən qorusun və daşlardan mühafizə etsin. Cəbrayıl dedi ki, sənin kimilərə eşq olsun, ey Əbu Talibin oğlu! Allah yeddi Göyün mələklərinə səninlə iftixar etdiyini buyurur”. [345]

Mədinədə Peyğəmbər Hz. Əlini özünə qardaş götürmüş, o da öz tərbiyəsini Rəsulu-l-Lahdan almışdır. Hz. Əli Təbuq döyüşündən başqa bütün döyüşlərdə Peyğəmbərlə birlikdə iştirak etmişdir, Peyğəmbər o dəfə onu Mədinədə öz yerinə qoymuşdu, o isə buna görə incimişdi də.

Süleym ibn Qeys rəvayət edir ki, Əbu Talib oğlu Əli Siffindən qayıdarkən biz məsciddə oturmuşduq. O, əyləşən kimi onu dövrəyə aldıq, biri ondan əshabı haqda soruşdu, Hz.Əli dedi; “Rəsulu-l-Lah deyirdi ki, Allah mənə əshabımdan dördünü sevməyi əmr etmişdir. Onlar Əbu Talib oğlu Əli, Salman, Əbuzər və Miqdaddır. Peyğəmbər mənə min kəlmə öyrətmişdir, hər kəlmədən min qapı açılır. And olsun Allaha! Mən Tövratı Tövrat əhlindən, İncili İncil əhlindən, Zəburu Zəbur əhlindən, Quranı da Quran əhlindən daha yaxşı bilirəm”. [346] İmam Rza (ə) İmam Əlidən nəql edirdi: “Biz Əhli-beyt heç bir şəxslə müqayisə olunmarıq. Quran bizdə nazil olub və biz risalətin mədəniyik.” [347] Peyğəmbər buyurmuşdu: “Həsənlə Hüseyn məndən və atalarından sonra Yer əhlinin ən fəzilətli, ən üstün şəxsləridir. Onların anaları da Yer əhli qadınlarının ən üstünüdür.[348] Başqa bir hədisdə isə: “Ya Əli! Sən bəşəriyyətin ən xeyirlisisən, sənin haqqında yalnız kafirlər şəkk-şübhə edərlər”. [349] Əbuzərin dediyinə görə, Peyğəmbər Hz. Əliyə baxıb buyurdu: “Bu, əvvəlkilərin və sonrakıların, Yer və Göy əhlinin ən xeyrlisidir. Bu, siddiqlərin və vəsilərin rəhbəridir”. [350] Əbuzər əl-Qəffari rəvayət edirdi ki, Peyğəmbər buyururdu ki, Cəbrayıl və İsrafil bir-

---

[345] H.F.Nurullah. İmam Əli (ə), s. 41
[346] Əllamə Məclisi. Biharul-ənvar, c. 26, s. 64
[347] Yenə orada, s. 269
[348] Yenə orada, s. 272; Şeyx Səduq. Uyunul-əxbar, s. 222
[349] Biharul-ənvar, c. 26, s. 308; H F.Nurullah. İmam Əli (ə), s. 107
[350] Biharul-ənvar, c. 26, s. 309

birlərinə qarşı fəxr etdilər. İsrafil dedi: “Mən səndən üstünəm”. Cəbrayıl soruşdu: “Sənin məndən üstün olmağına səbəb nədir?” İsrafil dedi: “Mən Ərşi daşıyan səkkiz mələyin, üfürüləcək Surun sahibiyəm. Mən Allaha mələklərin ən yaxınıyam”. Cəbrayıl dedi: “Mən səndən daha xeyirliyəm”. İsrafil soruşdu: “Məndən üstün olmağına səbəb nədir?” Cəbrayıl dedi: “Mən Allahın vəhyinin əmanətdarı, Onun peyğəmbərlərinin elçisi, tutulan Ayın və Günəşin sahibiyəm. Allah məhv etdiyi ümmətləri yalnız mənim əlimlə məhv etmişdir”. Bu barədə Allaha dedikdə Allah buyurdu: “Sakit olun, and olsun izzəti cəlalıma, Mən elə bir şəxs yaratmışam ki, o, sizin ikinizdən də daha xeyirli və fəzilətlidir!” Onların ikisi də susdu: “Ey Rəbbimiz! Bizdən xeyirlisini yaratmısan, axı bizi nurdan yaratmısan!” Allah buyurdu: “Bəli”. Sonra O, onların gözlərindəki pərdəni götürüb buyurdu: “Baxın Ərşin yuxarı hissəsinə”. Onlar baxdıqda gördülər ki, orada “Lə ilahə illə-l-Lah” və Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn adları yazılıb. Cəbrayıl dedi: “Ya Rəbbim, Səni and verirəm onların haqqına ki, məni onlara xidmətçi edəsən!” Allah buyurdu: “Sən onlara xidmətçi təyin olundun”. Əbuzərin rəvayətinə görə Peyğəmbər demişdi: “Cəbrayıl biz Əhli-beytdəndir və bizim xidmətçimizdir.” [351] “Və ən yaxın qohumlarını qorxut...” ayəsi nazil olanda Məhəmməd Əbdülmüttəlib oğullarını yeməyə dəvət edib, Allahın birliyi və özü də onun Elçisi olduğunu xəbər verib, onları bütlərə sitayiş etməməyə çağırdı. Onlar Peyğəmbərin dəvətini narazılıqla qarşıladılar, əmisi Əbu Ləhəb isə onu təhqir etməyə başladı. Təkcə Əli ayağa qalxıb, “Dəvətini mən qəbul edirəm, ya Rasulə-l-Lah” demişdi.[352] Bunun nəticəsi idi ki, Peyğəmbər onu özündən sonra ümmətə imam və xəlifə təyin etmişdi.

---

[351] Biharul-ənvar, c. 26, s 344-345; İrşadul-qulub, s. 214; Kənz cəmiul-fəvaid, s. 483; H/F/Nurullah/ Imam Əli (ə), s. 108

[352] Kutluay, Siyeru Sahabe, Kilim Matbaası, İstanbul, 2005, c. 1, s. 393-394; H.F.Nurullah, yenə orada, s. 110

Hz. Əlinin künyəsi Əbu-l-Həsən və Əbu-l-Hüseyn olmuşdur. Peyğəmbərin onu adlandırdığı Əbu Turab (torpaq atası) künyəsindən isə Hz. Əlinin daha çox xoşu gəlirdi.[353]

İmam Əli ibn Əbi Talib zəiflərə, uşaqlara, qadınlara və qocalara mərhəməti dindarlığın xüsusiyyətlərindən hesab edirdi. Ona görə də Azərbaycanda müxtəlif dinlər tarixən yaranıb-yayılsa da, onların heç biri islam qədər ümumxalq dininə çevrilməmişdi. İslamın Azərbaycanda yayılması vaxtı xalqın narazılığı və çıxışı islam dininə qarşı deyil, ərəblərin işğalçılıq siyasətinə qarşı idi.[354]

Hz. Əli xəlifə seçiləndən sonra bəzi ləyaqətsiz hakimləri saleh adamlarla əvəzləmək məqsədilə Şam valisi Müaviyəyə məktub göndərdi. O isə məktubu Suriya xalqından gizlədib Zübeyr və Təlhəyə məktub yazıb, Kufə və Bəsrəni tutmağı onlara tövsiyə etdi. Onları Hz. Əliyə qarşı qızışdırıb, özündən sonra xəlifəliyi Zübeyrə, ondan sonra isə Təlhəyə vəd etdi.[355] Onlar Müaviyənin tövsiyəsi ilə Hz. Əlini yalandan Osmanın qətlində günahkar hesab etdiklərini bəhanə gətirərək Məkkəyə gedib Əlinin düşmənləri Mərvan ibn Hakəm, Abdullah ibn Həzrəmi, Yəli ibn Umeyyə, Abdullah ibn Amir və başqaları ilə birlikdə Cəməl döyüşünün planını cızdılar.[356]

---

[353] Mustafa Necati Bursalı.Allahın Arslanı, Evliyalar Sultanı Hz.Ali.Çile yayınları, İstanbul, 1975, s. 108

[354] Hidayət Orucov.Azərbaycanda din. B. 2012, s. 79-80

[355] Muntəxəbatu-t-təvarix, s. 177; Şahlar Şərifov. İslam tarixi, s. 98

[356] Şahlar Şərifov, yenə orada

## Cəməl döyüşü haqqında

Bu döyüşdə Əbu Bəkrin qızı - Peyğəmbərin dul qalmış arvadı Aişə, Təlhə, Zübeyr və yuxarıda adları qeyd olunanlar böyük bir qüvvə ilə Bəsrəyə hücum etdilər. Aişə qırmızı dəvənin üstündə oturduğu üçün o, "Cəməl (dəvə) döyüşü" adlanır. Bəsrədə olduğu üçün "Bəsrə döyüşü", həm də "Beyəti pozanlar", (Təlhə, Zübeyr) savaşa qalxdıqları üçün "Nakisin döyüşü" də adlanır (Ərəbcə "nəkəsə" feili - "pozmaq, riayət etməmək, müqavиləni ləğv etmək, tüpürdüyünü yalamaq" mənalarını verir). Bu döyüş müsəlmanlar arasında ilk vətəndaş müharibəsi idi. Təlhə və Zübeyr Hz. Əliyə (ə) beyət edib, ondan böyük vəzifələr gözləyirdilər. Bu olmadıqda onlar Aişəyə qoşulub, Əliyə qarşı çıxdılar. Onlar əvvəl Osmanı ən çox tənqid edənlər idilər. Ayişə isə: "Osman Quranın hökmünü tapdalamışdır" dediyi halda Hz. Əli xəlifəliyə gəldikdə "Osman məzlum öldürülmüşdür" deyərək, Kufə və Bəsrə valiliyinə göz dikən, lakin onu ala bilməyən Təlhə və Zübeyrin təhriki ilə Hz. Əliyə qarşı üsyana qalxdı. (Əslində o, Peyğəmbərin (s) zövcəsi olduğuna gorə Hz. Əlini dəstəkləməli idi, ancaq o, Əbubəkrin qızı olduğu üçün bunun əksini etdi. Əbubəkrin isə Əli və Fatiməyə olan rəftarını yuxarıda – Məhəmməd Xalidin kitabında görmüşdük). Suriya valisi Müaviyə ibn Əbu Süfyan isə heç vaxt Osmanın əmr-lərinə qulaq asmadığı halda, o öləndən sonra onu guya öz qohumu hesab edib, onun ölümündə yalandan heç bir sübutu olmadan Hz.Əlini günahlandırıb, ona qarşı çıxışa hazırlaşırdı. Belə bir şə-raitdə Hz. Əli Osmanın dikbaş, dindən uzaq qohumları Üməyyə oğullarını dövlət işlərindən uzaqlaşdırmağa başladı. Onlar Beytü-l-malı qarət edirdilər, onların çoxu da Bəsrədə idi. Ona görə də Aişə Təlhə və Zübeyrin dəstəyi ilə, işdən çıxarılanlara arxalanaraq, 30000-lik qoşunla 656-cı ilin noyabrında Bəsrəyə hücum etdi. Hz. Əli oğlu Həsən, Malik Əştər və Məhəmməd ibn Əbu Bəkri Kufəyə

qoşun toplamağa göndərdi. O vaxt Kufədə Osman tərəfindən vali təyin edilən Əbu Musa Əşəri idi. Əli xilafətə keçəndən sonra ona məktub yazıb Kufə əhlinin beyətini almağı tapşırmışdı. O isə əksinə olaraq əhalini Təlhə və Zübeyri müdafiə etməyə çağırdı. Buna baxmayaraq, İmam Həsənin bəlağətli xütbəsi sayəsində 12000 qoşun yığıldı. Hz. Əli Malik Əştərin başçılığı altında 10000-lik qoşunu yola salıb, sonradan özü də 10000-lik qoşunla ona qoşuldu. Hz. Əlinin qoşunlarından əvvəl Təlhə və Zübeyrin qoşunları Bəsrəyə çatıb, oranın camaatını Əliyə qarşı qalxmağa çağırsalar da, Bəsrə əhli buna razı olmadı. Müxalif qoşunu şəhərə hücum edib xeyli adamı qətlə yetirdi. Hz. Əli tərəfindən Bəsrəyə hakim təyin edilmiş Osman ibn Hüneyf təslim olmağa məcbur oldu[357]. Əli qoşunu müxalif qoşunla üz-üzə durduqda Hz. Əli silahsız Bəsrə qoşununun qabağına gəlib Zübeyri səslədi. Züeyr Hz. Əli ilə üzbəüz dayanıb Əlinin nə deyəcəyini gözlədi. Əli soruşdu: “Etdiyiniz bu azğınlığın səbəbi nədir?” Zübeyr dedi: “Xəlifə Osmanın qanını almaq istəyirik”. Hz. Əli buyurdu: “Əgər düz deyirsinizsə, onda qollarınızı bağlayıb, özünüzü Osmanın valisinə təslim edin. Məgər onu qətlə yetirən siz deyildiniz?” Sonra Hz. Əli Zübeyrə yarı yoldan qayıtmağı tövsiyə etdi və Peyğəmbərin (s) sözlərini ona xatırlatdı ki, bir gün o, (Zübeyr) Əliyə qarşı vuruşa qalxacaq. Əlinin bibisi oğlu olan Zübeyr bu sözlərdən sonra utanıb, Bəsrə qoşunundan ayrıldı. Qanlı vuruşda Ayişəgilin 30000-lik ordusu məğlub oldu. Vuruşda 15000-ə yaxın müsəlman öldürüldü – 1700 Hz. Əli qoşunundan, 13000-dək Aişə qoşunundan. Təlhə və Zübeyr də öldürüldü, Təlhədən xoşu gəlməyən Mərvan ibn Hakəm onu zəhərli oxla özü öldürdü.[358] Təlhə öldürüləndən sonra Cəməl qoşunu qaçmağa başladı. Hz. Əli Ayişəyə yaxınlaşıb dedi: “Ey Ayişə, Allahın Rəsulu sənə beləmi hərəkət etməyi tapşırmışdı?” Ayişə dedi: “Ey

[357] Şahlar Şərifov. İslam tarixi, s. 99
[358] Muntəxəbatu-t-təvarix, s. 179; Şahlar Şərifov. İslam tarixi, s. 99-100

Əli, qazanmısan, yaxşılıq et, malik olmusan, bağışla”.[359] Əsir düşən Ayişə Hz.Əlinin (ə) yanında qalmaq istəsə də, Hz. Əli bunu münasib bilməyib onu qardaşı Məhəmməd ibn Əbubəkrlə Mədinəyə göndərdi. Hz. Əli şəhidlərə və nakisinlərə də meyit namazı qılıb, ölənlərin hamısını böyük bir qəbirdə dəfn etdi. Camaatın mal-dövlətini özlərinə qaytardı.

Şam valisi qiyam qaldırdıqda, Hz.Əli Kufəni fəaliyyət mərkəzi qərar verib, Şama hücum üçün qoşun hazırlığına başladı. Nasibinə Əli tərəfindən vali təyin olunmuş Malik Əştər yolda Müaviyə tərəfindən Hərrana vali təyin olunan Zəhhaq ibn Qeysin qoşunu ilə rastlaşıb, onu məğlub etdi. Bunu eşidən Müaviyə Əbdürrəhman ibn Xalid ibn Validi Malik Əştərin üstünə göndərsə də, Malik onu da məğlub etdi. Bu hadisələrdən sonra Müaviyə dərin düşüncələrə qərq oldu. Qardaşı Ütbə onun bu halını görüb dedi: “Bu işin yeganə həll yolu Əmr ibn Ası bu işə qatmaqdır. Çünki o, siyasət və hiylə baxımından ərəblər arasında məşhurdur.” Müaviyə dedi: “Əmr ibn As mənim dəvətimi qəbul etməz”. Ütbə dedi: “Sən Əmri pul və vəd ilə aldat, o da xalqı aldatsın.” Qardaşının fikrini bəyənən Müaviyə dərhal Fələstində vali olan Əmr ibn Asa məktub yazdı, orada deyilirdi: “Mən Osman tərəfindən Şamda hakiməm. Osman da Peyğəmbərin xəlifəsi idi. O, evində susuz və məzlum halda öldürüldü. Müsəlmanlar onun qətlinə görə qəmlidirlər. Mən səni Osmanın qanını almağa dəvət edirəm. Bu işdə böyük mükafat və savabın olacaq.” Müaviyənin məktubu Əmr ibn Asa çatdıqda o, oğlanları Abdullah və Məhəmmədlə məsləhətləşdi. Abdullah bu işə qarşı çıxdı, Məhəmməd isə Müaviyəni dəstəklədi. Əmr ibn As dedi: “Abdullah mənim axirətimi, Məhəmmədsə dünyamı fikirləşdi.” Hz. Əlinin (ə) haqlı olduğunu yaxşı bilən Əmr ibn As axirətini unudub, Müaviyəyə qoşuldu.

[359] Şahlar Şərifov. İslam tarixi, s. 100

Əmr ibn As Şama gələndən sonra Müaviyə problemlərini ona danışdı: “Mənim qatı düşmənim Məhəmməd ibn Əbi Hüzeyfə zindandan qaçıb. Mən Əli ilə vuruşa getsəm o, arxadan hücum edib Şamı tutacaq. Rum dövləti də hazırkı ixtilafdan istifadə edib Şama hücum etmək istəyir”. Əmr ibn As dedi ki, Məhəmməd ibn Əbi Hüzeyfə qorxulu deyil. Romalıları da hədiyyələrlə ələ almaq olar. Əsas qorxulu olan Əlidir. Əmr ibn As bir dəstə göndərərək Məhəmmədi öldürtdü. Romaya da qiymətli hədiyyələr göndərib Rum impertorunun başını qatdılar. Onlar Əliyə qarşı üç yüz min qoşun toplamışdılar.[360] Peyğəmbərin Müaviyə və Əmr ibn As haqqında vaxtilə buyurduğunu burada qeyd etmək yerinə düşər: “İlahi, onların ikisini də fitnə ilə devir, onları alt-üst et və Cəhənnəmə at”.[361] Böyük əhli-sünnə alimi Zəməxşərinin Müaviyənin anası, Cahiliyyət dövründə öz əxlaqsızlığı ilə məşhur olan Hində haqqında dediklərini (Müaviyə də həmin vaxtlar doğulmuşdu) burada gətirmək də yerinə düşər: “Həmin vaxtlar dörd kişi Müaviyənin atası sayılırdı – Əbu Əmr ibn Müsafir, Abbas ibn Əbdülmüttəlib, Əmarə ibn Valid, Səbbah adlı qara bir şəxs” [362], Əbu Süfyanı da saysaq beş nəfər olur. Belə bir əxlaqsız qadının oğlu Müaviyədən vicdan, insanlıq, insaf, kişilik gözləmək olarmı? Mənbələrdə Peyğəmbərin belə buyurduğu da qeyd olunur: “Əgər Müaviyəni mənim minbərimdə görsəniz, onu öldürün”.[363] (Hayıf ki, Peyğəmərin bu vəsiyyətini həyata keçirən olmadı, əksinə qorxularından və sərvət düşkünü olduqlarından, ona yaltaqlananlar çox oldu). Peyğəmbər (s) və Əhli-beyti ilə düşmən olan Əmr ibn As da ləkəli olmaqda Müaviyədən geri qalmır. Onun da beş atası olduğunu mənbələr qeyd

---

[360] Şahlar Şərifov, yenə orada, s. 101

[361] Musnəd Əhməd, IV c., Dər ihyaət turas, s. 421; Hacı Fuad Nurullah. İmam Əli (ə), s. 71

[362] Şahlar Şərifov. İslam tarixi, s. 102; Zəməxşəri. Rabiu-l-əbrar, I c., s. 111; İbn Əbi-l-Hadid. Nəhcu-l-bəloğənin şərhi, I c., s. 111-112

[363] Tərix Təbəri; Tərix Diməşqi, 59-cu c.,s. 155-157; Şahlar Şərifov, yenə orada

edirlər.[364] Hiylə ilə xəlifəliyi Müaviyəyə qazandıran və onun qoşununun məğlub olduğu vaxt Quran vərəqlərini nizələrin ucuna taxdırıb yuxarı qaldırmağa sövq edən Əmr ibn As həyatdan çox zövq ala bilmədi. Müaviyə onu Misirə vali təyin etdi. O, Hz. Əlidən bir az sonra 663-cü ildə öldü.

---

[364] İbn Əbi-l-Hadid. Nəhcu-l-bələğənin şərhi, II c.,s. 100; Şahlar Şərifov, yenə orada

## Siffeyn-Siffin (və ya Qasitin) döyüşü

Siffeyn Suriyanın indiki Raqqa şəhərinin şərqində yerləşirdi. 638-ci ildə Ömər ibn Xəttab Müaviyə ibn Əbu Süfyanı Suriyaya vali təyin etdi (O Əbu Süfyan ki, islamı canının qorxusundan Məkkənin fəthi vaxtı qəbul etmiş və Ömər onu öldürmək istəmişdi - Peyğəmbərin gücünün yüksəkdə olduğu vaxt). Nə atası, nə də özü islamı ürəkdən qəbul edən Müaviyə Osman öləndən sonra Suriyada hakimiyyəti tam əlinə alıb, Osmandan sonra qanuni xəlifə Hz. Əliyə beyət etmədi və həyasızcasına ondan xəlifəlikdən əl çəkməyi tələb etdi. Hiyləgər, yolundakı maneələri göz qırpmadan aradan götürən Müaviyə bütün vasitələrlə Hz. Əlini xəlifəlikdən uzaqlaşdırmağa çalışırdı. Əlini isə Peyğəmbər özü xəlifəliyə namizəd buyurmuşdu. Onun "Ey müsəlmanlar! İndi mən sizin peyğəmbəriniz və rəhbərinizəm. Məndən sonra isə sizin rəhbəriniz Əli olacaqdır", yaxud "Mən iki böyük xəzinəni - Allahın Kitabını və Əhli-beytimi sizə əmanət qoyuram" demişdi.

Siffeyn döyüşü 657-ci ilin may ayında baş verdi. Müaviyənin ordusunda yuxarıda qeyd olunduğu kimi üç yüz min nəfər döyüşçü və çoxlu sərkərdəsi var idi. Hz. Əli Müaviyəyə sifariş göndərib, onu təkbətək döyüşə dəvət etsə də, o, qorxub döyüşə gəlmədi. Siffində 40 dəfə döyüş olmuş, hamısında da Əli qoşunu qələbə çalmışdı. Təxminən üç ay davam edən və ən şiddətli vaxtı 26-28 iyulda olan müharibədə xeyli insan ölsə də bir nəticəyə gəlinmədi. Siffin döyüşündə hakim heyəti də bir iş görə bilmədi. Nəticədə bir qrup səbatsız müsəlmanlar haqq yoldan xaric olub, xəvaric adlandılar. Onlar həm Hz. Əli (ə) və həm də guya Müaviyəyə qarşı çıxdılar. Onların bir qismi Hərurə kəndinə toplaşdıqları üçün onlara Həruriyyə də deyirdilər. Bir qədər əvvələ qayıdıb qeyd edək ki, İmam Əli 657-ci ilin yanvarında Bəsrədən Cəməl döyüşündən Kufəyə gələrək, Müaviyə ilə savaşmamaq üçün çox çalışsa da bir şey alınmadı. Müharibənin qaçılmazlığını görüb, Hz.Əli dövlətin

rəhbərlik mərkəzini Mədinədən Kufəyə köçürdü. Bunun səbəbi Kufədə İmamın tərəfdarlarının daha çox olması və Kufənin strateji movqeyə malik olması idi. Hz.Əli Kufədə yığdığı ordu ilə Müaviyənin idarəsi altında olan Suriya əyalətini tutdu. Beləliklə iki ordu Fərat sahilindəki Siffin ərazisində üz-üzə gəldi. Fərat sahilinə birinci çatan Müaviyə Əlinin ordusunun suya yolunu bağladı. Hz. Əlinin göstərişi ilə Malik Əştərin dəstəsi şamlıları pərən-salıb suya yolu açdı, lakin Fəratın yolunu onların üzünə bağlamadı. 18 ay davam edən Siffin döyüşü ərəblər arasında ən qanlı döyüş olmuşdur. Döyüşün ilk günlərində Hz. Əli təkbətək döyüşə üstünlük verirdi. Lakin Əmmar ibn Yasir və Üveys Qarani kimi səhabələrin şəhadətindən sonra Hz. Əli ümumi hücuma əmr verdi. Səfər ayının 4-də Əbu Əyyub Ənsari öz dəstəsi ilə Şam qoşununa hücum etdi. Onu öz çadırının yaxınlığında görən Müaviyə qaçıb şamlılar arasında gizləndi. Hücumdan təşvişə düşən Müaviyə hiyləyə əl ataraq öz casusunu Əli ordusunun tanınmış sərkərdəsi Xalid ibn Muamərin yanın göndərdi. O, Xalidə dedi: “Bu döyüş nəyə lazımdır? Əgər sən Müaviyənin xilafətə gəlməyinə yardımçı olsan, o da sənə Xorasan hakimliyini verər.” Xalidin ardınca Əş”əs ibn Qeysə də əmirlik vəd edildi və bu şəxslər az sonra Hz. Əlinin ardıcıllarını ona qarşı qaldırdılar. Ona qədər isə Əli qoşunu onun başçılığı altında hücuma keçib, bütün Şam döyüşçülərini və Müaviyənin özünü qaçmağa məcbur etmişdi. İkinci döyüş isə “Leylətu-l-hərir” adını aldı. Soyuq qış gecələrində itlər adətən hürmək əvəzinə ulaşırlar və belə ulaşmaya ərəblər “hərir” deyirlər. Bu döyüşdə o qədər yaralı var idi ki, gecə onların zarıltıları itlərin ulaşmasına oxşayırdı. Bu gecəki vuruşda Hz.Əlinin (ə) qoşunu qalib gələndən sonra tamam gücünü itirən Müaviyə hiyləgər Əmr ibn Asın təkilifi ilə Şam qoşunu Quranın varaqlarını nizələrin ucuna keçirib yuxarı qaldıraraq uca səslə qışqırmağa başladılar: “Ey ərəb qəbiləsi, bu qədər ölüm nə üçündür? Qoy aramızda Allah Kitabı mühakimə yürütsün!” Müaviyədən əmirlik vədi alan Əş”əs ibn Qeys dedi:

“Artıq qarşımızdakı qövmlə döyüşmək olmaz. Çünki onlar bizi Quranın mühakiməsinə dəvət edirlər”. Xorasan valiliyi vəd olunan Xalid ibn Muammər də onun dediklərini təstiqlədi [365]. Bunu görən Əlinin qoşunu vuruşu saxlayıb, İmam Əlini guya Qurana “əsaslanan” hakim heyətinin yaradılmasına çağırdılar. Hz.Əli bunun hiylə olduğunu, döyüşçülərin hiyləyə uyub, döyüşdən qalmamalarını israr etsə də, islama qəlbən bağlı olmayanlar ona qulaq asmadılar. Narazı qüvvələr Kufə valiliyindən çıxarılmış bacarıqsız Əbu Musa əl-Əş”ərinin Hz. Əlinin razılığı olmadan hakim heyətinin nümayəndəsi seçilməsinə nail oldular və sonradan onlar hamısı Müaviyə tərəfə keçdilər. Sonra “Dum”ətu-l-Cəndəl” qalasında 658-ci ildə iki tərəf arasında sülh müqaviləsi bağlandı. Gözlənildiyi kimi, Əş”əri hiyləgər Əmr ibn Asla danışığı uduzdu. Əhvalat belə olmuşdu. Danışıqlarda belə razılığa gəlmişdilər ki, Hz. Əli və Müaviyə barmaqlarındakı üzükləri çıxararaq belə deyəcəkdilər: “Mən bu üzüyü barmağımdan çıxartdığım kimi xəlifəlikdən əl çəkirəm”. Sonra hakim heyət səs çoxluğuna görə kimin xəlifəliyə daha layiq olduğuna qərar verəcəkdi. Hz. Əli barmağından üzüyü çıxararaq dedi: “Mən bu üzüyü barmağımdan çıxartdığım kimi xəlifəlikdən çıxıram”. Əxlaqsız qadının oğlu hiyləgər Əmr ibn Asın tövsiyəsi ilə əxlaqsız qadının oğlu hiyləgər Müaviyə isə üzüyü barmağından çıxarmayaraq dedi: “Mən bu üzüyü barmağımda saxladığım kimi xəlifəlikdə qalıram”. Bununla Müaviyə ərəblərdə yazılmamış qanun kimi olan verilən sözün mütləq yerinə yetirilməsi ənənəsini pozaraq öz rəzilliyini bir daha sübut etdi. Və 658-ci ilin may ayında Müaviyə Suriyadakı tərəfdarları tərəfindən orada xəlifə elan edildi və onun nüfuzu İraq və Hicazadək yayıldı, Hz. Əlininki isə Kufəyə doğru daralmağa başladı. Hz. Əli və Müaviyənin imzaladığı sülh müqaviləsinin şərtləri isə belə idi:

---

[365] Şahlar Şərifov. İslam tarixi, s. 102-104

1. Hakimlər 6 ay ərzində tərəflər arasındakı ixtilafları Quran əsasında həll edəcək və ilahi göstərişlərin pozulmasına yol verməyəcək.

2. Bu iki şəxsin İraq və Şam dövlətləri tərəfindən siyasi toxunulmazlığı var.

3. Müəyyən edilmiş vaxt başa çatdıqdan sonra hakimlərin hökmü Quran əsasında olsa, xalq onu dəlil kimi qəbul edəcək, Allahın hökmünün əksinə olsa xalq onu qəbul etməyəcək.

4. Əgər təyin olunmuş vaxt çatmamış hakimlərdən biri ölsə, onu göndərmiş dövlət başqasını təyin edəcək və bu təyinatda əvvəlki şərtlər əsas götürüləcək.

5. Əgər hakimlər razılaşa bilməsələr, İraq və Şam arasında yenidən döyüş başlayacaq.[366]

Yuxarıda qeyd edildiyi kimi, Müaviyə müqavilənin şərtlərini pozaraq üzüklərlə aldatma yolu ilə guya prosesi uddu. Bunun nəticəsində Siffindəki hakim heyətindən narazılıq edən bir dəstə səbatsız adamlar Əli dəstəsindən ayrılanlar xəvaric (yəni Əli dəstəsindən xaric olanlar) adlandılar. Əslində Hz.Əlini də hakim heyətinə onlar məcbur edilmişdilər. Lakin, onların öz fikirləri var idi - Hz.Əli, Osman, Əmr ibn As, Əbu Musa əl-Əş''əri, Aişə və s. onlar tərəfindən kafir elan edilmişdilər. Əslində isə xəvaric özləri islam üçün böyük təxribat idi. Onlar Əməvilər və Abbasilər dövründə də çoxlu müsəlmanın qanını axıtmışdılar[367]. Xəvaric qrupunu təşkil edən M''isar ibn Fədəki ət-Təmimi, Zeyd ibn Husayn və bəzi Quran hafizləri Hz.Əlini (ə) Osmanın ölümü kimi ölümlə hədələyərək, hakim təyin etməyə razılıq verməzsə, onu Müaviyə qoşununa təslim edəcəklərini israr etdilər. Və yuxarıda qeyd edildiyi kimi, onların çoxu Müaviyəyə qoşuldular, deməli, onların fikri də elə bu imiş. Peyğəmbər Hz.Əliyə onun nəhr əhli (xəvaric) tərəfindən qət-

---

[366] Şahlar Şərifov. İslam tarixi, s. 104

[367] Tarix Təbəri, c.V1, s. 29; H.F.Nurullah. İmam Əli (ə), s. 71-72

lə yetiriləcəyini demiş və “Xəvaric Cəhənnəm itidir” deyə qeyd etmişdi.[368]

Əli qoşunundan ayrılan xəvaricin sayı 12 min nəfərə çatdı və Hz.Əli Nəhravanda bu dəstə ilə döyüşməyə məcbur oldu. Onlar Bəsrədəki xəvarici də Nəhravana çağırıb, birlikdə Əliyə qarşı vuruşmaq istəyirdilər. Onlar yolda Peyğəmbər səhabəsi Abdullah ibn Xəbbabı, onun arvadını və onunla səfərdə olan bir neçə qadını öldürdülər. Hz.Əli isə müxtəlif yerlərə hərbi dəstələr göndərib onun adamlarını qıran azğınlaşmış Müaviyəni yerində oturtmaq üçün topladığı 20 min qoşunla Şama hücum etmək istəyirdi. Yuxarıdakı xəbəri eşidib, Hz. Əli Nəhravana getməyi qərara alır. Nəhravanda xəvaric qoşunu ilə üzbəüz dayanıb, onların başçısı Abdullah ibn Vəhəblə söhbətə başlayır. Söhbətdən sonra Hz. Əli öz ordusuna belə dedi: “Ağ bayrağı Nəhravanın kənarında yerə taxın. Xəvaricin tövbə edənləri onun ətrafında toplansın. Onların 8 mini bayrağın ətrafına toplandılar. 4 mini isə başda Abdullah ibn Vəhəb olmaqla Hz.Əlini kafir adlandırdılar. Onda Hz.Əli çarəsiz qalıb onlarla vuruşmağı qərara aldı. Vuruş başlamazdan qabaq isə o, öz döyüşçülərinə dedi: “Xəvaricin 10 nəfəri sağ qalacaq, sizdən isə ondan da az şəhid olacaq”. Hz.Əli (ə) dediyi kimi də oldu. Bütün xəvaric qılıncdan keçirildi, cəmi 10 nəfər qaça bildi, onlardan biri lənətlik Əbdürrəhman ibn Mülcəm idi. Əli döyüşçülərindən isə 7 nəfər şəhid oldu.[369] Belə dəqiq xəbəri verməsi onun həqiqətən imamlığını və Allahla bağlılığını sübut edir.

Hz. Əli Nəhravandan Kufəyə qayıdandan sonra Şam üzərinə hücuma hazırlaşmağa başladı. Bu zaman Məkkədə İbnu Mülcəm və iki başqa xəvaric Əli, Müaviyə və Əmr ibn Ası öldürməyə yola düşdülər. O birilər öz planlarını həyata keçirə bilmədilər (və ya keçirmədilər), Allahın lənətinə gəlmiş Əbdürrəhman ibn Mülcəm isə h. 40-cı il, Ramazan ayının 19-u Hz.Əli sübh namazını qılarkən

---

[368] Biharul-ənvar, c.33, s. 196; H.F.Nurullah, yenə oradas. 74

[369] Şahlar Şərifov. İslam tarixi, s. 106

zəhərli qılıncla onu başından ağır yaraladı. Onun zərbəsi vaxtilə Xəndək döyüşündə Əmr ibn Əbdüvədin vurduğu zərbənin yerinə düşdü.[370] Əli iki gündən sonra vəfat etdi.

İndi isə Hz. Əlinin Peyğəmbərə yaxın olması və Allahın sevimlilərindən olması haqda bəzi məlumatları qeyd edirik. Mübahilə - mübahisə edərək, yalançının Allah tərəfindən lənətlənməsi üçün qarğış edilməsinə deyilir. Peyğəmbər islamı təbliğ üçün ətraf qəbilələrə, o cümlədən Nəcran xristianlarına məktub göndərmişdi. Buna görə h. 9-cu ildə nəcranlılar qəbilə başçıları ilə Mədinəyə gəlmiş və Hz. Peyğəmbərdən Hz.İsanın atasının kim olduğunu soruşmuş, o isə cavab verməmişdi.[371] Ali İmran surəsinin ilk 80 ayəsi bu hadisədən sonra nazil olmuşdur.[372] Ayələrdən birində İsanın Allahın qulu və peyğəmbəri olduğu bildirilir və bu haqda mübahisə edənlərlə Peyğəmbəri mübahilə etməyə çağırır: “De: “Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı, biz də qadınlarımızı, siz də qadınlarınızı, biz də özümüzü, siz də özünüzü (bura) çağıraq. Sonra Allaha dua edib, yalançılara Allahın lənət etməsini diləyək”. Və Peyğəmbər (s) də Hz. Əli, Hz. Fatimə, Həsən və Hüseyni götürüb mübahiləyə getmiş və onlara “Siz də mənim duama amin deyin” demiş, bu isə kafirləri son dərəcə qorxutmuş və onlar mübahilədən imtina etmişdilər.

Peyğəmbər Kəbəyə girib, bütləri sındırdıqda da Hz. Əlini öz çiyni üzərinə qaldırıb, yuxarıdakı bütləri yerə tökməyi ona buyurdu.[373] O, bütün çətin vaxtlarda Peyğəmbəri müşaiyət edib və onu qoruyub, istər onun yerində yatıb, özünü təhlükə qarşısında qoyan-

---

[370] Yenə orada, s. 107-108

[371] İbni Hişam. İslam tarihi, Sireti İbni Hişam. Tərc.Hasan Ege, Kahraman Yayınları, İstanbul, 2001, c. 2, s. 291; H.F.Nurullah, yenə orada, s. 88

[372] Muhammed Hamidullah. İslam Peyğamberi. Tərc.Salih Tug, V baskı, İrfan yapımçılık və ticaret, İstanbul, 1993, c. 1, s. 620; H.F.Nurullah, yenə orada, s. 88

[373] Kurucan. Mercan, s. 225; H.F.Nurullah, yenə də orada, s. 110

da,[374] istər Uhud savaşında və s. Ustad Mütəhhəri bildirir ki, Məhəmməd peyğəmbərin "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır" hədisi inkarolunmazdır. İslama dair ən erkən tarix kitabı olan Yaqubinin əsərində də (IX əsr) Qədir-Xum hadisəsi bəyan edilmişdir.[375] Quranda Hz. Əli ilə bağlı və əhli-sünnə alimləri tərəfindən də təsdiqlənən çoxlu ayələr var, onların ən önəmlisi isə Qədir-Xumda nazil olan "Məidə" surəsinin 67-ci və ya "Təbliğ" ayəsidir: "Ya Peyğəmbər, Rəbbin tərəfindən sənə nazil olanı bəyan et. Əgər etməsən, Allahın risalətini yerinə yetirməmiş olarsan...".[376] Əhli sünnə alimi Tirmizi Peyğəmbərin "Əli məndəndir, mən də ondanam. O, məndən sonra hər bir mömінin və mömінənin ixtiyar sahibidir" buyurduğunu əsərinin 2-ci cildində yazmışdır.[377] Mədinədə müsəlmanlar arasında qardaşlaşma zamanı Peyğəmbər Hz. Əli ilə qardaş olmuş,[378] sevimli qızı Fatimeyi Zəhra xanımı Allahın əmri ilə ona nikahlayıb, qızına "Səni Əhli-beytimdən mənə ən sevimli olanla nikahladım" demişdi. [379] Bütün bunlara görə və Allahın əmri ilə Peyğəmbər ümmətə imam və xəlifə olmağı Əliyə tapşırdı. Xəlifə isə Peyğəmbərin vəfatından sonra şəriətə uyğun olaraq, dini qorumaq və dünya işlərini nizama salmaq deməkdir.[380] Və nəhayət, Peyğəmbərin dəfələrlə buyurduğu "Hamısı Qüreyşdən olan on iki xəlifə sizi idarə edənə və Qiyamət olana qədər islam

---

[374] Bəkir Buraq. Elm və qəhrəmanlıq timsalı Həzrəti Əli. Tağı Tağıyev, Xəzər nəşr. B. 2009, s. 24; H.F.Nurullah, yenə orada

[375] H.F.Nurullah. İmam Əli (ə), s. 128-129

[376] Tərix ibn Əsəkir,II c., s. 298; Fəxrəddin Razi. Məfətihu-l-geyb, III c., s. 636; Siyuti. Əd-Durru-l-mənsur, II c., s. 298; Alusi, Ruhu-l-məani, IV c., s. 172; Qunduzi Hənəfi. Yənəbiu-l-məvaddət, s. 120; Təfsiru Sələbi; Təfsiru Təbəri; İbn Səbbağ Maliki. Fusulu-l-muhimmə; Əllamə Əmini. Əl-Qadir; Əllamə Qazi Nurullah Şüştəri. Əhqaqu-l-haqq; Əllamə Məclisi. Biharu-l-ənvar;

[377] Sünən Tirmizi, c. 2, s. 297; H.F.Nurullah, yenə orada, s. 131

[378] Səhih Tirmizi. Mənaqib, s. 46; Mustafa Necati Bursalı. Cennetle müjdelenen on sehabi. Çile yayınları, İstanbul, 1976, s. 81; H.F.Nurullah, yenə orada

[379] Varol. Kavramsal Boyut, s. 198; H.F.Nurullah, yenə orada, s. 111

[380] İbn Xəldun.Müqəddimə, s. 191; H.F.Nurullah, yenə orada, s. 126

dini baqi qalacaq” [381] hədisinin “Səhih Buxari”, “Səhih Muslim”, “Səhih Tirmizi”, “Sünən Əbi Davud”, “Musnəd Hənbəl”, “Biharul-ənvar” və başqa qaynaqlarda olması imamların həqiqiliyini sübut edir. Əhli sünnə alimi Qunduzi əl-Hənəfi qeyd edir ki, Nəsəl (və ya Atəl) adlı bir yəhudi Peyğəmbərin yanına gəlib, çoxdan ondan bir neçə məsələ barəsində soruşmaq istədiyini və əgər düz cavab versə onun əli ilə müsəlman olacağını deyir. Peyğəmbər (s) “Soruş, ya Əmmarə” deyir. Yəhudi suallarını verib, cavabını aldıqdan sonra yenə soruşur: “Bəs sənin xəlifən kimdir? Çünki, xəlifəsi olmayan peyğəmbər yoxdur, bizim peyğəmbər Musa ibn İmranın xəlifəsi Yuşa bin Nun idi” deyir. Peyğəmbər cavab verir: “Mənim xəlifəm Əli ibn Əbi Talibdir..., ondan sonra nəvələrim Həsən, Hüseyn və Hüseyn oğulları olacaqlar”. Yəhudi cavablardan razı qalıb müsəlman oldu və bu hidayətindən ötrü Allaha həmd-səna etdi.” [382] Bundan da dürüst və sərrast, aydın cavab olarmı? Cabir ibn Abdullah əl-Ənsarinin nəqlinə görə Allah-Təalə öz Peyğəmbərinə “Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin” ayəsini göndərdikdə Hz. Əli Peyğəmbərdən soruşur ki, ya Peyğəmbər, Allahı və Peyğəmbərini tanıdıq. Bəs bu əmr sahibləri kimdir? Peyğəmbər (s) cavab verdi: “Onlar mənim xələflərim və məndən sonra müsəlmanların imamlarıdır”, sonra da on iki imamın adını sadalamışdı.[383] Əllamə əl-Hind ləqəbli Abdullah əl-Bəsməl “Mənaqibu Əmiri-l-muminin” adlı əsərində İbn Abbasdan nəqlən yazır: “Əli Peyğəmbərdən soruşdu: “Ya Rasuləllah, biz səni Cənnətdə ziyarət edəcəyikmi? “Peyğəmbər cavab verdi ki, hər bir peyğəmbərin yoldaşı vardır. O, ilk iman gətirən şəxs olur.

---

[381] Səhih Muslim, c. 6, s. 3; H.F.Nurullah, yenə orada, s. 135

[382] Hafiz Süleyman Qunduzi əl-Hənəfi. Yənəbiul-məvaddə, Misir, h\q 1384, s. 441; Həməvini. Fəraidu-s-simteyn, İran, tarixsiz. Mahmudi nəşri, c. 2, s. 133, hədis N.430-431; Əllamə Məclisi. Biharu-l-ənvar, c. 36, s. 283-285; Hişam əl-Bəhrani. Qayətu-l-məram va huccətu-l-xisam, s. 142-144; H.F.Nurullah, yenə orada, s. 140

[383] Əllamə əl-Huveyzi, Təfsiru nurus-səqəleyn, c. 1, s. 499; H.F.Nurullah, yenə orada, s. 236

Elə bu vaxt “Allahın nemətlər verdiyi nəbilər siddiqlər, şəhidlər və salehlərlə bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır!” ayəsi (4-69) nazil oldu. Peyğəmbər Əliyə dedi: “Allah sənin sualını açıqlayıb, səni mənim yoldaşım qərar verdi, çünki, sən mənə ilk iman gətirənsən. Sən siddiqi-əkbərsən!” [384] Əl-İxlas surəsinin təfsirində Qunduzi əl-Hənəfi Peyğəmbərin Əliyə yuxarıda qeyd edildiyi kimi, belə buyurduğunu qeyd edir: “...And olsun məni göndərənə! Yer əhli səni səma əhli kimi sevsəydi, Allah heç kəsə Cəhənnəm əzabı verməzdi.” [385] Hz. Əli haqda bu yuxarıdakı məlumatları bilə-bilə o və övladları barədə necə bu qədər insafsız olmaq olar?!

Şər qüvvələrin hiylə və düşmənçiliyi ilə yuxarıda qeyd edildiyi kimi, İmam Əli (ə) hicrətin 40-cı ili Ramazan ayının 19-da, cümə günü məsciddə sübh namazı qılarkən Əbdürrəhman ibn Mülcəm Muradi tərəfindən zəhərlənmiş qılıncla başından ağır yaralanaraq, 21-də şəhid oldu. Bundan sonra Müaviyəyə xəlifə olmağa heç kim mane olmadı. [386] Daim Müaviyə və onun tərəfdarları tərəfindən təhqirlərə məruz qalan Əli aleyhissəlamın qəbrinin də təhqir olunacağından qorxaraq (onun öz vəsiyyətinə görə), onu gündüz Kufə məscidində dəfn etsələr də, axşam onun nəşini çıxardıb Kufədən uzaq bir yerdə - quru qamışlıqda dəfn etdilər. Xəlifə Harun ər-Rəşidin vaxtınadək bu yer gizli qaldı, çünki lənətlik Müaviyə və onun xələfləri Hz. Əlini söymək və təhqir etməkdə davam edirdilər. Hətta Müaviyə Əli adında olan balaca uşaqları da qətlə yetirirdi. Mərhum qazi Mirəziz Seyidzadədən eşitdiyimə görə Harun ər-Rəşid ova çıxıbmış, ceyran qovurmuş, uzaqdan ceyranın dayanaraq oturduğunu və başını balaca bir hündürlüyün üstünə qoyduğunu görür. Ceyranı qovan itlər ondan müəyyən bir məsafədə dayanıb irəli getmirlər, eynilə atlar da. Harun adam göndərib oranın

---

[384] H.F.Nurullah, yenə orada, s. 239

[385] Ər-Riyad ən-Nadrə, c. 1, s. 14; Yənəbiul-məvaddə, s. 125; Əl-Mənaqib lİbni-lMəğazi, s. 69-70; H.F.Nurullah, yenə orada

[386] H.F.Nurullah. İmam Əli (ə), s. 69-70

ağsaqqalını çağırtdırır və əhvalatı soruşur. Qoca orada Hz. Əlinin dəfn olunduğunu deyir. Harun ər-Rəşid öz adının fəxrinə görə qəbrin üstündə sərdabə düzəltdirir və sonra orada Nəcəf şəhəri meydana gəlir (Ərəbcə ney - qamış, cəf - quru deməkdir, yəni quru qamışlıq). Əl-əşrəf isə ən şərafətli deməkdir, Hz. Əlinin şərafətinə görə oranı Nəcəfu-l- Əşrəf şəhəri adlandırıblar.

Bəzi şəxslərin dəstəyi ilə xarici qrupundan olan İbn Mülcəm tərəfindən yaralanıb vəfat edən Hz. Əlidən sonra Müaviyə Həsən ibn Əlini, onun arvadına 100 min dirhəm verəcəyinə və onu oğlu Yezid üçün alacağına söz verərək, İmam Həsəni zəhərlədərək öldürtdü, sonra pulu versə də, onu Yezidə almadı.

İslam tarixinin qəsdən unutdurulmağa səy göstərilən və ya təhrif edilən dövrlərindən biri də, İmam Həsən ibn Əlinin xilafət dövrüdür. Bu təhriflər İmam Həsənin parlaq simasını, şərqli və qərbli olmasından asılı olmayaraq, səthi düşüncəli araşdırmadan hökm verən insanların nəzərində ləyaqətsiz, qadın düşgünü və xilafəti dünya malına satan bir xəlifə kimi göstərilmiş və onu son dərəcə çirkin, haqsız, məntiq və həqiqətdən uzaq töhmətlərə məruz qoymuşlar. Lakin irəlidə göstərəcəyimizdən əvvəl qeyd edək ki, hicrətin 41-ci ili Cumadə-l-avval ayının 15-də o, Müaviyə ilə müqavilə bağlayıb, bu hərəkəti ilə həm dini, həm də möminləri qorumuş oldu.

Əbu-l-Fərəc İsfəhani yazır: “Müaviyə, oğlu Yezid üçün camaatdan beyət almaq istəyirdi. O, ən böyük maneə olaraq Həsən ibn Əli və Səd ibn Əbu Vaqqası görürdü. Elə bu səbəbdən hər ikisini gizli yollarla zəhərlədi”.

Xəlifə Osman Əbuzəri Rəbəzə çölünə sürgün etdikdə, kiminsə onu müşaiyət etməsini və ya onunla danışmasını qadağan etmişdi. Qadağaya baxmayaraq, onu Hz. Əli, qardaşı Əqil, Əmmar ibn Yasir, Həsən və Hüseyn müşaiyət etdi. Xəlifə Osmana üsyançılar hücum etdikdə də Hz.Əli Həsəni və Hüseyni onu qorumağa göndərmişdi.

Hz.Əlidən danışarkən onun nur parçası olan xanımı Fatimeyi Zəhranı yaddan çıxarmaq böyük qəbahətdir. Peyğəmbərin sevimli qızı Fatimə xanım, Amu-l-fil ilindən 45 il, Peyğəmbərin besətindən 5 il sonra 615-ci ildə Cumadə-l-axır ayının 20-də, islam üçün müqəddəs olan cümə günü Məkkədə anadan olmuşdur.[387] Şeyx Abbas Quminin qeyd etdiyinə görə Peyğəmbər Merac gecələrinin birində ona təklif edilən Behişt meyvələrindən təzə xurma və üzüm yemişdi. O, Meracdan qayıtdıqdan sonra xanımı Xədicə Fatiməyə hamilə qalmışdı. Peyğəmbər Behiştin və Tuba ağacının ətrini duymaq istəyəndə Fatiməni qucaqlayıb əzizləyərdi, ondan Behişt qoxusu gələrdi, çünki Fatimə Behişt hurilərindən sayılırdı.[388] Şeyx Səduq "Əmali" kitabında Mufaddal ibn Ömərdən nəql edir ki, bir gün İmam Sadiqdən (ə) Fatimeyi Zəhranın dünyaya gəlişi haqda soruşduqda İmam buyurdu ki, Xədicə Peyğəmbərlə evlənəndən sonra Məkkənin harın qadınları ərləri kimi islama olan düşmənçilikləri üzündən Xədicə xanımdan uzaqlaşdılar. Onlar nə Xədicənin evinə gedir, nə rastlaşanda onunla salamlaşır, başqa qadınların onunla görüşməsinə mane olurdular. Xədicə xanım bu hala görə kədərlənirdi. Bir gün Peyğəmbər (s) evə gələndə Xədicənin danışdığını gördü. Onun kimlə danışdığını soruşduqda Xədicə xanım: "Bətnimdəki uşaq mənimlə söhbət edir, o, mənim munisimdir" - deyir.[389] Peyğəmbər vəfatı ərəfəsində Fatimənin mömin qadınların başçısı olduğunu söyləmiş və onun tezliklə atasına qovuşacağını demişdi.[390] Ona görə Fatimeyi Zəhra (ə) daim atasına tezliklə qovuşmağı haqda düşünürdü. O, qadınların cənazələrinin də kişilərin cənazələri kimi üzərilərinə örtülən bir kəfənə bükülərək ca-

---

[387] Hacı Fuad Nurullah. Fatimeyi Zəhra (ə)...Həya və ismət məktəbi. Bakı, 2016, s. 140

[388] Şeyx Abbas Qumi. Beytul-əhzan. Tərc. C.Cəfərov, tarixsiz, s. 4; H.F. Nurullah. İmam Hüseyn, s. 108; Fatimeyi Zəhra, s. 141

[389] Şahlar Şərifov. İslam tarixi, s. 612; Hacı Fuad Nurullah.Fatimeyi Zəhra, s. 142

[390] Sahihu-l-Buxari, XII c, s. 342; Fatimeyi Zəhra,s. 142

maatın gözü qabağında qəbr evinə aparılmasından çox narahat olduğunu Əsma bint Umeysə söylərkən, Əsma ona Həbəşistanda cənazələrin tabut içərisində daşındığını xəbər vermişdi. Fatimeyi Zəhra da cənazəsinin tabutda daşınmasını vəsiyyət etmişdi. [391] Rəvayətə görə onu ya atasının qəbri yanında, ya atasının qəbri ilə minbəri arasında, ya da Bəqi (Cənnətu-l-baqi) qəbristanlığında dəfn etmişlər.[392] Hal-hazırda onun qəbrinin dəqiq yeri bəlli deyil.

Peyğəmbər, vəfatından bir az əvvəl Fatiməyə baxaraq demişdi:

“Mən Fatiməyə baxanda fikrimə məndən sonra ona üz verəcək müsibətlər gəlir. Sanki qəm və kədərin onun evinə necə varid olmasını, ona ediləcək hörmətsizliyi, haqqının əlindən alınmasını, öz irsinə yetişə bilməməsini, qabırğasının sındırılmasını, boynunda olan uşağın tələf edilməsini, onun “Ya Muhammədahu!” çığırmasını elə indidən görürəm. O, bir cavab eşitmir, lakin kömək istəyir. Heç kim də ona kömək etmir, həmişə məndən sonra hüznlü, qəmli və gözü yaşlıdır. Hərdən elə fikirləşir ki, vəhy, evindən kəsilib, mənim ayrılığıma mübtəla olubdur. Gecələr hövlnak durur, ona görə ki, gecə namazı vaxtı mənim Quran oxumağımı eşidərdi, indi isə eşitmir. Sonra atasının sağlığında necə əzizlənib, nəvaziş edildiyini xatırlayıb, qəmli-qəmli, için-için ağlayır. Bu zaman Allah, mələkləri onun munisi edər. Mələklər Xanım Məryəmlə həmsöhbət olduqları kimi, onunla da həmsöhbət olarlar. Sonra görürəm ki, o, dərddən və qubardan xəstələnib, qulluğa ehtiyacı var. Tanrı İmran qızı Məryəmi ona baxmağa göndərər. Bu vaxt o, Allah ilə belə dərdləşər:

“İlahi, həyatdan doyub, yorulmuşam. Dünyapərəst insanların əlindən artıq cana gəlmişəm, məni atama qovuşdur.” Allah da onu

---

[391] Əllamə Əli ibn İsa əl-İrbili. Kəşfu-l-qummə. Dəru-l-ihyəi-l-kutubi-l-arabi. Beyrut, 1985, s. 67; Fatimeyi Zəhra, s. 143

[392] Şahlar Şərifov. İslam tarixi. S. 611; Fatimeyi Zəhra, s. 144

mənə yetirər. O, mənim Əhli-beytimdən qəmli, kədərli, haqqı qəsb olunmuş və öldürülmüş halda mənə yetişəcək ilk şəxsdir.”[393]

Fatimə xanımın uşaqlıq dövrü dinlər tarixinin, peyğəmbərlər tarixinin və bəşəriyyətin bütün tarixinin ən parlaq dövrlərindən biri ilə üst-üstə düşür. Ona görə ki, Peyğəmbərin (s) gözünün nuru Fatimeyi Zəhra dünyaya göz açanda atası Məhəmmədin peyğəmbərlik dövrü təzə başlayırdı. Fatimə dünyaya qədəm qoyan zaman atasının həyatının ən çətin dövrlərindən biri idi – onun din düşmənləri qüreyşilərlə birləşib, Peyğəmbər və tərəfdarlarını Şib Əbi Talib dərəsinə sürgün edib, onlarla bütün əlaqələri kəsmişdilər. Kiçik Fatimə o isti qumlu dərədə ayaq tutub, olmazın əziyyətlərlə böyüyürdü. Lakin o, atası Rəsulu-l-Lah məktəbinin və anası Xədicə xanımın tərbiyəsi ilə bənzərsiz və kamil bir qadının ən parlaq nümunəsi, habelə islam məktəbi və islam tərbiyəsinin həqiqi və ləyaqətli bir yetirməsi oldu.

Fatimə xanım uşaqlığında (elə atası kimi) əziz anası Xədicə xanımı itirdi, həmin uşaqlıq çağından zəif çiyinlərinə ağır bir məsuliyyət düşdü və bütün bunlara dözdü. Bu məsuliyyətin əsası atası Məhəmməd peyğəmbərə (s) xidmət idi. Peyğəmbərin qəlbində Xədicə xanıma görə bir kədər var idi, kiçik Fatimə bu kədərə şərik oldu. Ata qızının əzabını görüb, ona təsəlli verərək deyirdi:

“Ağlama qızım, qəmli olma. Allah atanın dostu, yardımçısıdır. Sonda qələbə, uğur bəxş edəcəkdir”.

Məhz Rəsulu-l-Lahın, qızı Fatiməyə olan sonsuz məhəbbəti sayəsində ərəb qızları üçün yeni bir tale, xoşbəxt bir həyat başladı və onlar diri-diri məzara gömülməkdən qurtuldular.

Fatimeyi Zəhra döyüş vaxtlarında yaralıların köməyinə tələsib, onların yaralarına məlhəm qoyub sarıyırdı.

Fatimeyi Zəhra çətinliklər qarşısında əzmlə dayanır, məscidə gedir, alovlu xitabları, aydın nitqi ilə özü və ailəsinin hüquqlarını

---

[393] Şahlar Şərifov. İslam tarixi, s. 614-615; H.F.Nurullah. Fatimeyi Zəhra, s. 145-146

irəli sürür, o dövrün hökumətinin iç üzünü açıb göstərir, onların qəlbiqara davamçılarını həqiqət yoluna dəvət edirdi. Fatimə xanım təkcə ev qadını deyil, o, həm də mübariz, həyatın bütün sahəsində ləyaqətli bir qəhrəman, döyüşkən bir qadın idi; iş və siyasət aləminin, ibadət və təlim-tərbiyə sahəsinin, cihad və şəhidlik meydanının qəhrəmanı idi; fəzilət və bilikdə çox yüksək bir şəxsiyyət idi.

Qüreyş yaramazlarının, atası Peyğəmbərin üst-başına toz-torpaq və başqa iyrənc şeylərin atdıqlarını gördükdə gözləri yaşla dolur, təzəcə vəfat etmiş anasını yadına salır, ürəyi od tutub yanırdı. O, çalışırdı ki, atası onu gözüyaşlı görməsin, yoxsa dərdinin üstünə bir dərd də gələrdi. Digər tərəfdən Peyğəmbərin təskinliyi, İlahinin lütfü və köməyi Fatimeyi Zəhranın ümidlərini, səbr və dözümünü möhkəmlədirdi. Az keçməmiş atasının əmisi və özünün çox istədiyi gələcək qaynatası Əbu Talibin vəfatı da onu çox kədərləndirdi. Onun yoxluğundan qüreyşilər Peyğəmbəri daha çox incitdikləri üçün Fatimə xanım da əzab çəkirdi. Peyğəmbər o qəmli ili "Amul-huzn"- hüzn ili adlandırmışdı.

Fatimeyi Zəhranın 15 yaşı olanda (Fikrimcə bu 12 yaş olmalıdır, çünki onun 18 yaşında vəfat etməsini və 5 uşaq dünyaya gətirməsini nəzərə alsaq bu təxminən 12 yaşda olmalıdır, ya da vəfatı 21-22 yaşında olmalıdır) onun üçün Əbubəkr, Ömər və başqaları elçi gəlsələr də Peyğəmbər (s) razılıq verməmiş, "Fatimənin ailə qurması Rəbbimin üzərindədir" demişdi. Fatiməyə evlənmək istəsə də utandığından onu istəməyə Peyğəmbərin yanına gedə bilməyən Hz. Əli Səd ibn Məazın təkidi ilə onun yanına gedir və Peyğəmbərin təkidindən sonra sözünü deyir. Peyğəmbər deyir:

"Ya Əli! Sən yerdə evlənməmişdən qabaq Allah səni göylərdə evləndirib",[394] Fatiməni sənə ərə verməyi mənə buyurub.

Hicrətdən sonrakı bütün qəzvə və səriyyələrdə Fatimə xanım köməyini atası və müsəlmanlardan əsirgəməmişdir. Uhud döyü-

---

[394] H.F.Nurullah. Fatimeyi Zəhra, s. 147-153

şündə o, 10 qadınla birlikdə döyüşçülərə yemək və su daşımış, yaralıları müalicə etmiş, atasının üzündən axan qanı dayandırmışdır.

Atasının vəfatından sonra çoxlu çətinliklərlə rastlaşan Fatimə xanım Peyğəmbərin yoxluğundan üzülərək, onun vəfatından 75 gün sonra 632 – ildə dünyasını dəyişdi.

Peyğəmbərin vəfatından sonra Xanım Fatimə Hz. Əli ilə birlikdə xəlifə Əbubəkrin yanına gedib Rəsulullahın mirasından öz hissələrini istədilər. Bu paylar Fədək və Xeybərdəki xurmalıqlar və Mədinədəki bir bağçadan ibarət idi. İsra surəsinin 26-cı ayəsi (Yaxınlarının haqqını ödə) nazil olandan sonra Peyğəmbər adları çəkilən yerləri Fatimeyi Zəhranın övladlarına bağışlamışdı. [395]

(Əbubəkr bölməsində qeyd olunduğu kimi, Peyğəmbərin vəfatından sonra onlardan alınmış payların onlara qaytarılması istəyini Əbubəkr rədd etdi).

Fatimə xanımdan bəhs etdiyimizə görə yuxarıda qeyd etdiyimiz kimi Peyğəmbər belə buyurmuşdu:

“Yer üzünün ən yaxşı qadını dörd nəfərdir: İmranın qızı Məryəm, Xuveylidin qızı Xədicə, Asiyə və qızım Fatimə...”

Xanım Fatimənin üstünlüyünə gəlincə bu, onun Peyğəmbərdən aldığı tərbiyənin sayəsində idi. Atası ona dini, imanı, işgüzarlığı mükəmməl təlqin etmişdi:

“Əziz qızım Fatimə, bu dünyada öz işini özün gör, sabah mən sənin üçün heç bir iş görə bilmərəm”.[396] Fatimə xanım Peyğəmbərin nəslindən ilk müqəddəs qadın idi ki, Allah yolunda çətin hicrət yoluna çıxmışdı. O, başqa Fatimələrlə birgə Hz. Əlinin başçılıq etdiyi kiçik bir karvanla onlarla təhlükə ilə üzləşərək Yəsribə çatdı.

Fatimeyi Zəhranın yüksək fəzilətləri onun “Mübahilə” hadisəsi və Əhli-beytdə yeganə qadın olması, Peyğəmbərin dediyi kimi Cənnət xanımları və mömin xanımların başçısı olması, yenə onun

---

[395] Yenə orada, s. 154-155

[396] İslamın nümunəvi qadını, s. 156; H.F. Nurullah. Fatimeyi Zəhra, s. 161

dediyi kimi, bəşəriyyət tarixində dörd ən görkəmli və fəzilətli qadınlardan biri olmasındadır. Peyğəmbər (s) buyurmuşdur:

“Allah Fatimənin nurunu qəndil kimi yaradıb, Ərşin ortasından asmış, onun vasitəsilə yeddi qat Yeri və yeddi qat göyü işıqlandırmışdır.” Allah – Təalə bütün peyğəmbərlərə Xanım Fatimənin adını zikr etdikdən sonra nübüvvətlik vermişdir.[397]

Peyğəmbər Salman Farisiyə buyurmuşdur:

“Ey Salman! Fatiməni sevən şəxs Cənnətdə mənim yanımda olacaq. Kim Fatiməyə qarşı ürəyində kin-küdurət bəsləsə, həmin şəxs Cəhənnəmin odunda olacaq.” [398]

Fatimə xanım nəql edir ki, bir gün atamı üç dəfə “Ya Rasulə-l-Lah” – deyə çağırdım, o mənə baxıb gülümsədi, yanıma gəlib dedi: “Qızım, məni elə çağırma. Sən məni “ata”- deyə çağırdıqda daha rahat oluram” [399].

Rəsulu-l-Llah buyurmuşdur: “Cənnətə məndən sonra ilk daxil olanlar Əli və Fatimədir.” [400]

Peyğəmbər buyurub: “Ya Fatimə! Hər kim sənə salavat desə, Allah onu bağışlayar və mən Cənnətin harasında olsam, Allah həmin şəxsi mənə qovuşdurar.” [401]

Peyğəmbər buyurmuşdur: “Allah Cənnəti Öz vəchinin nurundan yaratdı. Sonra o nurun üçdə birini Cənnətə ataraq mənim vücudumu yaratdı. Digər üçdə birindən Fatiməni, yerdə qalan hissəsindən isə Əlini və imamları yaratdı.” [402]

Əbu Hüreyrədən nəql olunur ki, mən şəxsən özüm Peyğəmbərin (s) belə dediyini eşitmişəm: “Qiyamət günü peyğəmbərlər məbus olub, öz miniklərinin üstündə gələcəklər. Saleh peyğəmbər

---

[397] Seyyid Əliəkbər Ocaq Nejad. Ummu əbihə. Bakı, 2013, s. 127; H.F.Nurullah. Fatimeyi Zəhra, s. 178.

[398] H.F.Nurullah. Fatimeyi Zəhra, s. 181

[399] Ummu əbihə, s. 134; H.F.Nurullah, yenə orada, s. 134

[400] Kənzu-l-umməl, c. XIII, s. 95; H.F.Nurullah, yenə orada

[401] Ummu əbihə, s. 65-68; Fatimeyi Zəhra, s. 188

[402] Ummu əbihə, s. 5; Kənzu-l-umməl, c. XII, s. 8; Fatimeyi Zəhra, s. 190

də öz dəvəsinin üstündə gələcək. Mən də Buraq adlı dəvəmin üstündə gələcəyəm. Fatimə də mənim qarşımda Əzba adlı dəvənin üstündə gələcək...[403]

Peyğəmbər buyurub: "Meracda olarkən Cənnətin qapısı üstündə yazıları gördüm: Lə ilahə illə-l-Lah, Muhammədun Rasulu-l-Lah, Aliyyun Habibu-l-Lah (Allahın sevimlisi, dostudur), əl-Hasənu va-l-Huseynu Sifvatu-l-Lah (Allahın səmimi, xalis dostları, həmdəmidirlər), Fatımə Xeyratu-l-Lah (Allahın seçib-bəyəndiyi və ya xeyirlə dolu olan bəndəsidir), alə mubğazihim lənətu-l-Lahi (onlara nifrət edib düşmənçilik edənlərə Allahın lənəti var).[404]

Əbubəkrdən nəql olunur ki, bir gün Peyğəmbər üçün qurulmuş çadırda Əli, Fatimə, Həsən və Hüseyn də oturmuşdu. O buyurdu: "Ey müsəlmanlar! Kim bu çadırın içində oturanlarla sülhdədir, mən də həmin insanlarla sülhdəyəm. Onları sevəni mən də sevirəm. Atası, anası, babası pak olan və pak qadının ətəyində dünyaya gələn insanlar onları sevərlər. Natəmiz və bədbəxt insanlar onları sevməz. Allah da həmin natəmiz və bədbəxt insanları sevməz.[405] Bəs görəsən niyə bəzi şəxslər Fatimeyi Zəhraya (ə) qarşı ədalətsiz olublar? Peyğəmbər həm də buyurub: "Ey Salman! Fatimə və onun ərinə zülm edən üçün Vəyl vardır (Cəhənnəmin Vəyl dərəsində əzab). Onların övladları və tərəfdarlarına zülm edənə də Vəyl vardır.[406] Onlara zülm edənlər bu sözləri eşitməmişdilərmi?

Bir dəfə Fatimə xanım Hz. Əlinin məsləhəti ilə ev işlərində kömək üçün Peyğəmbərdən xidmətçi istədi. Peyğəmbər dedi: "Qızım Fatimə, istəyirsənmi sənə elə bir əməl öyrədim ki, həmin əməl həm xidmətçindən, həm dünyandan və həm də dünyada olanların hamısından daha yaxşı olsun?" Fatimə dedi: "Əlbəttə istəyirəm, ya

---

[403] Ummu əbihə, s. 63-64" H.F.Nurullah. Fatimeyi Zəhra, s. 192

[404] Tərix Bəğdəd,c. I, s. 259; Tərix Diməşq, c. XIV, s. 170; Fatimeyi Zəhra, s. 193

[405] Ummu əbihə, s 51; Fatimeyi Zəhra, s. 193

[406] Əllamə Əli bin İsa əl-İrbili.Kəşfu-l-ğummə. Dəru-l-əzva, Beyrut, 1985, c. I, s. 467; Fatimeyi Zəhra, s. 195

Rasulə-l-Lah”. Peyğəmbər (s) buyurdu: “İstədiyindən yaxşı budur ki, hər vacib namazı qılandan sonra 100 dəfə (34 dəfə Allahu Əkbər, 33 dəfə Əlhamduli-l-Lah və 33 dəfə Subhanə-l-Lah) Allahın adını zikr edəsən”.

Peyğəmbərin kəlamından sonra Fatimeyi Zəhra ömrünün sonuna qədər hər namazdan sonra atasının öyrətdiyi həmin təsbihi zikr edərdi. Bu zikrin fəziləti barədə Rəsulu-l-Lah belə buyururdu: “Heç bir zikrin savabı Fatimənin təsbihinin savabından çox deyil. Bütün zikrlərin içində hamısından fəzilətlisi Fatimənin zikridir. Əgər bu zikrdən fəzilətlisi olsaydı, Reyğəmbər qızına onu hədiyyə edərdimi?” [407]

İmam Sadiq (ə) buyurub:

“Elə ki Fatimə dünyaya gəldi, Allah mələklərə əmr etdi ki, gedin atasının dilini Fatiməyə açın (yəni, uşağın adını Fatimə qoysun). Peyğəmbər körpəni qucağına alıb dedi:

“Qızım, mən elmin vasitəsilə səni cəhalətdən, nadanlıqdan uzaqlaşdırdım.” Bu, o deməkdir ki, Fatimənin elmi Peyğəmbərin elminə bağlıdır. Sonra Peyğəmbər buyurdu: “And olsun Allaha! Allah Özü Fatiməni elm vasitəsilə cəhalətdən uzaqlaşdırdı.” [408]

Peyğəmbər buyurmuşdu: “Həqiqətən Allah Əlini, zövcəsi Fatiməni və onların övladlarını (11 imamı) Yer üzündə Öz xəlifəsi qərar verib. Onlar ümmətimin içində bütün elmlərin qapısıdır. Hər kəs onların vasitəsilə hidayət olsa, düzgün yola hidayət olmuşdur”.[409]

İmam Sadiq belə deyib: “Fatimə özündən sonra bir Kitab yadigar qoyub. Bu Kitab Quran deyil, lakin Allah tərəfindən Fatiməyə nazil olan kəlamıdır. Peyğəmbər onu Əliyə söyləmiş, o da yazmışdır.” [410]

---

[407] Ummu əbihə, s. 118; Fatimey Zəhra, s. 199
[408] Ummu əbihə, s. 101; H.F.Nurullah. Fatimeyi Zəhra, s. 201
[409] Ummu əbihə, s. 104-105; Fatimeyi Zəhra, s. 202
[410] H.F.Nurullah. Fatimeyi Zəhra, s. 207

Əbu Bəsir İmam Sadiqdən nəql eləyir ki, Quranın üç bərabər ölçüsündə olan Fatimənin Kitabından yalnız bizim xəbərimiz var, çünki o, bizdədir. Allaha and olsun ki, Qurandan bir kəlmə də olsun bu Kitabda yoxdur. Allah-Təalə Cəbrayıla əmr etmişdi ki, vasitəsiz olaraq həqiqətləri Fatiməyə öyrətsin. İmam Sadiq (ə) qeyd etmişdir ki, anam Fatimənin (ə) Cəbrayılın ona öyrətdiyi xüsusi bir namazı vardı. Peyğəmbər buyurmuşdur:

"Mən elmin tərəzisiyəm, Əli onun iki gözü, Fatimə isə bu tərəzinin bağlarıdır".

Peyğəmbər ömrünün son vaxtlarında Fatiməyə demişdi:

"Sənin həyat yoldaşın çox mülayimliyinə, çoxlu elminə və islam dinindəki qabaqcıllığına görə müsəlmanların ən böyüyüdür. Bil ki, səni onunla mən evləndirməmişəm, Allah bu xüsusiyyətlərə malik olan həyat yoldaşını sənə nəsib etmişdir.[411]

İmam Əlinin namaz qılarkən ayağından oxu çıxaranda onu hiss etmədiyi kimi, Fatimə xanım da namaz vaxtı Allaha olan eşqindən hər şeyi unudurdu. Onların oğlu İmam Hüseyn (ə) idi ki, Kərbəla çölündə üzərinə yağış kimi yağan oxlar və nizələrə məhəl qoymayıb namaz qılırdı.

Hər kəs Fatimə xanımı zikr edərsə, qara geyib, onun üçün əza məclisi qurarsa, onun üçün ağlayarsa, onu sevib, yolunda malından keçərsə Allah həmin şəxsi Qiyamət günü amanda saxlayar.[412]

Əllamə Təbərsi Suveyd ibn Qufləyə istinadən qeyd edir ki, Fatimə (ə) ölüm yatağında olarkən mühacir və ənsar qadınlarından bir qrupu onu yoluxmağa gələrkən Fatimə onlara deyir ki, sizin kişiləri bəyənmədim, onları dilim altda yoxlayıb, ağzımdan tulladım, onları sınaqdan sonra tanıdım. Qadınlar Fatimə xanımın sözlərini ərlərinə çatdırdılar, onlar Fatimədən üzr istəməyə gələndə "Məndən uzaqlaşın. Sizin üzr istəməyə bir bəhanəniz qalmayıb.

---

[411] Yenə orada, s. 207-209

[412] Yenə orada, s. 213-214

Göstərdiyiniz süstlük, laqeydlik və günahınızdan sonra üzrxahlığa yer yoxdur.[413]

H.F. Nurullah Qattal Nişapurinin “Rovzətu-l-vaizin” kitabına əsaslanaraq qeyd edir ki, Fatimə xanım 40 gün yataq xəstəsi oldu, ölümünün yaxınlaşdığını hiss etdikdə Ummu Əyməni, Əsma bint Umeysi və Hz. Əlini (ə) istədi. Onlar gəldikdə Hz. Əliyə dedi ki, əmioğlu, ölüm xəbəri mənə çatıb, az müddətə atam Peyğəmbərə qovuşacam, sənə ürəyimdəkiləri vəsiyyət etmək istəyirəm. Xanım otaqdakılardan Hz. Əli ilə onu tək buraxmalarını istədi. Əli ilə tək qaldıqda dedi:

“Əmim oğlu, Allah Özü sənin mükafatını versin. Məndən sonra bacım Zeynəbin qızı Umamə ilə evlənərsən. Mənim üçün tabut düzəlt. Mənə zülm edənlərdən və haqqımı tapdalayanlardan heç biri mənim cənazəmin yanına gəlməsin, mənim üçün namaz qılmasın. Onlara itaət edənlər də gəlməsinlər. Məni gecə, camaat yuxuya gedəndən sonra dəfn edərsən. Ummu Sələmə, Ummu Əymən və Fizzədən başqa heç kəsə mənim dünyadan getməyim haqda xəbər vermə. Kişilərdən iki oğlum, Peyğəmbərin əmisi Abbas, Salman, Miqdad, Əbuzər və Hüzeyfəyə xəbər ver. Dediyim qadınlarla mənə qüsl ver və gecə dəfn elə, qəbrimi ziyarət edəndə də heç kəsə demə”.[414]

Zalımlar görün necə də Fatimeyi Zəhranı incidib küsdürüblər ki, o cür mömin, Allah adamı onların onun cənazəsinə namaz qılmaqlarını da istəməmişdir.

İndi isə imamlar haqda söhbətimizi davam etdirə bilərik. “İmam” istilahı - sözü ərəb dilində “əmmə” qabaqda durmaq, başçılıq etmək, qabaqda getmək felindən olub, “başçı”, “idarə edən”, “imam” mənalarını verir. S.A. Əliyevin də müəlliflər siyahısına

---

[413] Fatimeyi Zəhra, s. 214-216

[414] Yenə orada, s. 217-218

adı daxil olan kollektivin yazdığı “Ислам в современной политике стран Востока» toplusunda qeyd edilir ki, Məhəmməd peyğəmbər (s) özü, ondan sonra isə onun davamçıları olan xəlifələr həm dini, həm də dünyəvi hakim olduqları üçün imam idilər.[415] Şiələrin qəbul etdikləri imamlar isə Hz. Əlidən (ə) başlayır, yuxarıda qeyd edildiyi kimi onun oğlu Həsən ikinci imam qəbul olunur və imamətlik on ikinci imam Mehdiyədək (ə) davam edir. Hədislərdə Peyğəmbər də bu barədə buyurub. Sünnilər və xaricilər hesab edirdilər ki, imam icmanın müvəkkili olub, nəzəri cəhətdən bütün icma tərəfindən, əslində isə onun nümayəndələri tərəfindən seçilir və ya əvvəlki imam tərəfindən təyin olunur (əvvəlki üç xəlifə kimi, dördüncü - seçilən xəlifə Hz. Əliyə isə iblis Müaviyə ibn Əbu Süfyan yaşamağa imkan vermədi). Şiə doktrinasına görə isə imamın ali hakimiyyəti yuxarıdan−İlahidən gəlir, ona görə də o, insanların arzusundan asılı deyil, o, seçilə bilməz, çünki Əlinin haqqı İlahi təyinatı ilə müəyyən edilmişdir. Və imamlar Hz. Əli və xanım Fatimeyi Zəhranın oğul övladlarından olur. Hz. Əlinin oğulları Əbülfəzl Abbas, Məhəmməd Hənəfiyyə və başqalarının anaları Fatimeyi Zəhra xanım olmadığı üçün onlar imam deyildilər.

İmamət haqqında Moskvada nəşr olunan «Ислам. Энциклопедический словарь», «Наука», 1991 kitabında qeyd edilir ki, imamət dünyəvi və ruhani hakimiyyətin çulğaşdığı müsəlman icmasının ali rəhbərlik institutudur. İslamda başçılıq və hakimiyyət problemi - islamın nəzəri və təcrübi mərkəzi problemi olmuş və olaraq qalır (Əlbəttə, bu Peyğəmbərdən sonrakı vaxta aiddir). Məhz hakimiyyət problemi müsəlman icmasının, sonra isə bütün müsəlman aləmin sünnilərə və şiələrə bölünməsinə gətirib çıxartdı (müəyyən mənada). Hakimiyyətin təbiətinin şərhindəki fərq vaxt keçdikcə ali hakimiyyətin iki müxtəlif prinsipal doktrinasında formalaşdı. İmamət haqqında təlim şiəliyin əsas ehkamlarından biri oldu. İmamətin zəruriliyinin əsas müddəaları, onun ilahi təbiəti və

[415] Qeyd olunan əsər, Moskva, 1986, s. 24

onun ancaq Əli və Fatiməyə aid olduğunu şiə ilahiyyatçıları Quran və hədislərdən götürmüşlər, burada onlar Quranın ayrı-ayrı ibarələrinin alleqorik şərhindən istifadə etmişlər. Ali hakimiyyət haqqında şiələrin görüşləri icmaya ilahi rəhbərliyin – "ilahi substansiyasının" keçdiyi ələvilər vasitəsilə davam etdirilməsi baxışlarından irəli gəlmişdir. Şiələrin indi də təbliğ etdikləri ali hakimiyyətin ilahi təbiət ideyası müxtəlif vaxtlarda dini düşüncənin müxtəlif formalarında qəbul edilir - Əli nəslinə "ilahi ruhun yerləşdirilməsindən" tutmuş, Əli və onun nəslinin birbaşa ilahiləşdirilməsinə qədər (müəyyən mənada). Əlinin (ə) ilahiləşdirilməsi ideyasını əsasən "qatı" şiələr təbliğ edirdilər, lakin ələvi imamlarının özləri bu ideyanı rədd edib, onların təbliğatçılarını kəskin mühakimə edirdilər. İmamların ilahiləşdirilməsini birbaşa rədd edən şiələr (zeydilərdən başqa) imamətin "ilahi mahiyyətini" səmimiyyətlə müdafiə edirlər. Müxtəlif tarixi şəraitin təsiri altında şiələr arasında imamətin müvəqqəti gizli hala keçməsi, gözlənilən imamın əl-Qaım, əl-Mehdi kimi qayıtması (ər - rəc"ə) – zühuru nəzəriyyəsini təbliğ edən icmalar yarandı. Əl-imamiyyə - imamlar şiə məzhəbinin əsas budaqlarından biri, 12 imamı tanıyan, Əli ibn Əbi Talibin və Peyğəmbərin qızı Fatimənin nəslindən olan "mötədil" şiələrdir (onların başqa adları – "əl-isnəaşəriyyə" adlanır). Əlinin başqa arvadlarından olanlar imam sayılmırlar, yuxarıda qeyd edildiyi kimi, (məsələn Hz. Əbülfəzli-l-Abbas və başqaları imam deyildilər). İmamiyyənin sələfləri təbliğ edirdilər ki, "ilahi sərəncamın" qüvvəsi ilə imamət ancaq Əli nəslinə aiddir və o, Peyğəmbərin (s) və ya əvvəlki imamın ağzından eşidilmə yolu ilə ötürülür. Bu rəyin tərəfdarları müxtəlif dövrlərdə şiələr, talibilər, turabilər (Hz. Əlinin Əbuturab ləqəbinə görə, yuxarıda qeyd olunduğu kimi, bu ləqəbi Peyğəmbər ona xurma bağında yorulub, torpaq üstündə yatdığı və üstü-başı torpağa bulaşdığı vaxt vermişdi), cəfərilər və s. olublar.[416]

[416] İslam. Ensiklopedik lüğət. Bakı-Elm-2013, s. 262-265

# III FƏSİL

## İlk Əməvi və ya Süfyani xəlifələr dövrü

Peyğəmbər öz vəfatından sonra vəhyin kəsiləcəyi ilə bağlı müsəlmanların təbii olaraq düçar olacaqları müsibətləri öncədən gördüyü üçün buyurmuşdu: “Mən sizin aranızda elə bir əmanət qoyuram ki, ona bağlansanız, əsla yolunuzu azmazsınız: Biri, yeri göyə bağlayan Allahın Kitabı, digəri isə Əhli-beytimdir. Bu ikisi Qiyamətdə mənimlə görüşənə qədər bir-birindən ayrılmazlar. Görək, məndən sonra bu iki əmanətimin ehtiramını necə saxlayacaqsınız.” Yuxarıda Peyğəmbərdən sonra onun Əhli-beyti ilə necə davranıldığını gördük. Yezidin atası Müaviyə ibn Əbu Süfyanın da bu ehtiramı Hz. Əliyə və balalarına qarşı “necə saxladığını” gördük. Sonra isə o, İmam Həsənə qarşı müharibəyə hazırlaşır.

İmam Həsən haqda bir neçə söz: Həsən ibn Əli 625-ci il Ramazan ayının 15-də Mədinə şəhərində anadan olmuşdur. İmam Zeynu-l-Abidinin (Əli Övsət ə.) qeyd etdiyinə görə bu ad ona Ulu Tanrı tərəfindən verilmişdir: “Həsən dünyaya gələndə Cəbrayıl (ə) Hz. Peyğəmbərə nazil olub Allahın buyuruğunu ona deyir: Əlinin sənə olan nisbəti eynilə Harunun Musaya olan nisbəti kimidir. Harunun oğlunun adı Şəbbər (Həsən) olduğuna görə, ya Rasulə-l-Lah, sən də bu uşağın adını Həsən qoy.” [417] Həsən ibn Əli 7 yaşında olanda babası Peyğəmbər (s), ondan 75 gün sonra isə anası Fatimeyi Zəhra vəfat etmişlər. O, təxminən 30 il atası İmam Əli ilə

[417] Şahlar Şərifov. İslam tarixi, s. 140-141 Şeyx Tusi. Təhzibu-l-əhkam;

birlikdə olmuş, onun xəlifəliyi dövründə Cəməl, Siffeyn və Nəhravan döyüşlərində yaxından iştirak etmişdir.[418]

Atasının vəfatından sonra İmam Həsən Kufə məscidində camaatın qabağında atsının vəfat etdiyini, ölüm qabağı imamlığı-xəlifəliyi ona vəsiyyət etdiyini bildirdi, camaat da ona beyət etdilər. İmam Nəsən, əslində Şam valisi olub xəlifəlik iddiasında olan Müayiyəyə məktub yazıb, onun beyət etməsini istədi. Müaviyə məktuba nalayiq sözlərlə dolu cavab məktubu yazıb, İmam Həsənə müharibə elan etdi.

İmam Həsən isə Müaviyəyə etiraz və məzəmmətli məktub yazaraq buyurur ki, Hz.Peyğəmbər vəfat edən kimi onun hökumət mirası üstündə ərəblər arasında münaqişələr yarandı. Peyğəmbəri (s) vətənindən didərgin salan (başda sənin atan Əbu Süfyan olmaqla) qüreyşilər bizə dedilər: "Biz onun qövmü, qohum-əqrabaları, nəslinin davamçılarıyıq. Elə isə bəs biz kimik? Buna görə də onun hökumət və iqtidarı barədə bizimlə düşmənçilik etmək sizə yaraşmaz". Ərəblər də, Qüreyşin bu dəlilini qəbul edib, onların iddiasına təslim oldular; ehtiram göstərərək, bu məqamı onlara təslim etdilər. Qüreyş bizə qarşı insaflı davranmadı. Onlar hökuməti öz dəlillərinin gücü və ərəbin insafının yardımı ilə ələ keçirtdilər. Lakin sıra bizim dəlillərimizə və onların insafına gəldikdə, bizi uzaqlaşdırdılar. Əl-ələ verib bizə zülm və cəfanı rəva gördülər və hökumət başına keçdilər.

Bəli, onlarla görüşəcəyimiz yer Allahın hüzurudur. Yardımçımız və himayədarımız da Odur!

O gün bir dəstənin haqqımıza və ailəmizə məxsus olan hökumətə əl uzatdıqları üçün təəccüblənmişdik. Lakin münafiqlər və dinin müxalifləri islamı məğlubiyyətə uğratmaq, fəsad və təfriqə yaratmağa bir vasitə və yol tapmasınlar deyə, fəzilət sahibləri olduğumuz və islama xidmət göstərdiyimiz üçün onlarla münaqişə etmək fikrindən daşındıq.

---

[418] Şahlar Şərifov, s. 141

Ey Müaviyə! Lakin bu gün sənin bu məqam və mənsəbə əl uzatmağına hər kəsin təəccüb etməsi yerində olar! Çünki sən heç bir baxımdan bu məqama layiq deyilsən; nə sənin bir fəzilətin və bəyənilən sifətin var, nə də ki, yaxşı və sevilən bir adın...

Bundan əlavə, sən, düşmənlərin yetişdirdiyi və Rəsulu-l-Lah və Quranın ən azğın qüreyşi düşməninin oğlusan! Allah sənin etdiklərini görür. Yaxında Onun hüzuruna daxil olacaq və işin aqibətinin kimin lehinə olduğunu görəcəksən.[419]

Əgər islam aləmində xəlifə, Hz. Peyğəmbərin bu məqama təyin etdiyi şəxsdirsə, elə isə bu işə mübahisəsiz şər"i xəlifə mənəm. Hz. Peyğəmbər məni adım və vəsfim ilə on iki imamdan biri, imam oğlu, imam qardaşı adlandırmışdır".

Hz. Əli vəfatından qabaq camaat qarşısında Həsənə demişdi: "Oğlum! Məndən sonra məqamımın və qanunun sahibisən. Hz. Peyğəmbər mənə əmr etmişdir ki, səni özümə vəsi təyin edib, silahımı sənə verim. Necə ki, o, məni özünə vəsi təyin edib, Kitab və silahını mənə vermişdi. O, həm də mənə göstəriş vermişdi ki, sən də ömrünün sonunda bunları qardaşın Hüseynə verəsən". Sonra İmam Hüseynə üz tutub dedi: "Sənə də bunları Zeynu-l-Abidinə", sonra onun əlindən tutub: "Hz. Peyğəmbər sənə də bunları oğlun Məhəmməd Baqirə verməyi əmr etdi. Ona Peyğəmbərin və mənim salamımı çatdır". Sonra o, silahını və Kitabını İmam Həsənə verdi.

Hz. Əlinin vəfatından sonra ramazan ayının 21-də İmam Həsən Kufə məscidində minbərə çıxıb buyurdu: "Camaat! Mən sizin iman gətirdiyiniz Peyğəmbərin nəvəsiyəm. Biz Əhli-beyt o Həzrətə hamıdan yaxınıq. Biz bir olan Allahın buyuruğuna əsasən bütün günahlardan və bəd əməllərdən pak və məsumuq (Əhzab, 33). Mən sizə xəbər verirəm ki, mən o Həzrətin (s) itrəti (Əhli-beyti) və Allahın əmri ilə xalqa təyin edilmiş imamıyam, sizin mənə itaət etməyiniz vacibdir. Peyğəmbərdən sonra dünyanın ən üstün adamı

[419] Hacı Fuad Nurullah. İmam Həsən, s. 22-27

olan Hz. Əli (ə) bu gecə vəfat edib, onun yerində islama rəhbərlik etmək üçün Allahın təyin etdiyi vəsi mənəm..."[420]

Camaat İmam Həsənə beyət edərək, onu xəlifə kimi tanıdılar. Bu h. 40-cı il, ramazan ayının 21-də baş verdi. Beyətdən sonra İmam Həsən ətraf məntəqələrə valilər göndərdi, o cümlədən, Abdullah ibn Abbası Bəsrəyə hakim təyin etdi.

Müaviyə, İmam Əlinin vəfatını və xalqın İmam Həsənə beyət etdiyini eşitdikdə adamları Həsənə qarşı qızışdırmaq və təhrik etmək üçün Kufə və Bəsrəyə casuslar göndərdi, İmam Həsən onların həbsinə əmr verib, boyunlarını vurdurdu. Müaviyə İmam Həsənə məktub yazıb, xilafəti ona verməyi tələb etdi. İmam Həsən ona cavab məktubunda xilafətə məhz özünün layiq olduğunu dəlillərlə göstərib, xilafəti ona təhvil verməyi rədd etdi.[421] Müaviyə İmam Həsənin nəsihətlə dolu məktubuna nalayiq sözlərlə cavab yazaraq, ona müharibə elan etdi. Şamda Əməvilərin bayrağı Kufədəki Haşimi xilafətinə qarşı düşmənçiliklə dalğalanırdı. Şamdakılar keçmişdə Hz. Əliyə beyət etmədikləri kimi, İmam Həsənə də beyət etmədilər. İmam Həsənin nəsihətlə dolu məktublarının bir faydası olmadı və bu məktublardakı məntiqli və sağlam dəlillər Müaviyənin azğınlıq və üsyankarlığını yatıra bilmədi. Özünün və atası Əbu Süfyanın ləkəli keçmişi bütün müsəlmanlara məlum olduğu üçün Müaviyə yaxşı bilirdi ki, özündən fəzilətlər uydurub, hətta sadəlövhləri belə aldada və tora sala bilməyəcək. Müaviyə, məmurlarına məktub yazaraq, onları İraqa qarışı müharibədə ona köməyə çağıraraq, Zəhhaq ibn Qeys Fəxrini öz yerinə qoyub, 60 mindən çox bir qoşunla İraqa doğru irəliləməyə başladı. Döyüşə tezliklə başlamağı İmam Həsənə (ə) məsləhət görənlər deyirdilər: "Siz Müaviyənin üzərinə hücum edin ki, döyüş onun diyarında baş versin".[422] Buna baxmayaraq İmam döyüşə başlamaqda tələsmə-

---

[420] Şahlar Şərifov. İslam tarixi, s. 141

[421] Şeyx Müfid. "Əl-İrşad", İntişar ilmiyyə İslamiyyə, 1961, s. 350; Hacı Fuad Nurullah.İmam Həsən(ə)... s. 26-31

[422] İbn Əbil Hədid. Nəhcül-bəlağənin şərhi, 1Y c. s. 13

mək qərarına gəldi. Lakin bir müddət sonra qəflətən cihad əmri verdi. O, elə bir vəziyyətdə bu əmri verdi ki, hamının fikrincə cihaddan başqa çarə yox idi. Çünki Müaviyə ibn Əbi Süfyan düşmənçilik və tüğyan etməyə başlamış və İraqa doğru irəliləmişdi. Bu hadisə Yaqubinin dediyinə görə Hz. Əlinin şəhadətindən on səkkiz gün sonra baş vermişdi.[423] Müaviyə kufəliləri xəbərdar etmək və döyüş elan etmək məqsədilə Fərat çayının yuxarı məntəqələrində əmin-amanlığı pozmağa və iğtişaş yaratmağa başladı. O, Hz. Əlinin şəhadətini Kufə-Şam münasibətlərinə son qoymaq üçün ən gözəl fürsət hesab edirdi. Bu, Müaviyə və müşavirlərinin son qərarı idi. Onlar Haşimi xilafətinə qarşı gecə-gündüz hərakata rəhbərlik edən Muğeyrə ibn Şöbə, Əmr ibn As, Mərvan ibn Hakəm, Valid ibn Utbə, Yezid ibn Hürr Əbəsi, Müslim ibn Uqbə və Zəhhaq ibn Qeys əl-Fəxri kimi rəzillər idilər. İmam Həsənin ordusunda ixlaslı silahdaşları ilə yanaşı böyük ehtimalla düşmən üçün casusluq etməyə gələn, şəxsiyyəti məlum olmayan və ya tanınmış ailələrdən olan insanlar, həmçinin İmam Həsəndən fərqli düşünən bədxahlar da var idi. Bundan başqa Əş”əs ibn Qeys, Əmr ibn Hüreys, Müaviyə ibn Xudeyc, Əbu Burdə Əş”əri, Munzir ibn Zübeyr, İshaq ibn Təlhə, Yezid ibn Haris ibn Rəvim, Şəbəs ibn Ribi, Əmmarə ibn Valid, Ömər ibn Səd, Yezid ibn Umeyr, Şümr ibn Zilcövşən və b. islaholunmaz Kufə münafiqləri və ikiüzlüləri də vardı. İmamın İran, Yəmən, Hicaz və b. bölgələrdəki qoşunlarından başqa sayı 350 min nəfərə çatan ordusu var idi. Təkcə bu qalırdı ki, döyüş başladıqda bu döyüşçülər əhdlərinə vəfa qılsınlar. Carçı Kufədə car çəkib, camaatı məscidə topladıqdan sonra İmam Həsən minbərə çıxıb, Allaha həmd və səna etdikdən sonra belə dedi: “Bəli, heç şübhəsiz, Allah insanlara cihadı vacib etdi və onu “Məşəqqət” adlandırdı. Sonra cihad edənlərə: “Ey iman gətirənlər! Yaxınlığınızda olan kafirlərlə vuruşun. Qoy onlar sizdən (özlərinə qarşı)

[423] Hacı Fuad Nurullah. İmam Həsən, s. 61

sərtlik görsünlər. Bilin ki, Allah müttəqilərlədir!” [424] - deyə buyurdu. Mənə xəbər çatıb ki, Müaviyə bizə doğru hərəkət edir, siz də Nuxeylədəki düşərgələrinizə gedin, Allahın rəhməti üzərinizə olsun!” Camaatdan səs çıxmadı. Ədiyy ibn Hatəm: “Vay olsun sizə, bu davranışınız nə qədər çirkindir! Mən indi düşərgəyə gedirəm, bizimlə getmək istəyən varsa, bismillah!” [425] Ədiyyin bu çıxışından sonra bir dəstə ürəklənib, onun kimi çıxış etdilər. İmam onlara öz razılığını bildirdi. İmam Həsən Müğeyrə ibn Nofəli öz yerinə təyin edib, Müaviyəni İraqdan uzaq bir sahədə qarşılaşmaq üçün hərəkətə keçdi. Bu məqsədlə o, Ubeydullah ibn Abbası 12 min qoşunla Məskin bölgəsinə göndərdi. Düşərgəyə getmək istəyənlər İmam Həsənlə (ə) birlikdə hərəkət etdilər. Camaatın böyük hissəsi isə şəhərdə qaldı. Onlar əhdlərinə vəfa qılmadılar və onu da atası Hz.Əli kimi aldatdılar. İmam Nuxeylədə on gün qalsa da onun ətrafına cəmi dörd min nəfər toplandı. Bu səbəbdən İmam xalqı döyüşə səfərbər etmək üçün Kufəyə qayıtdı və orada “Məndən əvvəlki xəlifəni aldatdığınız kimi, məni də aldatdınız” məzmunlu xütbəsini oxudu.” [426] Müaviyə Yəməndə iki oğlunu itirən Ubeydullah ibn Abbası hiylə ilə ələ aldı və o, İmam Həsənə xəyanət edərək Müaviyənin tərəfinə keçdi. Bu, İmam Həsənin ordusunda ruh düşkünlüyü yaratdı, bu vəziyyət Mədaində də baş verdi və bu, problemlərə səbəb oldu.[427] Müaviyə, Ubeydullah ibn Abbasın yerinə keçən Qeys ibn Sədin öldürüldüyü şaiyəsini yayır, İmam Həsənin ordusunda oğurluq və qarətçilik başlayır, hətta İmam Həsənin oturduğu kilimi və çiyninə saldığı örtüyü də oğurlayırlar. Müaviyə Muğeyrə ibn Şöbə, Abdullah ibn Əmir və Əbdürrəhman ibn Həkəmi İmam Həsənin yanına göndərir. İmam Həsən ordudakı

---

[424] Tövbə, 123

[425] İbn Əbil Hədid.Nəhcül-bılağənin şərhi, 1V cild, s. 14; Hacı Fuad Nurullah. İmam Həsən (ə), s. 64-65

[426] Səid ibn Hibədullah Ravəndi. Əl-Xərayic vəl-Cərayih, s. 228

[427] Yasin Ali..”Sulhul-Həsən” (13 ed.), İntişar Gülşən, h. 1378, s. 192; Hacı Fuad Nurullah, yenə orada, s. 31-32

hərc-mərcliyi görüb, artıq qan tökülməsini istəməyərək gələnlərə sülhə razı olduğunu bildirir. Nümayəndələr İmamın yanından sevincək çıxıb, aralarında danışırlar ki, Allah Rəsulu-l-Lahın oğlu sayəsində qan tökülməsinin qarşısını aldı, o, fitnə atəşini söndürdü və sülh təklifini qəbul etdi. Bu xəbəri eşidən, bayaqdan İmama üzüdönük çıxan əhali İmam Həsənə hücum edib, hər şeyi qarət etdilər, ordudakı əsgərlər isə ona qarşı üç dəfə sui-qəsd etdilər.[428]

Kufə şəhəri Ömər ibn Xəttab vaxtı h. 17-ci ildə (m. 638) İraqın fəthindən sonra inşa edilmişdi. Cəməl döyüşündən sonra h. 36-cı ildə (m. 657) Hz. Əli Hicaz ərazisində məhsulun az olmasına görə buraya hicrət etmişdi. Dövlətə ən böyük ziyan onun məhsulda başqasından asılı olmasıdır. Kufə və Səvad bölgələrində isə artıqlamasilə məhsul yetişirdi. Kufə Xilafətin mərkəzi olandan sonra oraya Yəmən, Hicaz, Mədayin və b. yerlərdən müxtəlif təbəqəli insanlar axışıb gəldilər. Kufədə elm, təhsil və ticarət inkişaf etdi. Lakin burada müxtəlif fikirli insanların yığılması sonda fitnə və üsyan atəşinin alovlanmasına və bir çox tarixi faciələrin və çaxnaşmaların baş verməsinə səbəb oldu. Belə ki, Əmr ibn Haris, Əmmarə ibn Valid, Hicr ibn Əmr, Ömər ibn Səd, Əbu Musa Əş''ərinin oğlu Əbu Burdə və başqaları Müaviyəyə məktub yazıb, onun tərəfinə keçdiklərini xəbər verib, onun Kufəyə tərəf hərəkət etməsini məsləhət görərək, Suriya ordusu Kufəyə yaxınlaşdığı vaxt İmam Həsəni ona qolubağlı təslim edəcəklərini və ya ona qarşı sui-qəsd edəcəklərini bildirirdilər. Müaviyə öz casusları ilə Əmr ibn Haris, Əş''əs ibn Qeys, Həccar ibn Əbcər və Şibs ibn Rəbinin hər birinə belə bir məktub göndərmişdi: "Əgər Həsəni öldürsən, səni Şam ordularından birinin sərdarı təyin etməklə bərabər qızlarımdan biri ilə evləndirib, yüz min dirhəmlə mükafatlandıracağam." İmam Həsən bundan xəbər tutandan sonra paltarının altından zireh geyinərdi. Bir dəfə namaz üstə ona atılan ox zirehə görə onu yaralama-

[428] Qureyşi Baqir Şərif. Əl-Hayətul-Hasən, İntişar Besət, h. 1376, s. 361; Hacı Fuad Nurullah, yenə orada, s. 32

mışdı. Xəvaric isə guya Müaviyə ilə ən çox savaşmaq istəyənlərdi. Onlar İmam qarşısında bunu şərt qoymaq istəsələr də, İmam onların beyətini qəbul etmədi, onlar İmam Hüseynin (ə) yanına eyni şərtlə getdilər. O, qardaşının sağkən belə iş tutmayacağını dedi və onlar məcbur olub, İmam Həsənin yanına gəlib, qeyd-şərtsiz beyət etdilər. Lakin onlardan Şümr zil-Cövşən kimi bir neçəsi Müaviəyəyə qoşuldu, qalanları da guya Allaha söykənir, ancaq Allaha gedən həqiqi və dinin doğru bildiyi yollarla getmirdilər. Onlardan başqa xəvaricin təsirinə düşən və Əhli-beyt imamlarının ən təhlükəli düşmənləri olan şəkkaklar və müxtəlif irqlərdən olan kölə uşaqları da var idi. Bax belə bir şəraitdə - satqınlar və düşmən əhatəsində qalan İmam Həsən müsəlmanların qanının tökülməməsi üçün sülh bağlamağa razı oldu. Müaviyə ağ kağızı aşağıdan imzalayıb, İmam Həsənə göndərir və qeyd edir ki, sənin dediyin bütün şərtlərə razıyam, mən ancaq hökmdarlıq istəyirəm. Müqavilənin beş bəndində Müaviyə, dövləti Allahın Kitabı və Peyğəmbərin (s) sünnəsi əsasında idarə edəcəyi, özündən sora canişin təyin etməyəcəyi və sonra hakimiyyəti İmam Həsənə verəcəyi, Hz. Əlinin təhqir olunmayacağı, İmam Həsən, İmam Hüseyn və onların yaxınlarının təqib olunmayacağına imza atmışdı. Lakin bütün bu rəzalət hiyləgər Müaviyənin növbəti yalanları idi. Az sonra Müaviyənin iç üzü açıldı – o, özünü əmirulmuminin, xəlifə adlandırdı, yenidən Hz. Əli təhqir edildi və söydürüldü. Sülh bağlandıqdan sonra o, Kufəyə gəlib minbərə çıxıb deyir: “Mən sizinlə namaz qılıb, həcci yerinə yetirmək, zəkatı vaxtı-vaxtında ödəmək üçün vuruşmadım. Mən bilirəm ki, siz bunları yerinə yetirirsiniz. Mən sizinlə ona görə vuruşdum ki, sizi özümə tabe edib, hökuməti əlimə keçirim. Həsən ibn Əli ilə bağladığım sülh müqaviləsinin bütün maddələrini ayaqlarım altına qoyub tapdalayıram və heç birinin dəyəri yoxdur”.[429] Əxlaqsız qadının oğlundan bundan artıq nə gözləmək

[429] İbn Əbi-l-Hədid. Nəhcu-l-bəlağənin şərhi, XVI c., s. 15; Şahlar Şərifov.İslam tarixi, s. 142-143

olar?! Sonra o, oğlu Yezidi vəliəhd təyin edib, İmam Hüseyni öldürməyi ona tapşırdı, o da bunu vəhşicəsinə yerinə yetirdi. İslam alimləri, Müaviyə və ondan sonrakı xəlifələrin Peyğəmbər canişini və islam qanunlarının icraçısı vəzifəsini yerinə yetirmək deyil, padşah və hökmdar mahiyyəti daşımağa başladıqlarını qeyd edirlər. Sülh müqaviləsinin bağlanmasını eşidən xəvaric bütün qüvvələrini Müaviyə əleyhinə səfərbər etdilər. Hosəri Əsədi xəvaric başçısı kimi Müaviyəyə qarşı xeyli qoşun toplamışdı. Bunu eşidən Müaviyə utanmadan Mədinəyə gedən İmam Həsənə Hosərinin qiyamını yatırıb, Mədinəyə yolunu davam etməsi haqda məktub yazdı. İmam Həsən Müaviyəyə cavab yazdı ki, mən müsəlmanların qanını axıtmamaq üçün sülh bağladım, sənin əmrlərini yerinə yetirmək üçün yox!

Müaviyə vali və xəlifəliyi vaxtı o qədər alçaqlıqlar edib ki, saymaqla qurtarmaq olmaz. Onun heç bir çərçivəyə sığmayan bir alçaqlığını qeyd etmək istəyirik. O, kürsüsünə sahib olduğu, Allahın bütün bəşəriyyətə axırıncı peyğəmbər təyin etdiyi Məhəmməd Rəsulu-l-Lahın (s) adının yaddaşlardan silinməsinə səy göstərmişdir. Müğeyrənin oğlu Mütərrifdən belə nəql olunur ki, bir gün Müaviyənin sarayından qayıdan atam Müğeyrənin bərk narahat olduğunu görüb, narahatlığının səbəbini soruşduqda dedi: “Oğlum, indi dünyanın ən çirkin adamının yanından gəlirəm. Müaviyə ilə tək oturmuşduq, ona dedim ki, indi ki, öz arzuna çatıb hökuməti ələ keçirmisən, heç olmasa ömrünün axırında camaatla ədalət və yaxşılıqla davran, Bəni-Haşimlə bu qədər sərt davranma. Axı necə olsa, onlar sənin qohumlarındırlar, bundan da əlavə, onlar indi elə bir haldadırlar ki, daha onlardan sənə bir xətər yetişməz”. O alçağın cavabı belə oldu: “Xeyr! Əbubəkr xəlifə oldu, ədalətlə davrandı, ölümündən sonra təkcə adı qaldı. Ömər də 10 il xəlifə oldu, zəhmət çəkdi, ancaq ölümündən sonra təkcə qalan adı oldu. Sonra şərafətdə heç kəsin ona çata bilmədiyi qardaşımız Osman xəlifə oldu. O, ölən kimi adı da özü ilə birlikdə dəfn olundu. Ancaq İslam

aləmində hər gün bu haşimi gədənin adını beş dəfə çəkərək "Əşhədu ənnə Muhammədən Rasulu-l-Lah" deyirlər. İndi bu vəziyyətdə onun adını itirib-batırmaqdan başqa hansı yol var? [430] Şərhə ehtiyac varmı? Bu, Allahın bütün bəşəriyyətə göndərdiyi Peyğəmbərin adını itirib-batırmaq istəyi ilə birbaşa Allaha qarşı küfr etmək deyilmi?! Odur ki, Allah-Təalə də onu bütün müsəlman aləmində əbədi olaraq xar elədi. Peyğəmbərin Müaviyə, qardaşı Yezid və atası Əbu Süfyan haqqında dediyi fikri burada gətirmək yerinə düşərdi. Təbərinin yazdığına görə Əbu Süfyan ulağın belində, Müaviyə onun cilovundan tutmuş, qardaşı Yezid isə arxalarınca gələn halda Peyğəmbər onların haqqında buyurdu: "Allah hər üçünə lənət etsin".[431] 19 il üç ay xəlifəlikdən sonra Müaviyə Cəhənnəmə vasil oldu, Bəbu-l-Cəbiyə və Bəbu-s-Sağir arasında basdırıldı.[432]

Sülh müqaviləsindən sonra İmam Həsən Mədinəyə getdi. Orada dini, elmi, ictimai və siyasi işlərlə məşğul oldu. Müaviyə 660-cı illərdə bir neçə dəfə İmam Həsəni zəhərlətməyə cəhd etsə də İmam bunlardan qurtulmuşdu. Nəhayət o, yuxarıda qeyd edildiyi kimi, İmamın arvadı Əsmaya (Codə) yüz min dirhəm verəcəyini və onu oğlu Yezidə alacağını vəd edərək, İmamı zəhərlədib öldürtdü. İmam Hüseyn qardaşını babası Peyğəmbərin (s) yanında dəfn etmək istəsə də, Mərvan ibn Hakəm və Bənu-Üməyyənin digər nümayəndələri buna imkan vermədilər, İmam Həsən nənəsi Fatimə bint Əsədin yaxınlığında Bəqi qəbristanlığında dəfn edildi.[433] O, babası Peyğəmbərə çox oxşayırdı, Ali əbadan biri, Mübahilənin bir üzvü idi. 25 dəfə Həccə piyadə getmiş, üç dəfə bütün malını xeyriyyəyə sərf etmişdi, beş arvadı, on beş oğlu, yeddi qızı var idi.

İraqın rəisi Süleyman ibn Suradın tənqidi sualına İmam Həsən belə cavab vermişdi: "Əgər mən dünyəvi məqamlara çatmaq üçün

---

[430] Tərix Məsudi, III c., s. 454; Şahlar Şərifov, yenə orada, s. 146-147
[431] Şahlar Şərifov, yenə orada, s. 102; Tərix Təbəri
[432] Şahlar Şərifov, yenə orada, s. 153
[433] Hacı Fuad Nurullah. İmam Həsən (ə), s. 82

çalışsaydım, Müaviyə məndən güclü ola bilməzdi!” [434] Onun Abdullah ibn Zübeyrə verdiyi cavab daha kəskin olmuşdur. Qardaşı İmam Hüseynə (ə) verdiyi cavab da qısa və məntiqli idi: “Məndən əvvəl atamız hansı səbəbdən hökumətdən imtina etmişdisə, mən də eyni səbəbdən imtina etdim”. Onun tək bir qayəsi vardı - atasının məqsədi. Atasının hədəfi islamın mənəviyyatını məhv edilmək və səhih islamı yox olmaqdan qorumaq idi. Məhəmməd peyğəmbər əvvəlki Allah Elçiləri kimi peyğəmbər olduğu kimi, İmam Həsən də öz üstün xüsusiyyətləri ilə bir imam idi. Babasının Hüdeybiyyə, Bəni-Həmra hadisələrində üzləşdiyi çətinliklər, atasının Səqifə və Şura günlərindəki kimsəsizliyi onun üçün təkrarlanırdı.

İmam Həsən Mədinədə yaşadığı müddətdə Müaviyə Əhlibeytin hörmətinin yüksəldiyini görüb, vaxtaşırı özünə sadiq adamlarını oraya yığaraq məclislər düzəldir və İmamı da alçaltmaq məqsədilə oraya dəvət edərdi. Lakin bütün mübahisələrdə İmam qalib olardı, başda Müaviyə olmaqla, Əmr ibn As, Utbə ibn Əbu Süfyan, Abdullah ibn Zübeyr, Mərvan ibn Həkəm və b. məğlub olardılar. Bir dəfə Müaviyə Əmr ibn Asa dedi ki, Allaha and olsun, əgər Şam əhli bu mübahisəni eşitsə, rəzil olarıq. Buna görə də o, bir neçə dəfə özünü saxlaya bilməyib bəzi həqiqətləri dilinə gətirmişdi: “Həsən qədər heç kəsin danışarkən dayanmamasını istəməmişəm”.[435] “Onlar elə şəxslərdir ki, natiqlik onlara ilham edilmişdir”.[436] “Allaha and içirəm ki, özümü onun həmişə yanımda olmamasından qəmgin və məni məzəmmət edəcəyindən çəkindiyim halda gördüm”.[437] “Allaha and içirəm ki, onu yanımda oturmuş

[434] Əl-İmamə vas-siyasə, s. 15; Hacı Fuad Nurullah. İmam Həsən (ə), s. 82-90

[435] Tarixi Yəqubi. 11 c. s. 202

[436] İqdul-fərid. 11 c.. s. 323

[437] Biharul-ənvar. X c. s. 114

halda gördükdə, onun heybətindən eyiblərimin ortaya tökülməsindən qorxuram”. [438]

İmam Həsənin alicənablığı qarşısında da Müaviyə alçalırdı. Bir gün İmam at üstündə küçədən keçərkən, Müaviyənin dostlarından biri ilə rastlaşır. O, atlının İmam Həsən olduğunu biləndə onu söyüb, təhqir etməyə başlayır. İmam (ə) onu dinləyib deyir ki, yəqin sən qəribsən, düşmənlər tərəfindən təhrik olunmusan, onların yalan və iftiraları sənin qəlbini bizə qarşı kinlə doldurub. Əgər bir ehtiyacın varsa kömək edək, acsan doyuraq, paltarsızsansa paltar verək, qalmağa yerin yoxsa, mənə qonaq ol. O, İmamın rəftarından peşman olub, üzr istədi və dedi ki, düşmənlərinizin sözləri məni aldatmışdı, sizə və atanıza nifrət edirdim. Bundan sonra ömrüm boyu sizi sevəcək, haqqınızı müdafiə edəcəyəm, xəlifəliyə layiq Peyğəmbərin (s) ailəsidir. Kişi ölənə qədər öz sözünün üstündə durdu.[439]

Və nəhayət, Peyğəmbər Həsən və Hüseyni özünün iki tazə reyhanı, Cənnət gənclərinin ağaları adlandırıb, kim onları sevsə məni sevib, kim onları incitsə məni incidib demişdi. Müaviyə isə (Allah ona lənət eləsin) onun kürsüsünə sahib çıxıb, onun balalarına olmazın zülm edərək qətlə yetirdi. Bu heç bir ölçü və əndazəyə sığmır!

Yuxarıda qeyd olunduğu kimi, Əməvilər Qureyşin ikinci qolu idi, Əbdüşşəms övladları idilər. Müaviyə ibn Əbu Süfyan 661-ci ildə özünü xəlifə elan edib, Əməvilər xilafətinin (661-750) əsasını qoydu. Əməvilər xilafətini 14 xəlifə idarə etmişdir. Bunlardan üçü Müaviyə ibn Əbu Süfyan, Yezid ibn Müaviyə və Müaviyə ibn Yezid olmaqla Süfyaniyyə qolu, qalan 11-i isə Mərvan ibn Hakəm nəslindən olan Mərvaniyyə qolundan ibarət idi. Peyğəmbərin kürsüsü belə şəxslərə qismət olmuşdu. Onların hakimiyyəti dövründə

---

[438] Nəhcül-bəlağənin şərhi, 11 c. s. 101; Hacı Fuad Nurullah. İmam Həsən (ə). s. 97

[439] Şəhr Aşub. Əl-Mənaqib, c. 111, s. 185; İmam Həsən(ə), s. 115

Əməvilərin sərhədi şərqdə Türkiyə, Hindistan, qərbdə Afrika, Əndəlüs, şimalda isə Azərbaycan, Ərməniyyə və Bizans ölkələrini əhatə edirdi. Bu da onların islam adından istifadə edib özgə torpaqlarını zəbt etmələri sayəsində idi.

Müaviyə 605-ci ildə Məkkədə doğulmuş, atası Əbu Süfyan və anası Hində kimi Peyğəmbərin qatı düşməni olmuş, Məkkənin fəthi vaxtı atası kimi islamı qorxudan yalandan, qəlbən deyil, zahirən qəbul etmiş, qəlbən isə onun düşməni olmuşdur. Peyğəmbər (s) Beytulmaldan başqa səhabələrlə yanaşı bu nəməkbeharamlara da, hərəsinə 100 dəvə bağışlamışdır, bu böyük sərvət idi. Sonra Müaviyə, Əbubəkrin vaxtında qardaşı Yezid ilə Şama gedib oradakı vilayətləri tutmaqda iştirak etmişdir. 638-ci ildə qardaşı Yezidin ölümündən sonra yuxarıda qeyd olunduğu kimi, Ömər ibn Xəttab Müaviyəni Şamın valisi təyin etmişdi.

Əməvilərin II xəlifəsi, Müaviyənin ciddi-cəhdi, bəzi insanları qətlə yetirərək, bəzilərini həbs edərək, bəzilərinə işgəncələr verərək, bəzilərini qorxudaraq xəlifə qoyduğu oğlu Yezid oldu. O, 645-ci ildə Şamda doğulmuşdur. 680-cı ildə Müaviyə öləndən sonra xəlifəliyə gələn Yezidin pozğunluqları Məsudinin yazdığına görə onun hakimiyyətinə də keçdi. Onun vaxtında keyf məclisləri qurmaq, oxuyub- çalmaq adi hala çevrildi, camaat açıq-açığına şərab içməyə başladı.”[440]

Mənbələr yazırlar ki, Müaviyə oğlu Yezidə belə vəsiyyət etmişdi: “Oğlum! Hicaz xalqını qoru, çünki sənin əslin və soyun onlardandır. Onlardan sənin yanına gələnləri hörmətlə qarşılayıb yanında otuzdur. Bunlarla bərabər İraq xalqını da qoru. Əgər onlar bir valinin işdən çıxarılmasını istəsələr dərhal həmin valini vəzifəsindən kənarlaşdır. Çünki bir valinin işdən çıxarılması sənə qarşı yüz min qılıncın çəkilməsindən daha yaxşıdır.

Müsibətin kimin başına gələcəyi bilinməz. Suriya xalqını da qoruyaraq, onları özünə sirdaş et. Hər hansı bir təhlükə hiss etdik-

---

[440] Tərix Məsudi, III c., s. 67; Şahlar Şərifov. İslam tarixi, s. 153

də onu şamlıların vasitəsilə özündən uzaqlaşdır. Vəzifələri başa çatınca onları öz yerlərinə göndər, başqa yerlərdə yaşamasınlar, yoxsa əxlaqları dəyişər. Sənə qarşı çıxan üç kişidən qorxuram. Bunlar Hüseyn ibn Əli, Abdullah ibn Zübeyr və Abdullah ibn Ömərdir. Hüseyn ibn Əli haqqında Allah bilən olacaq. (Başqa mənbələrdə "Hüseyndən ya beyət al, ya da onu öldür" qeyd edilib.) Abdullah ibn Zübeyr hiyləgər bir tülküdür (Tülkü tülkünü yaxşı tanıyar, yeri gəlmişkən, müaviyə- ərəb dilində "tülkü balası", "qancıq küçük" mənalarını verib, hürmək, ulamaq felindəndir), əlinə keçsə aman vermədən öldür (Kəmfürsət, oğlunu da kəmfürsətliyə öyrədir). Abdullah ibn Ömərə gəlincə, onu Axirət ilə baş-başa buraxsan, o da səni sərbəst buraxar".[441] (Mənbələrdə başqa fikirlər də var. Bəziləri Müaviyənin Yezidə İmam Hüseyni beyət etməsə öldürməsini, bəziləri isə onu öldürməməyi məsləhət bilməsini yazır.) Yezid üçün o biri ikisi qorxulu deyildilər. Onun əsas qorxduğu şəxs İslam dövlətinin başında durmağa layiq Peyğəmbər (s) nəvəsi, Hz. Əli və Fatimeyi Zəhra balası İmam Hüseyn idi. Odur ki, o, Mədinə valisi - əmisi oğlu Valid ibn Uqbəyə məktub yazıb, Hüseyn ibn Əlidən beyət almayınca ondan əl çəkməməsini, əgər beyət etməsə başını kəsib Şama göndərməsini söyləmişdi. Valid öz müşaviri Mərvan ibn Hakəmlə məsləhətləşəndə o dedi ki, nə qədər ki camaat Müaviyənin ölümündən xəbər tutmayıb, sən Hüseyni və Abdullah ibn Zübeyri çağırıb onlardan beyət al, əgər beyət etməsələr, onları öldür (Müaviyə kimi, ətrafındakılar da hamısı qaniçən idilər!). Zübeyr məsələdən hali olub gecə ikən Məkkəyə qaçır. İmam Hüseyn isə Yezidə beyət etməyəcəyini Validə deyir və o da, Məkkəyə gedir. İmam Haram şəhər Məkkədə ona toxunulmayacağını güman edirdi

[441] İbn Kəsir. Əl-Bidəyə va-n-Nihəyə, VIII c., s ş 115-118; Tərix Təbəri, III c., 263-269; Siyuti. Tərixu-l-xuləfə, s. 194-205; Şahlar Şərifov, yenə orada, s. 153-154

İmam Hüseynin Yezidə beyət etməyərək Məkkəyə getdiyini bilən Kufə əhli Süleyman ibn Suradın evində toplanıb, İmama məktub yazaraq, onu Kufəyə dəvət etdilər. Məktubda islam ayinləri və şəriət hökmlərinin pozulmasına təəssüflənən kufəlilər qeyd edirdilər ki, biz Yezidi xəlifə saymırıq, onun bizə təyin etdiyi Nöman ibn Bəşiri hakim qəbul etməyib, arxasında namaz qılmırıq. Kufədə 100 min nəfər sənə kömək etməyə hazırdır, biz səni İmam qəbul edirik. Əgər bizim dəvəti qəbul etməyib, dini himayə etmək üçün ayağa qalxmasan, Allah yanında cavabdeh olacaqsan. İmam Hüseyn yazılanların həqiqət olduğunu bilmək üçün əmisi oğlu Müslim ibn Əqili Kufəyə göndərdi. Kufədə İmamın adından Müslimə 18000 adam beyət etdi. Müslim də buna sevinərək, İmam Hüseynə məktub yazıb, onu Kufəyə çağırdı.[442]

İndi isə İmam Hüseyn haqqında qısa məlumat. Hüseyn (əl-Hüseyn) ibn Əli 626-cı ildə Mədinədə dünyaya gəlib. O, Hz. Əli (ə) və Peyğəmbərin (s) qızı Fatimeyi Zəhranın (ə) ikinci övladı idi. O, uşaqlıq dövrünün altı ilini babası Peyğəmbərin yanında keçirmişdir. Adı o vaxta qədər təsadüf edilməyən böyük qardaşı Həsənin adı kimi babası tərəfindən qoyulmuşdu, bəzən də hər ikisi də Həsəneyn (iki Həsən) kimi çağırılırdılar (Hasən - ərəbcə yaxşı, Hüseyn isə balaca yaxşı deməkdir). Peyğəmbər onları “Cənnət gənclərinin ağaları” adlandırırdı. “Hüseyn məndə, mən Hüseyndəyəm. Allah Hüseyni sevənləri sevər” demişdi. Sonra isə Həsən və Hüseyn haqqında: “Allahım, mən onları sevirəm, Sən də onları sev və onları sevənləri sev!” – demişdi. Peyğəmbərin vəfatından 75 gün sonra anası Fatimeyi Zəhra vəfat edir. Hüseyn otuz il atası Hz. Əli ilə birgə yaşamış, atasının hakimiyyəti dövründə yaranan çətinliklərin həllində fəal iştirak etmişdir. Yuxarıda qeyd edildiyi kimi, 656-cı ildə Hz. Əli Həsənlə Hüseyni Osmanı üsyançılardan qorumaq üçün göndərdi. Asilər Osmanın evinin qabaq tərəfindən evə keçə bilmədilər. Sonra hiylə işlədərək, başqa bir evdən özləri-

[442] Şahlar Şərifov. İslam tarixi, s. 154

nə yol açıb, Osmanın mənzilinə girib, onu öldürdülər. Atasının xəlifəliyi vaxtı Hüseyn atası ilə Kufəyə gedib onun bütün səfərlərində iştirak etmişdir.[443] 661-ci ildə atasının vəfatından sonra və ictimai səhnələrdə qardaşı İmam Həsənlə çiyin-çiyinə çalışmışdır. 669-cu ildə İmam Həsənin zəhərləndirilərək şəhadətindən sonra Hüseyn Mədinəyə döndü, on il müddətinə qədər Müaviyə ibn Əbi Süfyanın hakimiyyəti dövründəki islami vəzifələr İmam Hüseynin boynuna düşmüşdü. Müaviyənin ölümündən sonra hakimiyyətə sahib çıxan Yezidin dövründə haqsızlığa qarşı üsyana başçılıq etmişdir. Kufə əhli onu üçüncü imam kimi qəbul edib, onu Yezidə qarşı hərəkata başçılıq etməyə dəvət etdilər. Bir az əvvəl qeyd olunduğu kimi, Hz. Əliyə hiylə işlədərək, Suriyada özünü xəlifə elan edib, Əməvilər sülaləsinin əsasını qoyan Müaviyə öz taxt-tacını oğlu Yezidə verib, hökmən Hüseyndən beyət almaq və ya onu məhv etməyi Yezidə vəsiyyət etdi. Yezid İmam Hüseynə beyət etmək təklifi göndərdi. İmam Hüseyn bu təklifi rədd edib, Kəbəni ziyarət etmək üçün Məkkəyə getdi. Yezidin Məkkəyə hücum etmək istədiyini eşidən, müqəddəs yerdə qan tökülməsini istəməyən, həm də babası Peyğəmbəri yuxuda görüb ona "Oğul, sənin şəhadət və bizə qoşulmaq vaxtın çatıb" deməsi İmam Hüseyni (ə) Kufəyə getməyə meyl etdirdi. Kufədən aldığı yaxşı xəbər də buna əsas verirdi. Lakin İmam Hüseyn Kufəyə yolda kufəlilərin üsyanını başda İbn Ziyad olmaqla Yezidin qoşunları əvvəlindəcə boğduqlarını və Müslimi tutub 680-ci ilin sentyabrında şaqqalayaraq, şəhər darvazasından asdıqlarını eşitsə də bu yoldan qayıtmaq istəmədi. Çünki yuxarıda deyildiyi kimi, babası Peyğəmbər yuxuda ona şəhidlik müjdəsi vermişdi, həm də Yezidin qoşunları onu hər yerdə izləyirdi. İmam Hüseyn 680-ci il Məhərrəm (Oktyabr) ayının 10-da İraqın Kərbəla çölündə öz yaxınları ilə birlikdə Yezidin çoxsaylı ordusu tərəfindən vəhşicəsinə şəhid edildi.[444] (Yuxarıda

[443] İslam. Ensiklopedik lüğət. Bakı, 2013, s. 208
[444] Yenə orada, s. 208-209

qeyd edildiyi kimi, Hüseynin dünyaya gəlməsini Cəbrayıl (ə) Peyğəmbərə xəbər verəndə o, əvvəl gülümsəyib sonra ağlamışdı. Səbəbini soruşduqda, nəvəsinin doğulduğunu, lakin onun 60 yaşa çatmamış Kərbəla çölündə şəhid ediləcəyini deyir. Dini mənbələrin məlumatına görə Allah-Təalə onun bu şəhadəti üçün ona bir neçə məziyyət vermişdi. Təkcə onun qəbrinin torpağından başqa, insanlara torpaq yemək haramdır. Onun məzarı yanında edilən duaları Allah-Təalə qəbul edir. Onun ziyarətində olan günləri Allah-Təalə insanın ömrünə yazmır və s.). Bu döyüşdə qəhrəmanlıqla vuruşub ilk şəhid olanlar İmam Hüseynin böyük oğlu Əliəkbər, sonra başqa oğlu Abdullah, İmam Həsənin oğlu Qasım, qardaşı Hz. Abbas, Cəfər, Əbdürrəhman və başqaları oldular. İmam Hüseynin şəhadəti Əhli-beyt tərəfdarlarının qəlbində sağalmaz yara açmışdır. Kərbəla şəhidlərinin xatirəsini canlı saxlamaq üçün onların məzarlarını milyonlarla müsəlman il boyu ziyarət edirlər. "Hər gün Aşura, hər yer Kərbəla" deyimini şüar edən Əhli-beyt tərəfdarları zalım ilə məzlumun qarşı-qarşıya gəldiyi Kərbəla hadisəsini yaddan çıxarmırlar, Qiyamətə qədər var olacaq hüseyni düşüncəni yezidi düşüncə qarşısında ayaqda saxlamağa çalışırlar.[445]

Artıq xəlifəlik taxtına oturmuş Yezid ibn Müaviyə ibn Əbi Süfyan (Allah onların üçünün də cəzasını versin) yuxarıda qeyd olunduğu kimi Mədinə hakiminə belə bir məktub yazmışdı: "Haqlı yolla yer üzünün xəlifəsi olan (?) və xilafət məsnədində müstəqil islam imarəti quran Müaviyə ibn Əbi Süfyan dünyadan gedib. İndi hökumət işlərinin icrası mənə yetişib. Lazımdır ki, böyüklü-kiçikli, varlı-kasıb, hər növ bəni-Adəm məni imam və xəlifə bilib itaətimdən boyun qaçırmayalar. İndi ki, sən Mədinə valisi Valid bin Ütbəsən, gərəkdir ki, o diyarda olan böyüklərdən və əşrafdan, xüsusilə atamın zamanında mənə beyət etməkdən boyun qaçırmış adamlardan mənim üçün beyət alasan. Əgər qəbul etməsələr, onları qət-

[445] Aslan Həbibov. Əli və Hino romanında Əhli-beyt.Azərbaycan və Əhli-beyt irsi. Bakı—2013, s. 295-296

lə yetirib, başlarını Şama göndərəsən və mənim lütfümə ümidvar olasan”.[446] Yeri gəlmişkən qeyd edək ki, əyan-əşraf deyərkən o, İmam Hüseyni nəzərdə tuturdu. Sonradan o, İmam Hüseynin Kufəyə gəlişi ərəfəsində, qaniçən İbn Ziyadı Bəsrədən çağırıb Kufəyə vali təyin etdikdə ona yuxarıdakından da qəddar bir məktub yazıb İmam Hüseynin (ə) başını ondan tələb etmişdi. Aşuradan sonra İmam Hüseynin başı onun qurduğu şadyanalıq məclisinə gətirilərkən belə rəzil hərəkətinə görə qonaqlar arasında rüsvay olan Yezid ikiüzlülük edib, gah İbn Ziyadı, gah Haulini, gah da Şümr ibn Zil Cövşəni söyüb, onların bu vəhşiliyi etdiklərini deyir. Şümr deyir: “Qatil biz deyilik, qatil o kəsdir ki, hökmlər göndərib, qoşun toplayıb, bu əmrə mübaşir olub”[447], yəni qatil elə sən özünsən (Allah onların hamısına lənət eləsin).

Bəni-Ümeyyənin çirkin hökuməti əks təbliğ və şəxsi-qərəzlik nəticəsində Peyğəmbərin pak ailəsini Şam əhalisinin gözündə pis, pozğun, bunun müqabilində isə Bəni-Üməyyəni Peyğəmbərin ailəsi kimi qələmə verirdi. Tarixçilər yazırlar:

“Abbasilərin qələbəsindən sonra Əbu-l-Abbas Səffah hakimiyyətə gələndə Şam əmirlərindən on nəfər onun yanına gedib, hamılıqla and içərək bildirdilər ki, biz (Əməvi xəlifəsi) Mərvanın ölümünə qədər Peyğəmbərin (s) Bəni-Ümeyyədən başqa qohumu olduğunu bilmirdik.”

Kərbəla əsirləri şama daxil olduqda bir kişi dördüncü imam Zeynulabidinin qarşısında durub deyir: “Həmd olsun Allaha ki, sizi öldürməklə camaatı sizin şərinizdən qurtardı və əmir əl-mömini (Yezidi) sizin üzərinizdə qalib etdi.” Xalq elə aldadılmışdı ki, Əhli-beyt xaricilər, islamın düşmənləri kimi təsəvvür edilirdi. Kərbəla əsirləri payi-piyada, zəncirlənmiş, min-bir əzabla Şama gətirildilər, təhqir edildilər. İmam Hüseynin 4 yaşlı qızı Rüqəyya, atasının kəsilmiş başını məcməyidə Yezidin məclisinə gətirildiyini

[446] Məhəmməd Füzuli. Kərbəla vaqeyəsi. Bakı, 1997, s. 12
[447] Yenə orada, s. 143

gördükdə həyacandan nə hala düşdüsə, tab gətirməyib vəfat etdi[448]. Onu şam qəbristanlığında dəfn etməyə də qoymadılar, dedilər xariciləri burada dəfn etməyə icazə yoxdur (Deməli, Müaviyə-Yezid təbliğatı Peyğəmbər balasını xarici etmişdi). Onu xaraba bir məsciddə dəfn etdilər. (Hazırda məscid təmir edilib, Rüqəyyanın oradakı məqbərəsi ziyarət edilir, Yezidin qəbri isə yoxdur, aşağıda qeyd ediləcəyi kimi, at onu daşlara çırpıb parçalamışdı).

Bütün bu neqativ hallarla yanaşı Aşura qiyamının çox müsbət nəticələri oldu. İmam Hüseyn zalım hökumətə qarşı məlum səbəblərə görə qiyam edərək, öz ailə və əshabı ilə birlikdə şəhadət məqamına nail oldu. Lakin bu, islam üçün məğlubiyyət deyildi. Çünki İmamın (ə) qiyamı müsəlmanların ayılması, islamın yenidən dirçəlməsi və əbədi yaşaması ilə nəticələndi, Allahın hökmü də belə idi.

Qeyd olunan kimi, Bəni-Ümeyyə hakimləri müxtəlif yollarla öz hakimiyyətlərini din pərdəsi altında gizlətməyə çalışaraq, bu hədəf yolunda öz şənlərinə hədislər uydurub, şeirlər yazdırsalar da, Aşura faciəsi onların iç üzünü açdı və xalq arasında onları rüsvay etdi. Yezidin qoşununun Aşura günü Hüseyn tərəfdarlarının suya yolunu kəsməsi, uşaqları öldürüb, qadınları əsir götürməsi, İmamın başını kəsib, mübarək cəsədinin üstündə at çapması və bu kimi namərd, insanlığa sığmayan hərəkətləri mövcud hakimiyyətin dinsiz-imansız olduğunu sübut etdi.

Yezid Aşura hadisəsindən sonra Ubeydullah ibn Ziyadı Dəməşqə dəvət edib, ona çoxlu mükafat verdi, yanında oturdub dərəcəsini artırdı, sonra isə hərəmxanasına aparıb, birlikdə qadınlarla eyş-işrətə başladılar.

Aşura faciəsi təsirsiz ötmədi və İslam dünyasında böyük narazılığa səbəb oldu. Məkkədə yaşayan Abdullah ibn Zübeyr fürsətdən istifadə edərək, Kərbəla faciəsini əsas tutub Yezidi və tərəfdarlarını lənətlədi. Kufə əhlini xəyanətkar və əhdi pozan adlandırıb,

---

[448] Məhəmməd Füzuli. Kərbəla vaqiəsi , Bakı, 1997, s. 146

Məkkə camaatının Yezidə beyət etməməsini istədi. Ubeydullah ibn Ziyad Kufədə minbərdə Yezid və nəslini tərifləyib, Hz. Əli və İmam Hüseynə nalayiq sözlər deyəndə Kufə əhli olan kor və təqvalı Abdullah ibn Əfif ayağa qalxaraq, onun sözünü kəsib, Peyğəmbərin (s) ailəsinə verdiyi söyüşləri onun özünə qaytardı.

Abdullah ibn Zübeyrin Məkkədə özünü xəlifə elan etməsindən cürətlənib Nəcdə ibn Amir ən-Nəhai Yəmamədə idarəni əlinə aldı. Mədinədə də əhali üsyan edib Abdullah ibn Hənzələyə beyət etdilər. Beləliklə, Ərəbistanın iki baş şəhəri Yezidə qarşı çıxdı.[449] Xəbər Yezidə çatdıqda o, Müslim ibn Aqabəni 12 min qoşunla Peyğəmbər şəhərinin üstünə göndərərək ona dedi: "Mədinə əhlini üç gün beyətə çağır, qəbul etməsələr axıra qədər vuruş, şəhəri üç gün talan elə, ələ keçirdiyin sənin və əsgərlərinin olsun". Müslim ibn Aqabə Mədinəyə Hərra qapısından girdiyi üçün Mədinə şəhərində törədilən faciə "Hərra facisi" adlanır. O şərəfsiz, Mədinəyə hücumunu birinci olaraq Peyğəmbərin hərəmindən başlayıb, oranı qoşunun ixtiyarına verdi. Onlar qız-gəlinlərin namusuna təcavüz edib on minlərlə qanundankənar uşağın doğulmasına bais oldular. 682-ci ildə baş verən bu faciə nəticəsində doğulan uşaqlar "Bəni-Hərra əhli" adlandı. Müsəlmanların mal-dövləti özünü əmirulmuminin adlandıranın "müsəlman" qoşunları qarət edib, müsəlmanların qanını Peyğəmbərin pak qəbrinin yanında axıtdılar.[450]

Mədinədəki faciəni eşidən müsəlmanlar Məkkədə üsyan qaldırdılar. Yezid Müslim ibn Aqabəyə Məkkəyə hücum etməyi əmr etdi. Müslim Məkkəyə yarı yolda Cəhənnəmə vasil oldu. Onu başqa sərkərdə-Kərbəlada İmam Hüseynin qətlində iştirak etmiş Husayn ibn Numeyr əvəz etdi. Abdullah ibn Zübeyr Məkkəni yaxşı müdafiə etdiyi üçün Məkkənin mühasirəsi bir ay davam etdi. Kəbə də daxil olmaqla Məkkənin yarısı yandırıldı (Bu rəzil hərəkətlərin

---

[449] Tərix Təbəri, III c., s. 349-351; Şahlar Şərifov. İslam tarixi, s. 156

[450] Şahlar Şərifov. İslam tarixi., s. 156-157 Tərix Təbəri, VII c., s. 6; III c., s. 352-359; Sibt ibn Cövzi. Təzkiratu-l-xəvass, s. 163; Tərix ibn Əsir, IV c., s. 102-103; Siyuti. Tərixu-l-xuləfə, s. 209

hamısını özlərini müsəlman adlandıranlar edirdi). Bu arada Yezidin ölüm xəbəri Məkkəyə gəlib çatdı. Husayn bəzi şərtlərlə Abdullaha beyət edəcəyinə söz verib, onu Şama aparmaq istəsə də, Abdullah rədd etdi. Husayn Mədinədəki əməviləri də götürüb Şama getdi. [451]

Yezidin Aşura hadisəsindən sonra qüruru və sevinci çox çəkmədi. O, İmam Hüseyni öldürdüyü üçün xalqın ona qarşı olan nifrət və qəzəbini daha çox hiss etməyə başladı. Xalqın ona qarşı olan ikrahına dözə bilməyən Yezid, İmamın (ə) qətlini İbn Ziyadın üstünə atdı və bu məğlubiyyəti öz üzərindən götürmək üçün əlindən gələni edirdi.

Lakin İmam Hüseyn o zalımların ona etdikləri zülmdən qabaq öz ürəyiyumşaqlığı ilə onları ölümdən qurtarmışdı. Hz. Əlinin xəlifəliyi vaxtı, yuxarıda qeyd edildiyi kimi, Müaviyənin təhriki ilə onun adamları imam haqqında nalayiq sözlər deyirdilər. Bu nalayiq xəbəri Hz. Əliyə (ə) verəndə o, onları tutub hərəsinə 200, İbn Ziyada isə 400 taziyanə vurmağı əmr etdi. Onu xurma ağacına bağlayıb, əmri yerinə yetirmək istədikdə İmam Hüseyn gəlib çıxır. İbn Ziyad ona yalvarıb imdad istəyir. O, atasının yanına gəlib İbn Ziyadı azad etməyi xahiş edir. Hz. Əli qulaq asmır, ikinci, üçüncü dəfə xahiş edir, o, qulaq asmır. Nəhayət, onu təzəlikcə vəfat edən Fatimeyi Zəhranın ruhuna and verir, atası bundan keçə bilməyib, əxlaqsız qadın Mərcanənin oğlu - o şərəfsiz İbn Ziyadı bağışlayır. Bu yaxşılığın əvəzində o məlun, İmamı, balalarını, qohum - qardaşını vəhşicəsinə qırdı. İmam Hüseyn onun qətlinə susayan məlun Şümr Zil Cövşənə də ürəyiyumşaqlıq edir, döyüşə başlayarkən o, Şümr Zil Cövşəni öldürə biləcəyi halda, rəhm edib onu öldürmür, deyir ki, bəlkə bu rəzalətli yoldan döndü. O isə, bütün varlığı ilə İmamın və balalarının məhvinə çalışdı və buna nail oldu.

---

[451] Tərix Təbəri, III c., s. 361-362; Tərix Məsudi, IIIc., s. 78-81; Tərix Yaqubi, II c., s. 250-253; Şahlar Şərifov, yenə orada, s. 157

İbn əl-Əsir yazır: "İmam Hüseynin başını Yezidə gətirdilər. O, bunu görüb, çox sevindi və İbni Ziyadı tərifləyərək mükafatlandırdı. Çox keçmədi ki, camaatın qəzəbi, ona söyüş və lənət yağdırması barədə Yezidə xəbər verdilər. Yezid vəziyyətin ciddiləşdiyini görüb, İmam Hüseyni öldürməkdən (guya) peşman olub dedi: "Allah Mərcanənin oğluna lənət etsin! O, Hüseyni qətl etməklə camaatın mənə qarşı çıxmasına səbəb oldu. (Nə Hauli ibn Yezid, nə də Şümr Zil Cövşən İmamın qətlini boyunlarına aldılar.Yuxarıda qeyd edilmişdi ki, bunu Yezid özü, atası lənətlik Müaviyənin vəsiyyəti ilə əmr etmişdi). İndi xalq məni lənətləyir və məni özlərinə düşmən bilir. Əgər bilsəydim Hüseyni öldürtdüyümə görə lənətlənəcəm, heç vaxt onu öldürtməzdim".

Həmçinin, Yezid əvvəl əsirlərə təkəbbürlə yanaşır, onları xarabalıqda saxlayırdı. Xalqın etirazı onu öz rəftarını dəyişməyə məcbur etdi və onlara Mədinəyə qayıtmağa icazə verdi. İmadəddin Təbərinin yazdığına görə Xanım Zeynəb adam göndərib, Yeziddən əzadarlıq keçirilməsinə icazə istədi. Yezid onlara "Dəru-l-hicrə"də əzadarlıq keçirməyə icazə verdi. Əsirlər orada yeddi gün əzadarlıq keçirəndən sonra əza məclisinin təsiri altında camaat Yezidin sarayına hücum çəkib, onu öldürmək istədilər. Yezid Aşura hadisəsindən sonra çox yaşamadı, lakin insanların nifrət və lənətini həmişəlik Bəni-Ümeyyə üçün miras qoydu.

Atası kimi Yezid də Hz. Əlini hər yerdə söyüb, təhqir edirdi. Etdiyi əməllərə görə Allah onu Aşuradan üç il keçmiş məhv etdi. O, ata minərkən ayağı üzəngiyə ilişir və at onu dağ-daşa çırparaq, Cəhənnəmə vasil edir.

Müaviyə 42 illik (valiliyi) və xəlifəliyi dövründə Kapidağ, Kipr, Xorasan və Sind bölgələrini, Sicictan, Kabil, Toharistan, Buxara, Səmərqənq, Misir və başqa Şərq bölgələrini istila etmişdi. O, Osmanın qohumlarına torpaqlar, vəzifələr verib, Əli tərəfdarlarını sıxışdırıb pisləməyi, əvvəlki üç xəlifəni tərifləməyi onlardan tələb edirdi. Bunun səmərəsinin yuxarıda şahidi olduq – Xalid

Məhəmməd Xalid kimi tarix yazanları da bu yolla ələ alıb, onlara həqiqəti yox, yalan, uydurmaları yazmağı tapşırırdı. Kufə valisi Muğirə ibn Şöbənin cümə xütbələrində Hz. Əlini (ə) söyüb - təhqir etməsinə dözməyən İbn Ədiyyi 14 yoldaşı ilə birlikdə Müaviyə işgəncə ilə öldürdü. Onların günahı Hz. Əlini söyməmək idi. Məşhur Malik Əştəri də Müaviyə zəhərlədib. Namaz və xütbələrdə Müaviyənin əmri ilə Hz.Əlinin lənətlənməsi xəlifə Ömər ibn Əbdüləziz dövrünədək davam etdi (717-720). Yezid Mədinə şəhərində qırğın törətmiş, yuxarıda qeyd olunduğu kimi səhabələri kütləvi şəkildə öldürmüş, müsəlman qadınları zorlatmışdı. (Bundan sonra da bəzi səbatsız tarixçilər onu "əmiru-l-muminin" adlandırıb, ona "radıyə-l- Lahu anhu" deyirlər, Allah onların cəzasını versin).

Müaviyə və Yezidin qaniçənliyi Yezidin oğlu Müaviyənin etiraflarında açıq-aydın görünür: "Ey insanlar! Babam Müaviyə, Peyğəmbərə (s) daha yaxın səbəbi ilə xəlifəliyə daha layiq olan Əliyə (ə) qarşı vuruşdu və bilmədiyiniz şeyi sizə yüklədi, indi qəbrində günahlarının girovu, qəbahətlərinin əsiridir. Sonra xəlifəliyə atam Yezid gəldi, o, xəlifəliyə layiq deyildi. Nəfsinə tabe oldu, tamah gözlərini kor etdi. İndi o da günahlarının girovu, qəbahətlərinin əsiridir. Bizə ən ağırı onun yatdığı yerin murdarlığını bilməyimizdir. Onun getdiyi yer necə də pis yerdir. Çünki o, Allah Rəsulunun övladlarını qətlə yetirdi, harama halal dedi və Kəbəni dağıtdı".

Peyğəmbərin nəslinə qəlbindəki nifrətini heç cür soyuda bilməyən Yezid ibn Müaviyə Kərbəlada törətdiyi rəzalətdən sonra şeirlərində də bunu izhar edirdi: "Kaş Bədr günü ölən babalarım indi burda olaydılar, sevincdən fəryad edib deyərdilər: Əlin var olsun, Yezid! Onların ən böyüklərini öldürdün (İmam Hüseyn ondan 22 il böyük idi) Bu, Bədrin cavabı idi, indi oldu heç-heçə.

Bəni-Haşim səltənətlə oyun oynadı, necə? Əziz övladını öldürüb, Əlidən öz qisasımızı aldıq!”[452]

Budur, Yezid, Müaviyə və Əbu Süfyan xisləti!

Yezid ibn Müaviyə öləndən sonra Əməvilər onun oğlu II Müaviyəyə beyət edib 683-cü ildə onu Əməvi xəlifəsi seçdilər. Onun Əbu Əbdürrəhman, Əbu Yezid, Əbu Yə”lə ləqəbləri var idi. Anası Ummu Haşim bint Əbi Haşim idi. II Müaviyə mömin müsəlman idi. Atası Yezid və babası Müaviyənin törətdikləri cinayətlərə görə xəcalət və əzab çəkir, ata və babasını xəlifəliyə layiq olmayan ləyaqətsiz adamlar adlandırırdı. Özünün bu mənsəbə layiq olmadığını, xəlifəlik kürsüsünün imamlara məxsus olduğunu söyləyib, xəlifə olmağa razı deyildi. Ona görə də bir gün camaatı toplayıb minbərə qalxır və yuxarıda deyilənlərə əlavə olaraq deyir ki, atam Yezid etdiyi əməllərə görə cəzasını çəkəcəkdir. Onun taleyindən xəbər tutmaq bizim üçün çətindir. Hz. Peyğəmbərin Əhli-beytini öldürməsinə, Mədinəyə hörmətsizlik (rüsvayçılıq) etməsinə və Kəbəni viran qoymasına görə onun başına nələr gələcəyini biz bilmirik (Kəbəni dağıtmaq istəyən Əbrəhənin başına nə gəldisə ondan da pisi onun başına gəldi.). İndi isə mən sizin dediyinizə razı deyiləm. Özünüzə istədiyiniz şəxsi xəlifə seçə bilərsiniz.[453]

Cəmi üç ay xəlifəliyə dözə bilən o mömin II Müaviyə ürəyindəki çək-çevirdən 20 yaşında vəfat etdi (və ya öldürüldü). Əməvilərdən bir qrupu onun qardaşı Xalidi xəlifə görmək istərkən, başqa bir qrup Abdullah bin Zübeyri xəlifəliyə irəli sürürdülər, bunların başında Zəhhaq ibn Qeys dururdu. Əməvilərin başqa bir “ağıllı” qrupu isə öz qaniçənliyi və kəmfürsətliyi ilə məşhur olan Mərvan ibn Hakəmə beyət etdilər. Nəticədə 684-cü ildə “Mərci-Raxt” adlı yerdə Zəhhaq ibn Qeysin başçılığı altında Abdullah ibn Zübeyrin

---

[452] İbrahim Həsən.Tərixul-İslam; Mustafa İslamoğlu.İmamlar və sultanlar; Hacı Fuad Nurullah. İmam Hüseyn (ə), s.178-184

[453] Şahlar Şərifov. İslam tarixi, s. 197-198 Tərix Məsudi, III c., s. 82; Tərix Yəqubi, II c., s. 254; İbn Kəsir. Əl-Bidəyə va-n-Nihəyə, VIII c., s. 237-239

tərəfdarları və Ubeydullah ibn Ziyadın başçılığı altında Mərvanın tərəfdarları üz-üzə gəldilər. Bu hakimiyyət uğrunda döyüşdə Mərvanın tərəfdarları qalib gəldi. Mərvan Şama daxil olub ümumi beyətdən sonra xəlifə elan edildi.[454]

Beləliklə, Əbubəkr öz hakimiyyəti dövründə Müaviyəni qardaşı Yezidlə Şam diyarını tutmağa göndərir. Yezid öləndən sonra Ömər ibn Xəttab 638-ci ildə Müaviyəni Şama vali təyin edir. Osman Müaviyəni bütün işlərində dəstəkləyir. Müaviyə özünü Şam diyarının tam hüquqlu padşahı hesab edir. Osmanın qətlində o, yalandan Hz. Əlini günahlandırıb, qanuni xəlifə seçilən Əliyə beyət etmir, xəlifəliyi ona verməyi tələb edir. Hz. Əlinin şəhadətindən sonra qanuni İmam Həsən ibn Əlini zəhərlədib öldürür və xəlifəliyi ələ alır, sonra öz yaramaz oğlu Yezidi xəlifəliyə ucaldaraq İmam Hüseyni (ə) qətlə yetirməyi ona tapşırır, Yezid də bu tapşırığı vəhşicəsinə yerinə yetirir. Yezid Cəhənnəmə vasil olandan sonra onun oğlu mömin II Müaviyə xəlifəlkdən əl çəkir və bir qrup əməvi, Mərvanı xəlifə seçir. Allah-Təalə tərəfindən bəşəriyyətə peyğəmbər göndərilən Rəsulu-l-Lahın (s) kürsüsünə haqsızlıq üzündən ona layiq olmayan şəxslər sahib oldular.

---

[454] Tərix Məsudi, III c., s. 93-96; Tərix Yəqubi, II c., s. 255-256; Şahlar Şərifov, yenə orada, s. 198

# NƏTİCƏ

Beləliklə, biz mövzunun adına uyğun olaraq, erkən islam tarixi haqqında azərbaycanlı tədqiqatçıların və yeri gəldikcə dünya alimlərinin, o cümlədən Şərq alimlərinin erkən islam tarixi haqqında olan məlumatları imkan daxilində bu əsərdə bir yerə cəmləşdirmişik.

1. Bunlardan A.Masse, İ.Qoldsiyer, V.V.Bartold, Mirzə Kazım bəy, İ.P.Petruşevski, Bernard Luis, Adam Mets, M.Köprülüzadə, Y.A.Belyayev, İ.Y.Kraçkovski və başqalarını qeyd etmək olar.

2. Azərbaycanlı tədqiqatçılardan isə Mirzə Kazım bəy, A.A. Bakıxanov, Z.M. Bünyadov, P.T.Juze, Ə.Əlizadə, A.Paşazadə, S.Aşurbəyli, İ.Əliyev, O.Əfəndiyev, R.Hüseynov, N.Vəlixanlı, İ.Babayev, G. Baxşəliyeva, Y.Mahmudov, Ş.Fərzəliyev, E.Həsənova, A.Məmmədov, R.Əliyev, R.Mürsəlov, H.F.Nurullah, N.Məmmədzadə, Ş.Şərifov və başqalarını göstərmək olar.

3. Qeyd etmək lazımdır ki, adıçəkilən tədqiqatçılar Sovetlər dövründən əvvəl, Sovet dövrü və ondan sonrakı dövrün alimlərdirlər. Sovet dövründən əvvəlki tədqiqatçılar əsərlərini öz məfkurələri, Sovet dövrü müəllifləri isə marksizm-leninizm metodologiyası, ateizm baxımından yazırdılar. Bizim müasir tədqiqatçılarımız isə öz fikirlərini nisbətən azad şəkildə izah edə bilirlər.

Əslən azərbaycanlı olub, Rusiyada yaşayan, N.İ.Lobaçevski, N.Q.Çernişevski, L.N.Tolstoy, M.F.Axundovun müasiri böyük şərqşünas, filosof, tarixçi, filoloq Mirzə Kazım Bəy (1802-1870) sufilik, müridizm haqqında fikirlərini söyləyərək, Məhəmməd peyğəmbəri də yalançı peyğəmbərlər sırasında versə də, onu yüksək qiymətləndirmişdir.

4. Erkən islam tarixi Məhəmməd peyğəmbərlə (s) bağlı olduğu üçün əlbəttə əsərin çoxu ona aiddir – onun doğuluşu, uşaqlığı,

gəncliyi, evlənməsi, dünyanın yaradılışı haqqında düşüncələri, ilk vəhyin ona nazil olması, Tək Allahın mövcudluğu haqqında Cəbrayılın (ə) ona verdiyi biliklər, islamın gizli və sonra da açıq - aşkar təbliği, müşrik – bütpərəstlərin əvvəldə buna əhəmiyyət verməmələri, sonradan islamın vüsət alacağından qorxub var qüvvələri ilə ona qarşı mübarizə aparmaları, müsəlmanlara müşriklər tərəfindən verilən əzab-əziyyətlərə görə Peyğəmbərin onlara Həbəşistana hicrət etmələri haqqında tövsiyəsi, Peyğəmbərin maddi və mənəvi köməkçiləri - arvadı Xədicənin və əmisi Əbu Talibin vəfatından sonra vəziyyətin daha da ağırlaşması və hətta müşriklərin onu öldürmək istəmələri, öz yetirməsi-əmisi oğlu, kürəkəni, (indiki dildə desək cangüdəni) Əlini Allahın əmri ilə öz yatağında uzadıb müşriklərdən gizlin, əvvəlcədən əlaqələr qurduğu Yəsribə hicrət etməsi, Yəsribə gələndən sonra onun Mədinə (Mədinə Nəbəvıyyə - Peyğəmbər şəhəri) adını alması, Mədinədə islamın təbliği və yayılması, müsəlmanların Mədinədə bir-biri ilə qardaşlaşması, Məkkə müşriklərinin karvanlarına hücumlar edilərək, mühacirlərin Məkkədə tərk etdiklərinin əvəzinin alınması, qəzvələr, səriyyələr, Bədrdə Məkkə müşrikləri üzərində parlaq qələbə, Uhud savaşında bir qrup döyüşçünün Peyğəmbərin tövsiyəsnə biganə yanaşdıqlarına görə müsəlmanların nisbi məğlubiyyəti, Hz. Əli və Həmzənin döyüşdə şücaətləri, Həmzənin şəhid olması, Peyğəmbərin yaralanması, dişinin sındırılması, Xəndək savaşı, Hüdeybiyyə sülhü və sonra da Məkkənin fəthi, Xeybərin, Fədəkin alınması, Peyğəmbərin Vida həcci, onun Qədir-Xumda son xütbəsi – Quran və Əhli-beyti qorumaq tövsiyəsi, Hz. Əlini ondan sonra özlərinə imam seçməyi müsəlmanlara tapşırmaq üçün məşhur vəsiyyəti, Peyğəmbərin vəfatı, onun vəsiyyətlərinə biganəlik və s. və il axır.

5. Peyğəmbərin vəfatından sonra onun vəsiyyətlərini yerinə yetirməyib Əbubəkrin, Ömərin və Osmanın xəlifə təyin edilməsi, Müaviyə ibn Əbu Süfyanın özbaşınalığı ilə bunun davam etdiril-

məsi, onun Hz. Əlinin xəlifəlikdən sıxışdırmasına cəhdi, İmam Əlinin xaricilər (xəvaric) tərəfindən qətli, Müaviyə tərəfindən İmam Həsənin zəhərləndirilməsi. Müaviyənin oğlu Yezidin əmri ilə İmam Hüseyn (ə) və qohum-qardaşlarının Kərbəla çölündə İbn Ziyad, Ömər ibn Səd və Şümr tərəfindən Məhərrəm ayının 10-da - Aşura günü vəhşicəsinə qətlə yetirilib cəsədləri üstündə at çapmaları, İmam və köməkçilərinin başlarının kəsilərək nizələrə taxılıb Şama – Yezidin hüzuruna aparılması sonradan dünyanı lərzəyə gətirdi.

Aşura vaqeyəsindən sonra Bəni-Ümeyyənin əleyhinə açıq şəkildə baş verən qiyamlar bu hadisənin nəticələrindən biri idi. Ona görə ki, bu qiyamların rəhbərləri Aşura hadisəsindən ilham alır, özlərini İmamın ardıcılları və fədailəri kimi tanıtdırırdılar.

6. İslamın ilk dövrlərində şəhadət hissi ilə yaşayan müsəlmanlar Bəni-Ümeyyənin hakimiyyətə gəlməsi ilə bu müqəddəs hissləri günbəgün unutmağa başladılar. Hətta iş o yerə çatdı ki, insanlar sakit yaşayışlarının pozulmaması üçün hər bir zülmün və zalımın qarşısında müt”i olmağa razı idilər. Bu vəziyyət Müaviyənin hakimiyyətinin axırlarında son həddinə çatmışdı. Həmişə dindar kimi tanınan kişilər, habelə qəbilə şeyxləri Müaviyənin qorxusu və təhriki ilə dünyapərəst olmuş, öz vicdanlarını mal və sərvətə satmışdılar.

7. İmam Hüseynin zalım hökumətə qarşı üsyan etməsi bu acınacaqlı vəziyyətin dəyişməsinə səbəb oldu. İmam öz üsyanı ilə müsəlmanlara xatırlatdı ki, islamda dünyanı qazanmaq müqabilində vicdanın satılmasına icazə verilmir. İslam dinində zülmə qarşı döyüşüb ölmək-şəhid olmaq mənəvi zirvəyə yetişmək, zülmü qəbul edib yaşamaq isə alçaqlıq və zəlillikdir.

İmam Hüseynin (ə) mübarək şəhadəti müsəlmanlar arasında şəhadət ruhiyyəsini yenidən dirçəltdi. Aşura hadisəsi bütün azadlıqsevər insanlara mükəmməl bir örnək dərsi oldu. Aşuradan əvvəl

iyirmi il ərzində istibdadın qarşısındakı sakitlik, sonra isə ardıcıl üsyanların tüğyan etməsi deyilənlərə sübutdur.

Doğrudan da Kərbəla faciəsindən sonra müsəlmanların vicdanlarının oyanması, Məhəmməd peyğəmbərin gətirdiyi islamın və şəhadət kimi mənəvi dəyərlərin yenidən dirçəlməsi bu üsyanların olmasına ən böyük dəlildir.

Abdullah ibn Əfif mömin və mücahid bir şəxs idi. O, Əhlibeytə olan zülm və sitəmlərə dözə bilməyib İbn Ziyada qarşı qiyama qalxdı. O, qorxmaz və cəsur olduğu üçün İbn Ziyadla sərt danışır və bunu insanların gözü qabağında edirdi. Onun şücaəti böyük bir qrupun ürəyindən qorxu hissini götürüb, onları İbn Ziyada qarşı üsyan etməyə cürətləndirdi. Nəhayət bu qəhrəman şəxsin rəhbərliyi altında xalqın bir qismi Yezid və İbn Ziyadın hakimiyyətinə qarşı ayağa qalxdılar.

Kərbəla qəhrəmanı Xanım Zeynəb qardaşı oğlu İmam Zeynulabidinlə birgə bu hadisənin təbliğatçıları oldular. Bütün müsəlmanların qeyrətini cuşa gətirən bu iki şəxs Mədinə camaatının da ayağa qalxmasına səbəb oldu. İş o yerə çatdı ki, Ömər ibn Səd şəhər camaatının hakimiyyətə qarşı çıxışını xəlifə Yezidə yazdı və Yezid Xanım Zeynəbi xalqdan uzaq saxlamağı Ömər İbn Sədə əmr etdi.

Təvvabinlər (tövbə edənlər) İmam Hüseynin (ə) qiyamı zamanı ona kömək etmədilər, lakin sonradan peşman olaraq, bir yerə cəmləşib, Yezidin əleyhinə qiyama hazırlaşmağa başladılar. Peşmançılıq hissi və vicdan əzabına dözə bilməyən bu dəstə günahlarının bağışlanmasını İmamın qatillərini öldürməkdə və bu yolda cihad etməkdə görürdülər. Dəstəyə rəhbərlik edən Süleyman ibn Surəd Xüzai Aşura hadisəsindən sonra xalqı Bəni-Ümeyyənin əleyhinə qaldırmağa başladı. Bu iş Yezidin ölümünədək davam etdi. Onlar h. 65-ci ildə İmam Hüseynin qəbrini ziyarətə gedib, ziyarətdən sonra Şam şəhərinə tərəf hərəkət edirlər, çünki İmam

Hüseynin qətlini Şamda yerləşən hökumət üzvlərində görürdülər. Yolun yarısında Əməvilərin qoşunu ilə üzləşən təvvabinlər gərgin vuruşda şəhid olsalar da, Əməvilərin hakimiyyət sütunlarının zəifləməsində onların qiyamının çox böyük rolu oldu.

Təvvabinlərdən sonra İmam Hüseynin intiqamını Muxtar Səqəfi almağı öhdəsinə götürdü. O, 24 min üsyançı toplayaraq, Hz. Əlinin oğlu Məhəmməd Hənəfiyyədən qiyam üçün göstəriş aldığını deməklə xalqın etimadını daha çox qazandı. O, bir gündə Kərbəla qatillərindən 280 nəfəri məhv etdi. Onlardan bir çoxununun evini dağıdıb, viran etdi, İmamın ən qəddar qatili Şümr Zil Cövşən, İbn Ziyad və Ömər ibn Sədi Cəhənnəmə vasil etdi.

Aşura hadisəsindən sonra Əməviləri ən çox sarsıdan Abbasilərin qiyamı oldu və onlar h. 132-ci ildə Əməviləri devirib, hakimiyyəti ələ aldılar. Onlara bu işdə kömək Əməvilərin İmam Hüseynə (ə) etdikləri zülmü xalqa xatırlatmaq oldu. Müəlliflər yazırlar: “Əməvilərin axırıncı hakimi Mərvanın kəsilmiş başını Abbasilərin ilk xəlifəsi Əbu-l-Abbasın yanına gətirdilər. O, şükür səcdəsi etdi və səcdədən qalxıb Mərvanın kəsilmiş başına müraciət edərək dedi: “Allaha şükür olsun ki, Rəbbim səndən və qəbiləndən intiqamımı aldı. Artıq mənim üçün nə vaxt öləcəyim mühüm deyil, çünki Bəni-Ümeyyədən iki min öldürməklə İmam Hüseynin qanını aldım.”

Erkən müsəlman icmasının təşəkkülü, onun əqidəvi və inzibati əsaslarının qoyulmasında Peyğəmbərin Yəsribə hicrətindən sonrakı dövr həlledici rol oynamışdır. Mütəxəssislərin fikrincə, Quran ayələrinin əksəriyyəti, müsəlman icmasının təşəkkülü və burada daxili sosial-siyasi məsələlərin tənzim edilməsi ilə əlaqədar olan ayələr Peyğəmbərə (s) məhz bu dövrdə nazil olmuşdur. İslamın yayılmasının bu mərhələsində Qüreyş müşriklərinin təqiblərinə davam gətirə bilməyən müsəlmanların kiçik bir dəstəsi Yəsribə hicrət etmiş, buradakı ənsarlarla-Peyğəmbərin tərəfdarları, kömək-

çiləri ilə anlaşmağa nail olaraq, qısa bir zaman kəsiyində “şəhər-dövlət” tipli müsəlman icması formalaşdıra bilmiş, bölgədə və ondan kənarda güclü bir qüvvəyə çevrilə bilmişdi.

## İstifadə edilmiş ədəbiyyat


1. Akad. Vasim Məmmədəliyev. Hacı Fuad Nurullahın "Azərbaycanda islam və onun etiqad əsasları" kitabına ön söz. Bakı, 2013
2. Akad. Vasim Məmmədəliyev. Cəfər Sübhaninin "Həzrət Muhamməd" kitabına ön söz. Bakı, 2014
3. Akad. Vasim Məmmədəliyev. "Azərbaycan və Əhli-beyt irsi" məqalələr toplusu. Bakı, 2013
4. Akad. Ziya Bünyadov. Dinlər, təriqətlər, məzhəblər. Bakı, 1997
5. Akad. Ziya Bünyadov. Azərbaycan VII-IX əsrlərdə. Bakı, 2004
6. Arib ibn Səad al-Katib al-Kortobi. Tabari continiatus, ed. M.J. de Geoje, Lugduni Batavorum, 1871
7. Aslan Həbibov. Əli və Nino romanında Əhli-beyt. Azərbaycan və Əhli-beyt irsi. Bakı, 2013
8. Aslan Həbibov. İslam həmrəyliyi: dünəndən bu günə. İslam həmrəyliyi və Azərbaycan: reallıqlar və perspektivlər. Bakı, 2018
9. Aslan Həbibov. Vəhdət naminə. Məzhəblərarası dialoq. Bakı, 2014
10. Ayətullah Seyyid Məhəmməd Hüseyn Fəzlullah. Əhli-beytin həyat tərzi. Həzrət Muhamməd. Bakı, 2007

11. Azadə Bəxtiyar qızı Bağırova. Dünyəvi demokratik Türkiyədə hicab problemi (sosial – ideoloji aspektdə). Fəl. üzrə fəl. dok. üçün nəşr olunmamış dissertasiya. Bakı – 2019
12. Azərbaycan tarixi. Bakı, 1993 (Z.M.Bünyadov və N.M. Vəlixanlının materialları əsasında)
13. Beyhəqi, Əbubəkr Əhməd ibn əl-Huseyn. Dəlailu-n-nubuvvə va mərifətu əhval sahibi- ş- şəria. Dəru-l – kutubi-l- ilmiyyə - Dəru-r-Rəyyan li-t-turas
14. Beyhəqi, Əbubəkr Əhməd ibn əl- Huseyn. Sunən Beyhəqi (Sunən kubra), Beyrut, Dəru-l-fikr
15. Bəkir Buraq. Elm və qəhrəmanlıq timsalı Həzrəti Əli. Tərcüməçi Tağı Tağıyev, Xəzər nəşr. Bakı, 2009
16. Birışık A. Hind Altkıtası Düşünce ve Tefsir ekolleri. İstanbul: İnsan Yayınları, 2012
17. Cabir İskəndərli. Bütpərəst ərəblər cahiliyyə və təkallahlılıq dövründə (pus dilində). Средневековый Восток. Проблемы и историографии и источниковедения, Баку – Элм - 2015
18. Cəfər Sübhani. Həzrət Muhammməd. Bakı, 2014
19. Cərrar Hüsni Ədhəm. Allah naminə qardaşlıq və sevgi (Tərc.Elvüsal Məmmədov), "İdrak" İctimai Birliyi, Bakı, 2017
20. Dürdanə Cəfərli. Müasir islamşünaslıqda "həqiqi islam" konsepsiyası. Dinşünaslıq üzrə fəlsəfə doktorluğu almaq üçün nəşr olunmamış dissertasiya. Bakı, 2019
21. Elvüsal Məmmədov. İslam həmrəyliyi: dünəndən bu günə. İslam həmrəyliyi və Azərbaycan: reallıqlar və perspektivlər. İslam həmrəyliyinin dini-ideoloji əsasları. Bakı, 2018

22. Əbdüləziz əd-Duri. Əl-əsru-l-Abbasiyyu-l-avvalu. Bağdad, 1945
23. Əbdülhəmid əbu Süleyman. Ağıl və möcüzə baxımından Hz.Məhəmmədin peyğəmbərliyinin həqiqiliyinə inam. Bakı, 2017 (Elvüsal Məmmədovun tərcüməsi)
24. Əbdülhəmid əbu Süleyman. İslam iqtisadiyyatı nəzəriyyəsi (tövhid və qardaşlıq iqtisadiyyatı: fəlsəfə, müasir kontekstdə məfhumlar və təkliflər (Ərəb dilindən tərcümə edən Elvüsal Məmmədov). Bakı, 2017
25. Əbu Ubeyd, əl-Qasim bin Sələm. Əl- Əmval, Əl-Qahira, 1353
26. Əbu Yusuf. Kitəbu-l-xərac. Əl-Qahira, 1302
27. Əhməd bin Ali Ət-Tirmizi. Səhih Ət-Tirmizi. Bulaq, 1290 h.
28. Əhməd bin Hənbəl. Əl-Musnəd. Misir, 1313
29. Əl-İstəxri. Kitəbu-l-məsəlik va-l-məməlik. I c. Leydən, 1870
30. Əl-Maqrizi. Əl-Mavaız va-l-itibər bizikri-l-xıtat va-l-əsər, 4 cild. Qahirə, 1326
31. Əl- Yəqubi. Kitəbu-l-buldən, V c. Leydən, 1897
32. Əl-Bəlazuri Əhməd bin Yəhya. Ənsabu- l-əşraf. Beyrut, 1978
33. Əl-Bəlazuri. Futuhu- l-buldən. Leydən, 1876, Misir, 1932
34. Əl-Buxari, Muhamməd ibn İsmail. Sahihu-l-Buxari. Beyrut, 1984
35. Əl-Hafiz Süleyman Əl-Quduzi (Əl-Hənəfi). Yənəbiu-l-məvaddə. Ən-Nəcəf Əl- Əşrəf, 1384
36. Əl-Hakim ən-Nişaburi. Əl-Müstədrik alə-s-sahihin. Heydərabad, Mətbəə Osmaniyyə
37. Əli ibn Əbu Talib. Nəhcü-l-bəlağə, II c. Beyrut, 1889

38. Əl-İmamə va-s-siyasə liibni Quteybə. Mətbətu-l-futuhi-l-ədəbiyyə, 1331
39. Əl-Qəlqəşəndi. Subhu-l-işa fi snaəti-l-inşa. Əl-Qahira, 1919 – 1922
40. Əl-Qurtubi, Arib bin Səid. Sılətu-t-Tabəri. Leydən, 1897
41. Əllamə Məclisi. Biharu-l-ənvar. Beyrut, 1983
42. Əllamə əl-Huveyzi. Təfsiru nuri-s-səqəleyn, c. I, 1412
43. Əllamə Əli ibn İsa əl-İrbili. Kəşfu-l-qummə. Dəru-l-əzva. Beyrut, 1983
44. Məhəmməd əl-Qəzali. Peyğəmbərin həyatı, I cild. Elvüsal Məmmədovun ərəb dilindən tərcüməsində. Bakı, 2015
45. Əl-Məvardi. Əl-Əhkəmu-l-sultaniyyə. Əl-Qahira, 1909
46. Əl-Müqəddəisi Əl-Bəşari. Əhsənu-t-təqasim limərifəti-l-əqalim, III c. Leydən, 1877
47. Əl-Müqəddəsi. Əl-bəd'u va-t-tərix. Paris, 1899
48. Əl-Vaqidi ən-Nişapuri. Əsbəbu-n-nuzul. Misir, 468 h.
49. Əl-Yəqubi. Ət-Tərix. Ən- Nəcəf, 1936
50. Əs-Suyuti. Əd-Durru-l-mənsur fi-t-təfsiri bi-l-məsur. Misir, 1314 h.
51. Ət-Tabəri. Bəbək Xurram din. Dunyə, 1339
52. Ət-Tabəri. Təfəsiru-t-Tabəri-l-kəbiru (Cəmiu-l-bəyən fi təf-siri-l-Quran). Misir, 1321 h.
53. Fərrux Əhmədov. Gəncənin tarixi yaddaşı. Bakı, 1998
54. Fusul min tərixi-l-Bəb va Şirvan bii"tinəi Minorski
55. Hacı Fuad Nurullah. Azərbaycanda islam və onun etiqad əsasları. Bakı, 2013
56. Hacı Fuad Nurullah. İmam Hüseyn (ə)...şəhidlik məktəbinin ustadı. Bakı, 2014

57. Hacı Fuad Nurullah. İmam Əli (ə)...insanlıq məktəbinin ustadı. Bakı, 2015
58. Hacı Fuad Nurullah. Fatimeyi-Zəhra (ə)...həya və ismət məktəbi. Bakı, 2016
59. Hacı Fuad Nurullah. İmam Nəsən (ə)...sülh və həmrəylik simvolu. Bakı, 2017
60. Hafiz Süleyman Qunduzi əl-Hənəfi.Yənəbiu-l-məvaddə, Misir, 1384; Həməvini. Fəraidu -s-simteyn. İran, Mahmudi nəşri, c.2;
61. Haydar Baş. İmam Əli. Bakı, Təknur, 2013
62. Hicaz Albümü: Fotoğraflarla Kutsal Topraklar, Diyanet işleri Başkanlığı, 2010
63. Hidayət Orucov. Azərbaycanda din. B, 2012
64. Xalid Məhəmməd Xalid....Və Əbubəkr gəldi. Tərcüməçi Elvüsal Məmmədov. Bakı, 2013
65. Xalid Məhəmməd Xalid. Ömərin hüzurunda. Tərcüməçi Elvüsal Məmmədov. Bakı, 2013
66. İbn əl-Əsir Əli bin Əbu-l-Kəram. Əl-Kəmil fi-t-tərix. Beyrut, Dər Sadir, 1966
67. İbn Hauqal. Suratu-l-ard, II c. Leydən, 1939
68. İbn Kəsir İsmail bin Ömər. Təfsiru-l-Qurani-l- azim. Beyrut, Dəru-l-kutub əl-ilmiyyə, 1419
69. İbn Miskəveyh. Təcəribu-l-umər. Oksford, 1920-1921
70. İbn Tagriberdi. Əl-fəxri fi-l-əədəəbi-s-Sultaniyyə. 1894
71. İbn Abdulbirr Yusuf. Əl-İstiab. Beyrut, 1412
72. İbn Əbi-l- Hadid. Nəhcu-l-bəlağənin şərhi, IV c. Misir
73. İbn əl-Əsir. Əl-Kəmil fi-t-tərix. Dəru-l-Kutubi-l-İlmiyyə, 12 cild, Beyrut-Livan,1998, Qahirə, 1303

74. İbn əl-Qəyyum əl-Cövziyyə. Ət-Turuqu-l-hakimiyyətu, 1989
75. İbn Həccac Ən-Nisəburi. Səhih Muslim. Bulaq, 1290 h.
76. İbn Həzm Əbu Muhamməd Əli. Əl-Fasl fi-l-miləl va-l-əhva va-n-nəhl. Əl-Qahira, Məktəbu-l-Xənci, 2010, c. I.
77. İbn Hişam. Məhəmməd peyğəmbərin (s) həyatı. Elmira Qafarovanın tərcüməsində, Bakı, 2015, I – IV cildlər.
78. İbn Xallikan. Vafəyətu-l-ə”yan. Əl-Qahira, 1310.
79. İbn Xəldun. Muqaddimə - Kitəbu-l-ibər va divani-l-mubtəda va-l-xəbər. Bulaq, 1387
80. İbn Xordadbeh. Kitəbu-l-məsəlik va-l-məməlik. BGA,VI, 1889
81. İbn Kəsir. Əl-Bidəyə va-n-nihəyə. Beyrut, Dər əhyai-t-turasi-l-arabi, 1408
82. İbn Kəsir. Təfsir ibn Kəsir. Dəru-l- fikr, Beyrut-Livan, 1999, I c.
83. İbn Qəyyum əl-Cövziyyə. Zədu- l-məad fi huda xeyri- l-ibad. c. 2, Əl-Qahira, 1950
84. İbni Hişam. İslam tarihi, Sireti İbni Hişam.Tərc.Hasan Ege, Kahraman Yayınları, İstanbul, 2001
85. İbrahim Quliyev. Hədisi-şəriflərdə müqəddəs şəhərlərin tarixi. Bakı, 2012
86. İslam. Ensiklopedik lüğət. Bakı-Elm – 2013, pus dilindən tərcümə, tənqidi şərhlər və əlavələr akademik G.B Baxşəliyeva və Ə.Abbasovundur
87. Kutluay. Siyeru Sahabe. Kilim Matbaasi, İstanbul, 2005
88. Kürd Əli. Əl-idəra əl-ismailiyyə fi izzi-l-arab. Qahirə, 1934
89. Mahmud Mustafa. Əl-ədəbu-l-arabi va tərixuhu (fi asrey sadri-l-isləm va-d-dauləti-l-əməvıyyəti. I c. Əl-Qahira, 1937

90. Muhammәd Әbu Zәhra. Xatәmu-n-nәbiyyin. Әl- Qahira, Dәru-l-fikri -l-arabi, 2012, c. 2.
91. Mәhәmmәd Füzuli. Kәrbәla vaqiәsi. Bakı, 1997
92. Mәhәmmәd Qәzali. Peyğәmbәrin hәyatı, I cild, (Tәrcümә Elvüsal Mәmmәdovundur). Bakı, 2015
93. Muhammәd Rasulullah. Muәssәsәtu-l-bәlәğ. 1992
94. Muhammәd Said Ramazan Buti. Fiqhu-s-sirә. Dәru-l-fikr,Beyrut, 1994
95. Movses Kaqankatvatsi. Aqvan tarixi. Ermәni dilindәn rus vә ingilis dillәrinә tәrcümәsi. SPb., 1861, London, 1961
96. Muhammed Hamidullah. İslam Peyğamberi. Tәrc. Salih Tug, V baskı, İrfan yapımçılık vә ticaret, İstanbul, 1993, c. I.
97. Muhammәd bin Sәad. Әt- Tәbәqatu-l-kubra. Beyrut, 1957
98. Muhammәd Sәid Ramadan әl-Buti. Fiqhu- s-sirә. Dәmәşq, 1068
99. Mustafa İslamoğlu. İmamlar vә sultanlar, Denge Yayınları, 2013
100. Mustafa Necati Bursalı. Cennetle müjdelenen on sehabi. Çile yayınları, İstanbul, 1976
101. Mustafa Necati Bursalı. Allahın Arslanı, Evliyalar Sultanı Hz.Ali. Çile yayınları, İstanbul, 1975
102. Nailә Vәlıxanlı. Әrәb xilafәti vә Azәrbaycan. Bakı, 1993
103. Natiq Rәhimov. Azәrbaycan hәdislәrdә. "Azәrbaycan vә әhli-Beyt irsi" mәqalәlәr toplusu. Bakı, 2013
104. Nәrgiz Әliyeva. Orta әsrlәrdә Azәrbaycan alimlәrinin elmi әlaqәlәri vә tәdris fәaliyyәti. Bakı, 2015
105. Nizamulmülk. Siyasәtnamә. Bakı, 1987

106. Nurlan Məmmədzadə. Həzrət Peyğəmbər və əhli-Kitab. Bakı İslam Universiteti. Elmi məcmuə, nömrə 12, 2017
107. Ramiz Mürsəlov. Mədinəyə hicrət və erkən müsəlman icmasının ideoloji və inzibati əsaslarının qoyulması. Bakı, 2012
108. Rəşid Göyüşov. Qarabağın keçmişinə səyahət. Bakı, 1933
109. Rza Nəhvi. Qaidətu-l-uxuvva fi-l-hivari-l-isləmi. "Kəlimə" jurn. 1996
110. Samir Məmmədov. İmam Əlinin (ə) hərb məktəbi və müsəlman hərb sənəti irsinin tədqiqi və öyrənilməsinin zəruriliyi haqqında. İslam maarifçiliyi və müasir dövr. Bakı, 2015
111. Sarıçam İbrahim. Emevi-Haşimi ilişkileri. Ankara, Türkiye Diyanet Vakfı Yayınları, 1997
112. Hasan Onat. Ortaçağ Tarihi ve Uyqarlığı. Ankara, Nobel Yayın Dağım, 2002
113. Seyyid Cəfər Şəhidi. İslam tarixi və təhlillər. Tərcüməçi Arif Əliyev. Bakı, 2000
114. Seyyid Haşim əl-Bəhrani. Ğayətu-l-məram va huccətu-l-xisam. İran, h. 1341
115. Suriya anonim xronikası. 1234
116. Şahlar Şərifov. İslam tarixi. Bakı, 2017
117. Şeyx Mufid. "Əl-irşad". İntişar ilmiyyə İslamiyyə, 1961
118. 117. Şeyx Səduq. Uyunu Əxbar ər-Rza (ə), 1373.
119. Tabəri Əbu Cəfər Muhamməd. Tərixu-t-Təbəri – Tərixu-l – uməm va- l-muluk, Dəru-l-Kutubi-l-İlmiyyə, Beyrut, 1997
120. 129. Tabəri, Əl-Hafiz Muhamməd bin Cərir. Tərixu-l-uməm va-l-muluk. Qahirə, 1357

121. Usmani Muhammad Taqi. An approash to the Quranic seinces. Karachi, Pakistan, Daru-l - İshaat, 2000, c. VIII
122. Yaqut əl- Haməvı. Mu”gam al-buldan. Jacuts geographischen wörterbuch. V nəşr. F. Wustenfeld, 6. Bde. Leipzig, 1866 – 1873
123. Yaqut əl-Haməvi. Mucəmu- l-buldən. Beyrut, 1950
124. Yasin Ali. “Sulhu-l-Hasən” (13 ed.), İntişar Gülşən, h. 1378
125. Zəki Nəcib Məhfuz. Təcdidu-l-fikri-l-arabi. Beyrut, 1971
126. Адам Мец. Мусульманский ренессанс. Москва, 1966
127. Бартольд В.В. Место прикаспийских областей в истории мусульманского мира. Баку, 1924
128. Бартольд В.В. К истории крестьянских движений в Персии. Сб. Рд—М. 1923
129. Беляев Е.А. Мусульманское сектантство. Москва, 1957
130. Играр Алиев. История Азербайджана. Baку, 2014
131. История халифов вардапета Гевонда. СПб., 1862
132. Картлис Цховреба, т. 1. Тбилиси, 1955
133. Керимов Г.М. Аль-Газали и суфизм. Баку - 1969
134. Крымский А.Е. Страницы из истории Северного или Г.Кавказского Азербайджана (классическая Албания). Кабала. Сб. Л. 1934
135. Куббель Л.Е. О некоторых чертах военной системы халифата Омаййадов (661- 750 гг.). ПС, вып. 4 (67), 1959
136. Кулаковский Ю. История Византии (602 – 707). т. 3, СПб, 1876
137. Манандян Я.А. Народные восстания в Армении против арабского владычества. Ереван, 1939

138. Пахомов Е.А. Краткий курс истории Азербайджана. Баку, 1923
139. Пахомов Е.А. Пехлевийские надписи Дербента. Изв.Об-ва обслед. и изуч. Азербайджана, № 8,вып. 5, Баку, 1929
140. Е.Ю. Гасанова. Об исламской концепции в общественно-политической мысли Турции. В сборнике Актуалъные проблемы современного ислама. Баку, 1990
141. Э.Ю. Гасанова. Социология религии и мусульманского мистицизма – тасаввуфа в Турции XX в. Баку, 2006
142. А.К. Рзаев. Мирза Казем-Бек. Баку,1965
143 А.К.Рзаев. М.Казем-Бек. Избранные произвевения. Баку, 1985

Kompüter tərtibçisi: *Rəna Seyid-Rzayeva*
Bədii tərtibat: *Şəlalə Məmməd*

Formatı 60x84 $^{1}/_{16}$
Həcmi 16 ç.v.
Sifariş: 15
Tirajı 200
Qiyməti müqavilə əsasında

Kitab Rumpel MMC tərəfindən hazır diapozitivlərdən istifadə olunmaqla çap edilmişdir.

Ünvan: Bakı şəh., Azadlıq pr., 139